İLHAM
ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## İYİRMİNCİ KİTAB

## OKTYABR 2006 - NOYABR 2006

AZƏRNƏŞR
BAKI - 2015

# İLHAM ƏLİYEV

ÇIXIŞLAR ✸ NİTQLƏR

BƏYANATLAR ✸ MÜSAHİBƏLƏR

MƏKTUBLAR ✸ MƏRUZƏLƏR

MÜRACİƏTLƏR ✸ FƏRMANLAR

AZƏRNƏŞR
BAKI - 2015

–

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2015, 408 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzuna, iqtisadi potensialın möhkəmlənməsinə, regionların sosial inkişaf proqramının həyata keçirilməsi ilə əlaqədar Quba, Şəki, Lerik, Yardımlı, Gəncə, Daşkəsən, Gədəbəy, Şəmkir rayonlarına səfərləri, bu rayonların sosial, iqtisadi və mədəni cəhətdən inkişafına həsr olunmuş çıxışları, nitqləri və s. öz əksini tapmışdır.

Kitabda prezident İlham Əliyevin Latviyaya, Belarusa, Belçikaya rəsmi səfərləri zamanı bu ölkələrin dövlət və hökumət başçıları ilə danışıqları, ölkələr arasında ikitərəfli əlaqələrin, beynəlxalq əməkdaşlığın daha da möhkəmlənməsi və genişlənməsindən bəhs edən materiallar dərc olunmuş, eyni zamanda Bakıya rəsmi səfərə gəlmiş Rumıniya prezidenti Trayan Besesku və onun başçılıq etdiyi nümayəndə heyəti ilə keçirdiyi görüşlərə, danışıqlara dair materiallar toplanmışdır.

Burada, həmçinin Azərbaycana gəlmiş çoxsaylı xarici nümayəndə heyətləri ilə görüşləri, bəyanatları, Rusiyada akkreditə olunmuş xarici ölkələrin KİV-nin nümayəndələri ilə görüşdə Azərbaycanda gedən iqtisadi inkişaf prosesləri, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, regional məsələlər, ölkəmizin xarici siyasəti və digər məsələlərlə bağlı müsahibələri geniş yer almışdır.

**İSBN 978-9952-8100-7-3**

$$\text{Ə}\,\frac{\mathbf{0801000000}}{\mathbf{M-651(07)-2015}}$$

**BBK - 32**

© Azərnəşr, 2015

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN LATVİYAYA DÖVLƏT SƏFƏRİ

*3 oktyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Latviya Respublikasına üçgünlük rəsmi səfərinə gəlmişdir.*

*Azərbaycanın və Latviyanın dövlət bayraqları ilə bəzədilmiş Riqanın Beynəlxalq Hava limanında Azərbaycan Respublikasının Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlətimizin başçısını Latviyanın Xarici İşlər naziri Artis Pabriks və digər dövlət, hökumət nümayəndələri böyük hörmət və ehtiramla qarşıladılar.*

*Prezident İlham Əliyev hava limanından onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

## «Riqa» qəsrində rəsmi qarşılanma mərasimi

*Oktyabrın 4-də Latviya Respublikası Prezidentinin iqamətgahında – «Riqa» qəsrində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı qəsrin qarşısındakı meydanda Azərbaycan prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Latviya prezidenti xanım Vayra Vike-Freyberqa və həyat yoldaşı İmants Freyberqs Azərbaycan prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı səmimiyyətlə qarşıladılar.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidentinə raport verdi.*

*Azərbaycanın və Latviyanın dövlət himnləri səsləndi.*

*Azərbaycan prezidenti İlham Əliyev və Latviya prezidenti Vayra Vike-Freyberqa fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Dövlətimizin başçısı Latviya əsgərlərini salamladı.*

*Latviyanın dövlət və hökumət nümayəndələri Azərbaycan prezidenti İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri Latviya Prezidenti Vayra Vike-Freyberqaya təqdim olundu.*

*Dövlət başçıları xatirə şəkli çəkdirdilər.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva «Riqa» qəsrinin «Gerblər» salonunda fəxri qonaqlar kitabını imzaladılar.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ LATVİYA RESPUBLİKASININ PREZİDENTİ VAYRA VİKE-FREYBERQANIN TƏKBƏTƏK GÖRÜŞÜ

*Latviya, «Riqa» qəsri*

*4 oktyabr 2006-cı il*

*Oktyabrın 4-də Latviya prezidentinin iqamətgahında – «Riqa» qəsrində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Latviya Respublikasının Prezidenti Vayra Vike-Freyberqanın təkbətək görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. Dövlət başçıları beynəlxalq təşkilatlar çərçivəsində faydalı əməkdaşlıq, Avroatlantik strukturlara inteqrasiya sahəsində qarşılıqlı fəaliyyət məsələlərini müzakirə etdilər və iqtisadi sahədə əlaqələrin genişləndirilməsi üçün böyük potensialın olduğunu bildirdilər.*

*Prezidentlər bir-birinə xatirə hədiyyələri təqdim etdilər.*

### Təkbətək görüşdən sonra Azərbaycan prezidenti İlham Əliyevin və Latviya prezidenti Vayra Vike-Freyberqanın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü

*Latviya prezidenti xanim Vayra Vike-Freyberqa Azərbaycan prezidenti İlham Əliyevi bir daha səmimiyyətlə salamlayaraq, Latviyaya dövlət səfəri etməsindən olduqca məmnun qaldığını söylədi, bu səfərin Azərbaycanla Latviya arasında ikitərəfli münasibətlərin inkişafından xəbər verdiyini bildirdi. Azərbaycana bir il bundan əvvəl etdiyi rəsmi səfərini xatır-*

*ladan Latviya prezidenti yaddaşında onun uğurlu səfər kimi qaldığını xüsusi vurğuladı. Həmin səfərin bəhrəsinin getdikcə daha çox hiss edildiyini bildirən xanım Vayra Vike-Freyberqa üstündən bir il keçdikdən sonra ikitərəfli münasibətlərdə əldə olunan nəticələri müzakirə və təhlil etmək baxımından dövlətimizin başçısının indiki səfərinin böyük əhəmiyyət daşıdığını söylədi.*

*Prezident İlham Əliyev ona və nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə prezident Vayra Vike-Freyberqaya minnətdarlığını bildirdi və dedi ki, Azərbaycan prezidenti kimi, mən ölkələrimiz arasında olan əlaqələrə və onların hərtərəfli inkişafına xüsusi önəm verirəm. Çünki Latviya NATO-nun və Avropa İttifaqının üzvüdür, Avropaya inteqrasiya sahəsində təcrübə əldə edib və Azərbaycan bu təcrübədən faydalana bilər.*

**Sənədlərin imzalanma mərasimi**

*Oktyabrın 4-də «Riqa» qəsrində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Latviya Respublikasının Prezidenti Vayra Vike-Freyberqanın iştirakı ilə rəsmi sənədlərin imzalanma mərasimi olmuşdur.*

*İlk olaraq Azərbaycan prezidenti İlham Əliyev və Latviya prezidenti Vayra Vike-Freyberqa Birgə bəyannamə imzaladılar.*

*Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Latviya Respublikasının Təhsil və Elm Nazirliyi arasında «Təhsil sahəsində əməkdaşlıq haqqında saziş», Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə Latviya Respublikasının Maliyyə Nazirliyi arasında «Maliyyə sahəsində əməkdaşlıq haqqında saziş», Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Latviya Respublikasının Səhiyyə Nazirliyi arasında «Səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında saziş», Azərbaycan Respublikası hökuməti ilə Latviya Respublikası hökuməti arasında «İnformasiya və kommunikasiya texnologiyaları sahə-*

*sində əməkdaşlıq haqqında saziş», Azərbaycan Respublikası hökuməti ilə Latviya Respublikası hökuməti arasında «Hava əlaqələri haqqında saziş», Azərbaycan Respublikası hökuməti ilə Latviya Respublikası hökuməti arasında «Rabitə sahəsində əməkdaşlıq haqqında saziş» imzalandı.*

## SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ BAŞA ÇATDIQDAN SONRA AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ LATVİYA PREZİDENTİ VAYRA VİKE-FREYBERQANIN BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARI, ÇIXIŞLARI VƏ JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*4 oktyabr 2006-cı il*

**Latviya prezidenti Vayra Vike-Freyberqanın bəyanatı**

Möhtərəm cənab Prezident!

Xanımlar və cənablar!

Bu gün Riqada yeni bir tarixi hadisə baş verir. Mən şadam ki, Azərbaycan prezidentinin tarixi əhəmiyyət daşıyan ilk dövlət səfəri çərçivəsində cənab İlham Əliyevi burada salamlayıram. Bu, Latviya prezidentinin ötən il Azərbaycana etdiyi rəsmi səfərinə cavab səfəridir. Ona görə biz ölkələrimiz arasında, həqiqətən, gözəl münasibətlərin olmasını təsdiq edə bilərik. Münasibətlərimizin intensivliyi ildən-ilə artır və hətta deyə bilərəm ki, aydan-aya inkişaf etməkdə davam edir. Azərbaycana səfərimiz zamanı biz geostrateji əhəmiyyətə malik olan dövlətlə əməkdaşlıq haqqında bir sıra mühüm sazişlər imzalamışıq. Bu gün isə daha altı sənəd imzalandı və bir neçəsi də hazırlıq mərhələsindədir. Bu gün artıq biz iki ölkə arasında əməkdaşlıq üçün tam və geniş şəkildə hüquqi bazanın olmasından danışa bilərik. Biz Azərbaycanda sürətli iqtisadi inkişafı, gələcək nəsillər barədə düşünülməsini və müdrik qərarların qəbul edilməsini görməkdən çox məmnunuq. Bu gün həmin ölkənin malik olduğu nəinki təbii sərvətlərdən, həm də bu sərvətlərdən gələn gəlirlərdən sonra-

kı nəsillər üçün istifadə olunmasına kömək edəcək fond yaradılmışdır. Mən ölkələrimiz arasında dostluq əlaqələrinin olmasından çox məmnunam və şadam ki, bu cür qısa müddət ərzində biz həm siyasi, həm iqtisadi sahədə yaxınlaşmağa başladıq. Ticarət dövriyyəmiz iki dəfə artdı və fikrimcə, biz gələcəyə daha böyük nikbinliklə baxa bilərik.

**Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı**

Hörmətli xanım Prezident!

Hörmətli dostlar!

Mənə və nümayəndə heyətinə Latviyada göstərdiyiniz qonaqpərvərliyə görə dərin minnətdarlığımı bildirmək istəyirəm. Bu səfər Latviya–Azərbaycan münasibətlərinin tarixində Azərbaycan prezidentinin Latviyaya ilk səfəridir. Mən çox şadam ki, səfər çox uğurla keçir.

Siz qeyd etdiyiniz kimi, artıq bizim münasibətlərimizi müəyyən edən bir sıra ikitərəfli sənədlər imzalanmışdır. Sənədlərin bir hissəsi Sizin Azərbaycana səfər etdiyiniz vaxt, keçən ilin oktyabr ayında imzalanmışdır. Bu gün isə digər sənədlər imzalandı. Beləliklə, demək olar ki, bütün sahələrdə bizim münasibətlərimizi müəyyən edən hüquqi baza mövcuddur. Biz Latviya ilə münasibətlərə çox böyük önəm veririk, çox istəyirik ki, münasibətlər daha da sürətlə inkişaf etsin. Xanım Prezident, Sizin Azərbaycana keçən il etdiyiniz tarixi səfər bu münasibətlərin yeni mərhələsini açdı. Bugünkü səfər isə bu münasibətləri daha da möhkəmləndirəcəkdir. Mən şübhə etmirəm ki, yaxın gələcəkdə bizim aramızda həm siyasi, həm iqtisadi, həm sosial, həm də bütün başqa sahələrdə münasibətlər daha da yüksək pilləyə qalxacaqdır. Biz bunu çox istəyirik, arzulayırıq. Latviya bizim üçün dost ölkədir.

Sabah Riqada Latviya–Azərbaycan biznes forumu keçiriləcəkdir. Azərbaycandan çox böyük nümayəndə heyəti – iş adamları, biznesmenlər gəlmişdir. Əminəm ki, onların əlaqələri də ikitərəfli iqtisadi əməkdaşlığın inkişafında mühüm rol oynayacaqdır.

Azərbaycanda siyasi, iqtisadi islahatlar uğurla həyata keçirilir. Biz əminik ki, Avropa İttifaqı ilə münasibətlərimiz bundan sonra Azərbaycanda bütün sahələrdə irəliləyişə, tərəqqiyə gətirib çıxaracaqdır. Biz Avropaya inteqrasiya siyasətimizə sadiqik. Avropa İttifaqı ilə Azərbaycan arasında başlanan yeni qonşuluq proqramı bizim qarşımızda yeni imkanlar, yeni üfüqlər açır. Latviyanın Azərbaycanı daim dəstəkləməsi də çox əlamətdar hadisədir. Bu dəstəyə görə mən Sizə bir daha dərin minnətdarlığımı bildirmək istəyirəm. Şübhə etmirəm ki, növbəti beş ildə Avropa İttifaqı ilə Azərbaycan arasında yeni qonşuluq proqramının həyata keçirilməsi nəticəsində bizim münasibətlərimiz daha da möhkəmlənəcəkdir.

Latviyanın uğurları bizi çox sevindirir. Latviya artıq öz doğma Avropa ailəsinə qayıtmışdır. Həm NATO-nun, həm də Avropa İttifaqının üzvüdür. Bu, Latviya üçün tarixi nailiyyətdir və Latviyanın dostları kimi, bizi çox sevindirir. Mən əminəm ki, Azərbaycanın Avroatlantik məkana inteqrasiyası məsələlərində Latviya indiki kimi, daim bizim yanımızda olacaq, öz dəstəyini əsirgəməyəcəkdir.

Mən bir daha demək istəyirəm ki, son müddət ərzində bizim münasibətlərimiz yeni mərhələyə qalxmışdır. Müstəqillik bərpa olunandan sonra ilk illərdə bizim aramızda o qədər də intensiv dialoq aparılmırdı. Amma keçən il xanım prezidentin səfərindən sonra bu münasibətlər çox intensiv xarakter almışdır. Qısa müddət ərzində Azərbaycanın Latviyadakı səfirliyi işə başladı. Artıq birbaşa təyyarə reysləri açılmışdır və bütün başqa sahələrdə münasibətlər uğurla inkişaf edəcəkdir.

Bizə göstərdiyiniz səmimi münasibətə, qonaqpərvərliyə görə, Azərbaycana verdiyiniz dəstəyə görə, o cümlədən beynəlxalq təşkilatlarda Latviyanın Azərbaycanı dəstəkləməsinə görə öz adımdan və nümayəndə heyəti adından bir daha dərin minnətdarlığımı bildirmək istəyirəm. Əmin olduğumu bildirirəm ki, bizim aramızdakı münasibətlər gələcəkdə getdikcə inkişaf edəcək və iki xalqın maraqlarına cavab verəcəkdir.

Bir daha Sizə təşəkkür edirəm.

**S u a l: Mənim sualım Latviya prezidentinədir. Məlum olduğu kimi, Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi və Dağlıq Qarabağda separatçı rejimin qurulması nəticəsində regionda sabitlik pozulub və Azərbaycanın Avropa strukturlarına inteqrasiyası baxımından ciddi problemlər yaranıbdır. Avropa ailəsinin bir üzvü kimi, Latviyanın bu münaqişənin həlli ilə bağlı mövqeyi nədən ibarətdir?**

**V a y r a V i k e - F r e y b e r q a:** Latviyanın mövqeyi aydındır və Avropa İttifaqının ümumi mövqeyinə, o cümlədən Birləşmiş Millətlər Təşkilatının qəbul etdiyi bir sıra qətnamələrə uyğundur. Mən Azərbaycanın tərəfdaşlıq planı barədə Avropa İttifaqı ilə razılığa gəlməsi münasibətilə sizi təbrik etmək istəyirəm. Həmin planda bir neçə çox vacib fundamental xarakterli prinsiplər öz əksini tapıbdır. Sənədin preambulasında Avropa İttifaqı hörmət etdiyi və dəstəklədiyi ərazi bütövlüyü prinsipi bir daha vurğulanır. Hesab edirəm ki, bu, Azərbaycan üçün çox vacibdir.

Eyni zamanda, həmin sənəddə Birləşmiş Millətlər Təşkilatının və ATƏT-in qəbul etdiyi qətnamələrə də istinad olunur. Latviya həmin ümumi mövqeyi tam dəstəkləyir. Biz hesab edirik ki, münaqişənin yenidən başlanması imkanlarını azaltmaq üçün digər ölkələr bu problemə davamlı diqqət yetirməlidir. Biz dövlətlərin suverenliyi üçün tətbiq edilən öz milli ərazisinin bütövlüyünün qorunması, həmin dövlətlərdə yaşayan çoxsaylı milli azlıqlara yüksək səviyyəli muxtariyyətin təmin edilməsi üzərində düşünməliyik.

Hesab edirəm ki, bu cür yanaşma həmin məsələdə tətbiq edilə bilər. Bu cür yanaşmadan dünyanın bir sıra digər yerlərində istifadə olunmuşdur. Əminəm ki, hər iki tərəfin siyasi iradəsi əsasında və ikitərəfli dialoqun intensiv qaydada davam etdirilməsini nəzərə alaraq və eyni zamanda, Avropa İttifaqı kimi təşkilatın dialoqda bir vasitəçi və tərəfdaş kimi səylərindən istifadə edərək, bu məsələyə eyni prinsiplə yanaşmaq olar. Təbii ki, Avropa İttifaqının bir üzvü kimi, Latviya İttifaqın tutduğu mövqeyi tam və qəti şəkildə dəstəkləyir.

**S u a l: Sualım hər iki prezidentədir. Siz Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasındakı səsvermə prosesini müzakirə etdinizmi? Sizin rəyiniz necədir?**

**V a y r a  V i k e - F r e y b e r q a:** Biz bu məsələni müzakirə etmədik, lakin mən namizədliyimi dəstəklədiyinə görə Azərbaycana və təbii ki, BMT-nin Təhlükəsizlik Şurasına, onun beş daimi üzvünə minnətdaram. Bu məsələdə xüsusi imtiyazlar var və hesab edirəm ki, səsvermə kifayət dərəcədə aydın xarakter almışdı. Bizim əlavə bir neçə günümüz var və gəlin yeni Baş katibin seçilməsinin rəsmi təsdiqlənməsini gözləyək.

**İ l h a m  Ə l i y e v:** Xanım prezident qeyd etdiyi kimi, Azərbaycan Latviya prezidentinin namizədliyini dəstəkləyir və bu məsələni biz fikir mübadiləsi zamanı müzakirə etdik. Bu həmçinin rəsmi sənədlərdə öz əksini tapıbdır. Prinsip etibarilə hesab edirik ki, Birləşmiş Millətlər Təşkilatındakı islahatlar həmin təşkilatın gələcək inkişafı üçün çox vacibdir. Bu xüsusən də, qəbul olunmuş qətnamələrin və qərarların həyata keçirilməsinə aiddir. Bəzi hallarda qəbul edilmiş qərar və qətnamələr həyata keçirilmir. Bizim misalımızda BMT Təhlükəsizlik Şurasının Azərbaycanın zəbt olunmuş ərazilərindən işğalçı qoşunların çıxarılmasını tələb edən dörd qətnaməsindən söhbət gedir. Bu tələbə baxmayaraq, on ildən artıqdır ki, həmin qətnamələr yerinə yetirilməyibdir. Ona görə də vacibdir ki, BMT-də qətnamələrin icrası ilə bağlı mexanizmlər, eləcə də qətnamələri və beynəlxalq hüququn əsas normalarını pozan dövlətlərə qarşı sanksiyaların tətbiq edilməsi alətləri mövcud olsun.

Biz xanım prezident ilə Ermənistan–Azərbaycan danışıqlarının hazırkı durumunu müzakirə etdik və mən xanım prezidentə aparılan müzakirələr və Azərbaycanın mövqeyi haqqında məlumat verdim. Biz Azərbaycanın mövqeyini dəstəklədiyinə və onu qəbul etdiyinə görə Latviyaya çox minnətdarıq. Dünyadakı bütün münaqişələr kiminsə arzu və ya istəklərinə görə yox, yalnız hamılıqla tanınmış beynəlxalq hüquq norma və prinsiplərinə əsasən öz həllini tapmalıdır. Həmin

beynəlxalq hüquq normaları Ermənistandan tələb edir ki, işğal etdiyi ərazilərdən dərhal çıxsın, etnik təmizləmə siyasətinə son qoyulsun və bir milyon qaçqın və məcburi köçkünün öz doğma yurdlarına qayıtması mümkün olsun.

Ümidvaram ki, biz beynəlxalq ictimaiyyətin, o cümlədən artıq bu prosesin bir hissəsi olan və qonşuluq siyasətinə başlamış Avropa İttifaqının birgə səyləri nəticəsində Cənubi Qafqazda uzunmüddətli və sarsılmaz sülhə nail olacağıq.

**S u a l: Mənim sualım hər iki prezidentədir. Latviya ilə Azərbaycan arasında bir sıra mühüm sənədlər imzalanmışdır. İqtisadi layihələrin həyata keçirilməsi üçün hansı konkret perspektivləri görürsünüz?**

**V a y r a V i k e - F r e y b e r q a:** Biz iki ölkənin ümumi maraqlarına aid olan bir çox məsələləri müzakirə etdik. Təbii ki, burada ilk növbədə, Azərbaycanın Avropa İttifaqı üçün enerji daşıyıcılarının alternativ təchizatçı kimi çox mühüm rolu nəzərdə tutulur. Biz neftin və qazın nəqlinin yeni, şaxələnmiş marşrutlarını yüksək dərəcədə alqışlayırıq. Azərbaycan qazının Avropaya çatdırılması məqsədi ilə onun Yunanıstan ərazisindən keçməsi bizim üçün vacibdir. Biz öz enerji mənbələrimizi şaxələndirməliyik. Hesab edirik ki, təchizatçılar və istehlakçılar arasında münasibətlərin bazar iqtisadiyyatı və azad rəqabət əsasında tarazlı şəkildə olması da vacibdir. Yalnız bir təchizatçının olması qeyri-tarazlı vəziyyət yaradır və təzyiq aləti kimi istifadə edilir. Bu arzuolunmazdır.

Digər nailiyyətlər də var. Ölkələrimizi bir-birinə bağlayan birbaşa hava uçuşları mövcuddur.

Çox qısa müddət ərzində ticarət dövriyyəsinin iki dəfə artması faktı xüsusi qeyd olunmalıdır, bu, malik olduğumuz potensialı nümayiş etdirir. Nəhayət, Azərbaycanın nəzərdə tutduğu layihələrin genişləndirilməsi və Baltikyanı ölkələrin də eyni imkanlarının olması ölkələrimiz arasında yerüstü nəqliyyat və hava nəqliyyatı vasitəsilə əlaqələrin artmasına xidmət edəcəkdir. Riqa logistika, maliyyə və nəqliyyat mərkəzi kimi, Bakıya bənzərdir, çünki sizin də paytaxt şəhəriniz

öz regionunda eyni rolu oynayır. Hər iki ölkə informasiya texnologiyaları sahəsində tədqiqat işlərinə başlamışdır. Təhsil sahəsində çalışırıq ki, cəmiyyətimizin hər bir üzvünə internet çıxışı təmin edilsin. Bütün bu məqsədlər eynidir. Bu gün apardığımız müzakirələrdə və nazirlərimizin davam etdirəcəyi danışıqlarda biz həyata keçirilə biləcək və hər iki ölkə üçün qarşılıqlı surətdə faydalı olacaq xüsusi və konkret əməkdaşlıq layihələrinə diqqət yetirəcəyik.

**İlham Əliyev:** Biz iqtisadi əməkdaşlığın perspektivlərini müzakirə etdik və ikitərəfli iqtisadi əlaqələrin çox yaxşı gələcəyinə dair yekdil fikirdəyik. Ümid edirik ki, bu sahədə hökumətlərarası komissiyanın birgə fəaliyyəti çox faydalı olacaqdır. Komissiya iki tərəfin işgüzar dairələrinin bir-birini daha yaxşı tanımasına, ümumi təmasların qurulmasına və birgə iqtisadi fəaliyyətin aparılması üçün müxtəlif imkanların araşdırılmasına yardım edəcəkdir.

Latviya və Azərbaycan çox sürətlə inkişaf edən ölkələrdir. Ölkəmizdə ÜDM-in artımı Avropada və ümumiyyətlə, dünyada ən yüksək göstəricilərdən biridir. Bu onu göstərir ki, ölkələrimizdə iqtisadi islahatlar siyasəti çox uğurludur və eyni zamanda, birgə biznesin aparılması üçün yeni imkanlar açır. Azərbaycanda çox yaxşı sərmayə mühiti var və müxtəlif sahələrdə sərmayədar, podratçı və tərəfdaş kimi, bizim ölkədə işləmək arzusunda olan Latviya şirkətlərini salamlayırıq.

Eyni zamanda, enerji inkişafı sahəsində Azərbaycan son illər ərzində böyük irəliləyiş əldə etmişdir və bu gün Avropanın enerji təhlükəsizliyi baxımından vacib ölkəyə çevrilir. Uzun illər ərzində biz Avropa və beynəlxalq ictimaiyyətin çox etibarlı tərəfdaşı olmuşuq və hazırda, istifadə edilən bütün enerji infrastrukturunu nəzərə alaraq, Azərbaycan ikitərəfli münasibətlərdə daha fəal olmağa çalışır.

Azərbaycandan Latviyaya gəlmiş iş adamlarından ibarət geniş nümayəndə heyəti və onun biznes forumda iştirakı ikitərəfli iqtisadi əlaqələrə verdiyimiz böyük diqqətin və Azərbaycanın özəl sektorunun işbirliyi qurulmasında maraqlı olmasının göstəricisidir.

Latviyada artıq Azərbaycan səfirliyinin fəaliyyətə başladığını nəzərə alaraq, hesab edirəm ki, o, potensial biznes təmasları üçün bələdçi rolunu oynaya bilər. Biz hökumətlərarası komissiyanı yaratmışıq və o, gündəlik əsaslarla iqtisadi fəaliyyəti tənzimləyəcəkdir. Bununla belə, fürsətdən yararlanmaq üçün özəl sektordan ötrü çox yaxşı imkanlar yaranacaqdır. Özəl sektor və sərmayələr, adətən, ölkələr arasında çox güclü siyasi və dost münasibətlərin olduğu təqdirdə həmin ölkələrə gedir. Bu sözləri Latviya və Azərbaycana şamil etmək olar. Bizim aramızda çox yüksək səviyyədə siyasi təmaslar, qarşılıqlı anlaşma, dəstək və dostluq münasibətləri var. Bu, geniş iqtisadi əməkdaşlıq üçün yaxşı əsasdır. Əminəm ki, gələn illər ərzində bu sahədə biz birlikdə çox yeni işlər görəcəyik.

## LATVİYA UNİVERSİTETİNDƏ GÖRÜŞ

*4 oktyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Latviya Universitetinə gəlmişdir.*

*Burada dövlətimizin başçısını və xanımını universitetin rektoru professor İvars Latsis böyük hörmətlə qarşıladı.*

*Sonra universitetin professor-müəllim heyəti ilə görüş keçirildi.*

**İvars Latsis** (*universitetin rektoru*)**:** Zati-aliləri Azərbaycan Respublikasının Prezidenti!

Hörmətli xanımlar və cənablar!

Mən Sizi Latviya Universitetində böyük məmnunluq və şərəf hissi ilə salamlayıram. Bugünkü ali qonağımızın tərcümeyi-halından çox qısa hissəni iştirakçıların diqqətinə çatdırmaqdan şərəf duyuram.

1961-ci ildə Bakı şəhərində dünyaya göz açmış hörmətli qonağımız orada orta məktəbdə təhsil almışdır. 1977-ci ildə o, sovet vaxtlarında məşhur olan Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutuna daxil olmuşdur. Həmin institutu bitirdikdən sonra dissertasiya müdafiə edərək, tarix elmləri namizədi alimlik dərəcəsi almışdır. Onun elmi işinin mövzusu böyük və kiçik dövlətlər arasındakı münasibətlərə aid idi.

Sonrakı dövrlərdə hörmətli qonağımız bir neçə il özəl sektorda işləmiş və daha sonra isə hökumət işinə qatılmışdır. O, on il ərzində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti vəzifəsində işləmişdir. Eyni zamanda, o bir neçə il ərzində parlamentin deputatı olmuş və ölkəsinin Avropa Şurasındakı parlament nümayəndə heyətinin rəhbəri kimi çalışmışdır. İndi isə Azərbaycan Respublikasının Prezidentidir.

Onu da sizə deyim ki, indi çox nadir hallarda beş dildə sərbəst danışan insana rast gələ bilərsiniz. Onun ana dili Azərbaycan dilidir və əgər səhv etmirəmsə, hazırda həmin dildə dünyanın müxtəlif guşələrində yaşayan 50 milyona yaxın azərbaycanlı danışır. Onların yalnız kiçik bir hissəsi Azərbaycanda yaşayır.

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

İndi isə mən böyük məmnuniyyətlə sözü Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə vermək istəyirəm. Buyurun, cənab Prezident.

**İlham Əliyev:** Məni təqdim etdiyinizə görə sizə olduqca minnətdaram.

Mən sizin hamınızı salamlamaq və bu gün bizimlə birlikdə olmaq məqsədi ilə buraya gəldiyinizə görə minnətdarlığımı bildirmək istəyirəm. Bu, ölkələrimiz müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası Prezidentinin Latviyaya ilk səfəridir. Biz bu səfərə olduqca böyük əhəmiyyət veririk və onu ölkələrimiz arasındakı münasibətlərin möhkəmləndirilməsi istiqamətində atılmış mühüm addım kimi dəyərləndiririk.

Bu münasibətlərin hazırkı mərhələsi Latviya prezidentinin Azərbaycana ötən il etdiyi rəsmi səfərlə başlanmışdır. Biz olduqca geniş müzakirələr apardıq, bir çox mühüm ikitərəfli sənədlər imzaladıq və əməkdaşlığın formalaşmasına doğru artıq praktiki addımlar atmağa başladıq.

Bu gün prezident, Baş nazir, parlamentin sədri ilə görüşlərim zamanı biz artıq əldə olunmuş razılaşmaların həyata keçirilməsini müzakirə etdik. Eyni zamanda, ölkələrimizin siyasi, iqtisadi və sosial həyatının, demək olar ki, bütün aspektlərini əhatə edən çox mühüm ikitərəfli sənədlər imzaladıq. Bizim Latviyadakı səfirliyimiz tam fəaliyyət göstərir. Riqa ilə Bakı arasında birbaşa hava uçuşlarından artıq bəhrələnirik və bu, əməkdaşlığımızın yalnız ilkin addımıdır.

Biz Latviyanı olduqca mühüm dost və tərəfdaş hesab edirik. Həyata keçirdiyimiz Avropaya inteqrasiya siyasətimizdə

bizə yardım kimi, Latviyanın göstərdiyi səylərə görə sizə çox minnətdarıq. Azərbaycan artıq bu cür layihələrə və proqramlara başlamışdır. Biz Avropa İttifaqının qonşusuna çevrilirik. Avropanın sərhədləri bizim sərhədlərimizə çox yaxındır. Azərbaycan Avropa İttifaqının «Yeni qonşuluq siyasəti»ndə iştirak edən ölkəyə çevrilir. Bu baxımdan biz Latviya ilə ikitərəfli münasibətlərimizi və eyni zamanda, Avropa İttifaqı ilə əlaqələrimizi Azərbaycanın xarici siyasətinin olduqca vacib elementi kimi dəyərləndiririk.

Sizin ölkə kimi, Azərbaycan da XX əsrdə öz müstəqilliyindən məhrum olmuşdur. Biz müstəqilliyimizi eyni vaxtda, yəni 1991-ci ildə Sovet İttifaqının süqutundan sonra bərpa etdik. Əlbəttə ki, hər bir ölkənin öz çətinlikləri, problemləri və öz gündəliyi var idi və o, problemləri aradan qaldırmaq üçün bütün işləri görməyə çalışırdı. Biz hazırda latviyalı dostlarımızın tam formalaşmasını, Avropa ailəsinə tam qayıtmasını görməkdən olduqca məmnunuq. Siz Avropa İttifaqının və NATO-nun tamhüquqlu üzvünə, Avropa işlərində çox mühüm rol oynayan və dünyanın yerləşdiyiniz hissəsində regional inkişafda geniş şəkildə iştirak edən ölkəyə çevrildiniz. Təbii ki, bir dost kimi, biz bunu görməkdən çox şadıq.

Azərbaycanın müstəqilliyinin ilk illəri dərin siyasi və iqtisadi böhran, vətəndaş müharibəsi, Azərbaycan torpaqlarının Ermənistanın təcavüzü və işğalına məruz qalması və ümumi iqtisadi tənəzzül ilə müşayiət olunurdu.

1991-ci ildən təqribən 1995-ci ilə qədər biz olduqca ciddi iqtisadi çətinliklərlə üzləşdik və vəziyyət yalnız 1996-cı ildə sabitləşdi. 1996-cı ildən 2005-ci ilə qədər bizim siyasi və iqtisadi islahatlar siyasətimiz sürətli inkişafa zəmin yaratdı. 1996-cı ildən 2005-ci ilə qədər hər il ÜDM-in artımı təqribən 10 faiz təşkil edirdi. 2005-ci ildən başlayaraq həmin göstəricilər iki dəfə artmışdı. Ötən il Azərbaycanda ÜDM-in artımı 26 faizdən, 2006-cı ilin 8 ayı ərzində isə 30 faizdən çox olmuşdur.

Biz siyasi və iqtisadi islahatları davam etdiririk, qanunvericiliyimizi təkmilləşdiririk. «Yeni qonşuluq siyasəti» qarşı-

dakı 5 il ərzində Azərbaycanın standartlarını Avropa standartlarına uyğunlaşdırmağa imkan yaradacaqdır. Siyasi inkişaf, bazar iqtisadiyyatına sadiqliyimiz, qanunun aliliyi ilə seçilən və Avropa strukturlarına inteqrasiya olunmuş demokratik cəmiyyət qurmaq, tərəfdaşlar və dostlarımızla dostluq şəraitində yaşamaq bizim arzumuzdur.

Azərbaycan regional miqyasda artıq gözəçarpan nailiyyətlər əldə etmişdir. Biz regional inkişafda olduqca mühüm, bir çox hallarda həlledici rol oynayırıq. Heç bir regional layihə bizim iştirakımız olmadan mümkün deyildir. Azərbaycan tərəfindən başlanmış bir çox regional layihələr az vaxt keçdikdən sonra dünya miqyaslı layihələrə çevrilmişdir. Onların arasında neft və qaz yataqlarının işlənilməsi, Xəzərin neft və qaz ehtiyatlarının dünya bazarlarına çatdırılmasını mümkün edən boru kəmərlərinin çəkilməsi kimi layihələri misal gətirmək olar. Bütün bunlar çoxmilyardlıq sərmayələr deməkdir. Son bir neçə il ərzində Azərbaycanda həyata keçirilmiş layihələr dünyanın ən böyük enerji layihələri hesab olunur. Həmin layihələr nəinki Azərbaycanın və tərəfdaşlarımızın iqtisadi vəziyyətinə, həm də regional inkişafa, regiondakı siyasi duruma, siyasətin istiqamətinə və regionun gələcəyinə çox güclü təsir göstərir. Regional ölkə kimi, Azərbaycanın rolu get-gedə artır. Enerji amili mühüm amillərdən yalnız biridir. Hazırda biz daşıma marşrutlarına çox ciddi diqqət yetiririk. Azərbaycan öz ərazisi vasitəsilə Avropa və Asiya arasında çox mühüm dəmir yolu xəttinin çəkilməsinin təşəbbüskarıdır və beləliklə, ölkəmiz regionda daşımalar şəbəkəsinə çevriləcəkdir.

Azərbaycan enerji layihələrindən əldə olunan gəlirləri öz iqtisadiyyatını şaxələndirmək üçün istifadə edir. Biz Azərbaycanın gələcəyini yüksək təhsili təmin edən, çox güclü qeyri-neft sektoruna malik, öz vətəndaşlarının dünyada mövcud olan ən yüksək informasiya texnologiyalarına çıxışını təmin etmək iqtidarında olan ölkə kimi görürük. Başqa sözlə desək, biz öz qətiyyətimiz və iradəmiz sayəsində yaratdığımız və malik olduğumuz bu cür yeganə imkandan istifadə edərək,

Avropaya tam inteqrasiya olunmuş, açıq cəmiyyət qurmuş, güclü iqtisadiyyata və regionda güclü mövqelərə malik ölkəni formalaşdıracağıq.

Bu bizim planlarımızdır və onları həyata keçiririk. Son üç il ərzində Azərbaycanda 400 mindən çox yeni iş yeri açılmışdır və onların əksəriyyəti qeyri-neft sektorunda yaradılmışdır. Hazırda biz humanitar sektora, təhsilə, səhiyyəyə, kompüterləşdirməyə, infrastruktura, yolların, su xətlərinin çəkilməsinə, elektrik stansiyaların tikintisinə çox böyük vəsait sərf edirik. 2003-cü ildən 2008-ci ilə qədər Azərbaycanda bütün əsas infrastruktur və sərmayə proqramlarını həyata keçirmək planımız var. Bu çox böyük məqsədli proqramdır və biz gözəçarpan maliyyə resursları ayırmışıq. Büdcə gəlirlərimizin çox sürətlə artması sayəsində bu gün biz hər bir potensial layihəni həyata keçirməyə qadirik. Azərbaycan nə iqtisadi, nə də ki, enerji təhlükəsizliyi və siyasəti baxımından heç kimdən asılı deyildir.

Biz artıq tam formalaşmış ölkəyik. Azərbaycan xalqının iradəsinə, Azərbaycanın maraqlarının lazımınca qorunması və əhalimiz üçün daha yaxşı yaşayış şəraitini təmin etmək kimi prinsiplərə əsaslanan müstəqil siyasət həyata keçiririk.

Eyni zamanda, dostlarımız və tərəfdaşlarımız ilə əməkdaşlığa tam açığıq. Bu amilin əsas göstəricilərindən biri də o ola bilər ki, Azərbaycan adambaşına düşən birbaşa xarici sərmayələrin cəlb edilməsi sahəsində regionda öncül mövqeyə malik olan ölkədir. Ölkəmizdə çox yaxşı sərmayə mühiti var və son on il ərzində Azərbaycana təqribən 25–30 milyard dollar sərmayə yatırılmışdır. Biz heç vaxt öz tərəfdaşlarımızı məyus etməmişik və öhdəliklərimizi həmişə lazımınca yerinə yetirmişik. Azərbaycan beynəlxalq maliyyə təsisatlarında, siyasi dairələrdə kifayət qədər hörmətə, nüfuza malikdir və son nəticədə, regional işlərdə get-gedə daha mühüm rol oynayacaqdır. Bu bizim siyasətimizin əsas elementidir.

Güclü iqtisadiyyat bir nömrəli məsələdir, çünki möhkəm iqtisadiyyat olmadan heç bir siyasi layihə real olmayacaqdır. Qanunun aliliyinə əsaslanan və tam demokratik dəyərlərə

malik cəmiyyət qurmaq məqsədi ilə biz Azərbaycan xalqının gündəlik tələbatlarını ödəməliyik. İnsanlar yalnız iqtisadi cəhətdən müstəqil olduğu halda, özlərini tam azad hiss edə bilərlər. Bu məqsədə nail olmaq üçün qarşıda duran vəzifələrdən biri özəl sektoru dəstəkləyəcək genişmiqyaslı proqramın həyata keçirilməsidir.

Bu gün özəl sektorun ÜDM-dəki payı təqribən 75 faiz təşkil edir. Əgər neft sənayesinin ÜDM-i təşkil edən əsas amil olduğunu və onun əsasən hökumət tərəfindən tənzimləndiyini və dövlətin mülkiyyətində olduğunu nəzərə alsaq, bu rəqəm kifayət qədər yüksəkdir. Bir sözlə, özəl sektora dəstək də bizim prioritet məsələlərimizdən biridir. Biz özəl sektora güzəştli kreditlərin verilməsi yolu ilə onu dəstəkləmək üçün büdcəmizdə xüsusi fondlar yaratmışıq. Misal üçün, bu il özəl şirkətlər üçün təxminən yüz milyon ABŞ dolları həcmində güzəştli kreditlərin verilməsi nəzərdə tutulubdur. Gələn il ola bilsin ki, bu məbləğ eyni səviyyədə qalacaq və yaxud ondan da çox olacaqdır. Bu, Azərbaycanın öz yolunu dərk edən, Avropa dəyərlərini bölüşdürən müasir ölkə kimi inkişafını mümkün edəcəkdir.

Uğurlu inkişafın mühüm amillərindən biri də ondan ibarətdir ki, Azərbaycan dünyəvi ölkədir və yüksək dözümlülüyü ilə seçilir. Azərbaycanda bir çox milli azlıqlar, müxtəlif dinlərin nümayəndələri yaşayır. Bizim tariximizdə etnik və ya dini zəmində heç vaxt heç bir münaqişə və ya narazılıq olmayıbdır. Dözümlülük yüksək səviyyədədir. Azərbaycanın burada yaşayan bütün xalqların Vətəni olması uğur qazanılmasında prioritet məsələdir.

Milli azlıqlar olmayan, monoetnik ölkə kimi tanınan ölkələrdə isə vəziyyət fərqlidir.

Bizim qonşuluğumuzda monoetnik dövlət var. Onun monoetnik olması orada, yəni Ermənistanda yaşamış təqribən 300 min azərbaycanlının etnik təmizləmə siyasəti nəticəsində qovulması ilə bağlıdır. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bizim üçün yeganə ciddi problemdir, çünki bütün digər problemlər həll olunmaqdadır. Mən onlardan

bir neçəsini artıq qeyd etdim, lakin bütün inkişaf sahələrində maliyyə resurslarına, təfərrüatlı təhlil və yanaşmaya əsaslanan proqramlar mövcuddur. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə gəldikdə isə, biz ümid edirik ki, beynəlxalq ictimaiyyət erməni təcavüzkarlarını işğala son qoymağa məcbur etməkdə mühüm rol oynayacaqdır. Ermənistanın Azərbaycana təcavüzü artıq məlum olan faktdır.

Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası erməni qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul etmişdir. Lakin ermənilər bu qətnamələri yerinə yetirmirlər. ATƏT-in qərarları da Azərbaycan ərazilərinin azad olunması prinsiplərinə əsaslanır, lakin onlar da yerinə yetirilməyibdir. Avropa Şurası bir qətnamə qəbul etmişdir və orada aydın şəkildə bildirilir ki, Ermənistan Azərbaycana qarşı təcavüz edib, torpaqlarını işğal edib və bu işğal nəticəsində bir milyondan artıq azərbaycanlını qaçqın və məcburi köçkün vəziyyətinə salıbdır. Avropa Şurasının bu qətnaməsi ötən ilin yanvar ayında qəbul edilmişdir və bu həm də çox vacib siyasi bəyanatdır. İslam Konfransı Təşkilatı, GUAM kimi digər təşkilatlar da Azərbaycanın mövqeyini dəstəkləmişlər.

Latviya Azərbaycanı bu danışıqlarda dəstəkləyir və həmin mövqe bu gün Latviya prezidenti ilə imzaladığımız Birgə bəyannamədə öz əksini tapmışdır. Lakin Ermənistana elə gəlir ki, həmin beynəlxalq qərarların heç biri qanuni deyildir. Ermənilər ümumiyyətlə, beynəlxalq normalara riayət etmir, normal beynəlxalq davranış nümayiş etdirmirlər. Onlar hesab edirlər ki, XXI əsrdə bir ölkə digər ölkənin ərazisinin 20 faizini işğal altında saxlamağa davam edə bilər və buna görə cəzadan yaxa qurtara bilər. Əfsuslar olsun ki, BMT qətnamələrinin həyata keçirilməsi mexanizminin olmaması, Avropa Şurasının qətnamələri yalnız siyasi məna daşıdığı səbəbdən beynəlxalq ictimaiyyət, ümumiyyətlə, bu məsələyə böyük diqqət yetirmir. Buna görə də ermənilərə elə gəlir ki, onlar Azərbaycan ərazisinin işğalını davam etdirə bilərlər.

Lakin bu çox səhv və dardüşüncəli yanaşmadır. Bu gün Azərbaycan 5 il və ya 10 il bundan əvvəlki ölkə deyildir. Biz iqtisadi baxımdan güclü ölkəyik. Hərbi cəhətdən çox güclüyük. Azərbaycan regiondakı siyasi mövqelərini gücləndirir. Hər bir baxımdan Azərbaycanın mövqeyi ədalətlidir. Tarixi baxımdan ermənilər Dağlıq Qarabağa yalnız XIX əsrin birinci yarısında gəliblər. Bunu sübut edən bir çox materiallar var. O cümlədən Dağlıq Qarabağda 1978-ci ildə qoyulmuş və ermənilərin Qarabağa gəlişinin 150-ci ildönümünə həsr olunmuş abidə vardı. Bu o deməkdir ki, onlar buraya yalnız 1828-ci ildən sonra gəliblər. Onlar bizim torpağa bir qonaq kimi gəlmişlər. İndi isə etnik təmizləmə siyasətini apardıqdan sonra bütün azərbaycanlıları Dağlıq Qarabağdan qovmuş və onun inzibati sərhədlərindən kənarda yerləşən və heç vaxt yaşamadıqları yeddi rayonu işğal etmişlər.

Beləliklə, 700 min azərbaycanlı öz ölkəsində məcburi köçkün vəziyyətinə düşmüşdür. Ermənistandan isə 300 minədək azərbaycanlını qovmuşlar və hazırda torpaqlarımızı işğal altında saxlayırlar. Tarixi baxımdan bu məlumdur. Hüquqi baxımdan Azərbaycanın ərazi bütövlüyü beynəlxalq ictimaiyyət, o cümlədən Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınmışdır. Azərbaycan Birləşmiş Millətlər Təşkilatına Dağlıq Qarabağ ərazisi də daxil olmaqla qəbul edilmişdir. Bu o deməkdir ki, hüquqi baxımdan da həqiqət bizim tərəfdədir. İqtisadi baxımdan, əlbəttə ki, Azərbaycan və Ermənistanın iqtisadi potensialı müqayisəedilməzdir. Gələn illər ərzində bu fərq daha da artacaqdır.

Buna görə də Ermənistan rəhbərliyi və Dağlıq Qarabağdakı separatçı qruplar öz siyasətlərinin gələcəksiz olduğunu, Ermənistan xalqına rifah, təhlükəsizlik gətirməyəcəyini və əvvəlcədən proqnozlaşdırıla bilməyəcəyini nə qədər tez anlasalar, onların özləri üçün bir o qədər yaxşı olar. Hər bir halda, Azərbaycan Dağlıq Qarabağın müstəqilliyinə heç vaxt razılıq verməyəcəkdir. Biz heç zaman ərazimizdə ikinci erməni dövlətinin yaranmasına razılaşmayacağıq və ərazi bütövlüyümüzü bərpa edəcəyik. Bunu sülh yolu ilə həll etmək

istəyirik. Ona görə də biz ATƏT, onun Minsk qrupu və eyni zamanda, Avropa İttifaqı, Birləşmiş Millətlər Təşkilatı və digər beynəlxalq təşkilatlar ilə sıx işləyirik ki, münaqişəni sülh yolu ilə, beynəlxalq hüquq normaları əsasında həll etmək üçün onların yardımından istifadə edək.

Azərbaycanın gələcəyi parlaq görünür və siyasi, iqtisadi islahatlar, Avropa İttifaqının proqramlarına dair güclü inteqrasiya siyasəti və Azərbaycana aid «Yeni qonşuluq siyasəti» qarşıdakı 5 il ərzində ölkədə tamamilə fərqli vəziyyət yaradacaqdır. Ümidvaram ki, Avropa İttifaqı ilə qonşuluq siyasətinin həyata keçirilməsi nəticəsində gələn beş il ərzində Azərbaycanın meyarları daha da təkmilləşəcək, siyasi sistem güclənəcəkdir. Biz iqtisadi baxımdan çox güclü potensiala malikik. Məhz Dünya Bankının hesabatında bildirilmişdir ki, gələn 20 il ərzində Azərbaycan təkcə neft layihələrindən 140 milyard dollar gəlir əldə edəcəkdir. Bu rəqəm neft qiymətlərinin orta səviyyədə olacağı şərti ilə hesablanmışdır.

Ona görə də mən şübhə etmirəm ki, öz potensialımız, uzaqgörənliyimiz, proqramlarımız və gündəliyimiz əsasında ölkəni müasirləşdirmək üçün Azərbaycan regional işlərdə çox vacib rol oynayacaq və təbii ki, regionumuzda və ondan kənarda baş verən bir çox proseslərə təsir göstərəcəkdir.

Mən bir daha dediklərimə qayıtmaq istəyirəm ki, ölkələrimiz arasındakı əməkdaşlıq bizim üçün çox vacibdir və həmin əməkdaşlıq qarşılıqlı surətdə faydalıdır.

Bir daha demək istəyirəm ki, biz olduqca fəal siyasi və iqtisadi dialoqun, əməkdaşlığın, qarşılıqlı dəstəyin, sadəcə, başlanğıcındayıq və ümidvaram ki, Baltik ölkələri ilə Xəzər ölkələri arasındakı ümumi əməkdaşlıq yeni səviyyəyə qalxacaqdır. Biz bunu arzulayırıq və bunun üzərində çalışırıq. Mənim Latviyaya dövlət səfərim ikitərəfli münasibətlərə verdiyimiz əhəmiyyətin çox aydın göstəricisidir.

Eyni zamanda, mən son on beş il ərzində əldə olunmuş böyük nailiyyətlərə görə Latviyanı və Latviya xalqını təbrik etmək istəyirəm. Biz hər ikimiz eyni ölkənin hissəsi olmuşuq və əvvəldə dediyim kimi, hər iki ölkə 15 il bundan əvvəl müs-

təqilliyini bərpa edibdir. Ölkənizin və xalqınızın əldə etdiyi nailiyyətlər, həqiqətən tarixi xarakter daşıyır. Siz bununla fəxr edə bilərsiniz və təbii ki, sizin dostlarınız kimi, biz də bundan çox məmnunuq. Ümid edirəm ki, gələcəkdə bizim daha çox təmaslarımız olacaqdır. Təhsil sahəsində bir çox planlarımız var və bu gün mən burada çoxlu gənc görürəm. Ümidvaram ki, təmaslarımız genişlənəcək, ölkələrimiz arasında müxtəlif sahələrdə nümayəndə heyətlərinin daha çox səfərləri olacaq, əlaqələrimiz davam edəcək və qarşılıqlı surətdə faydalı olacaq, daha möhkəm tərəfdaşlıq və əməkdaşlığa zəmin yaradacaqdır.

Diqqətinizə görə çox sağ olun.

**İ v a r s L a t s i s:** Xanımlar və cənablar, suallarınızı vermək üçün xüsusi imkanınız var.

**S u a l: Cənab Prezident, gözəl çıxışınıza görə Sizə minnətdarlığımı bildirirəm. Mən Latviyadan Avropa Parlamentinin üzvüyəm. Bu gün axşam Azərbaycanda təşkil olunmuş enerji konfransında iştirak etmək üçün Riqa ilə Bakı arasında birbaşa uçuş xəttindən məmnunluqla istifadə edəcəyəm. Həmin konfrans sizin hökumətiniz tərəfindən təşkil olunubdur. Mən bu fürsətdən istifadə edərək, enerji məsələlərini müzakirə edəcəyəm. İndi isə sualım belədir: Siz enerji sahəsində bizimlə əməkdaşlığı necə görürsünüz?**

**İ l h a m Ə l i y e v:** Sağ olun. Biz artıq on ildən çoxdur ki, böyük enerji layihələrini həyata keçiririk və onlar ilk illərdə olduqca çətin şəraitdə və vəziyyətdə başlanmışdı. Lakin bu gün neft boru kəmərləri artıq istismar olunur. Boru kəməri nefti Aralıq dənizinə və dünya bazarlarına çıxarır. Qaz boru kəmərinin tikintisi bu ilin sonunda başa çatdırılacaqdır. Təbii ki, Azərbaycan neft-qaz hasil və ixrac edən mühüm ölkəyə çevrilir. Həmin neft və qaz yeni mənbədən gəlir və yeni istiqamətlərə nəql olunur.

Tarixdə ilk dəfə olaraq biz Xəzər neftini Aralıq dənizinə çatdırırıq və bu, dünya bazarlarına çıxış deməkdir. Bu, uğurla həyata keçirilmiş və bir neçə milyard dollarlıq böyük infrastruktur layihədir. İlk dəfə olaraq Xəzər dənizindən ha-

sil edilən qaz qonşu ölkələrə və daha sonra isə Avropaya çatdırılacaqdır. Bu, eyni zamanda, regionda tamamilə yeni vəziyyət yaradır. Ona görə də enerji sahəsindəki əməkdaşlığımız ikitərəfli formatda ola bilər, biz bu məsələ üzərində işləməyə hazırıq və artıq onun müxtəlif aspektlərini müzakirə etmişik. Bu cür əməkdaşlıq, həmçinin Avropa İttifaqı və Azərbaycan münasibətləri çərçivəsində də ola bilər.

Enerji sahəsində bizimlə işləmək və Azərbaycanla uzunmüddətli işbirliyinə girmək məqsədi ilə Avropa İttifaqının böyük maraq göstərdiyini görməkdən məmnunuq. Bu həm də indiki tarixi dövrdə yeni, təkrarolunmaz vəziyyət yaradır. Azərbaycan Xəzərdə işləmək məqsədi ilə xarici şirkətləri dəvət etmiş ilk Xəzəryanı ölkədir. Ölkəmiz dünya bazarlarına çıxışı təmin edən və hazırda başa çatdırılmış boru kəməri layihəsini irəli sürmüş ilk ölkədir. Ona görə də bu gün ikitərəfli səviyyədə və əlbəttə ki, Avropa İttifaqı – Azərbaycan əlaqələri səviyyəsində enerji əməkdaşlığı üçün potensial görünür. Biz Avropa bazarları üçün neft-qaz hasil və ixrac edən mühüm ölkə olmaqdan, təbii ki, çox şadıq.

Eyni zamanda, mən çox şadam ki, Siz Riqadan Bakıya birbaşa reysdən istifadə edərək, ölkəmizə səfər edəcəksiniz. Yeri gəlmişkən, bu, xanım prezidentin ötən il ölkəmizə rəsmi səfəri çərçivəsində əldə edilmiş razılıq nəticəsində mümkün olmuşdur və indi biz birbaşa hava xəttindən bəhrələnirik.

**İvars Latsis:** Çox sağ olun.

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Latviya Respublikasına dövlət səfəri çərçivəsində Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva oktyabrın 4-də Riqa şəhərində Latviya Tarix Muzeyi ilə tanış olmuşdur. Hörmətli qonağa məlumat verildi ki, burada ölkənin tarixinin müxtəlif dövrlərinə aid çoxlu əşya və sənədlər toplanmışdır. Əlverişli coğrafi mövqedə yerləşən Latviya tarix boyu qonşularının hərbi təcavüzünə məruz qalmışdır. Bütün bu*

*tarix, habelə latış xalqının azadlıq uğrunda mübarizəsi muzeyin eksponatlarında öz əksini tapmışdır.*

*Mehriban xanım muzeylə tanışlıqdan sonra fəxri qonaqlar kitabına ürək sözlərini yazdı. Hörmətli qonağa xatirə hədiyyəsi təqdim edildi.*

*Həmin gün Azərbaycanın birinci xanımı Latviya milli geyimlər sərgisində nümayiş etdirilən müxtəlif tikmələrə, zərif şəkildə işlənmiş zinət əşyalarına baxmışdır.*

*Mehriban xanıma məlumat veridi ki, burada Latviyanın 16 regionunu, bütövlükdə isə latış xalqının qədim tarixini və mədəniyyətini əks etdirən nadir nümunələr cəmləşmişdir. Məhz bu geyim dəstləri vasitəsilə latış xalqının zəngin keçmişi barədə məlumat almaq olar.*

*Mehriban Əliyeva orta əsrlərin yadigarı olan qadın geyimlərinə, zərif əl işlərinə baxdı, bəzək əşyaları və onların toxunma üsulları ilə maraqlandı.*

*Sərginin Şərq və digər bölmələrində nümayiş etdirilən kişi və qadın geyimləri də orijinallığı ilə diqqəti cəlb edirdi.*

*Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva latış xalqının milli tarixi ənənələrini tikmələrdə yaşadan sərgini yüksək qiymətləndirdi və bildirdi ki, kişi və qadın geyimləri ilə yanaşı, latış xalqının kulinariyasını, musiqisini, eləcə də mədəniyyətinin digər elementlərini əks etdirən nümunələrin olması sərgiyə daha da zənginlik gətirə bilər.*

*Sərgi ilə tanışlıqdan xatirə olaraq Mehriban xanıma hədiyyə təqdim edildi.*

*Mehriban Əliyeva fəxri qonaqlar kitabına sərgi barədə təəssüratını yazdı.*

## LATVİYA RESPUBLİKASININ PREZİDENTİ XANIM VAYRA VİKE-FREYBERQANIN VƏ HƏYAT YOLDAŞI İMANTS FREYBERQSİN ADINDAN AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ XANIMI MEHRİBAN ƏLİYEVANIN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ NİTQ

*Riqa*

*4 oktyabr 2006-cı il*

### Latviya prezidenti Vayra Vike -Freyberqanın nitqi

Zati-aliləri cənab Azərbaycan Prezidenti!
Hörmətli xanım Əliyeva!
Xanımlar və cənablar!

Zati-aliləri, çox şadam ki, Siz mənim təklifimi qəbul edərək, dövlətlərimiz müstəqilliyini bərpa etdiyi və diplomatik əlaqələrin yaradıldığı vaxtdan sonra ilk dəfə olaraq Latviyaya səfər etmisiniz.

Düz bir il öncə, 2005-ci il oktyabrın 3-4-də Latviya prezidentinin Azərbaycana ilk səfəri olmuşdur. Mən son dərəcə gözəl Azərbaycan torpağına səfər etmək və xalqınızın qonaqpərvərliyi ilə tanış olmaq şərəfinə nail olmuşam. Sizin ölkənizə səfərim zamanı Köhnə Bakını – İçərişəhəri ziyarət etmək imkanım olub, hansı ki, eynilə hazırda bizim olduğumuz Köhnə Riqa kimi parlaq bir arxitektura abidəsidir və YUNESKO-nun Dünya İrsi Siyahısına salınmışdır.

Biz Köhnə Riqanın tarixinin ən parlaq şahidlərindən biri olan Qarabaşlılar Evi binasındayıq. Bu bina bizim tariximizin bir növ simvoluna çevrilmişdir. Belə ki, İkinci dünya müharibəsi zamanı Qarabaşlılar Evi, demək olar, tamamilə da-

ğıdılmışdı və müstəqilliyin bərpasından sonra dövlətimiz kimi, bu binanı da yenidən qurmuşuq. Eynilə öz dövlətini yenidən qurmuş Azərbaycan xalqı kimi.

Bizim ölkələrimiz bir-birindən uzaqda yerləşir, lakin bizi xalqlarımız arasındakı dostluq münasibətləri birləşdirir. Xalqlarımızın tarixində son dərəcə çox bənzərliklər var. 1918-ci ildə Latviya və Azərbaycan müstəqillik yoluna qədəm qoymuş, bunun qarşısı Azərbaycanda 1920-ci ildə, Latviyada isə 20 il sonra zorakılıqla kəsilmişdir. Məhz bir çox onilliklər ötəndən sonra xalqlarımızın davamlı olaraq ədalətə və müstəqilliyə can atması sayəsində Latviya və Azərbaycan yenidən azad olmuşdur.

Bu il bizim ölkələrimizin müstəqilliyinin bərpa olunmasının 15 ili tamam olur. Bu illər ərzində bir çox şeylərə müvəffəq olmuşuq. Latviya və Azərbaycan dünyanın siyasi xəritəsində öz yerlərini həmişəlik əldə etmişlər. Latviya 2004-cü ildə Avropa İttifaqına və NATO-ya daxil olmaq kimi özünün iki strateji məqsədinə nail olmuşdur. Azərbaycan bu 15 il ərzində yerləşdiyi regionun liderlərindən birinə çevrilmişdir. Hələ yaxın keçmişdə həyata keçirilməz görünən məsələlər artıq bu gün reallığa çevrilmişdir.

Bu illər ərzində ikitərəfli əlaqələrimizdə bir çox mühüm, həlledici məqamlar öz yerini tapmışdır. Riqada Azərbaycan səfirliyinin açılması diplomatik əlaqələrin inkişafına imkan yaratmışdır. Şadam ki, Bakıda Latviya səfirliyi öz işinə başlamışdır. Azərbaycanda Fövqəladə və Səlahiyyətli səfirimizin yaxın zamanda akkreditə olunacağına ümidvarıq.

İqtisadiyyat sahəsində bir çox məqsədlər yerinə yetirilmişdir. İki il ərzində ölkələrimiz arasında ticarətin həcminin faktiki olaraq iki dəfə artdığını qeyd etmək istərdim. Buna ötən il imzalanmış sənədlər və həmçinin hər iki səfirliyin uğurlu fəaliyyəti imkan yaratmışdır. Paytaxtlarımız arasında birbaşa hava əlaqəsinin açılması iş adamlarının təmaslarının fəallaşmasına səbəb olmuşdur. Dövlət səfəri çərçivəsində keçiriləcək biznes forumu bu təmasların dərinləşməsi üçün əlavə imkanlar yaradır. Bu gün imzalanmış sənədlər də münasi-

bətlərimizin inkişafına fayda verəcəkdir. Ümid edirəm ki, hökumətlərarası komissiya ilin sonuna kimi öz işinə başlayacaqdır.

Bu gün imzalanmış və bir çox mühüm beynəlxalq məsələlər üzrə bizim ümumi mövqeyimizin ifadə olunduğu birgə bəyannamə ölkələrimiz arasındakı əlaqələrin yetkinliyini sübut edir.

Mən Azərbaycan tərəfindən Aİ və NATO ilə daha sıx əlaqələrin yaradılmasının xeyrinə edilmiş seçimi böyük məmnuniyyətlə izləmişəm. Latviya Avropa İttifaqının «Yeni qonşuluq siyasəti»ndə yaxından iştirak edir və Cənubi Qafqaz dövlətləri ilə, o cümlədən Azərbaycanla əməkdaşlığın inkişaf etdirilməsini dəstəkləyən dövlətlər sırasına aiddir. Bu bizim prioritetlərimizdən biridir. Əmin ola bilərsiniz ki, Latviya tərəfindən bu fəaliyyət davam etdiriləcəkdir.

Cənab Prezident, mən BMT-nin Baş katibi vəzifəsinə seçkilərdə namizədliyimin Azərbaycan tərəfindən dəstəkləndiyinə görə Sizə dərin minnətdarlığımı ifadə etmək istəyirəm. BMT-nin bütün dünyada sülhə, sabitliyə və inkişafa imkan yaradan əvəzedilməz forum olduğuna inanıram. Bizim ümumi borcumuz bu təşkilatın planetimizdə sülhü və tarazlaşdırılmış inkişafı möhkəmləndirərək, XXI yüzilliyin çağırışlarına səmərəli cavablar vermək iqtidarında olması istiqamətində əməyimizi əsirgəməməkdən ibarətdir.

Zati-aliləri, öz səfərinizlə Latviya xalqına verdiyiniz şərəfə görə Sizə minnətdaram. Bu, əlaqələrimizin inkişaf etdirilməsi yolunda ümidlər vəd edən bir addımdır və inanıram ki, bu əlaqələr gələcəkdə də öz inkişaf dinamikasını qoruyub saxlayacaqdır.

Mən bu badəni bizim hazırkı və gələcək əməkdaşlığımızın, ölkələrimizin tərəqqisinin şərəfinə qaldırmaq istəyirəm!

Latviya və Azərbaycan arasındakı dostluğun şərəfinə!

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanım Prezident!
Hörmətli cənab İmants Freyberqs!
Əziz dostlar, xanımlar və cənablar!

Xanım Prezident, ilk növbədə, məni dost ölkənizə dövlət səfərinə dəvət etdiyinizə görə Sizə ürəkdən təşəkkür edir, Latviya torpağında mənə və nümayəndə heyətinə göstərdiyiniz səmimi qonaqpərvərliyə görə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Keçirdiyimiz görüşlərdən çox məmnunam. Biz ikitərəfli əməkdaşlıqla bağlı geniş fikir mübadiləsi, danışıqlar apardıq. Əminəm ki, bütün bunlar, həmçinin imzalanmış birgə bəyannamə və digər sənədlər, iki ölkənin iş adamlarının keçirəcəkləri biznes forumu əməkdaşlığımızın inkişafına və dərinləşməsinə öz töhfəsini verəcəkdir. Ötən il Azərbaycana səfəriniz əlaqələrimizin daha da genişlənməsinə xüsusi təkan vermiş və müxtəlif sahələrdə qarşılıqlı surətdə faydalı əməkdaşlığımız üçün yaxşı perspektivlər açmışdır.

Bu gün Azərbaycanla Latviya arasında iqtisadi əlaqələr sürətlə inkişaf edir, əmtəə dövriyyəsinin həcmi ildən-ilə artır. Ölkələrimiz, eyni zamanda, Avropaya inteqrasiya proseslərində, beynəlxalq və regional təşkilatlar, o cümlədən BMT, ATƏT, Avropa Şurası, həmçinin Avropa İttifaqının «Yeni qonşuluq siyasəti» proqramı və NATO-nun «Fərdi tərəfdaşlığın fəaliyyət planı» çərçivəsində uğurlu əməkdaşlıq edir. Bu təsisatlarla əməkdaşlıqda Latviyanın Azərbaycana dəstəyinə görə Sizə minnətdarlığımı bildirirəm.

İki ölkə arasında mövcud olan qarşılıqlı anlaşma və dəstək, siyasi dialoq, müxtəlif sahələrdə sıx əlaqələr məmnunluq doğurur. Azərbaycan sürətlə inkişaf edən ölkədir. Həyata keçirilən siyasi və iqtisadi islahatlar ölkənin dinamik inkişafına imkan yaradıbdır. 2005-ci ilədək on il ərzində Azərbaycanda ümumi daxili məhsulun artımı hər il 10 faizdən çox olmuşdur. 2005-ci ildə bu, 26 faiz, 2006-cı ilin birinci yarısında

isə 36 faizdən çox artmışdır. Təxminən son üç il ərzində ölkədə 435 min yeni iş yeri açılmışdır.

Azərbaycan regionda sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə, iqtisadi inkişafa və inteqrasiyaya təkan verəcək beynəlxalq layihələr həyata keçirir. Bakı–Tbilisi–Ceyhan neft kəməri, Bakı–Tbilisi–Ərzurum qaz kəməri, Bakı–Tbilisi–Qars dəmir yolu layihələri bütün regionun inkişafında mühüm rol oynayacaqdır. Lakin mövcud münaqişələri aradan qaldırmadan regionda sülhə və təhlükəsizliyə nail olmaq mümkün deyildir. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü regionda sabitliyi pozan başlıca amildir. Bu hərbi təcavüz və etnik təmizləmə siyasəti nəticəsində torpaqlarımızın 20 faizi işğal edilmiş, ölkədə bir milyondan çox qaçqın və məcburi köçkün yaranmışdır. Azərbaycan münaqişənin beynəlxalq hüquq, ölkəmizin ərazi bütövlüyü çərçivəsində ədalətli şəkildə nizama salınmasını, münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının qətnamələrinin, ATƏT-in, Avropa Şurasının və digər beynəlxalq təşkilatların qərarlarının yerinə yetirilməsini tələb edir.

Xalqımızın ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Latviyanın mövqeyini yüksək qiymətləndirirəm. Fürsətdən istifadə edərək, GUAM dövlətləri ərazisində davam edən münaqişələr və onların beynəlxalq sülhə, təhlükəsizliyə və inkişafa təsiri ilə bağlı məsələnin BMT Baş Məclisi 61-ci sessiyasının gündəliyinə daxil edilməsində ölkənizin Azərbaycana verdiyi dəstəyə görə Sizə xüsusi təşəkkür edirəm.

Mən Azərbaycanla Latviya arasında münasibətlərin bütün sahələrdə inkişaf etməsinin, genişlənməsinin tərəfdarıyam və inanıram ki, ölkənizə səfərim bu münasibətləri daha yüksək səviyyəyə qaldıracaqdır.

Hörmətli xanım Prezident, icazə verin bu badəni Sizin şərəfinizə, cənab İmants Freyberqsin şərəfinə, ölkələrimiz arasında səmimi dostluq və faydalı əməkdaşlıq əlaqələrinin inkişafının şərəfinə qaldırım!

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN LATVİYAYA DÖVLƏT SƏFƏRİ

*4 oktyabr 2006-cı il*

### Riqada «Azadlıq» abidəsini ziyarət

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, Latviya Respublikasının Prezidenti xanım Vayra Vike-Freyberqa və həyat yoldaşı İmants Freyberqs oktyabrın 4-də Riqa şəhərində «Azadlıq» abidəsinin ucaldıldığı mərkəzi meydana gəldilər.*

*Meydanda fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidenti İlham Əliyev hərbi musiqinin sədaları altında abidənin önünə gül və əklil qoydu.*

*Azərbaycanın və Latviyanın dövlət himnləri səsləndi.*

*Prezident Vayra Vike-Freyberqa dövlətimizin başçısına məlumat verdi ki, Latviya xalqının azadlıq rəmzi olan bu abidə 1935-ci il noyabrın 18-də ucaldılmışdır. Uzun illər başqa dövlətlərin əsarəti altında olmuş Latviya 1918-ci ildə məhz noyabrın 18-də müstəqil respublika elan edilmişdi. 1940-cı ildə Latviya Sovet İttifaqına birləşdirildikdən sonra bu abidənin önünə gül-çiçək qoymaq, əslində qadağan olunmuşdu. Buna baxmayaraq, latış xalqı milli azadlıq hərəkatlarının, tarixi hadisələrin ildönümünü, repressiya qurbanlarının xatirəsini burada yad edirdi. Ötən əsrin sonunda xalqın yenidən müstəqillik uğrunda mübarizəsi də məhz buradan başlanmışdır.*

### Latviyanın Baş naziri Ayqars Kalvitis ilə görüş

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də «Latviya İctimaiyyət Evi»nə gəldi. Burada dövlətimizin*

*başçısını Latviyanın Baş naziri Ayqars Kalvitis böyük hörmət və ehtiramla qarşıladı.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev ilə Latviyanın Baş naziri Ayqars Kalvitis arasında görüş oldu.*

*Görüşdə ölkələrimiz arasında iqtisadi əlaqələrin genişləndirilməsi üçün konkret layihələr müzakirə olundu, hökumətlərarası birgə iqtisadi komissiyanın fəaliyyətinə toxunuldu və əminliklə vurğulandı ki, bu, gələcəkdə ümumi işlərin uğurla getməsinə kömək edəcəkdir.*

*Azərbaycanın və Latviyanın iş adamlarının qarşılıqlı səfərlərinin təşkilinin zəruriliyi və Riqada keçiriləcək Azərbaycan–Latviya biznes forumunun əhəmiyyəti vurğulandı.*

*Görüşdən sonra Latviyanın Baş naziri Ayqars Kalvitisin və xanımı Kristin Kalvitenin adından Azərbaycan prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın şərəfinə nahar verildi.*

## Latviya Seymində görüş

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Latviya parlamentinin – Seymin binasına gəlmişdir. Latviya Seyminin sədri xanım İnqrida Udre dövlətimizin başçısını binanın önündə böyük hörmət və ehtiramla qarşıladı.*

*Azərbaycan prezidenti İlham Əliyev burada Seymin əməkdaşları ilə görüşdü, parlamentin binası ilə tanış oldu, o cümlədən iclas salonuna baxdı. Seymin qonaq salonunda xatirə şəkli çəkdirdi.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev ilə Latviya Seyminin sədri İnqrida Udre arasında görüş oldu. Görüşdə Azərbaycan və Latviya parlamentləri arasında əlaqələrin genişlənməsi, beynəlxalq təşkilatlarda uğurlu əməkdaşlıq, ölkələrimiz arasında əlaqələrin inkişafı xüsusi vurğulandı.*

*Avroatlantik strukturlara inteqrasiya prosesinin sürətləndirilməsi üçün birgə fəaliyyət məsələləri müzakirə olundu.*

## Latviyanın aparıcı KİV-nin Baş redaktorları ilə görüş

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də Riqada onun üçün ayrılmış iqamətgahda – «Radisson SAS» mehmanxanasında Latviyanın aparıcı kütləvi informasiya vasitələrinin Baş redaktorları ilə birlikdə dəyirmi masa arxasında səhər yeməyində iştirak etmiş və onların suallarına cavab vermişdir.*

*Dövlətimizin başçısı Azərbaycandakı ictimai-siyasi vəziyyətlə maraqlanan jurnalistlərə ölkədə aparılan genişmiqyaslı siyasi, iqtisadi, sosial və hüquqi islahatlar haqqında danışdı, daxili və xarici siyasətdə əldə olunan nailiyyətlər barədə məlumat verdi. Ümumi daxili məhsulun sürətli artımının inflyasiya riski yaratması barədə suala cavabında Azərbaycan prezidenti İlham Əliyev bildirdi ki, ölkədə inflyasiyaya ciddi nəzarət olunur.*

*İqtisadi yüksəlişlə əlaqədar əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması üçün görülən tədbirlərdən danışan prezident İlham Əliyev qeyd etdi ki, əldə olunan gəlirlər əmək haqlarının, pensiya və müavinətlərin artırılmasına yönəldilir. Eyni zamanda, ölkədə regionların sosial-iqtisadi inkişafı ilə əlaqədar bir neçə proqram həyata keçirilir.*

*Jurnalistlər Latviya ictimaiyyəti üçün Bakı neftinin Baltik dənizi sahillərinə çatdırılması məsələsinin daha maraqlı olduğunu bildirdilər. Prezident İlham Əliyev Azərbaycanın enerji daşıyıcılarının bir neçə kəmərlə Avropa bazarına çıxarıldığını xatırlatdı və bildirdi ki, bu amil Avropanın enerji təhlükəsizliyinin təmin olunması baxımından ölkəmizin əhəmiyyətli rolunu artırır.*

*Daha sonra respublikamızın rəhbəri regiondakı vəziyyət, Azərbaycanın mövqeyi, milli azlıqlara münasibətlə bağlı suallara cavab verdi. Bildirdi ki, Azərbaycan bütün dövlətlərlə, o cümlədən region ölkələri ilə münasibətlərini qarşılıqlı anlaşma, mehriban dostluq prinsipləri əsasında qurur. Xarici siyasətin əsas prioriteti regionda sülhə və sabitliyə töhfə verməkdən*

*ibarətdir. Lakin təəssüf ki, Ermənistanın təcavüzkar siyasəti bu sabitliyə ən böyük əngəldir.*

*Prezident İlham Əliyev Azərbaycanda başqa xalqların nümayəndələrinin və milli azlıqların dinc və əmin-amanlıq şəraitində yaşaması üçün heç bir problemin olmadığını da vurğuladı. Azərbaycan cəmiyyətində tolerantlığın hökm sürdüyünü xatırladan prezident ölkəmizdə hər bir xalqın nümayəndəsinin öz dini ayinlərini icra etməsi üçün kifayət qədər məbədlərin mövcud olduğunu, bu ibadətgahların dövlət tərəfindən qorunduğunu, təmir olunaraq yenidən qaydaya salındığını bildirdi.*

*Latviya jurnalistləri ölkəmizlə yaxından tanış olmaq üçün Azərbaycana səfər etmək fikrində olduqlarını söylədilər. Prezident İlham Əliyev Azərbaycanda gedən ictimai-siyasi proseslərlə və eləcə də geniş quruculuq işləri ilə bilavasitə tanış olmaq üçün latviyalı jurnalistlərin ölkəmizə səfərini təşkil etməkdən ötrü müvafiq strukturlara tapşırıqlar verdi.*

## AZƏRBAYCAN–LATVİYA BİZNES FORUMU

*Riqa,*
*«Latviya İctimaiyyət Evi»*

*5 oktyabr 2006-cı il*

*Forum iştirakçıları Azərbaycan prezidenti İlham Əliyevi və Latviya prezidenti Vayra Vike-Freyberqanı hərarətlə qarşıladılar.*

*Latviya İnvestisiya və İnkişaf Agentliyinin direktoru Andris Ozols forumu açaraq, dövlət başçılarını salamladı. Forumda hər iki tərəfdən 100-ə qədər iş adamının iştirak etdiyini bildirərək dedi ki, əsas məqsəd sahibkarlar arasında iqtisadiyyatın müxtəlif sahələrində səmərəli əməkdaşlığın qurulması və mövcud iqtisadi potensialdan yararlanaraq, ticarət dövriyyəsini hər iki ölkəni qane edən səviyyəyə çatdırmaqdır.*

*Andris Ozols bildirdi ki, bu, latviyalı və azərbaycanlı iş adamlarının ikinci biznez forumudur. Birinci forum Latviya prezidentinin Azərbaycana səfəri zamanı keçirilmişdir. Belə tədbirlərin ikitərəfli əməkdaşlıq baxımından səmərəli olduğunu vurğuladı.*

*Sonra prezidentlər biznes forumda nitq söylədilər.*

### Latviya prezidenti Vayra Vike-Freyberqanın nitqi

Zati-aliləri Prezident Əliyev, sahibkarlar, xanımlar və cənablar!

Bir il öncə mənim Azərbaycana dövlət səfərimdən sonra burada təşkil olunmuş Latviya – Azərbaycan biznes forumunda çıxış etməkdən məmnunam və şərəf hissi duyuram. Mən

bu forumda təmsil olunmuş çoxsaylı Latviya və Azərbaycan şirkətlərini görməkdən şadam. İştirakçılar çoxdur, məncə təşkilatçılar daha böyük salon ayıra bilərdilər. Belə mühüm tədbiri təşkil etdiyinə görə Latviya İnvestisiya və İnkişaf Agentliyinə, habelə Azərbaycanda İxracın və Sərmayələrin Təşviqi Fonduna öz minnətdarlığımı bildirmək istəyirəm.

Bu gün keçirilən biznes forumu, eləcə də ötən il Azərbaycana etdiyim səfərin nəticələri iqtisadi əməkdaşlığımızın genişləndirilməsi və birgə layihələrin həyata keçirilməsinə böyük marağın olduğunu göstərir. Hesab edirəm ki, yaxşı əsaslarla başlayırıq.

Azərbaycana səfərimdən sonra Latviyanın «Air Baltic» Milli Aviasiya Şirkəti bu ilin mayında Riqa ilə Bakı arasında birbaşa uçuşlara başlamışdır. Həmin vaxtdan etibarən Latviya və Azərbaycan şirkətləri bir sıra yeni tərəfdaşlıq əlaqələri qurmuşlar. Ölkələrimiz arasında ticarət dövriyyəsi iki dəfə artmışdır. Ümid edirəm ki, bu, davam edəcəkdir.

Biz aşağı həcmli ticarət dövriyyəsindən başlamışdıq, lakin indi görürük ki, inkişaf gedir və bu bizim münasibətlərimizin tarixində yeni bir səhifə açır.

Burada bir sıra Latviya şirkətləri, o cümlədən kommersiya bankları və informasiya texnologiyaları şirkətləri var ki, onlar artıq bir neçə il ərzində Azərbaycan bazarında fəaliyyət göstərmişlər. Eyni zamanda, Azərbaycan şirkətləri Latviyada işləmişlər. Ümidvaram ki, Sizin Latviyaya dövlət səfəriniz nəticəsində daha çox birgə müəssisə yaranacaq və tərəfdaşlıq qurulacaqdır.

2005-ci ildə Azərbaycana etdiyim dövlət səfəri zamanı hər iki tərəf gömrük məsələlərinin həllinə və sərmayələrin təşviqi və qorunmasına töhfə vermiş, habelə iqtisadi, elmi, texniki və mədəni əməkdaşlığı gücləndirən sazişlər imzalamışdır. Vergi sahəsində konvensiya və terrorçuluğa qarşı mübarizə haqqında saziş gələcək işbirliyimiz üçün möhkəm əsasların yaradılmasına da kömək etmişdir. Biz ümid edirik ki, iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq haqqında saziş

çərçivəsində yaradılmış hökumətlərarası komissiya dövlətlərimiz arasında daha intensiv dialoqun təmin edilməsinə təsirini bu yaxınlarda göstərəcəkdir.

Dünən hökumətlərimiz arasında əməkdaşlığın müxtəlif sahələrini əhatə edən bir sıra yeni sazişlər imzalanmışdır. Mən ürəkdən ümid edirəm ki, Azərbaycan və Latviyanın biznes nümayəndələri də öz aralarında bir çox yeni tərəfdaşlıq sazişləri bağlayacaqlar və cənab Prezident, Sizin Latviyaya səfəriniz ölkələrimiz arasındakı ticarət münasibətlərinə yeni təkan verəcəkdir.

Ötən il Latviyada Azərbaycan səfirliyinin açılması ölkələrimiz arasında əməkdaşlığın möhkəmləndirilməsi sahəsində mühüm hadisə olmuşdur. Cari il ərzində Latviyanın Azərbaycanda səfirliyinin açılması ilə bu uğurlar daha da artacaqdır.

Cənab Prezident, Latviyanın Avropa İttifaqı və NATO-ya üzv olması ölkənin iqtisadi inkişafına müsbət təsir göstərmişdir. Latviya ilə Azərbaycan dünyada ən sürətlə inkişaf edən iqtisadiyyatları qurduğu bir vaxtda belə bir biznes auditoriyasına müraciət etmək xüsusilə xoşdur. 2001–2005-ci illər ərzində Latviyanın ÜDM-nin artımı ildə 8 faizdən çox olmuşdur. Ötən il ÜDM-in artımı 10,2 faizə çatmışdır. Bu, Avropa İttifaqında ən yüksək və bütün dünyada 5-ci göstəricidir. Cari ilin birinci yarısında, mənim ölkəmdə ÜDM-in həcmi hətta 12 faizdən çox artmışdır. Bu cür sürətli iqtisadi artım daxili tələbatın dayanmadan artması və Latviyanın ixracının davamlı şəkildə yüksəlməsi sayəsində mümkün olmuşdur.

Bu gün Latviyanın sənaye potensialının 70 faizindən çoxu özəl sektorun payına düşür. 2005-ci ildə mənim ölkəmin ixrac əməliyyatlarının 76,2 faizi, yəni dörddə üçündən çoxu məhz dost Avropa İttifaqı ölkələri ilə olmuşdur. Latviyadakı birbaşa xarici sərmayələrin üçdə ikisindən çoxu Avropa İttifaqının payına düşür, 2005-ci ildə bu, 68,2 faiz təşkil etmişdir.

Mən məmnunluqla qeyd edirəm ki, Latviyanın Azərbaycana ixracı ötən il ərzində 35 faizdən çox artmışdır. Azərbaycandan idxal isə üç dəfə çoxalmışdır. Latviya ilə Azərbaycan arasındakı ticarət dövriyyəsi hələ də nisbətən aşağı olsa da, biz ümid edirik ki, müsbət meyllər davam edəcəkdir. Biz gələcəkdə ticarət sahəsində, xüsusən də Latviyanın ixrac əməliyyatlarında gözəçarpan artımın əldə olunmasına ümid edirik.

Cənab Prezident, iqtisadi inkişaf sahəsində əldə etdiyi nailiyyətlərə görə Azərbaycanı təbrik edirik. Azərbaycan iqtisadiyyatı yüksək sürətlə inkişaf etməkdədir. Xarici sərmayədarlar Azərbaycanda böyük layihələr, xüsusən də karbohidrogen sektorundakı layihələri həyata keçirməkdə davam edirlər. Biz ürəkdən inanırıq ki, yeni strateji boru kəmərləri sistemlərinin inkişaf etdirilməsi, habelə Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi Azərbaycanın və onun xalqının rifahının yüksəldilməsinə kömək edəcəkdir. Latviya Azərbaycan qazı, nefti və neft məhsullarının idxal edilməsində maraqlıdır. Hazırda onların idxalı Rusiya ərazisi ilə tranzit şərtlərindən olduqca asılı vəziyyətdədir. Avropa İttifaqının üzvü olaraq, Latviya Azərbaycanın əlavə neft və qaz təchizatı sistemlərinin inkişaf etdirilməsi və onların Avropaya qədər uzadılmasında xüsusilə maraqlıdır.

Neftin kəşfiyyatı və işlənilməsi üzrə dünyada ən mühüm ölkələrdən biri sayılan Azərbaycan, əlbəttə ki, təbii yanacağın qiymətlərinin artmasından faydalanır. Amma hazırda dünyada neftin qiymətlərinin artması Latviyada son iki il ərzində ildə 6 faizlik həddi keçmiş inflyasiyanın səviyyəsinə əlavə təzyiq göstərir və gələcəkdə bizim iqtisadi artımımızı zəiflədə bilər.

ÜDM-in yüksək artım səviyyəsinin saxlanılması Avropa İttifaqının orta gəlir səviyyəsinə çatmağı arzulayan Latviya üçün olduqca vacibdir. Bizim gəlir səviyyəmiz hələ də Avropa İttifaqının orta göstəricisinin 50 faizini təşkil edir. Artımı davam etdirmək üçün Latviya bir sıra işləri yerinə

yetirməlidir. Ölkədə daha yüksək keyfiyyətli mallar istehsal etməklə və xidmətlər göstərməklə rəqabət artırılmalı və yüksək texnologiyalara səmərəli şəkildə sərmayə yatırılmalı və onlar tətbiq olunmalı, tədqiqatlar və yeniliklər təşviq olunmalı və yüksək peşəkarlığı ilə seçilən işçi qüvvəsi ilə təmin edilməlidir. Biz Avropa İttifaqının strukturları və uyğunlaşma fondlarının səmərəli istifadəsini mümkün etməliyik. Çünki onlar sadalanmış prioritetlərin həyata keçirilməsində bizə yardım edəcək və sosial-iqtisadi qeyri-bərabərliyin tədricən azaldılmasına zəmin yaradacaqdır.

Yaydakı quraqlığın məhsula göstərdiyi təsiri və Orta Şərqdə siyasi gərginlik nəticəsində neftin qiymətlərinin daha da qalxması ehtimalını nəzərə alaraq, yaxın gələcəkdə Latviyada inflyasiya dərəcəsini azaltmaq çətin olacaqdır. Nəticədə belə çıxır ki, mənim ölkəm avronu, nəzərdə tutulduğu kimi, 2008-ci ilin yanvarın birində yox, ondan sonra dövriyyəyə buraxacaqdır.

İnflyasiya səviyyəsindən savayı, Latviya Valyuta-İqtisadi İttifaqına qoşulmaq üçün lazım olan digər meyarlara tam cavab verir.

Cənab Prezident, Latviya İpək Yolunun nəqliyyat marşrutları ilə tarixən bağlı olub və ənənəvi olaraq, Avropa ilə Asiya arasında ticarət və tranzit üzrə vacib mərkəzə çevrilibdir. Bu gün ölkəm siyasi baxımdan təhlükəsizdir və Şimali Avropanın zəngin bazarlarına açıqdır. Latviya Azərbaycan istehsalçılarına özlərinin məhsulları və xammalı ilə yeni Qərb bazarlarına daxil olmaqda kömək edə bilər. Latviyanın donmayan üç ən böyük dəniz limanı olduqca qənaətcil və yüksək səviyyədə inkişaf etmiş infrastrukturla təchiz edilmişdir. Yollarımızın, boru kəmərlərimizin və anbarlarımızın imkanlarından tam istifadə etmək, daha yüksək həcmdə yüklər qəbul etmək mümkündür və mən əminəm ki, Siz Latviyanın üstünlüklərini müsbət qiymətləndirəcəksiniz.

Mən ürəkdən inanıram ki, ölkəmə səfəriniz zamanı Siz Riqanın və Latviyanın ümidverici potensialı barədə daha

çox öyrənəcəksiniz. Biz strateji Baltik dənizi regionunun tam mərkəzində yerləşirik. Ümidvaram ki, Azərbaycan prezidentinin Latviyaya indiki dövlət səfəri ölkələrimiz arasında iqtisadi tərəfdaşlığın möhkəmləndirilməsi və şaxələndirilməsinə xidmət edəcək, daha geniş iqtisadi əməkdaşlığa yeni təkan verəcək və sahibkarlarımız arasında yeni faydalı işbirliyinin qurulmasına əsas yaradacaqdır.

Mən hər iki ölkənin biznes nümayəndələrinə uğurlu görüşlər və burada, Riqada aparacaqları müzakirələrdə faydalı nəticələr arzulayıram.

**Azərbaycan prezidenti İlham Əliyevin nitqi**

Hörmətli xanım Prezident, əziz dostlar!

İlk növbədə burada, Latviyada bizə göstərilmiş səmimi qəbula və qonaqpərvərliyə görə mən öz adımdan, nümayəndə heyəti və Azərbaycanın iş adamları adından Sizə dərin minnətdarlığımı bildirmək istəyirəm. Biz bu səfəri xanım prezidentin ötən il Azərbaycana səfərindən sonra ikitərəfli münasibətlərdə başlanmış yeni mərhələnin davamı kimi, müxtəlif sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi istiqamətində çox vacib addım hesab edirik.

Bakıda Latviya və Azərbaycan iş adamlarının iştirakı ilə keçirilmiş birinci Latviya–Azərbaycan biznes forumu bizim hamımızın yadındadır. Həmin tədbirin nəticələri olduqca uğurludur və əməkdaşlıq üçün böyük imkanlar vəd edir.

Çox qısa müddət ərzində, yəni daha dəqiq desək, bir il ərzində biz əlaqələrimizin bütün sahələrində irəliləyişə nail olduq. Dünən imzalanmış sənədlər siyasi, iqtisadi və sosial həyatın aspektlərini əhatə edir və bir il öncə bağlanmış sazişlərlə birgə biz artıq əməkdaşlığımızın daha da genişləndirilməsi üçün çox möhkəm hüquqi bazaya malikik. Son bir il ərzində iş adamlarımız bir-birini daha yaxşı tanımağa başlamışlar. Biz artıq birgə layihələrə başlamışıq, ölkələrimiz arasında birbaşa hava xətləri var. Bizim Latviyadakı diplo-

matik nümayəndəliyimiz tam fəaliyyətə başlamışdır. Ümidvarıq ki, gələcəkdə qarşılıqlı fayda verən daha çox layihə həyata keçiriləcəkdir.

Ölkələrimizin iqtisadiyyatı çox sürətlə inkişaf etməkdədir. Biz ÜDM-in artımının göstəricisinə görə, Avropada və hətta dünyada öncül yerdəyik. Latviyada gördüyümüz nailiyyətlər olduqca böyükdür və mən müstəqilliyinin 15 ili ərzində Latviya xalqının əldə etdiyi uğurlara görə Sizi təbrik etmək istəyirəm. Ölkəniz hazırda öz inkişaf yoluna, o cümlədən yenidən Avropa ailəsinə qayıdır. Latviya Avropa İttifaqının və NATO-nun üzvüdür. Burada sürətli inkişaf göz qabağındadır. Biz dost və tərəfdaşıq və mən bundan məmnunam. Biz bunu öz inkişafının ilk mərhələsində olan bir dost ölkə kimi duyuruq.

Həyata keçirdiyimiz Avropa siyasəti həm də böyük imkanlar vəd edir. Hazırda biz Avropa İttifaqı ilə nəinki «Yeni qonşuluq siyasəti» çərçivəsində, eləcə də enerji sahəsində uzunmüddətli əməkdaşlığa başlamışıq. Avropa İttifaqı ilə Azərbaycan arasındakı əlaqələr hər iki tərəf üçün get-gedə daha böyük əhəmiyyət kəsb edir. Avropa dəyərlərinə doğru addımlayan Azərbaycan Latviya ilə münasibətlərini yüksək qiymətləndirir. Biz hər zaman ikitərəfli səviyyədə, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində bir-birimizi dəstəkləyir, qarşılıqlı yardım göstəririk. Bu fürsətdən istifadə edərək, BMT-də dondurulmuş münaqişələrin müzakirəsinə aid səsvermə zamanı ölkəmizin mövqeyini dəstəklədiyinə görə mən Azərbaycan hökuməti və xalqı adından Latviya tərəfinə bir daha dərin təşəkkürümü bildirmək istəyirəm. Həmin dəstək GUAM ölkələrinin təşəbbüsünün qəbul edilməsi və hazırda dondurulmuş münaqişələrin BMT-də müzakirəyə çıxarılmasında, sözün əsl mənasında, olduqca vacib idi.

Ölkələrimizin iqtisadi potensialı artmaqdadır. Eyni zamanda, əməkdaşlığın və siyasi əlaqələrin daha da inkişaf etdirilməsi üçün qarşımızda çox möhkəm əsaslar var. Hər bir ölkənin biznes icması olduqca həssasdır. Öz ölkələri ilə

potensial tərəfdaş ölkə arasında yaxşı siyasi münasibətlərin olduğu halda onlar həmin ölkədə biznes qurmağa və sərmayə yatırmağa üstünlük verirlər. Ona görə də güclü siyasi dialoq və əməkdaşlıq işgüzar dairələr üçün əlavə rahat şərait yaradır. Bu gün burada Azərbaycandan gəlmiş çox sayda iş adamının iştirak etməsi faktı bunun bariz nümunəsidir. İşbirliyinə böyük maraq, qarşılıqlı maraq doğuran məsələlər var. Bir sözlə, birgə biznesin aparılması böyük fayda verəcəkdir.

İqtisadi əməkdaşlığımız getdikcə artır. Bu, əlavə imkanlar yaradır. Bu səfər zamanı biz, həmçinin belə bir qənaətə gəldik ki, Latviya regional nəqliyyat şəbəkəsidir. Azərbaycan da öz regionunda eyni rolu oynayır. Əsas yükdaşıma şirkətlərini regional əməkdaşlıq üçün bizim infrastrukturdan, hava və dəniz limanlarından, nəqliyyat marşrutlarından istifadəyə cəlb etdik. Təbii ki, nəqliyyat məsələləri regionun gələcək inkişafında daha böyük rol oynayacaqdır. Cənubi Qafqaz və Xəzər regionu artıq Avropanın qonşusuna çevrilir. Biz artıq Xəzər və Qara dəniz regionları arasında çox yaxşı əməkdaşlıq aparırıq. Bu əməkdaşlığı asanlıqla daha geniş formata qədər genişləndirə bilərik. Burada Xəzər dənizi, Qara dəniz və Baltik dənizi regionlarının əməkdaşlığı nəzərdə tutulur. Bu nəinki yeni iqtisadi vəziyyətin, o cümlədən çox güclü siyasi formatın formalaşmasına xidmət edəcəkdir. Bizim eyni istəklərimiz var, tərəfdaş ölkələrik və eyni istiqamətdə addımlamalıyıq. Təbii ki, bu əlaqələrin iqtisadi komponenti çox vacib rol oynayır, çünki iqtisadiyyat hər bir inkişafın əsasıdır. Əgər siz iqtisadi baxımdan güclü və müstəqilsinizsə, onda, əlbəttə ki, ölkənin mövqeləri də möhkəmlənir.

Biz Azərbaycanda həmin iqtisadi müstəqilliyin bərqərar edilməsinə nail olmuşuq. Bu, Azərbaycanın son 15 il ərzində qoruyub saxladığımız müstəqilliyinə verilən ən əsas töhfələrdən biridir. Təbii ki, hazırda əvvəlkindən fərqli olan və dəyişən enerji bazarındakı vəziyyət Azərbaycanın əhə-

miyyətini birmənalı olaraq artırır. Lakin 90-cı illərdə enerji sahəsində əməkdaşlığa başladığımız zaman heç təsəvvür edə bilməzdik ki, bizim resurslarımız regional istehlakçılar üçün bu qədər əhəmiyyət daşısın. Əsas neft və qaz layihələrini başladığımız vaxt başlıca məqsəd həmin təbii sərvətləri dünya bazarlarına çıxarmaq və onlardan ölkədə siyasi və iqtisadi vəziyyətin inkişaf etdirilməsi üçün bir vasitə kimi istifadə etməkdən ibarət idi.

Bu gün artıq Avropa və dünya bazarlarına çıxarılan enerji resurslarımız Avropa və dünya işlərində getdikcə daha böyük rol oynayacaqdır. Dünya bazarlarına boru kəmərləri vasitəsilə nəql olunan Azərbaycanın nəhəng neft və qaz ehtiyatları regional vəziyyətə və qonşuluqdakı proseslərə təsir göstərəcəkdir.

Bu baxımdan Latviya ilə Azərbaycan arasındakı davamlı əməkdaşlıq daha böyük əhəmiyyət daşıyacaq və işgüzar dairələrimiz həmin işbirliyinin yeni sahələrini araşdıracaqlar. Şübhə yoxdur ki, təsis edilmiş birgə hökumətlərarası komissiya mühüm rol oynayacaqdır. Çünki komissiya iş adamlarına bir-biri ilə tanış olmağa yardım edəcək, potensial əməkdaşlıq yollarının bələdçisi olacaqdır. Nəticədə həmin komissiyanın vaxtaşırı görüşləri ikitərəfli ticarətin artmasına zəmin yaradacaqdır.

Biz çox məmnunuq ki, ticarət dövriyyəsi artır, lakin həmin rəqəm hələ də qənaətbəxş sayıla bilməz. Bu da təbiidir, çünki yalnız bu yaxınlarda biz ciddi əməkdaşlığa, çox vacib regional layihələrdə iştiraka başlamışıq. Təbii ki, qarşılıqlı maraq ölkələrimiz arasında uzunmüddətli iqtisadi əməkdaşlıq üçün yaxşı əsasdır. İqtisadi və siyasi əməkdaşlıq paralel şəkildə aparılır. Çox yüksək səviyyəli siyasi və iqtisadi təmaslardan məmnunluqla istifadə edirik.

Latviya Azərbaycan üçün çox vacib tərəfdaşdır, dost ölkədir və Azərbaycan ilə Avropa İttifaqı arasındakı münasibətlərdə ölkəmizi hər zaman dəstəkləyir. Bu da çox vacibdir. Əminəm ki, nümayəndə heyətimiz dünən və bu gün

ərzində bu reallığı öz gözü ilə gördü. İş adamları öz maraqlarını kommersiyadan götürəcəkləri fayda ilə bağlayırlar. Bu da müşahidə olunur. Qarşılıqlı fayda verən biznes müqavilələri, öhdəliklər və sazişlərin hamısı ölkələrimiz arasında daha möhkəm əlaqələrin qurulmasına xidmət edəcəkdir və eyni zamanda, iş adamlarımız üçün daha yaxşı şərait yaradacaqdır.

Hazırda Azərbaycan biznesi çox sürətlə inkişaf edir. Biz özəl sahibkarlığa dəstək veririk. Bu məqsədlə büdcəmizdə xüsusi fond var. Bu il həmin rəqəm yüz milyon dollar təşkil edir və biz bu vəsaiti, demək olar ki, çox güzəştli şərtlərlə kredit kimi, özəl sektora təklif edirik. Bu il biz dövlət sərmayə şirkəti yaratmışıq. Onun ilkin kapitalı 100 milyon dollardır və əsas məqsədi sərmayələr üçün münbit şərait yaratmaq, proqnozlaşdırmanı mümkün etmək üçün yeni potensial sərmayədarları cəlb etmək və ilkin mərhələdə həmsərmayəçi kimi çıxış etməkdən ibarətdir.

Ümumiyyətlə, Azərbaycandakı sərmayə mühiti çox müsbətdir. Adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə görə Azərbaycan regionda aparıcı ölkədir. Biz son on il ərzində sərmayə kimi, ölkəmizə təqribən 30 milyard dollar cəlb etmişik və bu meyl davam edir. Enerji və boru kəmərləri layihələrinin həyata keçirilməsi məqsədi ilə Azərbaycan üçün milyardlarla dollar ayırmış beynəlxalq maliyyə təsisatları ilə çox fəal şəkildə işləyirik. Biz beynəlxalq banklar üçün etibarlı tərəfdaşıq. İqtisadi və biznes nüfuzumuz artır.

Bu gün Azərbaycan öz iqtisadiyyatına istədiyi qədər sərmayələr cəlb etməyə qadirdir. Bir neçə il bundan əvvəl biz Dövlət Neft Fondu yaratmışıq. Neft satışından əldə olunan bütün gəlirlər həmin fonda toplanır və ölkənin ən vacib və təcili tələbatlarının ödənilməsi üçün sərf olunur. Bu gün Azərbaycanın nağd valyuta ehtiyatları 3 milyard dollara bərabərdir. Dövlət büdcəmiz son üç il ərzində 4 dəfə artmışdır. Yerli sərmayə proqramlarımız da artmışdır. Hazırda

Azərbaycanda 6 elektrik stansiyası tikilməkdədir. Yollar, su kəmərləri, qazpaylama sistemləri çəkilir.

Bundan əlavə, ölkəmizdə üç yeni hava limanı tikilir. Xəzərin şərq sahilindən neftin daşınmasında bütün tankerlərimizdən tam istifadə etmək üçün nəqliyyat infrastrukturuna yatırılan sərmayələrin də həcmi artırılır. Biz kənd təsərrüfatının inkişafına çox böyük diqqət yetiririk və bu sahədə fəal şəkildə əməkdaşlıq edə bilərik. Bank işi, sığorta, informasiya və kommunikasiya texnologiyaları sahələri də var. Bir neçə gün bundan əvvəl Bakıda informasiya və kommunikasiya texnologiyaları mövzusunda böyük bir konfrans təşkil edilmişdir. Biz İKT üzrə regional mərkəzə çevrilməyi planlaşdırırıq.

Gündəliyimizdə duran əsas məsələ neft və qaz gəlirlərinin humanitar dəyərlərə çevrilməsidir. Azərbaycan iqtisadiyyatını şaxələndirmək üçün bu gəlirlərin yeni texnologiyalara sərf edilməsi vacibdir. Biz on ildən sonra neft qiymətlərindən asılı olmamalıyıq. Bir tərəfdən, neftin qiymətinin yüksək olması bizim üçün əlavə gəlir deməkdir. Lakin digər tərəfdən isə, iqtisadiyyatda vəsaitlərin həddindən artıq çox olmasına və bəzi arzuedilməz inflyasiya meyllərinə səbəb olur. Biz iqtisadiyyatımızı elə bir şəkildə tarazlaşdırmalıyıq ki, ölkəmizin gündəlik tələbatlarını ödəyə bilək və eyni zamanda, makroiqtisadi sabitliyi pozmayaq.

Bütün bu sahələrdə görəcəyimiz birgə işlər çoxdur. Sizin çox yaxşı təcrübəniz, bilik və texnologiyalarınız var və Avropa İttifaqının bir üzvü olaraq, təbii ki, öz təcrübənizi bizimlə bölüşə bilərsiniz. Sürətlə inkişaf edən ölkə kimi, biz Avropanın enerji təhlükəsizliyinə öz töhfəmizi verə bilərik və bunu yaxşı tərəfdaşlıq ruhunda edirik. Bir sözlə, maraqlarımız və fayda qarşılıqlı xarakter daşıyır. Dostluğa əsaslanan güclü tərəfdaşlıq, siyasi dialoq və biznes təmasları kimi amillər hər bir ölkənin inkişafını şərtləndirir. Əvvəldə dediyim kimi, biz bu gün əməkdaşlıq üçün həyatımızın bütün sahələrini əhatə edən hərtərəfli hüquqi bazaya malikik. Ümid

edirik ki, əvvəldə olduğu kimi, tərəfdaşlığımızın növbəti mərhələsi də uğurlu olacaqdır.

Mən on beş illik çox qısa tarixi müddət ərzində əldə etdiyi nailiyyətlər, Avropa ailəsinə qayıdış və böyük siyasi-iqtisadi uğurlar münasibətilə Latviyanı bir daha təbrik etmək istəyirəm. Səmimi qəbula görə Latviya xalqına ən ülvi şəxsi arzularımla bir daha təşəkkürümü bildirirəm və ümid edirəm ki, gələcəkdə təmaslar və əməkdaşlıq artacaqdır.

Çox sağ olun.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN LATVİYAYA DÖVLƏT SƏFƏRİ

*5 oktyabr 2006-cı il*

## Riqa şəhər meriyasında görüş

*Azərbaycan prezidenti İlham Əliyev Latviyaya dövlət səfərinin ikinci günü, oktyabrın 5-də Riqa şəhər meriyasına gəlmişdir.*

*Meriya Şurasının sədri Ayvars Aksenoks prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı böyük hörmət və ehtiramla qarşıladı.*

*Ayvars Aksenoks Şəhər Dumasının üzvlərini dövlətimizin başçısına təqdim etdi.*

*Sonra meriyada görüş keçirildi. Görüşü Meriya Şurasının sədri Ayvars Aksenoks açdı.*

## Riqa Meriya Şurasının sədri Ayvars Aksenoksun çıxışı

Cənab Azərbaycan Respublikasının Prezidenti!

Hörmətli cənablar!

Hörmətli Azərbaycan nümayəndə heyətinin üzvləri!

Bu gün Riqa Şəhər Dumasının və Latviya Respublikası paytaxtının ali özünüidarə orqanının nümayəndələri adından sizi burada qarşılamaq bizim üçün böyük şərəfdir və sizi ratuşada salamlamaqdan iftixar duyuruq.

Müxtəlif ölkələrin başçılarının Riqa Dumasına gəlməsi xoş ənənəyə çevrilmişdir və dövlətlərin və iri şəhərlərin rəhbərlərinin vahid məqsədə doğru getdiyini təsdiq edir ki, bu da bütün mümkün səviyyələrdə əməkdaşlığa kömək edir.

Mən Baltikyanı ölkələrə ilk rəsmi səfəriniz zamanı Sizi salamlamağıma şadam və bizə çox xoşdur ki, regionda səfər etdiyiniz birinci ölkə məhz Latviya olmuşdur.

Ötən ilin əvvəllərində, Latviyada və Azərbaycanda bu səfərə hazırlıq görülən vaxt ilk Riqa–Bakı aviareysi açıldı. Ünsiyyət daha da asanlaşdı, bu isə şəhərlərimizin sakinlərinin qarşılıqlı əlaqəsinin inkişafına, turizmin, dövlətlərimizin iqtisadiyyatının inkişafına kömək edir.

Bizim məqsədimiz həyat səviyyəsinin hərtərəfli yaxşılaşdırılması, demokratiyanın inkişafı, şəhərlərimizin və ölkələrimizin əhalisinin təhlükəsizliyinin təmin edilməsidir. Əminəm ki, uğurlu və qarşılıqlı surətdə faydalı əməkdaşlıq buna kömək edəcəkdir. Biz ölkələrimizin şəhərləri üçün qarşılıqlı maraq doğuran əlaqələrin yaradılmasının bundan sonra da dəstəklənməsinə görə Azərbaycan Respublikasının dövlət təsisatlarına minnətdar olacağıq.

Latviya paytaxtına ilk rəsmi səfərinizi xoş və səmərəli keçirməyinizi arzu edirəm. Arzu edirəm ki, şəhərimizin gözəlliyini görəsiniz, vətənə ən yaxşı və xoş təəssüratla qayıdasınız.

Riqa Dumasının ratuşasına xoş gəlmisiniz və mən Sizə Fəxri qonaqlar kitabını imzalamağı təklif edirəm.

*Prezident İlham Əliyev meriyanın Fəxri qonaqlar kitabını imzaladı.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Bizi salamlamağınıza və qonaqpərvərliyinizə görə çox sağ olun.

Ölkənizə səfərim başa çatır. Biz dünən prezident, Baş nazir, parlamentin sədri və digər rəsmi şəxslərlə çox yaxşı danışıqlar apardıq və ölkənizi gözəl təəssüratla tərk edirik. Bizim və nümayəndə heyətimizin üzvlərinin bu iki gün ərzində gördükləri həqiqətən, çox təsirli olmuşdur. Ölkəniz

qısa müddət ərzində Avroatlantik inteqrasiya, iqtisadi inkişaf, siyasi sistemin möhkəmləndirilməsi baxımından çox böyük yol keçmişdir və əlbəttə ki, Latviyanın dostları kimi, bu bizi sevindirir.

Biz ikitərəfli münasibətlərimizə böyük əhəmiyyət veririk və sizin dediyiniz kimi, Azərbaycan prezidentinin bu regiona ilk səfəri Latviyadan başlanmışdır. Baltikyanı ölkələrdə Azərbaycanın ilk səfirliyinin Latviyada açılması faktını da bizim münasibətlərimizin və maraqlarımızın mühüm indikatoru hesab etmək olar.

Biz indicə Latviya prezidenti ilə Latviya–Azərbaycan biznes forumunun açılışında iştirak etdik. Bizimlə böyük biznes nümayəndə heyəti gəlmişdir. Bütün bu amillər qarşılıqlı münasibətlərimizin hərtərəfli inkişafına kömək edir. Dünənki gün ərzində, əsasən, maşında gedəndə olsa da, Riqanın gözəl yerlərinə baxa bildim. Mehmanxananın nömrəsindən də şəhərin gözəl panoramı açılır və indi isə ümidvaram ki, Riqanın görməli yerləri ilə daha yaxından tanış olacağam.

Bu çox böyük tarixi, ənənələri və mədəniyyəti olan şəhərdir. Ötən ağır illər ərzində bütün bunların bənzərsizliyini qoruyub saxlamağınız riqalıların öz şəhərinə məhəbbətindən, tarixə, ənənələrə, tarixi abidələrə münasibətindən xəbər verir. Bu gün Riqanın qədim binaları əski tarixin təcəssümüdür, müasir binalar isə ölkənin və şəhərin necə dinamik inkişaf etməsini göstərir.

Bu, dostlarınız kimi, bizi çox sevindirir və sizin uğurlarınıza şadıq. Buna görə də bütün nümayəndə heyəti adından sizə ehtiramımı bildirmək və Riqanın bənzərsiz görünüşünün qorunub saxlanmasında şəhərin hakimiyyət orqanlarının xidmətlərini vurğulamaq istərdim. Bu çox vacibdir, çünki bizim şəhərlərimizin görkəmi vətəndaşların və sakinlərin öz tarixinə münasibətini göstərir. Latviyanın da, Azərbaycanın da qədim tarixi var və o daim bizim qəlblərimizdə yaşamalıdır, gənc nəslimiz onu yaxşı bilməli, tarixi, ənənə-

ləri, milli dəyərləri qoruyub saxlamalıdır. Bunsuz heç bir ölkə normal şəkildə inkişaf edə bilməz.

Bununla yanaşı, sizin ölkənizdə müasir inkişafın, dinamik inkişafın böyük əlamətlərini də görürük. Bu isə Avropaya və dünyaya dolğun inteqrasiyaya kömək edir. Buna görə də bir daha qeyd etmək istərdim ki, burada keçirdiyimiz görüşlərdən, şəhərdən, Latviyanı çox böyük məmnunluq hissi ilə tərk etməyimizdən aldığımız təəssürat olduqca müsbətdir və biz gələcəkdə fəal əməkdaşlığa ümid bəsləyirik. Riqalılara və şəhərin hakimiyyət orqanlarına Riqa kimi tarixi abidənin qorunması sahəsində gələcəkdə də fəal işləməyi arzulayıram. Təşəkkür edirəm.

*Sonra prezident İlham Əliyev Riqa şəhərində salınacaq Azərbaycan–Latviya dostluq parkının layihəsi ilə ətraflı tanış oldu.*

## «İşğal» muzeyi ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də Riqanın mərkəzində yerləşən «İşğal» muzeyi ilə tanış olmuşdur.*

*Muzeyin direktoru Valter Nolendorf prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı ehtiramla qarşıladı.*

*Direktor ali qonağa məlumat verərək dedi ki, muzey xaricdə yaşayan latışların təşkilatları, cəmiyyətləri və «İşğal» Muzeyi Fondu tərəfindən 1993-cü ilin yayında yaradılmışdır. Buradakı eksponatlar Latviya torpağında törədilmiş hadisələri, o cümlədən totalitar sovet rejiminin gətirdiyi müsibətləri, habelə 1941–45-ci illərdə faşistlər tərəfindən törədilən qırğınları əks etdirir.*

*Muzeydə 30 min sənəd, məktub, fotoşəkil, müxtəlif eksponatlar toplanmışdır.*

*Muzeyin təhsil proqramının əməkdaşları burada məktəblilərə Latviyanın tarixi ilə bağlı dərslər, tarix müəllimləri üçün seminarlar keçirir, Latviyanın ən yeni tarixinə dair tədris-*

*metodik materiallar hazırlayırlar. İngilis, fransız, rus və digər dillərdə illik bülletenlər hazırlanıb nəşr olunur. Muzeyə ildə 100 min tamaşaçı gəlir, bunların əksəriyyəti xarici turistlərdir.*

*Prezident İlham Əliyev Latviyanın XX əsrdəki mürəkkəb tarixindən bəhs edən ayrı-ayrı bölmələrə baxdı, muzeyin fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.*

## Riqada «Köhnə şəhər»lə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də Latviya paytaxtının qədim abidələrlə zəngin olan «Köhnə şəhər» hissəsi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına və xanımına məlumat verildi ki, Dauqava çayının sağ sahilində yerləşən «Köhnə şəhər» paytaxtın tarixi və coğrafi mərkəzi hesab olunur. Bura XIII–XVII əsrlərə aid tikililərin bir hissəsini əhatə edir və orta əsr memarlığının nadir abidələri ilə məşhurdur.*

*Prezident İlham Əliyev bu ərazidə yerləşən abidələrdən biri olan Müqəddəs Pyotr kilsəsinə də tamaşa etdi. XIII əsrə aid bu kilsə əsasən Riqa zadəganlarının və ümumən şəhər sakinlərinin əsas dini ibadət yeri olmuşdur. Azərbaycan prezidenti kilsənin İkinci dünya müharibəsi zamanı dağıdılmış və yandırılmış vəziyyətini əks etdirən fotoşəkillərə baxdı, bu dini məbədin əsas hissələrini gəzdi. Bildirildi ki, kilsənin qülləsi 1491-ci ildə tikilmişdir. 1666-cı ildə – dağılmasından bir il sonra yenidən inşa edilmişdir. Sonuncu dəfə 1670-ci ildə bərpa edilmiş qüllənin hündürlüyü 64,5 metrdir ki, bu da dünyada ən hündür taxta tikili hesab olunur. Axırıncı dəfə burada əsaslı təmir-bərpa işləri 1984-cü ildə aparılmışdır.*

*Sonra Azərbaycan prezidenti xanımı ilə birlikdə məşhur Dom kilsəsinə gəldi. Əvvəllər Müqəddəs Mariya kilsəsi kimi tanınan kilsənin tikintisi 1211-ci ildə başlanmış və 1270-ci ildə tamamlanmışdır.*

*1884-cü ildə alman mütəxəssisləri burada Avropanın ən məşhur orqanlarından birini quraşdırmışlar. Riqa Tarix və Dənizçilik Muzeyi də bu kilsədə yerləşir.*

## Azərbaycanın Latviyadakı səfirliyi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 5-də ölkəmizin Latviyanın paytaxtındakı səfirliyinə gəlmişdir.*

*Səfirliyin əməkdaşları dövlətimizin başçısını böyük səmimiyyətlə qarşıladılar.*

*Səfir Tofiq Zülfüqarov ABŞ, Fransa və digər inkişaf etmiş ölkələrin səfirlikləri ilə qonşuluqda yerləşən binanın tarixi, səfirliyin əməkdaşları üçün yaradılan şərait barədə məlumat verdi.*

*Prezident İlham Əliyev ayrı-ayrı otaqlara baş çəkdi, diplomatlara tövsiyə və tapşırıqlarını verdi, işlərində uğurlar arzuladı və onlarla xatirə şəkli çəkdirdi.*

## BALTİKYANI ÖLKƏLƏRDƏKİ AZƏRBAYCAN İCMASININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*«Ralisson SAS» mehmanxanası*

*5 oktyabr 2006-cı il*

Mənim Latviyaya səfərim bu gün başa çatır. Dünən və bu gün çox əhəmiyyətli görüşlər keçirildi, geniş müzakirələr və fikir mübadiləsi aparıldı. Bu səfərdən sonra bizim ölkələrimiz arasında münasibətlər, şübhəsiz ki, yeni pilləyə qalxacaqdır. Eyni zamanda, nəzərə alsaq ki, burada Azərbaycan diasporu da mövcuddur, əlbəttə, Latviyada səfirliyin olması azərbaycanlılar üçün əlavə bir dəstəkdir. Diaspor da səfirliyə kömək göstərir. Bu, ikitərəfli yoldur. Azərbaycanın müxtəlif ölkələrdə artıq formalaşmış diaspor təşkilatları vardır.

Dünya azərbaycanlılarının II qurultayına bütün ölkələrdən nümayəndələr gəlmişdi. Mən o vaxt öz çıxışımda da demişdim və bu gün bunu bir daha vurğulamaq istəyirəm: Azərbaycanın artan imkanları, potensialı xarici ölkələrdə yaşayan azərbaycanlılara dəstəkdir, onların mövqelərini möhkəmləndirir və eyni zamanda, xarici ölkələrdə yaşayan azərbaycanlılar da gərək öz vətənlərinin elçiləri kimi, fəaliyyətləri ilə ölkəmizi daha da yaxşı tanıtsınlar. Buna böyük ehtiyac vardır.

Azərbaycan haqqında hələlik dünyada kifayət qədər məlumat yoxdur. Müxtəlif ölkələrdə səfirliklərin açılması bu boşluğu doldurur. Bununla bərabər, xarici ölkələrdə yaşayan azərbaycanlılar da öz fəaliyyətləri ilə bu işdə çox fəal iştirak etməlidirlər. Sizin güclü mövqeləriniz, əlbəttə ki, Azərbaycanın mövqelərini ikitərəfli formatda möhkəmləndirir. Çox istərdim ki, xarici ölkələrdəki azərbaycanlılar yaşadıqları ölkə-

lərin iqtisadi və ictimai-siyasi həyatında daha da fəal rol oynaya bilsinlər. İqtisadi sahədə bütövlükdə biz bunu görürük, ictimai-siyasi sahəyə gəldikdə isə, hələ çox işlər görülməlidir. Bizim nümayəndələr müxtəlif orqanlarda təmsil olunmalı, seçkilərdə iştirak etməlidirlər. Diasporalar daha da təşkilatlanmalıdır, xaricdə yaşayan azərbaycanlılar üçün doğma bir təşkilat, doğma bir ev olmalıdır. Ölkəmizin maraqlarının təmin olunmasında xarici ölkələrdə yaşayan azərbaycanlıların çox böyük rolu vardır.

Bildiyiniz kimi, xaricdə yaşayan azərbaycanlılar Azərbaycanda yaşayan azərbaycanlılardan bir neçə dəfə çoxdur və mən şəxsən hesab edirəm ki, başqa ölkələrdə işləyən, yaşayan insanlar Azərbaycan üçün çox böyük işlər görürlər. Bütövlükdə bu, müsbət haldır ki, bizim soydaşlarımız başqa ölkələrdə işləyirlər, maddi imkanlar əldə edirlər, öz mövqelərini möhkəmləndirirlər və artıq bu bir amilə çevrilir.

Yenə də deyirəm, Azərbaycan indi çox dinamik şəkildə inkişaf edir. Həm iqtisadi cəhətdən, həm də siyasi cəhətdən ölkə çox böyük beynəlxalq hörmətə malikdir. Bizim ikitərəfli əlaqələrimiz bütün ölkələrlə, xüsusilə Avropa ölkələri ilə indi tam yeni görkəm alır. Məsələn, Latviya–Azərbaycan münasibətləri burada bir örnək kimi göstərilə bilər. Latviya həm Avropa İttifaqının, həm də NATO-nun üzvüdür. Bölgədə çox böyük mövqelərə malikdir və bu gün Azərbaycanla çox gözəl münasibətləri var. Biz buraya böyük heyətlə gəlmişik – nazirlər, iş adamları, parlament nümayəndələri. Yəni bizim əlaqələrimiz hərtərəflidir və sizin burada güclü mövqelərə malik olmağınız bizim ikitərəfli əlaqələrimizə böyük dəstək olacaqdır. Bütövlükdə Baltikyanı ölkələrdə bizim siyasətimiz daha da fəal, çevik olmalıdır. Biz indi bu siyasəti bütün ölkələrlə – Latviya, Litva, Estoniya ilə aparırıq ki, münasibətlərimiz yaxşı qurulsun. Bu ölkələr bizi beynəlxalq müstəvidə daim dəstəkləyir və bilirsiniz ki, Birləşmiş Millətlər Təşkilatında GUAM ölkələrinin təşəbbüsü ilə qaldırılmış dondurulmuş münaqişələrin həlli məsələsi bütün Baltikyanı ölkələr tərəfindən dəstəklənir və onlar bizə səs verirlər. Biz də beynəl-

xalq təşkilatlarda daim bu ölkələrin maraqlarını müdafiə edəcəyik.

Prezident kimi, mən ilk dəfə Latviyadayam, burada gördüklərim məni çox sevindirir. Həm ölkənin inkişafı, həm də xüsusilə Latviya–Azərbaycan əlaqələri və onların gələcək perspektivləri sevindiricidir. Əlbəttə ki, Azərbaycan prezidenti kimi, məni Latviyada yaşayan azərbaycanlıların taleyi də yaxından maraqlandırır. Mən çox istərdim ki, burada yaşayan azərbaycanlılar çalışdıqları sahələrdə ən möhkəm mövqelərə malik olsunlar. Ölkənin ictimai-siyasi həyatında çox fəal iştirak etsinlər, biznes sahəsində öz imkanlarını daha da genişləndirə bilsinlər. Güclənən Azərbaycanda yaranan yeni imkanlar, artan potensial, Avropa üçün bizim ölkəmizin önəminin artması dolayı yolla sizin də buradakı fəaliyyətinizə, işlərinizə müsbət təsir göstərməlidir. Sadəcə olaraq, bu əlaqələr daha da sıx olmalıdır, sistemli şəkildə aparılmalıdır. Azərbaycanda fəaliyyət göstərən Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin xətti ilə, Xarici İşlər Nazirliyinin, səfirliyin xətti ilə, bütün başqa xətlərlə bu əlaqələr olmalıdır. Əgər sizin hansısa problemləriniz, sizi narahat edən məsələlər varsa, biz bunu bilməliyik və öz tərəfimizdən məsələnin həlli üçün səylər göstərməliyik. İndi Azərbaycanın kifayət qədər imkanları var.

Bir daha deyirəm, bizim Latviya ilə çox sıx siyasi dialoqumuz, iqtisadi əlaqələrimiz, ortaq maraqlarımız, gələcəkdə başlanacaq birgə layihələrimiz, əlbəttə ki, burada yaşayan azərbaycanlılar üçün də yeni imkanlar yaradacaqdır. Bilirsiniz ki, Latviya prezidentinin Azərbaycana səfərindən sonra Riqa ilə Bakı arasında birbaşa aviareyslər açıldı. Bu da, ilk növbədə, burada yaşayan azərbaycanlılar üçün böyük hadisədir və artıq rahat, heç bir tranzitsiz, heç bir çətinliksiz, birbaşa Riqa ilə Bakı arasında reyslər var. Şübhə etmirəm ki, gələcəkdə bu uçuşların sayı da artacaqdır. Çünki bizim 20-dən çox tanınmış biznes nümayəndəmiz buradadır, əlaqələr yaranacaq, digər işlər görüləcəkdir. Mən istəyirəm ki, burada yaşayan azərbaycanlılar, xüsusilə biznes sahəsində çalı-

şanlar da bundan bəhrələnsinlər. Çünki, yenə deyirəm, Azərbaycanın iqtisadi potensialı, maliyyə imkanları artır. Ölkənin büdcəsi son üç il ərzində dörd dəfə artmışdır – 1,5 milyard dollardan artıq 6 milyard dollara çatmışdır. Mənim yadımdadır, bir neçə il bundan əvvəl bəziləri Azərbaycanda belə bir fikir söyləyirdilər ki, Azərbaycan Baltikyanı ölkələrdən bir neçə dəfə böyükdür, niyə onların büdcəsi bizimkindən bir neçə dəfə çoxdur? Hətta Latviyanı və başqa qonşu ölkələri nümunə kimi göstərərək deyirdilər ki, onların büdcəsi 5 milyard dollardır, Azərbaycanın büdcəsi bir milyard. Azərbaycanın büdcəsi 6 milyard dollar olubdur. Amma icmal büdcə isə 7,5 milyard dollar olacaqdır.

Biz artıq bir ölkə kimi, çox güclü iqtisadi imkanlara malikik. Siyasi mövqelərimizi möhkəmləndiririk. Siz Avropada yaşayırsınız, Latviya Avropa İttifaqının üzvüdür. Artıq Azərbaycan Avropa İttifaqı ilə «Yeni qonşuluq siyasəti»nə başlayır. İki gün bundan əvvəl Avropa İttifaqı «üçlüyü»nün («Troyka») nümayəndə heyəti Bakıya gəlmişdi. Biz bütün məsələləri razılaşdırdıq ki, noyabr ayında Avropa İttifaqı ilə Azərbaycan arasında «Yeni qonşuluq siyasəti»nə dair razılaşma imzalanacaqdır. Biz Avropa İttifaqı ilə enerji sahəsində yeni bir əməkdaşlıq çərçivəsində məsələləri müzakirə edirik.

Azərbaycanın da imkanları artır və Azərbaycan sizin vətəninizdir. Mən əminəm ki, siz öz vətəninizi sevirsiniz, ona sadiqsiniz və vaxtaşırı Azərbaycana gəlirsiniz. Əlbəttə ki, Azərbaycanın artan mövqeləri sizdən ötrü də həm böyük mənəvi amildir, həm də praktiki əhəmiyyət kəsb edir. Mən səfər etdiyim bütün ölkələrdə azərbaycanlılarla görüşürəm. Bu bizim siyasətimizin mühüm hissəsidir. Xarici ölkələrdə yaşayan azərbaycanlılar – baxmayaraq ki, onlar Azərbaycan vətəndaşlarıdır, yaxud da yaşadıqları ölkələrin vətəndaşlarıdır – bizim qardaşlarımızdır. Ona görə də biz onların həyatına biganə qala bilmərik. Mən əminəm ki, artıq səfirlik işə başlayandan sonra bütün problemləriniz, yaxud da sizi narahat edən məsələlər operativ şəkildə öz həllini tapa bilər. Bilin ki, Azərbaycan dövləti sizin arxanızdadır.

Bu gün mən bir daha sizin hamınızı salamlayıram və çox şadam ki, Latviyada Azərbaycan diasporu təşkilatlanmış formada fəaliyyət göstərir. Əminəm ki, iki ölkə arasında artan, möhkəmlənən əlaqələr diasporun fəaliyyətinə də müsbət təsir göstərəcəkdir.

**Faiq Səfərov** (*Azərbaycan–Latviya Dostluq Cəmiyyətinin sədri*): Cənab Prezident, mən 30 ildən artıqdır Azərbaycandan kənarda yaşamağıma baxmayaraq, həmişə Azərbaycanla maraqlanmışam. Ölkəmizin tarixinə fikir versək, Azərbaycan heç vaxt belə yüksək səviyyədə olmamışdır. Bu ancaq və ancaq müstəqil Azərbaycanın memarı, xilaskarı, ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün azərbaycanlılar nəinki regionda, hətta bütün dünyada ümummilli liderimizin zəngin fəlsəfəsi ilə yaşamalıdırlar.

Azərbaycan xalqının böyük xoşbəxtliyidir ki, Siz bu yolu layiqincə davam etdirirsiniz. Siz bütün dünya azərbaycanlılarının, Azərbaycan xalqının dəstəyinə arxayın ola bilərsiniz. Mən ulu öndər Heydər Əliyevi öz valideynlərim qədər sevirəm və o həmişə mənim qəlbimdə yaşayacaqdır. Onun ideyalarına həmişə sadiq olacağam.

İstərdim, icazənizlə, bütün dünya azərbaycanlılarının, diasporumuzun adından onun büstünü Sizə hədiyyə edim.

***

*Ulu öndərin qızıldan hazırlanmış büstü prezident İlham Əliyevə təqdim olundu.*

*Dövlətimizin başçısı qiymətli hədiyyəyə görə təşəkkürünü bildirdi.*

*Sonra Baltikyanı ölkələrdə yaşayan bir neçə soydaşımız, Azərbaycan icmasının üzvləri prezidentə yaxınlaşaraq, səmimi söhbət etdilər, ona rəhbərlik və təmsil etdikləri diaspor təşkilatları tərəfindən nəşr olunmuş Azərbaycanla, ümummilli liderimizlə bağlı kitablar bağışladılar.Riqada salınacaq Latviya–Azərbaycan dostluq*

*parkı layihəsinin azərbaycanlı müəllifləri dövlətimizin başçısına xüsusi xatirə hədiyyələri verdilər.*

*Prezident İlham Əliyev təşəkkür edərək dedi ki, bu gün Şəhər Dumasında olarkən orada mənə parkın layihəsini göstərdilər. Sizin işlədiyiniz bu layihə çox gözəldir. Məncə, gərək elə yer seçilsin ki, oraya sakinlər çox gəlib-getsinlər, yəni o yer gur olsun. Bu, şəhər üçün də çox vacibdir. Şəhərin meri mənə bu layihəni göstərdi və xoşuma gəldi.*

*Estoniya–Azərbaycan icmasının üzvləri prezidentə xatirə hədiyyəsi təqdim etdilər. Onlar dedilər ki, cənab Prezident, Sizin Baltikyanı bölgəyə, konkret olaraq, Azərbaycana dost olan Latviyaya səfəriniz bizi də çox sevindirir, fəaliyyətimizin daha da səmərəli olmasına xidmət edir. Baltikyanı ölkələrdə yaşayan azərbaycanlılar ictimai-siyasi həyatda çox fəaldırlar. Eyni zamanda, Sizi Latviyanın qonşusu olan Estoniya və Litvada da görmək çox xoş olardı.*

*Litva–Azərbaycan icması adından danışan Sadıq Nurullayev dövlətimizin başçısına Litvanın keçmiş paytaxtı olmuş Trakay şəhəri barədə buklet təqdim edərək dedi ki, burada əsasən, karaimlər yaşayır və onların dili Azərbaycan dilinə yaxındır.*

**İlham Əliyev:** Onların bir nümayəndəsi Türkiyədə səfir olub, sonra isə başqa vəzifə almışdı. O, Bakıya gəlmişdi.

**Sadıq Nurullayev:** İndi o, prezidentin köməkçisidir.

**İlham Əliyev:** Özü də karaimdir.

**Sadıq Nurullayev:** Bəli, o Türkiyəyə yenidən səfir gedəcəkdir.

**İlham Əliyev:** Axı o, Türkiyədə səfir olubdur.

**Sadıq Nurullayev:** Amma yenə gedəcəkdir.

Cənab Prezident, biz Azərbaycanın artan potensial imkanları ilə fəxr edirik. 1996-cı ildə məqalələrimizdə yazmışdıq ki, Azərbaycan regionun incisi olacaq, onda hamı bizə şübhə ilə yanaşırdı. Artıq 2006-cı ildir, biz görürük ki, Azərbaycan, həqiqətən də, regionun incisidir. Sizin dediyiniz kimi, indi regionda Azərbaycansız heç bir iş görülmür, layihə

həyata keçirilmir. Biz bundan çox sevinirik. Mən iqtisadi elmlər doktoruyam, hesablamalarımıza görə, 2014-cü ildə Azərbaycanda kiçik və orta biznes büdcə gəlirlərinin 60–75 faizini verəcəkdir. Bu bizim arzumuzdur. Belə olan halda, biz inkişaf etmiş ölkələr səviyyəsinə gəlib çatacağıq.

**İlham Əliyev:** Məncə, biz ondan tez gəlib çatmalıyıq. Çünki biz qarşıya elə məqsəd qoymuşuq ki, hər şey qısa müddət ərzində olsun.

**Sadıq Nurullayev:** Biz Latviyadakı səfirimizə də təşəkkür edirik ki, Litvadakı azərbaycanlıları yaddan çıxarmır. İstərdik ki, Latviyadakı səfirliyimiz Estoniyanı da əhatə etsin.

**İlham Əliyev:** Əlbəttə, gərək biz bunu həll edək.

*Görüşdən sonra soydaşlarımız Azərbaycan prezidenti ilə xatirə şəkli çəkdirdilər.*

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də Latviya Respublikasına dövlət səfərini başa çatdıraraq vətənə yola düşdü.*

*Hər iki ölkənin dövlət bayraqları ilə bəzədilmiş Riqanın Beynəlxalq Hava limanında Azərbaycan prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlətimizin başçısını Latviyanın Xarici İşlər naziri Artis Pabriks və digər dövlət, hökumət nümayəndələri böyük hörmət və ehtiramla yola saldılar.*

*Prezident İlham Əliyev oktyabrın 5-də Bakıya qayıtdı.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN QUBA RAYONUNA SƏFƏRİ

*7 oktyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 7-də Quba rayonunda olmuşdur.*

*Dövlətimizin başçısı əvvəlcə Quba–İspik–Xınalıq avtomobil yolunun istifadəyə verilməsi mərasimində iştirak etdi.*

*Prezident İlham Əliyev yolun başlanğıcında tikintinin layihəsi ilə tanış oldu. Nəqliyyat naziri Ziya Məmmədov yolun əsas göstəriciləri barədə məlumat verərək dedi ki, ümumi uzunluğu 57 kilometr, eni çətin sahələrdə 5-6, qalan yerlərdə isə 8–10 metrdir. 1,2 milyon kubmetr torpaq, qazma, partlayış işləri görülmüşdür. 45 min ton asfalt döşənmiş, 9 ədəd yeni körpü tikilmiş, 39 ədəd suötürücü boru quraşdırılmış, təhlükəsizlik bəndləri tikilmişdir. Qəçrəş–Qımılqazma–Qırızdəhnə–Əlik–Cek–Xınalıq istiqamətində çəkilmiş yolun inşasında 270-dən çox müxtəlif texnikadan istifadə olunmuş, ümumilikdə 14 milyon manat vəsait xərclənmişdir. Yolun tikintisində min nəfərə qədər işçi çalışmışdır.*

*Tikintini optimal müddətdə başa çatdırmaq məqsədi ilə ixtisaslı, dağ yollarının çəkilməsində əməli təcrübəsi olan mütəxəssislər işə cəlb edilmişdir. Əvvəllər nəqliyyat vasitələrinin güclə keçdiyi, üz-üzə gələndə isə kilometrlərlə geriyə çəkilərək, bir-birinə yol verməli olduqları sahələr genişləndirilmişdir. Qısa müddətdə ən çətin sahələrdə 22 kilometr məsafədə partlayış işləri aparmaq lazım gəlmişdir.*

*5-ci texniki kateqoriyaya uyğun olaraq, yolun torpaq yatağının eni 8, asfalt hissəsinin eni isə 6 metrə çatdırılmışdır.*

*Yola üçqat asfalt döşənməsi planlaşdırılır. Hələlik 8–10 santimetr qalınlığında birinci qat salınmışdır.*

*Bir sözlə, dağ kəndlərinin sakinlərini arzusuna qovuşduran mühəndis və texniklər qısa müddətdə əsl xariqə yaratmışlar. Vaxtilə «Dağlarda ada» adlandırılan Xınalığa indi geniş asfalt uzanır. «Yolnəqliyyatservis» Departamentinin əməkdaşları həm də yağışlı-yağmurlu günlərdə gediş-gəlişin o qədər də asan olmadığı kəndarası yollara asfalt döşəmişlər. Beləliklə, Xınalığın yol əfsanəsi reallığa çevrilmişdir.*

*Sonra dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi və avtomobili özü idarə edərək, Xınalıq kəndinə yola düşdü. Prezident İlham Əliyev yolboyu bir neçə mənzərəli yerdə avtomobili saxladı, bulaqdan su içdi, füsunkar təbiətin gözəl mənzərələrini seyr etdi.*

## QƏDİM XINALIQ KƏNDİNİN SAKİNLƏRİ İLƏ GÖRÜŞ

*7 oktyabr 2006-cı il*

*Azərbaycan prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın Quba rayonunun mərkəzindən 60 kilometr uzaqda, Baş Qafqaz və Yan silsilələri arasında, dəniz səviyyəsindən 2300 metr yüksəklikdə yerləşən Xınalıq kəndinə gəlişi əsl bayrama çevrildi. Kəndin mərkəzi meydanına toplaşan yüzlərlə sakin dövlətimizin başçısını və xanımını hərarətli, sürəkli alqışlarla, böyük hörmət və ehtiramla, duz-çörəklə qarşıladılar. Azərbaycan prezidentinin gəlişi şərəfinə qurban kəsildi.*

*Sakinlər dövlətimizin başçısına minnətdarlıq edib dedilər ki, yolun genişləndirilməsi, asfaltlaşdırılması insanlara böyük sevinc bəxş etdi. Yolun çətinliyi üzündən illərlə dağ başında piyaləni xatırladan Xınalığa həsrət qalan insanları yenidən doğma yerlərə qaytaracaqdır. Allah Sizə uzun ömür, cansağlığı versin. Sizin sərəncamınızla çəkilib başa çatdırılan bu yolun təkcə Xınalıq üçün deyil, ətraf ərazilərdəki 12 kəndin əhalisi üçün də mühüm iqtisadi əhəmiyyəti var. Bu füsunkar guşənin təkrarsız təbiəti, gözoxşayan gözəllikləri, meşələri, dağları, təbii ki, lap yaxın zamanlarda burada turizmin inkişafına geniş imkanlar açacaq, özünün ikinci ömrünü yaşayan Xınalıqdan başlanan bu yol neçə-neçə məmləkətin insanlarını bir-birinə qovuşduracaqdır.*

*Sonra «Azərbaycan Televiziya və Radio Verilişləri» Qapalı Səhmdar Cəmiyyətinin çəkdiyi «Xınalıq və Xınalıq yolu» sənədli filmi nümayiş etdirildi. Filmdə Xınalıq kəndinin tarixi barədə məlumat verilir. İki minə yaxın sakini olan bu kəndin öz dili – Xınalıq dili var. 1960-cı ildə çəkilmiş «Dağlarda ada»*

*adlı film də qədim tarixə malik Xınalıq haqqında, burada yaşayan sənətkarların məşğuliyyəti, yolların vəziyyəti barədə tamaşaçıda aydın təsəvvür yaradır. 60-cı illərin əvvəllərində Xınalığa yol çəkilməsi planlaşdırılsa da, bu iş baş tutmamışdır. Xınalıq sakinlərinin bu arzusu yalnız XXI əsrin əvvəllərində reallaşdı. Prezident İlham Əliyevin keçən il Quba rayonuna səfəri Xınalıq kəndinin yüz illərlə davam etmiş yolsuzluq tarixinə son qoydu. Xınalığa gedən yolda, Qudyalçay üzərindən salınmış körpünün üstündə dağ kəndlərinin sakinləri ilə görüşən prezident İlham Əliyev Xınalığa yol çəkilməsi barədə göstəriş verdi.*

*Filmin nümayişindən sonra sakinlərlə görüş keçirildi. Görüşü kənd ağsaqqalı Soltanağa Xəlilov açdı.*

**Soltanağa Xəlilov:** Möhtərəm cənab Prezident! Bizim qədim kəndimizə xoş gəlmisiniz!

Sizin Xınalıq üçün gördüyünüz iş misilsizdir. Bu, tariximizin çox qiymətli bir anıdır. Qiymətli günlər haqqında tarixi rəvayətlər çoxdur. Allah-taala kəlamının 97-ci surəsinin ikinci ayəsində deyilir ki, bir gün min aya bərabərdir. Amma qırğız yazıçısı Çingiz Aytmatov isə deyir ki, gün var əsrə bərabərdir, əsr var günə bərabər deyil. Bizim bugünkü günümüz isə tarixi bəlli olmayan Xınalığın tarixinə bərabərdir. Allah Sizdən razı olsun, Sizə cansağlığı versin. Arzu edirik ki, Siz bizim əbədi prezidentimiz olasınız. Milli Məclisdən, aidiyyəti orqanlardan xahiş edərdim ki, seçki qanunvericiliyində dəyişiklik edilsin və Siz ömrünüz boyu bizim prezidentimiz olasınız.

Bu mənim səmimi ürək sözlərimdir.

Cənab Prezident, bizə göstərdiyiniz diqqət-qayğıya, çəkdirdiyiniz bu yola görə camaatımız adından Sizə təşəkkür edirik. Çox sağ olun, Allah Sizi var etsin.

Bütün bunlarla yanaşı, bəzi məsələləri də diqqətə çatdırmaq istərdim. Bizim çətinliklərimiz var. İçməli su məsələsi çox çətindir, kəndin aşağı məhəlləsinə su getmir. Bir kilometrlik məsafədən gəlib su aparırlar. Bundan əlavə, biz tele-

fondan istifadə edə bilmirik. Mobil telefondan ötrü qurğu yoxdur ki, istədiyimiz vaxt danışa biləк. Şəhərlərarası telefon isə əl vermir, çünki bir neçə mərhələdən keçmək lazımdır.

Əsas problemlərimizdən biri də gələcək nəsil üçün məktəb binasının olmamasıdır. Məktəbimiz bərbad vəziyyətdədir. Müvəqqəti məktəb tikilibdir, ancaq onun da vaxtı keçibdir. Burada qışda 30 dərəcə şaxta olur, bu cür şəraitdə uşaqlarımız sinifdə otura bilmir. Yanacaq məsələsi də çox çətindir. Nə qaz var, nə odun var, təzəkdən istifadə edirik. Xahiş edərdik ki, bu barədə bizə kömək edəsiniz.

Cənab Prezident, bizim əsas məşğuliyyətimiz qoyunçuluq, maldarlıq, əkinçilikdir. Bunun da vaxtı cəmi üç-dörd aydır. İndi görürsünüz, dağlardakı qar bizə bir növ xəbərdarlıq edir. Allah rəhmət etsin, Aşıq Ələsgər deyir ki:

Yayın ortasında dönürsən xana,
Son ayda bənzərsən yetkin bostana,
Payızın zəhmarı qoyar virana,
Dağıdar üstündən məlalı, dağlar.

Cənab Prezident, bir məsələni də demək istəyirəm. Bizim torpaq sahələrimiz müxtəlif bəhanələrlə əlimizdən alınıbdır. Əvvəl bizdə 96 min hektar qış otlaq sahəsi var idi. İndi heç 50 min hektarı qalmayıbdır və bunu da əlimizdən almaq istəyirlər. Bəhanə də ondan ibarətdir ki, guya bu torpaqları bələdiyyələrin işçilərinə yaşayış sahəsi kimi verirlər. Ancaq heç bir yerdə belə şey yoxdur. O torpaqlar bizdən alınıb kimlərəsə qoyun saxlamaqdan ötrü verilibdir. Məqsəd torpağı bizdən almaqdır. Xahiş edərdik ki, bizə məxsus olan ərazi sərəncamımıza keçsin və biz bir çox məsələlərdən asılı olmayaq. Yay otlaq sahələri də bizim üçün dolaşıqdır. Vaxtilə burada 5-6 min baş qoyun olubdur. İndi sayı 50 minə çatıbdır. Bu sayda heyvanın saxlanması üçün bizdə yer yoxdur. İstərdik bunları nəzərə alıb bizə şərait yaradasınız.

Diqqətinizə görə çox sağ olun.

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Əziz bacılar və qardaşlar!

Əziz xınalıqlılar!

Sizi ürəkdən salamlayıram və yeni istifadəyə verilmiş yolun açılışı münasibətilə ürəkdən təbrik edirəm.

Xınalıq çox qədim məkandır, Azərbaycanın ən qədim kəndlərindən biridir. Mənə verilən məlumata görə, burada insanlar əsrlər boyu, ən azı 4 min il bundan əvvəl yaşamışlar. Çox ağır, çətin şəraitdə, bu dağlarda, soyuqda yaşamışlar.

Əlbəttə ki, bu kəndin gələcək inkişafı üçün mütləq və mütləq buraya yol çəkilməli idi. Mən keçən il Qubada olarkən maraqlandım ki, bizim ən qədim, ən məşhur kəndlərimizdən biri olan Xınalığa yol var, ya yox? Dedilər ki, çox bərbad vəziyyətdədir. Beş saata, altı saata getmək mümkün deyildir. Bu, böyük əziyyətdir. Ona görə dərhal Nəqliyyat Nazirliyinə göstəriş verdim ki, layihə hazırlasınlar və buraya yeni yolun çəkilişi üçün müvafiq işləri görsünlər. Bu da çox böyük qəhrəmanlıq tələb edən bir məsələdir. Bu kəndə yol çəkmək çox böyük hadisədir və onu göstərir ki, Azərbaycanın indi imkanları elədir ki, istənilən məsələ öz həllini tapa bilər. Əgər Xınalığa yol çəkə biliriksə, deməli, daha bizim qarşımızda heç bir maneə ola bilməz. Cəmi 4 ay ərzində gözəl yol çəkilib, mən bu yolu gəlmişəm, maşını özüm sürmüşəm, özü də çox rahat gəlmişəm. Bu hələ işin birinci mərhələsidir. Hələ əlavə yol örtüyü də salınacaq, lap şüşə kimi yol olacaq və insanlar bundan sonra rahat gəlib-gedəcəklər. Eyni zamanda, rayon mərkəzi ilə daim əlaqə saxlanılacaqdır. Bundan başqa, buraya turistlər gələcək, inkişaf olacaqdır. Yol olmayan yerdə inkişaf ola bilməz. Siz, demək olar ki, ilin əksər hissəsini təcrid olunmuş vəziyyətdə yaşayırsınız. 8-9 ay ərzində buraya gəliş-gediş mümkün deyildir. Ona görə, əlbəttə ki, burada böyük çətinliklər var.

Bu yolun çəkilişi birinci addımdır. Bundan sonra başqa işlər də görüləcəkdir. Mən göstəriş verəcəyəm ki, sizin

toxunduğunuz məsələlər də həll olunsun. Elə məsələlər var ki, yerli icra hakimiyyəti orqanları həll edə bilər, elələri də var ki, onları mərkəzi icra orqanları həll etməlidir. Burada telefon rabitəsi üçün, qurğuların quraşdırılması üçün göstəriş verəcəyəm. Təhsil Nazirliyinə göstəriş veriləcək ki, yeni, gözəl məktəb tikilsin. Su probleminin həlli üçün «Azərsu» Səhmdar Cəmiyyətinə göstəriş verəcəyəm. Yenə deyirəm, Azərbaycan indi elə sürətlə inkişaf edir, iqtisadi potensialını elə möhkəmləndirir ki, istənilən məsələ öz həllini tapa bilər. Mənim əsas məqsədim ondan ibarətdir ki, Azərbaycanın bütün yerlərində yaşayan insanlar bu gözəl imkanlardan bəhrələnə bilsinlər. Ən ucqar kənddə yaşayanlar ən müasir şəraitlə təmin olunmalıdırlar. Çünki Azərbaycan inkişaf edir, müasirləşir, bizim iqtisadiyyatımız çox uğurla inkişaf edir. Əgər iqtisadiyyat inkişaf etməsəydi, bu yolu çəkmək mümkün deyildi. Bu yolun çəkilişinə 14 milyon yeni manat xərclənibdir. Böyük puldur. Bunu haradan götürmüşük? Büdcəmiz artır. Bizim iqtisadi siyasətimiz uğurludur, iqtisadi islahatlar sürətlə aparılır və əlavə imkanlar yaranır. Demək, pul olan halda, texnika da olacaqdır. Əgər texnika olmasaydı, nə qədər pulun olsa da, yolu çəkmək mümkün deyildir. Texnika alınıbdır, bütün işlər yüksək səviyyədə, dünya səviyyəsində görülübdür. Mənim də istəyim budur ki, bütün işlər ən yüksək səviyyədə görülsün. Azərbaycan xalqı buna layiqdir. Biz indi bölgədə ən qabaqcıl ölkəyə çevrilirik, daha doğrusu, çevrilmişik. İqtisadi artım baxımından dünyada birinci yerdəyik. Sosial məsələlər öz həllini tapır, maaşlar, pensiyalar qaldırılır. Bu yaxınlarda pensiyalar, müəllimlərin maaşları qaldırılıbdır. Ondan əvvəl səhiyyə işçilərinin maaşları artırılıbdır. Yanvarın 1-dən minimum əməkhaqqı qaldırılacaqdır. Yəni bütün bunlar onun üçündür ki, insanlar daha da yaxşı yaşasınlar. Bir tərəfdən, sosial təminat yaxşılaşır, digər tərəfdən, infrastruktur layihələr həyata keçirilir. İndi Azərbaycanda yol tikintisi çox geniş vüsət alıbdır. Bütün ucqar kəndlərə yollar çəkilibdir. Əlbəttə,

magistral yollar da çəkilir. Bu da lazımdır. Azərbaycanı dünyaya, başqa qonşu ölkələrlə birləşdirən magistral yollar çəkilir. Məsələn, indi Bakı–Quba avtomobil yolu tikilir. Mən dünən axşam buraya gələndə gördüm ki, işlər başlanıbdır. Düz Rusiya sərhədinə qədər uzanacaq, yəni Bakıdan buraya gəlmək çox rahat olacaqdır. İndi Qubadan Xınalığa gəlmək adama ləzzət verir: gözəl mənzərə, gözəl dağlar, çaylar, bulaqlar, şəlalələr. Mən indi gələrkən bir neçə yerdə maşını saxlayaraq düşub, bu mənzərəyə tamaşa edirdim. Adam özünü çox yaxşı hiss edir. Mən bu gün özümü xüsusilə yaxşı hiss edirəm. Çünki mənim göstərişimlə bu yol çəkildi və bütün Xınalıq camaatına sevinc gətirdi.

Prezident nə vaxt sevinir? O vaxt sevinir ki, onun xalqı sevinir, insanların üzü gülür. O vaxt sevinir ki, inkişaf var, yenilik var. Bax, bu gün bunlar var. Azərbaycanın bütün yerlərində, o cümlədən burada, ən qədim kənddə, Qafqazın ən yüksək zirvəsində yerləşən kənddə. Siz 2300 metr yüksəklikdə yerləşirsiniz. Bəlkə bir 2-3 kənd var ki, sizdən hündürdədir. Bura ən qədim, ən ucqar, ən əlçatmaz kəndlərdəndir. Xınalıqlılar ən qədim tarixə malikdirlər. Siz deyirsiniz, 5 min il tarixi var, ola bilər. Amma 4 min il dəqiqdir.

Bu illər, bu əsrlər ərzində xınalıqlılar öz xüsusiyyətlərini saxlamışlar, öz dillərini saxlamışlar. Xınalıq dili dünyada mövcud olan dillərdən bəlkə də ən qədimidir. Mən bunları bilirəm. Bu onu göstərir ki, Azərbaycan nə qədər zəngin ölkədir: həm təbii ehtiyatlar, həm gözəl təbiət, həm də insanların – millətlərin, etnik qrupların müxtəlifliyi. Biz Azərbaycanda bir ailə kimi yaşayırıq. Harada belə vəziyyət var? Biz indi görürük, başqa yerlərdə, əksinə, insanların arasında bəzən süni şəkildə, başqa səbəblərdən narazılıqlar, qarşıdurma yaranır, hansısa ayrı-seçkilik olur. Azərbaycanda bunlar yoxdur. Hər bir Azərbaycan vətəndaşı mənim qardaşımdır. Kənddə yaşayan hər bir vətəndaş mənim üçün əzizdir. Mən prezident seçiləndə demişəm ki, çalışacağam hər bir Azərbaycan vətəndaşı üçün prezident olum. Hər bir

Azərbaycan vətəndaşının prezidenti olum ki, hər bir Azərbaycan vətəndaşı öz gündəlik həyatında bu dəyişiklikləri görsün. Artıq mən üç ildir bu vəzifədəyəm. Bu barədə çox danışmaq istəmirəm, amma üç ildə işlər görülübdür.

Bu gözəl gündə sizinlə bərabər olmaq mənim üçün çox xoşdur. Mən sizi bir daha ürəkdən salamlayıram, əminəm ki, bu yol çəkiləndən sonra kəndin yeni dövrü başlanacaqdır. Bu kənd əbədi yaşayacaq, xınalıqlılar əbədi yaşayacaqlar və doğma Azərbaycanımızın inkişafına, çiçəklənməsinə öz töhfələrini verəcəklər. Bir daha sizi salamlayıram, yolun istifadəyə verilməsi münasibətilə təbrik edirəm.

*Görüşdən yadigar olaraq prezident İlham Əliyevə Xınalıq kəndində toxunmuş xalça hədiyyə edildi.*

*Dövlətimizin başçısı xanımı ilə birlikdə kəndin bir neçə sakininin evinə gedərək, onların qonağı oldu, yaşayış şəraitləri ilə tanış oldu.*

*Sakinlər bir daha prezident İlham Əliyevə ən xoş arzu və niyyətlərini bildirdilər.*

***

*Azərbaycan prezidenti Xınalıq kənd orta məktəbinə də baş çəkdi, ayrı-ayrı sinif otaqlarına baxdı, şəraitlə yaxından tanış oldu.*

*Bildirildi ki, 300 nəfərin təhsil aldığı məktəb binasının vəziyyəti qənaətbəxş deyil, müvəqqəti sinif otaqları tikilsə də, tələbatı ödəmir. Ona görə də yeni məktəb binasına ehtiyac duyulur.*

*Dövlətimizin başçısı burada yeni müasir məktəb binasının tikilməsi üçün Təhsil Nazirliyinə göstəriş veriləcəyini söylədi, şagirdlərin yaxşı təhsil alması üçün hər cür şəraitin yaradılacağını vurğuladı.*

## Quba sərhəd dəstəsinin Xınalıq sərhəd zastavasının şəxsi heyətilə görüş

*Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev oktyabrın 7-də Quba sərhəd dəstəsinin Xınalıq sərhəd zastavasının açılışında iştirak etmiş, şəxsi heyətlə görüşmüşdür.*

*Azərbaycan prezidentini Dövlət Sərhəd Xidmətinin rəisi, Sərhəd Qoşunlarının komandanı general-leytenant Elçin Quliyev qarşılayaraq raport verdi: «Möhtərəm Prezident, cənab Ali Baş Komandan! Xınalıq sərhəd zastavasının şəxsi heyəti Sizin gəlişiniz münasibətilə düzülmüşdür».*

*Ali Baş Komandan İlham Əliyev sərhədçiləri salamladı.*

*Dövlətimizin başçısı zabitlərin xidməti şəraiti ilə maraqlandı, sərhəd zastavasının qərargahı ilə ətraflı tanış oldu, «Mətbuat lövhəsi»ndə Xınalıq kəndinə aid fotoşəkillərə maraqla baxdı.*

*General-leytenant Elçin Quliyev məlumat verdi ki, zastavanın yerləşdiyi Xınalıq kəndində iqlim şəraiti sərt olduğuna görə, dağlıq ərazilərdə xüsusi mühafizə avadanlığından, eləcə də xizəklərdən istifadə edilir.*

*Ali Baş Komandan dağlıq ərazilərdə sərhədçilərin istifadə etdikləri texnikaya, cihazlara və ləvazimata, müxtəlif təyinatlı digər avadanlığa, o cümlədən xizəklərə baxdı.*

*Prezident İlham Əliyev zastavanın həyətindən «Heydər zirvəsi»nə, dəniz səviyyəsindən 3 min metr hündürlükdə dalğalanan Azərbaycan bayrağına, dağın döşündə həkk olunmuş «Yaşa Azərbaycan» yazısına tamaşa etdi, dağlıq ərazidə sərhədçilərin at və itlərdən necə istifadə etmələrinə baxdı. Sonda isə bu mənzərəli yerdə xatirə şəkli çəkdirdi.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev daha sonra Qubanın Qəçrəş kəndinə yola düşdü. Qırızdəhnə kəndi ərazisində avtomobili saxlayaraq, onun pişvazına çıxmış kənd sakinləri ilə görüşdü, onların problemləri ilə maraqlandı. Qırızdəhnə kənd orta məktəbinə baş çəkən dövlətimizin başçısı və xanımı Nəqliyyat Nazirliyi tərəfindən tikilmiş 50 yerlik bu təhsil ocağı ilə yaxından tanış oldular. Sakinlər və müəllimlər Quba–İspik–Xınalıq yolunun tikintisinə, ucqar kəndlərdə təhsilin inkişafına göstərdiyi qayğıya görə dövlətimizin başçısına təşəkkürlərini bildirdilər.*

*Kənddəki «Nazlı bulaq» istirahət mərkəzinin qarşısında da prezident İlham Əliyevi və Mehriban xanımı böyük hörmətlə, gül-çiçəklə qarşıladılar. Dövlətimizin başçısının şərəfinə qurban kəsildi.*

## İbrahim Şahmərdanov adina Qəçrəş kənd orta məktəbi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev daha sonra İbrahim Şahmərdanov adına Qəçrəş kənd orta məktəbinə gəldi.*

*Burada dövlətimizin başçısını və xanımını böyük hörmətlə, səmimiyyətlə qarşıladılar, onlara gül dəstəsi təqdim olundu.*

*Məktəbin direktoru Səmayə Məhərrəmova prezident İlham Əliyevə məlumat verdi ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan, 240 şagird üçün nəzərdə tutulan məktəbdə hazırda 397 uşaq iki növbədə təhsil alır, 23 müəllim çalışır. 50-ci illərdə tikilmiş məktəbin köhnə binası tamamilə sökülərək, yerində ikimərtəbəli, yaraşıqlı bina tikilmişdir. Məktəbin açılışı yeni dərs ilində – sentyabrın 15-də olmuşdur. Məktəb Fond tərəfindən lazımi avadanlıq, ləvazimatlar və dərs vəsaitləri ilə tam təmin olunmuş, yeddi kompüter dəsti hədiyyə edilərək internetə qoşulmuşdur. Burada hərbi fənn kabineti, futbol və voleybol meydançaları da var.*

*Azərbaycan prezidenti və xanımı ulu öndərin həyat və fəaliyyətini, təhsilə və gəncliyə göstərdiyi qayğını, habelə prezident İlham Əliyevin fəaliyyətini əks etdirən fotoguşələrlə tanış oldular.*

*Dövlətimizin başçısı ayrı-ayrı sinif otaqlarına, idman zalına, kitabxanaya və kompüter otağına baxdı, tədris prosesi ilə maraqlandı, uşaqların yüksək səviyyədə təhsil alması üçün bundan sonra da hər cür şərait yaradılacağını vurğuladı. Bildirdi ki, ümumiyyətlə, ölkəmizdə bu sahədə çox böyük işlər görülür, müasir standartlara cavab verən binalar tikilir, orta məktəblərin kompüterləşdirilməsi uğurla davam etdirilir.*

*Müəllimlər onlara göstərilən diqqətə və qayğıya görə prezident İlham Əliyevə və Mehriban xanıma minnətdarlıq etdilər, gələcək nəslin savadlı və vətənpərvər böyüməsinə çalışacaqlarını, şagirdlər isə yüksək təhsil alaraq Azərbaycanın layiqli vətəndaşı kimi yetişəcəklərini bildirdilər.*

## MDB-nin ÜZVÜ OLAN ÖLKƏLƏRİN BİTKİ KARANTİNİ ÜZRƏ KOORDİNASİYA ŞURASININ 13-cü KONFRANSININ, AVROPA VƏ ARALIQ DƏNİZİ ÖLKƏLƏRİ BİTKİ KARANTİNİ VƏ MÜHAFİZƏSİ TƏŞKİLATININ BAKI SEMİNARININ İŞTİRAKÇILARINA

Hörmətli xanımlar və cənablar!

Sizi –Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin bitki karantini üzrə Koordinasiya Şurasının 13-cü konfransının, Avropa və Aralıq Dənizi Ölkələri Bitki Karantini və Mühafizəsi Təşkilatının Bakı şəhərində keçirilən seminarının iştirakçılarını salamlayıram, konfransın işinə uğurlar arzulayıram.

Respublikamızda fitosanitariyanın inkişafında beynəlxalq təşkilatların, o cümlədən FAO-nun, Avropa və Aralıq Dənizi Ölkələri Bitki Karantini və Mühafizəsi Təşkilatının dəstəyi olmuşdur.

Azərbaycan Respublikası 1951-ci ildə Romada qəbul edilmiş Beynəlxalq Bitki Mühafizəsi Konvensiyasına, eləcə də MDB iştirakçısı olan dövlətlərin Hökumət Başçıları Şurasının 1992-ci ildə Moskva şəhərində keçirilmiş iclasında imzalanmış «Bitki karantini sahəsində əməkdaşlıq haqqında» sazişə 1998-ci ildən qoşulmuşdur.

Azərbaycan hökuməti bitki mühafizəsi və karantini sahəsində İran İslam Respublikası, Moldova, Özbəkistan, Rumıniya və Ukrayna ilə sazişlər imzalamışdır.

Beynəlxalq təşkilatların texniki-maliyyə yardımı ilə Azərbaycanda fitosanitariya sahəsində bir sıra layihələr həyata keçirilmiş, qanunvericilik bazası yaradılmış, beynəlxalq standartlara uyğun müasir avadanlıq alınmışdır.

Əminəm ki, bu konfrans bitki mühafizəsi və karantini sahəsində ənənəvi münasibətlərin inkişaf etdirilməsinə, idxal-ixrac əməliyyatlarının genişləndirilməsinə, elmi-texniki təcrübənin mübadiləsinə öz töhfəsini verəcəkdir.

Hörmətli konfrans iştirakçıları!

Xoşməramlı fəaliyyətinizdə sizə yeni nailiyyətlər, hər birinizə cansağlığı və səadət arzu edirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 oktyabr 2006-cı il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV «ROSSİYA» TELEKANALININ «VESTİ» PROQRAMINA MÜSAHİBƏ VERMİŞDİR

*Prezident sarayı*

*9 oktyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Prezident sarayında «Rossiya» telekanalının «Vesti» proqramının aparıcısı Sergey Brilyova müsahibə vermişdir.*

*Dövlətimizin başçısı Azərbaycan–Rusiya münasibətləri, ölkəmizdə iqtisadi inkişaf, regional əməkdaşlıq və digər məsələlər barədə suallara ətraflı cavab vermişdir.*

## ATƏT-in KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ AZADLIĞI ÜZRƏ NÜMAYƏNDƏSİ MİKLOŞ HARAŞT İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*9 oktyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Prezident sarayında ATƏT-in kütləvi informasiya vasitələri azadlığı üzrə nümayəndəsi Mikloş Haraştı qəbul etmişdir.*

*Görüşdə mətbuat azadlığı və demokratiyanın inkişafı sahəsində görülən işlər barədə fikir mübadiləsi aparıldı.*

## «NOBL» ŞİRKƏTİNİN PREZİDENTİ RİÇARD ELMAN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*9 oktyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Prezident sarayında «Nobl» şirkətinin prezidenti Riçard Elmanı qəbul etmişdir.*

*Riçard Elman Azərbaycanda ilk dəfə olduğunu və ölkəmizdə gedən geniş tikinti və quruculuq işlərinin onda böyük təəssürat yaratdığını dedi.*

*Dövlətimizin başçısı bildirdi ki, ölkəmiz güclü və dinamik iqtisadi inkişaf yoluna qədəm qoymuşdur. Əsas məqsədimiz qeyri-neft sektorunun davamlı inkişafına nail olmaqdır. Görülən tədbirlər bu istiqamətdə uğurlar əldə etmək üçün baza yaradır.*

## NATO BAŞ KATİBİNİN CƏNUBİ QAFQAZ VƏ ORTA ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ ROBERT SİMMONSUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*9 oktyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Prezident sarayında NATO Baş katibinin Cənubi Qafqaz və Orta Asiya üzrə xüsusi nümayəndəsi Robert Simmonsun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*NATO-nun Baş katibi Yaap de Hoop Sxefferin salamlarını dövlətimizin başçısına çatdıran Robert Simmons Azərbaycan ilə NATO arasında «Fərdi tərəfdaşlığın fəaliyyət planı» çərçivəsində əməkdaşlığın genişlənməsindən məmnunluğunu söylədi.*

*Salamlara görə minnətdarlığını bildirən prezident İlham Əliyev onun da salamlarını NATO-nun Baş katibi Yaap de Hoop Sxefferə çatdırmağı xahiş etdi. «Fərdi tərəfdaşlığın fəaliyyət planı» çərçivəsində Azərbaycan–NATO əməkdaşlığının uğurla həyata keçirildiyini vurğulayan dövlətimizin başçısı bu əməkdaşlığın gələcəkdə də inkişaf edəcəyinə ümidvar olduğunu bildirdi.*

## MDB ÖLKƏLƏRİ MƏDƏNİ ƏMƏKDAŞLIQ ŞURASININ 21-ci İCLASI İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*9 oktyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Prezident sarayında MDB ölkələri Mədəni Əməkdaşlıq Şurasının 21-ci iclası iştirakçılarını qəbul etmişdir.*

*Prezident İlham Əliyev islasın uğurlu keçməsini Bakıda belə tədbirlərin tez-tez təşkil olunması ilə əlaqələndirərək dedi ki, Azərbaycanda Müstəqil Dövlətlər Birliyinin müxtəlif strukturlarının mötəbər tədbirləri həmişə yüksək səviyyədə keçir. Dövlət başçısı bildirdi ki, Azərbaycanda «Rusiya İli»nin tədbirlər planına uyğun olaraq, belə tədbirlər intensiv xarakter almışdır. Belə ki, son vaxtlar Rusiya Elmlər Akademiyasının alimləri, hökumət üzvləri, yaradıcı kollektivlər Azərbaycanın qonağı olublar. Prezident İlham Əliyev dedi ki, biz MDB çərçivəsində bütün humanitar tədbirlərdə fəal iştirak edirik və ümidvaram ki, həm Mədəni Əməkdaşlıq Şurası iclasının qəbul edəcəyi qərarlar, həm də iştirakçıların ölkəmizlə yaxından tanış olmaları baxımından bu tədbir də faydalı olacaqdır.*

*Görüş iştirakçıları Şura iclasının yüksək səviyyədə təşkilindən razılıqlarını ifadə etdilər və bu cür tədbirlərin mədəniyyətlərin inteqrasiyasında mühüm rol oynadığını vurğuladılar.*

## BÖYÜK BRİTANİYA PARLAMENTİNİN PARLAMENTLƏRARASI İTTİFAQDAKI NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*10 oktyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Prezident sarayında Böyük Britaniya parlamentinin Parlamentlərarası İttifaqdakı nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı ölkəmizdə gedən iqtisadi inkişaf prosesləri, cəmiyyətin demokratikləşdirilməsi və digər sahələrdə həyata keçirilən genişmiqyaslı işlər barəsində ətraflı danışdı.*

*Böyük Britaniya parlamentinin üzvü Brayan Senkins nümayəndə heyətinin bir çox üzvlərinin Azərbaycana ilk dəfə səfər etdiklərini və ölkəmizin xüsusilə son dövrlərdə əldə etdiyi böyük nailiyyətlərin nümayəndə heyətində son dərəcə yaxşı təəssüratlar yaratdığını vurğuladı. Qonaq prezident İlham Əliyev tərəfindən Azərbaycanda həyata keçirilən işlərlə bağlı verilən məlumatların ölkəmizi daha yaxından tanımaq baxımından əhəmiyyətli olduğunu qeyd etdi.*

## RUSİYA FEDERASİYASI PREZİDENTİNİN KÖMƏKÇİSİ CAHAN POLLIYEVA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*10 oktyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Prezident sarayında Rusiya Federasiyası Prezidentinin köməkçisi Cahan Pollıyevanı qəbul etmişdir.*

*Görüş zamanı Azərbaycan ilə Rusiya arasında əlaqələrin müxtəlif sahələrdə, o cümlədən humanitar əməkdaşlıq sahəsində uğurla inkişaf etdiyi vurğulandı.*

*Cahan Pollıyeva Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ilə görüşlərini məmnuniyyətlə xatırlayaraq, bu görüşlərin onda böyük təəssüratlar yaratdığını qeyd etdi.*

## RUMINİYA PREZİDENTİ TRAYAN BESESKUNUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*11 oktyabr 2006-cı il*

*Rumıniya prezidenti Trayan Besesku oktyabrın 11-də Bakıya rəsmi səfərə gəlmişdir. Azərbaycanın və Rumıniyanın dövlət bayraqları ilə bəzədilmiş Heydər Əliyev adına Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Təyyarənin pilləkəni yanında Rumıniya prezidentini Baş nazir Artur Rasizadə, Xarici İşlər naziri Elmar Məmmədyarov və digər rəsmi şəxslər qarşıladılar.*

*Rumıniya prezidenti hava limanından onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

* * *

*Oktyabrın 11-də Prezident sarayında Rumıniya prezidenti Trayan Beseskunun rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Sarayın həyətindəki rəsmi qarşılanma mərasimlərinin keçirildiyi və hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycan dövlətinin başçısı İlham Əliyev Rumıniya prezidenti Trayan Beseskunu səmimiyyətlə qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Rumıniya prezidentinə raport verdi.*

*Müdafiə Nazirliyinin hərbi orkestrinin ifasında Rumıniyanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Rumıniya prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri Rumıniya prezidenti Trayan Beseskuya, Rumıniya nümayəndə heyətinin üzvləri Azərbaycan prezidenti İlham Əliyevə təqdim edildi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUMINİYA PREZİDENTİ TRAYAN BESESKUNUN TƏKBƏTƏK GÖRÜŞÜ

*Prezident sarayı*

*11 oktyabr 2006-cı il*

*Oktyabrın 11-də Prezident sarayında Azərbaycan prezidenti İlham Əliyevin və Rumıniya prezidenti Trayan Beseskunun təkbətək görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında siyasi-iqtisadi və digər sahələrdə əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı və iqtisadi əməkdaşlığın genişlənməsi üçün böyük potensialın olduğu bildirildi.*

*Tərəflər Avroatlantik strukturlara inteqrasiya prosesində ölkələrimiz arasında əməkdaşlığın daim genişləndiyini vurğuladılar.*

*Söhbət zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olundu.*

### Təkbətək görüşdən sonra Azərbaycan prezidenti İlham Əliyevin və Rumıniya prezidenti Trayan Beseskunun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü

**İlham Əliyev:** Hörmətli cənab Prezident, hörmətli qonaqlar, mən sizin hamınızı ürəkdən salamlayıram. Azərbaycana xoş gəlmisiniz! Azərbaycana rəsmi səfərinizə çox böyük əhəmiyyət veririk və əminəm ki, bu səfər bizim aramızda olan münasibətlərin inkişafında çox mühüm rol oynayacaqdır.

Rumıniya bizim üçün çox yaxın bir ölkədir, dost ölkədir. Biz Rumıniya tərəfindən həmişə dəstək görmüşük və bu dəstək indi də davam edir.

Çox şadam ki, bizim aramızda həm siyasi, həm iqtisadi, həm mədəni, həm də humanitar sahələrdə çox yüksək əməkdaşlıq mövcuddur. İndi bütün sahələrdə əməkdaşlıq etmək əzmindəyik və işbirliyimizin nəticələri çox uğurludur. Demək olar ki, biz müttəfiq ölkələrik və əminəm ki, gələcəkdə bizim aramızda əməkdaşlıq, birgə layihələr daha da sürətlə davam edəcək və xalqlarımız bölgədə daha da yaxın olacaqlar.

Səfər çərçivəsində bir neçə sazişin imzalanması nəzərdə tutulubdur. Beləliklə, bizim münasibətlərimizin hüquqi bazası möhkəmlənəcəkdir. Əminəm ki, keçirdiyimiz və keçirəcəyimiz danışıqlar, fikir mübadiləsi qarşıda duran bütün vəzifələrin həlli üçün çox əhəmiyyətli olacaq və gələcəkdə daha da geniş əməkdaşlıq edəcəyik.

Azərbaycanın Avroatlantik strukturlarına inteqrasiya siyasətini Rumıniya həmişə dəstəkləmişdir. Biz bu dəstəyi hiss edirik, buna görə Sizə minnətdarıq.

Bizim ikitərəfli münasibətlərimizin istiqamətlərindən biri də məhz bu məsələlərdir. Hesab edirəm ki, bu sahədə də Rumıniyanın təcrübəsi bizim üçün çox önəmli ola bilər.

Sizi bir daha ürəkdən salamlayıram. Əminəm ki, Sizin səfəriniz çox uğurlu keçəcəkdir.

**T r a y a n   B e s e s k u:** Cənab Prezident, çox sağ olun. İlk öncə məni Azərbaycana səfərə dəvət etdiyinizə görə, eyni zamanda, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə dərin minnətdarlığımı bildirirəm.

Azərbaycana bu gün etdiyim rəsmi səfərin əsas məqsədi məhz ondan ibarətdir ki, biz Azərbaycanla ikitərəfli münasibətlərin möhkəmləndirilməsində xüsusilə maraqlıyıq.

Biz siyasi və iqtisadi münasibətlərin daha da inkişaf etdirilməsinə xüsusi önəm veririk. Eyni zamanda, hesab edirik

ki, ölkələrimiz təhlükəsizlik sahəsində də əməkdaşlıq etməlidir.

Biz Azərbaycanı Xəzər regionunda özümüzə dost və tərəfdaş ölkə hesab edirik. Düşünürük ki, bizim tərəfdaşımız olan Azərbaycan enerji təhlükəsizliyi baxımından bu gün Avropa bazarlarında çox yüksək rəqabət qabiliyyətinə malik ölkə ola bilər.

Rumıniya artıq NATO-nun üzvüdür və gələn il yanvarın 1-dən Avropa İttifaqının tamhüquqlu üzvü olacaqdır. Həmin təşkilatlarda üzvlüyümüzü nəzərə alaraq, Rumıniya bu çərçivədə Azərbaycanla ənənəvi ikitərəfli münasibətlərin inkişaf etdirilməsində xüsusilə maraqlıdır. Eyni zamanda, bu təşkilatlarda üzvlüyümüz baxımından biz bütün Avropa məkanında təhlükəsizlik, o cümlədən enerji təhlükəsizliyi sahəsində məsuliyyət daşıyan bir ölkə kimi çıxış etmək istəyirik.

Cənab Prezident, məni ölkənizə səfərə dəvət etdiyinizə görə, Sizə bir daha dərin təşəkkürümü bildirirəm.

## Sənədlərin imzalanma mərasimi

*Dövlət başçılarının geniş tərkibdə görüşü başa çatdıqdan sonra Prezident sarayında sənədlərin imzalanma mərasimi oldu.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rumıniya Respublikasının Prezidenti Trayan Besesku Birgə bəyannamə imzaladılar.*

*Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Rumıniyanın Mədəniyyət və Dini İşlər Nazirliyi arasında «Mədəniyyət sahəsində əməkdaşlığa dair saziş», Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Rumıniyanın Kiçik və Orta Müəssisələr və Kooperativlər Milli Agentliyi arasında «Əməkdaşlıq haqqında memorandum», Azərbaycan Respublikası hökuməti və Rumıniya hökuməti arasında «Ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq*

*haqqında 1995-ci il avqustun 2-də Buxarest şəhərində imzalanmış sazişə dəyişikliklər edilməsi barədə Əlavə protokol», Azərbaycan Respublikası hökuməti və Rumıniya hökuməti arasında «İnvestisiyaların təşviqi və qorunması haqqında 2002-ci il oktyabrın 29-da Bakı şəhərində imzalanmış sazişə dəyişikliklər edilməsi barədə Əlavə protokol» imzalandı.*

# SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA AZƏRBAYCAN VƏ RUMINİYA PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLARI VƏ JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*11 oktyabr 2006-cı il*

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!
Hörmətli Rumıniya nümayəndə heyətinin üzvləri!
Xanımlar və cənablar!

Rumıniya prezidenti cənab Trayan Beseskunun Azərbaycana rəsmi səfəri ikitərəfli münasibətlərdə çox önəmli bir addımdır. Bizim ölkələrimiz çox uğurlu əməkdaşlıq edir. Rumıniya Azərbaycanın müstəqilliyini tanıyan ikinci ölkə olubdur və Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra biz daim Rumıniya tərəfindən dəstək görürük. Bu gün də bu dəstəyi hiss edirik və Rumıniya prezidentinə, Rumıniya hökumətinə öz dərin minnətdarlığımızı bildirmək istəyirik.

Bizim əlaqələrimiz çoxşaxəlidir. Hazırda çox intensiv siyasi dialoq aparılır. Qeyd etməliyəm ki, son bir il yarım ərzində cənab Besesku ilə çoxsaylı görüşlərimiz olubdur. Bugünkü görüş sayca dördüncüdür. Bu özlüyündə onu göstərir ki, bizim aramızda çox sıx əlaqələr var, daim məsləhətləşmələr keçiririk, geniş fikir mübadiləsi aparılır. O cümlədən, bu gün bizim aramızda çox səmimi, açıq danışıqlar keçirildi. Həm təkbətək görüşdə, eyni zamanda, nümayəndə heyətlərinin iştirakı ilə. Müxtəlif məsələlər – ikitərəfli münasibətlər, iqtisadi əlaqələr, siyasi əlaqələr, Azərbaycanın Avroatlantik strukturlara inteqrasiyası və Rumıniyanın bu siyasətə öz dəstəyini verməsi, nəhəng enerji layihələri, Azərbaycanın uğurlu neft strategiyası və gələcək əmək-

daşlıq prinsipləri müzakirə olundu. Bütün bu məsələlər diqqət mərkəzində idi, bunlar barədə çox geniş fikir mübadiləsi aparılmışdır və bizim aramızda heç bir fikir ayrılığı yoxdur. Bu çox sevindirici haldır. Çünki bu bir daha onu göstərir ki, ikitərəfli münasibətlər çox geniş formatda həyata keçirilir. Bu münasibətlər çoxşaxəlidir, çox sahələri əhatə edir və əlbəttə ki, münasibətlərin hərtərəfli inkişafı üçün çox gözəl zəmin yaradır.

Bununla bərabər, regionda gedən proseslər, regional vəziyyət, regionda təhlükəsizlik tədbirlərinin möhkəmlənməsi məsələləri də müzakirə olunmuşdur. Bizim regionun çox böyük imkanları, çox böyük perspektivləri var. Nəqliyyat infrastrukturunun yeniləşməsi, yeni nəqliyyat dəhlizlərinin açılması işində, enerji daşıyıcılarının dünya və Avropa bazarlarına çatdırılmasında, Avropanın enerji təhlükəsizliyinin möhkəmlənməsində Azərbaycanın rolu və artan imkanları, əlbəttə ki, regionu çox önəmli nöqtəyə gətirib çıxarır.

Nəzərə alsaq ki, artıq Qara dəniz – Xəzər dənizi regionlarının birgə fəaliyyəti bu günün reallığıdır, regionda sabitliyin möhkəmlənməsi, təhlükəsizlik tədbirlərinin güclənməsi bizi çox maraqlandırır və narahat edir. Rumıniyada, Buxarestdə keçirilən Qara dəniz forumunda bu fikirlər səslənmişdir. Artıq bizim regionda gedən əməkdaşlıq meylləri geniş formatda regional işbirliyinin əsasını qoyur. Şübhəsiz ki, bu işdə Rumıniya və Azərbaycanın birgə səylərinin vacibliyi göz önündədir. Bütün bunları nəzərə alaraq, bir daha demək istəyirəm ki, regionda sülhün, təhlükəsizliyin bərqərar olması bizim hamımızın marağındadır.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi regionda ən başlıca təhlükə mənbəyidir. Bu münaqişə regionda sabitliyin pozulmasına gətirib çıxara bilər və regional əməkdaşlığa çox böyük maneədir. Azərbaycanın mövqeyi dəyişməz olaraq qalır: həm tarixi baxımdan, eyni zamanda, hüquqi baxımdan Dağlıq Qarabağ Azərbaycan torpağıdır. Biz tələb edirik ki, Birləşmiş Millətlər Təşkilatının bu məsələyə dair dörd qətnaməsi icra olunsun və Ermənistanın işğalçı qüvvələri zəbt olunmuş torpaqlardan qeyd-şərtsiz çıxsın. Azər-

baycanlılara qarşı Ermənistan tərəfindən aparılmış etnik təmizləmə siyasəti nəticəsində didərgin düşmüş insanlar öz doğma torpaqlarına qayıda bilsinlər. Etnik təmizləmə siyasətinin nəticələri aradan qaldırılsın və məsələ beynəlxalq hüquq normaları və prinsipləri əsasında öz həllini tapsın.

Azərbaycan bütün ölkələrin ərazi bütövlüyünü tanıyır və əlbəttə, tələb edir ki, Azərbaycanın da ərazi bütövlüyü tanınsın. Deyə bilərəm ki, Ermənistan istisna olmaqla, bütün dünya Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Azərbaycan Birləşmiş Millətlər Təşkilatına üzv olanda Dağlıq Qarabağla birlikdə üzv olmuşdur. Ona görə də məsələnin həlli yalnız və yalnız hüquqi müstəvidə öz həllini tapa bilər və Azərbaycanın mövqeyi dəyişməz olaraq qalır. Dağlıq Qarabağda yaşayan ermənilərin təhlükəsizliyini təmin etmək üçün müxtəlif tədbirlər görülə bilər. Biz demişik, bu gün də mən bunu təkrar etmək istəyirəm ki, Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək muxtariyyət statusu verilə bilər. Ancaq Dağlıq Qarabağın Azərbaycandan ayrılması, Azərbaycanın ərazisində ikinci erməni dövlətinin yaradılması, yaxud da ki, Dağlıq Qarabağın Ermənistana birləşməsi məsələləri müzakirə mövzusu deyil və olmayacaqdır.

Rumıniyanın bu məsələdə mövqeyi bizi həm sevindirir, həm də ruhlandırır. Rumıniyanın mövqeyi indi imzalanmış Birgə bəyannamədə öz əksini tapmışdır. Bu mövqeyə görə, bu yanaşmaya görə biz Rumıniya hökumətinə, şəxsən Rumıniya prezidentinə çox minnətdarıq. Bu mövqe bütün münaqişələrə şamil edilməlidir. Bütün münaqişələr eyni yanaşma ilə öz həllini tapa bilər, heç bir istisna halı olmamalıdır.

Əgər hansısa bir halda istisna olarsa, bu çox çətin və çox acınacaqlı nəticələrə gətirib çıxara bilər. Dünyada, Avropada, bizim bölgəmizdə buna oxşar münaqişələr də var, buna oxşar problemlər də var və əgər hansısa bir halda məsələ beynəlxalq hüquq əsasında yox, hansısa başqa prinsiplər əsasında öz həllini taparsa, bundan bütün bölgə böyük zərər çəkə bilər. Bir daha demək istəyirəm ki, hesab edirəm, Azərbaycanın mövqeyi məsələnin həlli işində prinsipial rol oyna-

yır, bizim mövqeyimiz dəstəklənir. Biz bu dəstəyi hiss edirik və getdikcə bu dəstək artır.

Ümid etmək istəyirəm ki, Avropa qonşuluq siyasətinə qoşulan Azərbaycan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Avropanın imkanlarından da bəhrələnə bilər. Biz çox istəyirik ki, Minsk qrupu ilə yanaşı, digər təşkilatlar da bu məsələ ilə bağlı öz mövqelərini bildirsinlər, bu işdə fəal iştirak etsinlər. Biz çox şadıq ki, GUAM ölkələrinin təşəbbüsü ilə dondurulmuş münaqişələrə dair məsələ Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin 61-ci sessiyasının gündəliyinə salınmışdır. Rumıniya dövləti bu məsələdə öz mövqeyini ortaya qoymuşdur, Azərbaycanın və digər GUAM ölkələrinin mövqeyini dəstəkləmişdir. Yenə demək istəyirəm ki, bütün bunlar bizim səmimi münasibətlərimizi bir daha əks etdirir və Rumıniya prezidentinin Azərbaycana indiki səfəri münasibətlərimizi daha da möhkəmləndirəcəkdir. Biz bunu arzulayırıq, bunu istəyirik. Rumıniya bizim üçün çox yaxın, dost ölkədir. Mən əminəm ki, bizim aramızda olan əlaqələr bundan sonra daha da genişlənəcək, dərinləşəcək və xalqlarımız bir-birilərinə daha da yaxın olacaqlar. Təşəkkür edirəm.

## Rumıniya prezidenti Trayan Beseskunun bəyanatı

İlk növbədə, məni və nümayəndə heyətini Azərbaycana rəsmi səfərə dəvət etdiyinə görə prezident İlham Əliyevə dərin minnətdarlığımı bildirmək istəyirəm. Prezident Əliyevin burada dediyi kimi, biz kifayət qədər məsələləri geniş müzakirə etdik. Eyni zamanda, biz regional maraq və Avropa üçün maraq kəsb edən məsələləri nəzərdən keçirdik. NATO-nun üzvü olan və gələn il yanvarın 1-dən Avropa İttifaqının üzvü olacaq dövlət kimi, Rumıniya xarici siyasətində Qara dəniz regionuna xüsusi diqqət yetirməyi davam etdirəcəkdir. Qara dəniz forumu çərçivəsində biz həmin regionda təhlükəsizlik tədbirlərinin möhkəmləndirilməsi məsələlərini müzakirə etdik. Eyni zamanda, bunu Xəzər regionuna da şa-

mil etmək istəyirik, çünki biz bu regionun enerji sərvətlərinin daşınmasında maraqlıyıq. Biz qonşuyuq və istəyirik ki, istər NATO, istərsə də Avropa İttifaqı baxımından eyni təhlükəsizlik sisteminin bir hissəsi olaq. Mən prezident Əliyevi əmin etdim ki, Rumıniya bu sahədə Azərbaycanla öz təcrübəsini bölüşməyi davam etdirəcək və Azərbaycanın Avropa strukturlarına daxil olmasına kömək edəcəkdir.

Biz tam əminik ki, Azərbaycan regionda həm təhlükəsizlik, həm də enerji siyasətində müsbət töhfə vermiş bir ölkədir. Bu baxımdan biz qarşılıqlı əməkdaşlığımızı hər iki tərəfin maraqları əsasında davam etdirəcəyik. Dondurulmuş münaqişələrə aid məsələdə əməkdaşlığımızı davam etdirəcəyik. Mən demək istəyirəm ki, Rumıniyanın Albaniya, Ukrayna ilə çox gözəl münasibətləri var, Azərbaycanla əla münasibətləri var, Ermənistanla da yaxşı münasibətləri var. Amma bununla belə, yaxşı münasibətlərin olması bu fundamental prinsiplərin yaddan çıxarılmasına əsas ola bilməz.

Rumıniya bir əsrdən çox müddət ərzində öz xarici siyasətində hər bir dövlətin ərazi bütövlüyü prinsipinə, sərhədlərin toxunulmazlığı prinsipinə həmişə hörmətlə yanaşmış və riayət etmişdir. Ona görə də hər hansı bir ərazi məsələsi və etnik məsələ ortaya çıxarsa, həmin prinsiplərdən uzaqlaşmaq mənfi hadisələrin baş verməsi ilə nəticələnə bilər. Hansı dövlət olursa-olsun, bu onun təhlükəsizliyinə qarşı işləyə bilər. Ona görə sərhədlərin toxunulmazlığı və ərazi bütövlüyünün təmin edilməsi prinsipləri vacibdir və mən bunların üzərində bir daha dayanaraq təkrar edirəm. Mən hesab edirəm ki, Albaniya ilə olan xoş münasibətlərimiz, Moldova, Ukrayna, Rusiya Federasiyası ilə olan münasibətlərimiz əsasında biz müvafiq işlər görə bilərik. Lakin bu fundamental prinsiplərdən uzaqlaşmaq mümkün deyildir.

Mən xüsusi vurğulamaq istəyirəm ki, təhlükəsiz regionların yaradılmasına, xüsusən də Qara dəniz və Xəzər dənizi regionlarının təhlükəsiz regionlar kimi inkişaf etdirilməsinə marağımızı nəzərə alaraq, hesab edirəm ki, Rumıniya malların və enerji daşıyıcılarının Avropaya daşınması üçün tranzit

ölkə kimi çıxış edə bilər. Gələcəkdə məhz bu tərəfdaşlıq sayəsində bizim idxaldan asılılığımız da azala bilər. Təbii ki, bu, Avropa İttifaqı ilə əməkdaşlığımızda, xüsusən də bunun əsasında, Azərbaycan məhz enerji resurslarının etibarlı bir təchizatçısı kimi öz rolunu oynaya bilər. Bu da Avropanın enerji təhlükəsizliyini möhkəmləndirməsinə Azərbaycanın çox gözəçarpan töhfəsi ola bilər.

Biz bu məsələni görüşlərimiz zamanı müzakirə etdik. «Konstansa–Pança–Triyest» layihəsini müzakirə etdik. Eyni zamanda, Xəzər dənizindən hasil olunan xam neftin nəqlinə dair layihələri müzakirə etdik. Rumıniya üçün və Avropa İttifaqının üzvləri üçün olduqca maraqlı digər layihələr də var. Söhbət əsasən xam neftin nəqlindən gedir. Mən çox aydın şəkildə bildirmək istəyirəm ki, Avropa İttifaqının tam üzvünə çevrildikdən sonra, 2007-ci ilin yanvarın 1-dən etibarən Rumıniya enerji təchizatında Avropaya öz töhfəsini verə bilər. Çünki hazırda bütün Avropada enerji daşıyıcılarının, demək olar ki, 50 faizi xaricdən idxal olunur. Gələcək illərdə bu idxalın həcmi, asılılıq daha da artacaq, hətta 70 faiz təşkil edəcəkdir. Hesab edirəm ki, bu səbəbə görə nəinki Rumıniyanın Azərbaycanla münasibətlərini, həm də bizim Avropa İttifaqına qarşıdakı üzvlüyümüzü nəzərə alaraq, konkret layihələri həyata keçirməklə biz bütün Avropa üçün alternativ enerji daşıyıcılarının təchizatçısına çevrilə, alternativ həll yollarını tapa bilərik. Ona görə Azərbaycan bu məsələdə xüsusi tohfəsini verə bilər. Qarşımızda duran məqsədlərdən biri budur, təkbətək və geniş tərkibdə görüşümüzdə gördük ki, bizim mövqelərimiz üst-üstə düşür.

Eyni zamanda, sizin ölkənizin üzv olduğu beynəlxalq təşkilatlarda əməkdaşlıq haqqında danışdıq. Cənab Prezident, Sizi əmin edə bilərəm ki, Avroatlantik strukturlara inteqrasiyada daim bizim dəstəyimizə əmin ola bilərsiniz.

**S u a l: Mənim sualım cənab prezident İlham Əliyevədir. Sizin ölkə bütün həmin layihələrdə maraqlıdırsa, bizim üçün də neft və qazın bu regiondan Avropaya nəql olunması maraq-**

**lıdırsa, mən «Nabuko» layihəsi ilə bağlı soruşmaq istəyirəm. Sizin ölkəniz bu xüsusi layihədə maraqlıdırmı?**

**İ l h a m Ə l i y e v:** Azərbaycan neft və qaz təchizatının şaxələndirilməsində maraqlıdır. Biz bu günə qədər üç neft boru kəmərinin tikilməsinə nail olmuşuq. Onlar bizim neftimizi üç istiqamətə – ikisi Qara dəniz istiqamətinə, biri isə Aralıq dənizi istiqamətinə çıxarır. Biz artıq Azərbaycanın bütün tələbatını ödəmişik və həmin boru kəmərləri böyük həcmdə nefti nəql edə biləcəkdir. Azərbaycan birmənalı olaraq qısa müddət ərzində çox mühüm qaz təchizatçısına çevriləcəkdir. Eyni zamanda, özümüzün qaza olan tələbatımızı ödəyəcəyik. Çünki iqtisadiyyatımız get-gedə artır və bizim bazarımızda qaza tələbat da çoxalır. Bununla yanaşı, gələcək illər ərzində bu sahədə yeni addımlar atacağıq. Azərbaycandan qaz boru kəmərinin Türkiyəyə çəkilməsi və istismara verilməsi nəzərdə tutulur. Texniki baxımdan bu, Azərbaycan qazını sonra Avropaya çatdıra bilər. «Nabukko» layihəsi çox maraqlı və cəlbedici layihədir. Azərbaycan bu layihədə iştirak edə bilər və ümumiyyətlə, layihə Azərbaycandan və Xəzər regionundan qaz təchizatına əsaslanır. Ona görə deyə bilərəm ki, bu layihənin əsas elementi olan Azərbaycanın iştirakı olmadan onu həyata keçirmək mümkün olmayacaqdır. Bu birmənalıdır. Bir sözlə, biz enerji ehtiyatlarımızın dünya və Avropa bazarlarına çıxarılmasında və enerji təhlükəsizliyi məsələlərində Avropanın tələbatının ödənilməsində maraqlıyıq. Təbii ki, biz neft və qazdan böyük gəlirlər əldə edir və onu xalqımızın, ölkəmizin həyat tərzinin yaxşılaşdırılmasına sərf edirik.

**S u a l: Rumıniya Azərbaycanın Avroatlantik strukturlara inteqrasiyasına daim dəstək verəcəyini bəyan etdi. Rumıniyanın Cənubi Qafqaz və Orta Asiya ilə əlaqələrinin genişlənməsində Azərbaycanın rolunu necə görürsünüz?**

**T r a y a n B e s e s k u:** Bildiyiniz kimi, Rumıniya hazırda Xəzər regionu ilə bağlı güclü siyasət yeritməkdədir. Əgər bizim güclü siyasətimiz olsa, Rumıniya öz sərhədləri yaxınlığında yerləşən demokratik ölkələrlə birgə özünün də iştirak

etdiyi təhlükəsizlik sisteminin, qlobal və ümumi siyasi bir sistemin bir hissəsi olaraq, hesab edirəm ki, Xəzər və Qara dəniz regionlarında yerləşən ölkələrlə birgə Avroatlantik və Avropa inteqrasiyasında rol oynaya bilər.

NATO-nun və Avropa İttifaqının sərhəd ölkəsi kimi, Rumıniya bu qurumlara inteqrasiya sahəsindəki təcrübəsini NATO sisteminin və Avropa İttifaqının üzvü olmaq arzusunda olan ölkələrlə bölüşə bilər. İkinci məsələ, Qara dəniz regionunda olan bütün ölkələrlə bizim ənənəvi ikitərəfli münasibətlərimiz var. Yəni, NATO-nun və ya Avropa İttifaqının bir üzv ölkəsi kimi, bizim borcumuzdur ki, öz təcrübəmizi digər ölkələrlə bölüşək. Qara dəniz regionlarında yerləşən dövlətlərlə ikitərəfli ənənəvi münasibətlərimiz bizi ruhlandırır ki, bu təcrübəni onlarla bölüşək. Üçüncüsü, bizim yanımızda təhlükəsiz və çiçəklənən regionun olması üçün Rumıniya Qara dəniz və Xəzər dənizi regionlarında yerləşən dövlətlərin NATO-ya və Avropa İttifaqına inteqrasiyası prosesində güclü şəkildə öz dəstəyini verə bilər. Bu elə bir reallıqdır ki, nəinki Rumıniya, eyni zamanda, Bolqarıstan da bu sahədə müstəsna rol oynayacaq və Avropa İttifaqına tam inteqrasiya olunaraq, bu proseslərə öz töhfəsini verəcəkdir. NATO-nun, Avropa İttifaqının dost ölkələri kimi, maraqlıyıq ki, digər ölkələr də bu inteqrasiya proseslərinə tam qoşulsunlar. Təbii ki, heç kim birmənalı deyə bilməz ki, konkret bir tarixdə Azərbaycan NATO-nun və Avropa İttifaqının üzvü olsun. Lakin mühüm cəhət ondan ibarətdir ki, Azərbaycan artıq NATO ilə tərəfdaşlıq edir və Azərbaycan da Avropa İttifaqı ilə yeni qonşuluq siyasətini tam yerinə yetirərək, proqramın növbəti mərhələsi ilə bağlı bu ilin noyabr ayında Brüsseldə bir saziş imzalayacaqdır. NATO ilə tərəfdaşlıq quran və Avropa İttifaqı ilə yeni qonşuluq siyasətinə qoşulan bir ölkə kimi Rumıniya bu prosesə öz dəstəyini verə bilər. Çox sağ olun.

## MƏŞHUR RUMIN BƏSTƏKARI VƏ MUSİQİÇİSİ CORCE ENESKUNUN ABİDƏSİNİN AÇILIŞ MƏRASİMİ

*11 oktyabr 2006-cı il*

*Oktyabrın 11-də Bakıda, 8-ci mikrorayonda məşhur rumın bəstəkarı və musiqiçisi, müasir rumın milli bəstəkarlıq məktəbinin banisi, Rumıniya Elmlər Akademiyasının yaradıcılarından biri Corce Eneskunun (1881–1955) abidəsinin təntənəli açılışı olmuşdur.*

*Mərasimə toplaşanlar Azərbaycan prezidenti İlham Əliyevi və Rumıniya prezidenti Trayan Beseskunu hərarətlə qarşıladılar.*

*Dövlət başçıları abidənin üzərindən ağ örtüyü götürdülər və əzəmətli heykəlin önünə gül dəstələri qoydular. Prezidentlər mərasimdə çıxış etdilər.*

**İlham Əliyev:** Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Əziz dostlar!

Bu gün Rumıniya–Azərbaycan münasibətlərinin tarixində çox əlamətdar bir gündür. Rumıniya mədəniyyətinin ən görkəmli simalarından biri olan Corce Eneskunun abidəsi ucaldılıb və bu gün biz bu abidənin açılışında bərabər iştirak edirik. Mən bu münasibətlə hamınızı ürəkdən təbrik edirəm.

Corce Enesku həm dahi bəstəkar, həm dirijor, həm də mahir musiqiçi olubdur. Onun əsərləri – opera, simfoniya və sonataları müasir rumın musiqisinin əsasını qoymuşdur. Corce Enesku dünya mədəniyyət xəzinəsinə çox böyük töhfəsini vermişdir. Bununla bərabər, Corce Eneskunun ictimai fəaliyyəti də çox geniş olmuşdur. O, Rumıniya Bəstəkarlar

Cəmiyyətinin təsisçisi və prezidenti olmuşdur, antifaşist hərəkatında da çox fəal iştirak etmişdir.

Mən çox şadam ki, bu gün Rumıniya prezidenti cənab Beseskunun iştirakı ilə biz bu abidənin açılışında iştirak edirik. Bu bir daha onu göstərir ki, bizim aramızda olan münasibətlər dostluq, qardaşlıq əsasında qurulmuşdur. Prezident Beseskunun Azərbaycana səfəri bu münasibətlərin inkişafında çox böyük rol oynayır.

Ölkələr arasında münasibətlərin inkişafında insanlar arasında münasibətlər də mühüm rol oynayır. Xalqların görkəmli xadimlərinin xatirəsinin hörmətlə yad edilməsi də, şübhəsiz, bizim münasibətlərimizin inkişafında çox böyük rol oynayacaqdır.

İki il bundan əvvəl Rumıniyanın paytaxtı Buxarest şəhərində, gözəl parkda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin abidəsi ucaldılmışdır. Bu yaxınlarda parka Heydər Əliyevin adı verilmişdir. Onu da qeyd etmək istəyirəm ki, abidənin ucaldılması üçün müvafiq qərarları şəhər meriyası vermişdir. 2004-cü ildə Buxarest şəhərinin meri cənab Besesku idi və ulu öndər Heydər Əliyevin abidəsi Rumıniya paytaxtında onun şəxsi təşəbbüsü və iştirakı ilə ucaldılmışdır. Mən buna görə bütün Azərbaycan xalqı adından cənab Beseskuya öz minnətdarlığımı bildirmək istəyirəm.

Bizim münasibətlərimiz hərtərəflidir, çoxşaxəlidir. Siyasi müstəvidə çox fəal əməkdaşlıq edirik. Rumıniya Azərbaycanı daim dəstəkləyən ölkədir. İqtisadi əlaqələrimiz inkişaf edir. Bütün başqa sahələrdə ikitərəfli münasibətlərimiz bizi tam şəkildə qane edir. Çox sevindirici haldır ki, humanitar sahədə də əlaqələr genişlənir. Əminəm ki, dahi bəstəkar Corce Eneskunun abidəsinin ucaldılması bu işdə çox önəmli bir addım və çox önəmli bir qərardır.

Əziz dostlar, bu abidənin açılışı münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm. Arzu edirəm ki, Rumıniya–Azərbaycan münasibətləri bundan sonra da sürətlə inkişaf etsin və bizim xalqlarımız bir-birinə daha da yaxın olsunlar.

**T r a y a n  B e s e s k u:** Hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

Dahi rumın bəstəkarı Corce Eneskunun abidəsinin açılışı mərasimində iştirak etmək üçün bizə yaratdığınız imkana görə sizə minnətdarıq. Təbii ki, bu, sadəcə, bir protokol xarakterli jest deyildir. Bugünkü hadisənin daha bir mənası var. Burada rumın bəstəkarının abidəsinin açılması Azərbaycan Respublikasının rumın mədəniyyətinə, musiqisinə olan hörmətindən irəli gəlir. Azərbaycan xalqının ümummilli lideri, dahi dövlət xadimi Heydər Əliyevin Rumıniyanın paytaxtında abidəsinin açılışı ilə biz də, rumın xalqı da eynilə sizə, Azərbaycana öz böyük hörmətimizi nümayiş etdirdik.

Bəstəkar Corce Eneskunun qoyduğu irs hər bir rumın üçün bizim keçmişimizin, musiqimizin, mədəniyyətimizin bir hissəsidir. Lakin indi Rumıniya, eyni zamanda, gələcəyini də Eneskunun əsərlərində görür. Rumın bəstəkarı Eneskunun musiqi dünyasına daxil olduqca, siz rumın xalqının ürəyində olan ən məhrəm duyğuları, onun hisslərini anlayacaqsınız. Çünki onun əsərlərində hər bir rumının həyatı boyu keçirdiyi sevinc, qəm-qüssə, nəyəsə inamının olması və ya olmaması, gələcəyə nikbinliklə baxması və sadəcə olaraq, hər bir rumının gündəlik həyat tərzi öz əksini tapmışdır.

Bu gün bizim üçün sevinc dolu bir gündür. Bu gün daim yaddaşımızda qalacaqdır. Cənab Prezident, bu abidənin açılışı barədə qərarların qəbul edilməsi münasibətilə mən şəxsən Sizə öz dərin minnətdarlığımı bildirirəm. Bu işdə iştirak edən bütün şəxslərə öz təşəkkürümü bildirirəm. Sağ olun.

* * *

*Sonra Rumıniya prezidenti Trayan Besesku abidənin müəllifləri – Xalq rəssamı, Rəssamlıq Akademiyasının professoru, heykəltəraş Natiq Əliyev və memar Rasim Babakişiyevlə görüşdü, onlara dərin minnətdarlığını bildirdi.*

*Prezidentlər İlham Əliyev və Trayan Besesku mərasimdə iştirak edən Azərbaycanın və Rumıniyanın incəsənət və mədəniyyət xadimləri, sənət adamları ilə görüşüb söhbət etdilər.*

# RUMINİYA PREZİDENTİ TRAYAN BESESKUNUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

## Şəhidlərin xatirəsinə ehtiram

*Rumıniya prezidenti Trayan Besesku oktyabrın 11-də Şəhidlər xiyabanını ziyarət etmişdir.*

*Rumıniyanın dövlət başçısını və nümayəndə heyətinin üzvlərini Azərbaycan Xarici İşlər nazirinin müavini Xələf Xələfov, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov və digər rəsmi şəxslər qarşıladılar. Burada ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Rumıniya prezidenti Trayan Besesku və nümayəndə heyətinin üzvləri Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda canlarından keçən qəhrəman övladlarımızın məzarları üstünə gül-çiçək düzdülər.*

*Rumıniyanın dövlət başçısı «Əbədi məşəl» abidəsinin önünə əklil qoydu. Müdafiə Nazirliyinin hərbi orkestrinin ifasında Rumıniyanın və Azərbaycan Respublikasının dövlət himnləri səsləndi. Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov ali qonağa Şəhidlər xiyabanının tarixi və paytaxtımızda görülən abadlıq-quruculuq işləri barədə məlumat verdi.*

*President Trayan Besesku Azərbaycan paytaxtının mənzərəsini maraqla seyr etdi.*

## Ümummilli lider Heydər Əliyevin məzarını ziyarət

*Rumıniya prezidenti Trayan Besesku oktyabrın 11-də Fəxri xiyabana gəlmişdir.*

*Burada ali qonağı və nümayəndə heyətinin üzvlərini Azərbaycan Xarici Işlər nazirinin müavini Xələf Xələfov, Bakı Şəhəri İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov və digər rəsmi şəxslər qarşıladılar.*

*Rumıniyanın dövlət başçısı türk dünyasının görkəmli oğlu, ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla anaraq məzarı önünə əklil qoydu.*

*Prezident Trayan Besesku görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın məzarı üstünə də gül dəstəsi qoydu. Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov ali qonağa Fəxri xiyabanın tarixi barədə məlumat verdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ADINDAN RUMINİYA PREZİDENTİ TRAYAN BESESKUNUN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ

*«Gülüstan» sarayı*

*11 oktyabr 2006-cı il*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli cənab Prezident!
Hörmətli qonaqlar!
Xanımlar və cənablar!

Mən sizi Azərbaycanda bir daha ürəkdən salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

Rumıniya prezidentinin Azərbaycana rəsmi səfəri ikitərəfli münasibətlərimizin inkişafında çox mühüm rol oynayır və artıq, demək olar ki, səfər çox uğurlu olmuşdur. Bizim əlaqələrimizin çox böyük tarixi var. Hələ XV əsrdə Azərbaycan hökmdarı Uzun Həsən və rumın hökmdarı Böyük Stefan müttəfiqlik haqqında saziş imzalamışdılar. Çox görkəmli rumın alimi, məşhur dilçi Dmitri Kantemirin fəaliyyəti barədə Azərbaycanda geniş məlumatlar var idi.

Şərqdə ilk dəfə demokratik respublika – 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yarananda onun görkəmli nümayəndəsi Səməd bəy Mehmandarov Rumıniyanın ən ali mükafatı ilə təltif edilmişdi. 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi. Azərbaycan öz dövlət müstəqilliyini itirdi. Biz yalnız 1991-ci ildə öz dövlət müstəqilliyimizi bərpa etdik. Amma buna baxmayaraq, o illərdə də rumın və Azərbaycan xalqları çox fəal əməkdaşlıq edirdi, geniş iqtisadi əla-

qələr mövcud idi. İnsanlar bir-birilə ünsiyyətdə olmuşdular. Bir sözlə, bizim aramızda olan əlaqələr həmişə inkişaf edirdi və əlbəttə ki, müstəqillik bərpa olunandan sonra münasibətlər yeni mərhələyə, yeni pilləyə qalxmışdır.

1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra bizi müstəqil respublika kimi tanıyan ikinci dövlət Rumıniya olmuşdur. Son 15 il ərzində bizim aramızda əlaqələr çox sürətlə inkişaf etmişdir, siyasi-iqtisadi və humanitar sahələrdə, bütün istiqamətlərdə biz çox fəal əməkdaşlıq edirik. Biz müttəfiqik və indiki dövrdə Rumıniya–Azərbaycan münasibətləri bütövlükdə regionda gedən proseslərə çox ciddi şəkildə təsir göstərir. Qara dəniz və Xəzər dənizi regionlarının əməkdaşlığı, o cümlədən Rumıniya və Azərbaycan tərəfindən aparılan siyasət nəticəsində möhkəmlənir. Bu dialoq və əməkdaşlıq başqa ölkələrə öz təsirini göstərir. Bizim aramızda olan siyasi-iqtisadi əlaqələr, nəqliyyat və enerji dəhlizlərinin mövcudluğu, əlbəttə ki, regional işlərdə rolumuzu artırır.

Rumıniya prezidentinin Azərbaycana bugünkü səfəri isə bu münasibətlərə yeni təkan verir. Bu gün çox geniş fikir mübadiləsi aparılmışdır, danışıqlar çox uğurlu keçmişdir. İmzalanmış sənədlər əlaqələrimizin hüquqi bazasının möhkəmlənməsinə şərait yaradır. Bir sözlə, əminəm ki, bizim aramızda olan əlaqələr bu səfərdən sonra daha da sürətlə inkişaf edəcəkdir.

Neft-qaz sektorunda əməkdaşlıq haqqında geniş müzakirələr aparılmışdır. Bu sahədə gələcəkdə çox böyük planlarımız var. Bizim planlarımız, bildiyiniz kimi, həyatda öz əksini tapır. Azərbaycanda həyata keçirilən neft siyasəti nəticəsində ölkəmiz, demək olar ki, qarşısında duran bütün vəzifələri uğurla yerinə yetirdi. Azərbaycanın yataqlarından hasil edilən neft və qaz dünya bazarlarına çıxarılır və çıxarılacaqdır. Beləliklə, Rumıniya bu sahədə də bizim üçün çox önəmli tərəfdaş ölkə kimi, öz töhfəsini verməkdədir.

Regionda təhlükəsizlik problemlərinin həlli, o cümlədən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin

həlli barədə bizim aramızda fikir mübadiləsi aparılmışdır. Rumıniyanın mövqeyi çox müsbət mövqedir. Bu gün imzalanmış birgə siyasi bəyannamədə bu mövqe bir daha öz əksini tapmışdır. Biz bu mövqeyə görə Rumıniya prezidentinə və rumın xalqına öz minnətdarlığımızı bildiririk.

Eyni zamanda, bu gün Azərbaycanın mədəniyyət işçiləri ilə bizim görüşümüz olubdur. Azərbaycanın mədəni həyatında çox əlamətdar hadisə baş veribdir. Dahi rumın bəstəkarı, musiqiçi Corce Eneskunun abidəsi ucaldılmışdır. Yəni bu, bir daha onu göstərir ki, bizim aramızda olan əlaqələr dostluq, mehribanlıq əsasında qurulubdur və şübhə etmirəm ki, getdikcə daha da güclənəcəkdir.

Hörmətli cənab Prezident, mən Sizi və Rumıniya nümayəndə heyətini Azərbaycanda bir daha ürəkdən salamlayıram və bu badəni Sizin şərəfinizə, Rumıniya–Azərbaycan əlaqələrinin inkişafının şərəfinə qaldırıram!

**Ruмıniya prezidenti Trayan Beseskunun nitqi**

Hörmətli cənab Prezident!

Hörmətli nazirlər!

Xanımlar və cənablar!

Məni Azərbaycana səfərə dəvət etdiyinizə görə Sizə bir daha öz minnətdarlığımı bildirirəm.

Mən prezident Əliyevlə keçirdiyim görüşlər zamanı həm prezidentin, həm də Azərbaycan hökuməti üzvlərinin bizə olan səmimiyyətini tam duydum. Eynilə biz də öz tərəfimizdən Azərbaycana çox səmimi münasibət bəsləyirik. Azərbaycan prezidentinin söylədiyi nitqdən biz bir daha anladıq ki, iki ölkə arasında olan münasibətlərin nə qədər zəngin tarixi var. Əgər tarixi hadisələrdən danışsaq, bunlar Böyük Stefanın və Dmitri Kantemirin hökmdarlığı dövrünə təsadüf edir.

Münasibətlərimizin tarixi bizim aramızda olan etimadın daha da artırılmasına xidmət edəcəkdir. Eyni zamanda, nəinki tarixi əlaqələr, bizim yerləşdiyimiz regionların yaxınlığı da bizi bir-birimizə daha yaxın edir. Bizim üçün bu günlərdə

ən vacib olan məsələ xalqlarımızın təhlükəsizliyinin təmin edilməsidir. Əgər biz xalqlarımız üçün təhlükəsizliyi təmin edə biliriksə, bu o deməkdir ki, onlar gələcəkdə tərəqqi şəraitində yaşayacaqlar.

Biz bu gün eyni zamanda, qarşılıqlı maraq doğuran məsələləri də nəzərdən keçirdik. Hesab edirəm ki, əldə etdiyimiz razılıqlar və eyni zamanda, yerləşdiyi regionda hər iki ölkənin artan və daha da güclənən mövqeləri gələcəkdə ikitərəfli münasibətlərimizin inkişafı üçün çox möhkəm zəmin yaradır.

Cənab Prezident, Sizi bir daha əmin etmək istəyirəm ki, Rumıniya Azərbaycan üçün dost ölkədir. Beynəlxalq münasibətləri qurduqda və xarici siyasəti həyata keçirdikdə daim dostluq prinsiplərinə əsaslanan Rumıniya Sizin yanınızdadır. Vəziyyətdən asılı olmayaraq, biz Sizi əmin edə bilərik ki, biz xarici siyasətimizdə rəhbər tutduğumuz mühüm prinsiplərdən heç zaman geri çəkilməyəcəyik.

Son 65 il ərzində Rumıniya kommunist sistemində yaşamışdır. İndi isə kommunist sistemi artıq mövcud deyil, Rumıniya tamamilə yeni sistem qurur. Həmin 65 il ərzində Rumıniya da bir çox çətinliklərlə üzləşmişdir. Bu gün biz öz xarici siyasətimizi həyata keçirdikdə, hər bir ölkənin ərazi bütövlüyü, onun sərhədlərinin toxunulmazlığı prinsiplərini əsas tuturuq. Biz Sizi əmin edirik ki, bu prinsiplərdən heç zaman geri çəkilməyəcəyik. Çünki bu prinsiplər bizim taleyimizdə də mühüm rol oynamışdır. Hamıya yaxşı məlumdur ki, bu prinsiplərdən çəkilən hər hansı bir tərəf gec və ya tez bundan əziyyət çəkir.

Sonda onu bildirmək istəyirəm ki, Rumıniya möhkəm, etibarlı tərəfdaş olaraq Avroatlantik strukturlara inteqrasiya prosesində Sizi daim dəstəkləyəcəkdir. Avroatlantik ailəsinə qoşulmaq istiqamətində Rumıniya Azərbaycan ilə xüsusi tərəfdaşlıq qurmaqda maraqlıdır.

Çox sağ olun!

## RUMINİYA PREZİDENTİ TRAYAN BESESKU HEYDƏR ƏLİYEV FONDUNDA

*12 oktyabr 2006-cı il*

*Rumıniya prezidenti Trayan Besesku oktyabrın 12-də Heydər Əliyev Fondunda olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Rumıniyanın dövlət başçısını böyük səmimiyyətlə qarşıladılar.*

*Prezidentlər və Rumıniya nümayəndə heyətinin üzvləri əvvəlcə Fondun fəaliyyətinə, həyata keçirdiyi layihələrə həsr edilmiş sənədli filmə baxdılar.*

*Fondun təhsil, səhiyyə, mədəniyyət, elm və s. sahələrdə genişmiqyaslı layihələr hazırlayıb həyata keçirməsi, xüsusilə uşaq evləri və internat məktəblərinin yenidən qurulması, maddi-texniki bazasının yaxşılaşdırılması, valideyn himayəsindən məhrum olan uşaqlara, diabet və talassemiyadan əziyyət çəkən insanlara hərtərəfli qayğı göstərilməsi, son il yarımda təkcə qurumun təşəbbüsü ilə müasir tələblərə cavab verən 190 yeni məktəbin tikilib istifadəyə verilməsi, əlil uşaqlarda informasiya texnologiyaları ilə işləmək vərdişlərinin aşılanması, zəngin mədəniyyətimizin öyrənilməsi, təbliği istiqamətində gördüyü işlər, beynəlxalq təşkilatlarla sıx əməkdaşlığı rumıniyalı qonaqlarda xoş təəssürat yaratdı.*

*Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva muzeyin ekspozisiyaları ilə tanış olan Rumıniya prezidentinə Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə ehtiram əlaməti olaraq yaradılmış Fondun məqsədləri barədə məlumat verdi.*

*Bildirdi ki, Fondun əsas məqsədləri ulu öndər Heydər Əliyevin zəngin irsini öyrənmək və təbliğ etməkdən, onun Azərbaycanın sosial-iqtisadi, mədəni tərəqqisinə yönəlmiş genişmiqyaslı fəaliyyəti barədə gələcək nəsillərdə, qonaqlarda əyani təsəvvür yaratmaqdan, dahi şəxsiyyətin müəllifi olduğu beynəlxalq layihələrin həyata keçirilməsini dəstəkləməkdən, Azərbaycan mədəniyyəti və tarixinin geniş təbliği ilə əlaqədar aparılan işlərə kömək göstərməkdən ibarətdir.*

*Prezident İlham Əliyev ali qonağa ümummilli liderimizin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən eksponatlar, fotoşəkillər barədə ətraflı məlumat verdi.*

*Rumıniya dövlətinin başçısı fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərimiz haqqında kitablarla, dünyanın nüfuzlu siyasi, elm, mədəniyyət və incəsənət xadimlərinin Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu, müxtəlif ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş fotoşəkillərə böyük maraqla baxdı.*

*Rumıniya prezidenti Xatirə kitabına ürək sözlərini yazdı, milli lider Heydər Əliyevə dərin hörmətini bildirdi, Fonda Azərbaycanın tərəqqisi naminə dəyərli fəaliyyətində yeni uğurlar arzuladı.*

*Fondun prezidenti Mehriban xanım Əliyeva Rumıniya prezidentinə xatirə hədiyyələri təqdim etdi.*

*Sonra çay süfrəsi arxasında səmimi söhbət oldu.*

*Dövlətimizin başçısı dost ölkənin rəhbərinə Bakıya rəsmi səfərini əks etdirən fotoalbom təqdim etdi.*

*Prezident İlham Əliyev Azərbaycana rəsmi səfərini başa çatdıran Rumıniya prezidenti Trayan Besesku ilə Fondun binası qarşısında sağollaşdı.*

* * *

*Oktyabrın 12-də Bakı Dövlət Universitetində Rumıniya prezidenti Trayan Beseskuya BDU-nun Fəxri Doktoru diplomunun təqdim edilməsi mərasimi olmuşdur.*

*Həmin gün Rumıniya prezidenti Trayan Besesku «Ulduz» dövlət iqamətgahında Azərbaycan televiziyasına müsahibə vermişdir.*

## ABŞ DÖVLƏT KATİBİ MÜAVİNİNİN YAXIN ŞƏRQ MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ SƏFİR CEYMS CEFRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 oktyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 12-də Prezident sarayında ABŞ Dövlət katibi müavininin Yaxın Şərq məsələləri üzrə müşaviri səfir Ceyms Cefrini qəbul etmişdir.*

*İlk dəfə Azərbaycana səfər etdiyini vurğulayan qonaq ölkəmizə gəlməyindən çox şad olduğunu söylədi. Türkiyədə çalışdığı illərdə Azərbaycanda gedən prosesləri diqqətlə izlədiyini, Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəməri ilə bağlı məsələlərlə yaxından məşğul olduğunu bildirən cənab Ceyms Cefri zəngin iqtisadi və mədəni potensiala malik Azərbaycanın ABŞ-la münasibətlərinin çox uğurla inkişaf etdiyini diqqətə çatdırdı.*

*Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəməri layihəsinin Azərbaycan–ABŞ əməkdaşlığının çox mühüm elementlərindən biri olduğunu vurğulayan dövlətimizin başçısı dedi ki, bu qlobal layihə burada iştirak edən böyük dövlətlərin, nüfuzlu şirkətlərin və ABŞ Administrasiyasının birgə səyləri nəticəsində reallığa çevrilmişdir.*

*Azərbaycan–ABŞ münasibətlərinin müxtəlif sahələrdə sürətlə inkişaf etdiyini vurğulayan prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, bu əməkdaşlıq bundan sonra da uğurla inkişaf edəcəkdir.*

*Söhbət zamanı Azərbaycan–ABŞ ikitərəfli münasibətlərinin perspektivləri və regional məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.*

## TÜRKİYƏNİN MƏRMƏRƏ QRUPUNUN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 oktyabr 2006-cı il*

**İ l h a m Ə l i y e v:** Xoş gəlmisiniz, çox şadam ki, böyük heyətlə Azərbaycana gəldiniz. Azərbaycanla daha geniş tanış olmağınız üçün çox gözəl imkanlar var. Çox şadıq ki, əlaqələrimiz bütün səviyyələrdə – həm dövlət başçıları səviyyəsində, həm də millət vəkilləri, nazirlər səviyyəsində çox sürətlə inkişaf edir. Əlbəttə, təmaslar nə qədər çox olarsa, biz bir-birimizə o qədər də yaxın olacağıq. Bu yaxınlarda Türkiyədə Türkdilli dövlətlərin və topluluqların 10-cu dostluq, qardaşlıq və əməkdaşlıq qurultayı keçirilmişdir. Artıq qurultayın çox önəmli nəticələri var və əminəm ki, gələcək fəaliyyətimiz üçün qarşımızda çox gözəl imkanlar açır.

Türkiyə–Azərbaycan münasibətləri bu işlərdə əsas amillərdən biridir. Türkiyə–Azərbaycan münasibətlərindən bütün türk dünyasında gedən proseslər müəyyən dərəcədə asılı olacaqdır. Eyni zamanda, bizim regionda baş verən hadisələr də bu münasibətlərin təsiri altındadır. Biz böyük iqtisadi, enerji layihələri həyata keçiririk, bizim iştirakımızla siyasi layihələr həyata keçirilir. Ona görə Türkiyə–Azərbaycan birliyi həm bizim ürəyimizdən gələn duyğulardır, eyni zamanda, zəmanənin tələbidir. Biz bir-birimizlə nə qədər sıx bağlı olsaq, gücümüz də o qədər artacaqdır. Bu, artıq reallıqdır, gerçəklikdir.

Azərbaycanın indiki inkişaf sürəti onu çox güclü ölkəyə çevirir. Həm iqtisadi cəhətdən, həm siyasi cəhətdən bölgədə gedən proseslərdə iştirakımız Azərbaycanın önəmini artırır.

Şübhəsiz ki, Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft və qaz kəmərləri, Bakı–Tbilisi–Qars dəmir yolu layihəsi – bütün bunlar həm Türkiyənin, həm də Azərbaycanın bölgədə və Avropada siyasi çəkisini artıran amillərdir. Biz bunu istəyirik. İstəyirik ki, daha da möhkəm mövqelərə, daha da güclü təsir imkanlarına malik olaq və birlikdə gələcəyə doğru irəliləyək. Bütün dövrlərdə Türkiyə–Azərbaycan münasibətləri qardaşlıq, dostluq əsasında davam etmişdir. İndiki dövrdə də bu münasibətlər, deyə bilərəm ki, ən yüksək zirvədədir. Sizin gəlişiniz və Mərmərə Qrupunun bu işlərdə fəal iştirakı çox təqdirəlayiqdir. Siz ikitərəfli münasibətlərin inkişafına çox dəyərli töhfə verirsiniz.

Bir də demək istəyirəm ki, dövlətlərarası, hökumətlərarası münasibətlər, millət vəkilləri arasında olan əlaqələr, müxtəlif dövlət qurumlarının və özəl qurumların birgə fəaliyyəti ilə yanaşı, bu işlərdə ictimai əlaqələr də xüsusi yer tutur. Mən deyə bilərəm ki, ictimai əlaqələrin inkişafında Mərmərə Qrupu müstəsna rol oynayır. Ona görə mən sizə çox minnətdaram. Sizin fəaliyyətiniz bizim ölkələrimizi daha da sıx birləşdirir. Beləliklə də, bölgədə Türkiyə–Azərbaycan müttəfiqliyi böyük proseslərin inkişafına təsirini gücləndirir.

Mən çox şadam ki, böyük heyətlə gəlmisiniz. Çoxlarınızı yaxından tanıyıram. Məncə, bəziləri Azərbaycanda ilk dəfə, yaxud da ki, daha az olmuşlar. Amma istərdim ki, daha da tez-tez gəliş-gediş olsun və sizin Qrupunuz, həmişə olduğu kimi, münasibətlərimizin inkişafında fəal rol oynasın. Sizi bir daha salamlayıram, Vətəninizə xoş gəlmisiniz!

**Akkan Süvər** (*Mərmərə Qrupu Vəqfinin prezidenti*): Biz beynəlxalq tədbirlərdə Türkiyə ilə yanaşı, Azərbaycan gerçəkliklərini, xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində ermənilərin işğalçılıq siyasətinin əsl mahiyyətini dünya ictimaiyyətinə çatdırmağa çalışırıq. Eyni zamanda, prinsipial məsələlərdə Azərbaycanın Türkiyəni dəstəkləməsinin qardaş ölkədə minnətdarlıq hissləri doğurduğunu vurğulayaraq Sizə nümayəndə heyəti adından təşəkkür edirəm. Burada olan millət vəkillərimiz də mütləq Sizə

təşəkkürlərini bildirəcəklər. Erməni soyqırımı mövzusunda Azərbaycan Milli Məclisinin Fransa parlamentinə müraciətini razılıqla qarşılayır, minnətdarlığımızı bildiririk.

**İ l h a m Ə l i y e v:** Bir daha bildirirəm ki, bizim gücümüz xalqlarımızın birliyindədir. Türkiyə bizə arxadır. Müasir dövrdə ölkəmizin sürətli inkişafı Azərbaycanın beynəlxalq aləmdə mövqelərini möhkəmlədir və bu amil bizim də qardaş ölkəyə dəstək vermək imkanımızı artırır.

**G ü l d a l A k ş i t** (*Türkiyə Böyük Millət Məclisinin deputatı*): İki qardaş ölkə arasındakı əməkdaşlığa verdiyiniz töhfəyə görə Sizə minnətdarlığımı bildirirəm, Baş nazir Rəcəb Tayyib Ərdoğan salamlarını Sizə çatdırmağımı xahiş etmişdir.

**A k k a n S ü v ə r:** Biz nümayəndə heyətinin üzvləri Naxçıvanda olduq və orada görülən geniş quruculuq işlərindən məmnunluqlarımızı bildiririk. Naxçıvanda Hüseyn Cavidin məqbərəsini ziyarətdən böyük təəssürat aldıq, Atatürkə və atanıza təsir edən ən böyük amil, bəlkə də, mədəniyyət amilidir. Mənə elə gəlir ki, Atatürk Tofiq Fikrətdən, atanız Hüseyn Caviddən mədəniyyətin tərəqqisi fikrini mənimsədilər.

**İ l h a m Ə l i y e v:** Doğrudur. Cavid o vaxt, sovetlər dövründə, Stalinin dövründə həbs olunmuşdu. Onu Sibirə sürgün etmişdilər. Onu əsərlərinə görə, türkçü olduğuna görə həbs etmişdilər və orada da vəfat etmişdi. Heydər Əliyev hələ kommunist dövründə burada rəhbər olduğu zaman onun cənazəsini Sibirdən Azərbaycana gətirtdi. Bu çox fövqəladə bir hadisə idi. Çünki Cavid rəsmi sovet təbliğatında antisovet, pantürkist yazıçı kimi tanınırdı. O, Sibirdə rəhmətə getmiş, orada da dəfn olunmuşdu. Onun qəbrini orada tapmaq, cənazəsini buraya gətirmək, özü də böyük təntənə ilə gətirmək çox fövqəladə bir hadisə idi. O, Naxçıvanda dəfn olundu. Ancaq ondan sonra Heydər Əliyev Bakıdan Moskvaya Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə getdi. Ondan sonra gələn rəhbərlər buna önəm vermədilər. Heydər Əliyev yenidən Azərbaycana qayıdandan sonra Cavidin siz

gördüyünüz məqbərəsini yaratdı. Çox möhtəşəm bir məqbərədir.

Çox şadam ki, siz də gördünüz ki, Naxçıvan çox sürətlə inkişaf edir. Heydər Əliyevin təşəbbüsü ilə orada yeni hava limanının təməli qoyuldu, 2004-cü ildə biz onun açılışını etdik. Yenə də Heydər Əliyevin təşəbbüsü ilə böyük su anbarı – Vayxır su anbarı tikilməyə başladı. Biz onu keçən il açdıq. Naxçıvanda Heydər Əliyev adına ən müasir, böyük məktəb tikildi. İndi biz böyük xəstəxana tikirik. Azərbaycanın ən müasir xəstəxanası olacaq və orada dünyanın ən yüksək avadanlıqları da quraşdırılacaqdır. Naxçıvanın büdcəsinə çox böyük vəsait ayırdıq. Qısa müddət ərzində Naxçıvanın büdcəsi təxminən 200 milyon dollara çatdı.

Sizə, Mərmərə Qrupunun üzvlərinə uğurlar arzulayıram.

## ÜMUMÇİN XALQ NÜMAYƏNDƏLƏRİ MƏCLİSİ DAİMİ KOMİTƏSİ SƏDRİNİN MÜAVİNİ SYU SZYALUNUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 oktyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 13-də Prezident sarayında Ümumçin Xalq Nümayəndələri Məclisi Daimi Komitəsi sədrinin müavini Syu Szyalunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı keçən il Çin Xalq Respublikasına səfərini məmnuniyyətlə xatırlayaraq səfər zamanı keçirilmiş görüşlərin Azərbaycan ilə Çin arasında müxtəlif sahələrdə münasibətlərin inkişafına mühüm töhfə verdiyini qeyd etdi. Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq etdiyini vurğulayan prezident İlham Əliyev Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Çinin mövqeyini yüksək qiymətləndirdi. Dövlətimizin başçısı parlamentlərimiz arasındakı əlaqələrin əhəmiyyətinə toxunaraq bu səfərin ölkələrimiz arasında mövcud olan dostluq münasibətlərini daha da möhkəmləndirəcəyinə əminliyini ifadə etdi.*

*Syu Szyalu Çin Xalq Respublikasının sədri Xu Szintaonun, Ümumçin Xalq Nümayəndələri Məclisi Daimi Komitəsi sədrinin və Çin Xalq Respublikası Baş nazirinin salamlarını prezident İlham Əliyevə çatdırdı və Çin Xalq Respublikası sədrinin məktubunu dövlətimizin başçısına təqdim etdi. O, ölkələrimiz arasındakı münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğuladı. Çin ilə Azərbaycanın iki-*

*tərəfli münasibətlərdə və beynəlxalq aləmdə bir-birinə dəstək verdiyini qeyd edən Syu Szyalu əlaqələrimizin bundan sonra da inkişaf etdiriləcəyinə ümidvar olduğunu bildirdi.*

*Prezident İlham Əliyev Çin Xalq Respublikası rəhbərliyinin salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Çinin rəhbərliyinə çatdırmağı xahiş etdi.*

## ŞƏKİ MODUL TİPLİ ELEKTRİK STANSİYASININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ* NİTQ

*14 oktyabr 2006-cı il*

*Oktyabrın 14-də Şəki rayonunda Şəki Modul Tipli Elektrik Stansiyasının təntənəli açılış mərasimi olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir. Mərasimə toplaşan minlərlə rayon sakini, inşaatçılar dövlətimizin başçısını böyük hörmət və ehtiramla qarşıladılar. Onların əllərində ulu öndər Heydər Əliyevin, prezident İlham Əliyevin portretləri, Azərbaycanın dövlət bayraqları, ümummilli liderin müdrik kəlamları yazılmış şüarlar var idi.*

*Prezident İlham Əliyev əvvəlcə elektrik stansiyasının inzibati binasında Heydər Əliyev Muzeyi ilə yaxından tanış oldu. Muzeydə ulu öndərin həyat və fəaliyyətinə dair fotoşəkillər, kitablar, müxtəlif sənədlər, eləcə də onun energetika sahəsinə göstərdiyi diqqət və qayğını, energetiklərlə keçirdiyi görüşləri əks etdirən fotoşəkillər toplanmışdır.*

*Azərbaycan prezidenti İlham Əliyev muzeyin Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı:*

«Şəki Modul Tipli Elektrik Stansiyasının istifadəyə verilməsi münasibətilə bütün şəkililəri təbrik edirəm. Stansiya Şəkidə və ətraf rayonlarda elektrik enerjisi ilə təminatı yaxşılaşdıracaqdır, regionun sosial-iqtisadi inkişafında böyük rol oynayacaqdır.

---

* Mərasimdə Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Nazim İbrahimov, «Azərenerji» Səhmdar Cəmiyyətinin prezidenti Etibar Pirverdiyev, Şəki şəhər sakini Sevil İsmayılova çıxış etdilər.

Heydər Əliyev Muzeyində nümayiş etdirilən fotoşəkillər ulu öndərin energetika sektorunun inkişafına göstərdiyi dəstək və diqqəti əks etdirir.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Şəki, *14.10.2006-cı il».*

*Sonra prezident İlham Əliyev stansiya ilə yaxından tanış oldu. Burada quraşdırılan müasir avadanlığa, bloklara baxdı.*

*Şəki Modul Tipli Elektrik Stansiyası prezident İlham Əliyevin «Azərbaycan Respublikasında elektrik enerjisi təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında» sərəncamına uyğun olaraq respublikamızda istismara verilən ikinci stansiyadır. İlk belə stansiya bu ilin fevralında Astara rayonunda istismara verilmişdir. «Azərenerji» Səhmdar Cəmiyyətinin prezidenti Etibar Pirverdiyev məlumat verdi ki, 87 meqavat gücündə olan bu stansiyanın tikintisinə 2005-ci ilin oktyabrında başlanılmışdır. Tikinti üzrə Baş podratçı Finlandiyanın «Vartsila» şirkətidir. Tikinti-quraşdırma işlərini Azərbaycanın «Azenko» şirkəti həyata keçirmişdir.*

*Prezident İlham Əliyev stansiyada quraşdırılmış və hər birinin gücü 8,7 meqavat olan və Finlandiyada istehsal edilmiş 10 generatorun iş prosesi ilə maraqlandı. Stansiyada hər birinin uzunluğu 1,2 kilometr olan 4 ədəd 110 kilovoltluq elektrikötürmə xətti, 3,5 kilometr uzunluğunda 10 kilovoltluq kabel xətti, habelə 1,2 kilometrlik qaz xətti çəkilmişdir. Obyektin özünün ayrıca qazpaylayıcı stansiyası vardır.*

*Stansiyanın 12,5 hektar sahəni əhatə edən ərazisinin təxminən üç hektarında bağ salınmış və 3400 ağac əkilmişdir. İkimərtəbəli inzibati binada Heydər Əliyev Muzeyindən əlavə, xidməti otaqlar və fəhlə yeməkxanası da yerləşir. İdarəetmə binasında isə ayrı-ayrı xidmət sahələri ilə yanaşı, qonaq otaqları da vardır.*

*Azərbaycan prezidenti İlham Əliyev kompüterin düyməsini basaraq, modul tipli elektrik stansiyasını işə saldı.*

*Prezident İlham Əliyev mərasimdə nitq söylədi.*

**İ l h a m  Ə l i y e v:** Əziz şəkililər!

Əziz bacılar və qardaşlar!

Mən sizi bu əlamətdar gündə ürəkdən salamlayıram. Şəkidə istifadəyə verilmiş yeni elektrik stansiyasının açılışı münasibətilə təbrik edirəm.

Mənim ünvanıma deyilmiş bütün xoş sözlərə görə sizə öz minnətdarlığımı bildirmək istəyirəm. Eyni zamanda, sizi əmin etmək istəyirəm ki, gələcəkdə də mən əlimdən gələni edəcəyəm ki, doğma Azərbaycanımız inkişaf etsin, çiçəklənsin, ölkədə mövcud olan bütün problemlər öz həllini tapsın, insanlar daha da yaxşı yaşasınlar və Azərbaycan qüdrətli ölkəyə çevrilsin. Bunu etmək üçün bütün imkanlar var. Bax, bu gün elektrik stansiyasının fəaliyyətə başlaması bunun gözəl nümunəsidir. İl yarım bundan əvvəl, keçən ilin may ayında Azərbaycanda yeni modul tipli stansiyaların tikintisinə dair sərəncam imzalanmışdır. Qısa müddət ərzində iki stansiya artıq istifadəyə verilibdir. Bu onu göstərir ki, bizim qəbul etdiyimiz bütün qərarlar vaxtlı-vaxtında, çox qısa müddət ərzində həyata keçirilir. Çünki Azərbaycanın artan tələbatı, potensialı, əlbəttə ki, elektrik enerjisinə olan tələbatı da artırır. Çünki elektrik enerjisi həyat deməkdir. Elektrik enerjisi olmadan ölkədə heç bir layihə həyata keçirilə bilməz, heç bir müəssisə, heç bir fabrik, zavod fəaliyyətə başlaya bilməz. Bizim istəyimiz də ondan ibarətdir ki, ölkəmiz hərtərəfli inkişaf etsin, yeni iş yerləri, yeni müəssisələr, fabriklər açılsın. Baxın, son üç il ərzində Azərbaycanda 470 min yeni iş yeri açılmışdır. Yüzlərlə məktəb, xəstəxana tikilmişdir, yollar salınır. Bütün infrastruktur yeniləşir. Belə olan halda, Azərbaycanın artan tələbatını ödəmək üçün bizim energetika sistemimiz mütləq və mütləq, qısa müddət ərzində daha da möhkəmlənməlidir.

Son üç il ərzində Azərbaycanda 700 meqavat gücündə qurğular istifadəyə verilmişdir. Növbəti üç ildə isə, bizim planlarımıza görə, Azərbaycanda energetika sistemi əlavə 1700 meqavat, bütövlükdə beş il ərzində isə 2400 meqavat güc alacaqdır. Bu, Azərbaycanın mövcud potensialının 50 faizindən çoxdur. Bütün dövrlər ərzində Azərbaycanda elektrik stansiyalarının gücü təxminən 4500–5000 meqavat olmuşdur. Üç il, beş il ərzində isə 2400 meqavat güc yaradırıq. Bu çox gözəl nəticə, çox gözəl tədbirlərdir və bizə imkan verəcək ki, ölkəmiz hərtərəfli inkişaf etsin. Bu fürsətdən də istifadə edib stansiyaların tikintisində iştirak etmiş bütün insanlara öz minnətdarlığımı bildirmək istəyirəm. Qısa müddət ərzində belə stansiyaları tikmək, özü də müasir səviyyədə tikmək çox böyük peşəkarlıq, çox böyük qəhrəmanlıq tələb edir.

Biz energetiklərin peşə bayramı ərəfəsindəyik. Bu ayın 20-də energetiklər öz peşə bayramını qeyd edəcəklər. Bu münasibətlə də mən sizi təbrik edirəm və gələcək işlərinizdə uğurlar arzulayıram.

Gələcəkdə çox işlər olacaq, yeni modul stansiyalar inşa ediləcəkdir. İndi Sumqayıtda böyük elektrik stansiyası tikilir, Bakıda tikiləcək, Mingəçevirdə, digər yerlərdə yenidənqurma işləri aparılır. Azərbaycanın çox güclü energetika potensialı olacaqdır. Bu, ilk növbədə Azərbaycanın tələbatını ödəyəcək və ondan sonra Azərbaycan öz elektrik enerjisini ixrac da edə bilər. Bizim buna imkanlarımız var.

Azərbaycanın ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə başlanmış və uğurla icra edilən neft strategiyası öz bəhrələrini verməkdədir. Bakı–Tbilisi–Ceyhan neft kəməri artıq fəaliyyətdədir. Bizim çox böyük neft hasilatımız var və getdikcə artacaqdır. Bu il «Şahdəniz» yatağı işə düşür. Bu da çox böyük, nəhəng bir layihədir. Azərbaycanı təbii qazla təmin edəcəkdir. Çünki buna böyük ehtiyac var, biz təbii qazı hələ ki, xaricdən də alırıq. Rusiyadan 4 milyard 500 milyon kubmetr qaz alırıq və bu il onun alınmasına 500 milyon dollar pul ödənilibdir. Nəzərə alsaq ki, indi qazın qiyməti qalxır və hələ

ki, Azərbaycanın xaricdən alınan qaza ehtiyacı var, əlbəttə, artan həcm və artan qiymət bizə təsir göstərəcəkdir. Ona görə «Şahdəniz» qaz yatağının istismara verilməsi Bakı–Ceyhan layihəsi kimi tarixi bir hadisədir.

Azərbaycan öz enerji təhlükəsizliyini tam şəkildə təmin edəcəkdir. Biz görürük ki, indi dünyada, Avropada enerji təhlükəsizliyi məsələləri ön plana çıxıbdır. Çünki hər bir ölkənin inkişafı üçün elektrik enerjisi olmalıdır. Bunun da mənbəyi, əsas mənbələri neft və qazdır. Azərbaycan bu baxımdan çox əhəmiyyətli bir vəziyyətdədir. Biz bunu yaradırıq və yaradacağıq. Əgər Bakı–Tbilisi–Ceyhan neft kəməri tikilməsəydi, «Şahdəniz» qaz yatağı işə salınmasaydı, biz çox böyük çətinliklərlə üzləşə bilərdik.

Azərbaycanın indi apardığı müstəqil siyasət, ilk növbədə, bizim iqtisadi potensialımıza əsaslanır. Çünki biz iqtisadi cəhətdən inkişaf edirik, öz gücümüzü artırırıq. İndi iqtisadi cəhətdən heç kimdən asılı deyilik. Bizim maliyyə imkanlarımız da artır. Azərbaycan xəzinəsində indi 3 milyard dollar vəsait var. Bu bizim ehtiyatlarımızdır. Azərbaycanın ildən-ilə artan büdcəsi bizə ölkənin qarşısında duran bütün vəzifələri həll etməyə imkan verir. Son üç il ərzində Dövlət büdcəmiz 4 dəfə artıbdır və gələn ilin büdcəsi 6 milyard dollar olacaqdır. Nəzərə alaq ki, 2003-cü ildə 1 milyard 500 milyon dollar idi. Bu onu göstərir ki, ölkəmiz çox sürətlə inkişaf edir. İqtisadi artım sürətinə görə Azərbaycan dünyada birinci ölkədir. Bəlkə də dünya rekordudur ki, ölkədə iqtisadiyyat belə yüksək sürətlə – ildə 30–40 faiz artır. O cümlədən sənaye istehsalı. İnkişaf etmiş ölkələrdə bu artım 2-3 faizdir. Bizimlə təxminən bir səviyyədə olan ölkələrdə, keçid dövrünü yaşayan ölkələrdə maksimum 10 faizdir, Azərbaycanda isə 30 faizdir. Bütün bunlar reallıqdır, gerçəklikdir və bizim düzgün siyasətimizi əks etdirir. İndi Azərbaycanda bütün sahələrdə inkişaf var.

Bu gün qeyd olundu ki, sabah mənim prezident vəzifəsinə seçilməyimdən üç il keçir və üç il ərzində böyük işlər görülüb-

dür. Mən bu barədə danışmaq istəməzdim. Amma hər şey göz qabağındadır.

İstər ölkənin beynəlxalq mövqelərinin möhkəmlənməsində, ordu quruculuğunun təkmilləşməsində, ordu potensialının möhkəmlənməsində, istərsə də iqtisadi islahatlar sahəsində, sosial sahələrin problemlərinin həllində – bütün sahələrdə inkişaf ən yüksək sürətlə gedir. Azərbaycan dünyada mövqelərini möhkəmləndirir və bölgədə lider dövlətə çevrilibdir. Bütün böyük dövlətlərlə çox səmimi, bərabərlik, qarşılıqlı hörmət əsasında qurulmuş münasibətlərimiz var. Azərbaycan beynəlxalq təşkilatlarda çox dəyərli üzvdür. İqtisadi artım baxımından dünyada birinci yerdəyik.

Orduya ayrılan xərclər gələn il artıq 1 milyard dollara çatacaqdır və Azərbaycanda çox güclü ordu yaradılır.

Sosial məsələlərin həlli bizim gündəlik vəzifəmizdir. İldən-ilə maaşlar, pensiyalar artır və artırılacaqdır. Bu yaxınlarda təhsil, səhiyyə işçilərinin əmək haqları artırılıbdır. Gələn ildən minimum əməkhaqqı qaldırılacaqdır, pensiyalar qaldırılır. Son iki il ərzində 600-dən çox məktəb tikilibdir. Azərbaycanın bütün bölgələrində yeni, müasir xəstəxanalar tikilir, magistral yollar, kənd yolları salınır, içməli su ilə təminat yaxşılaşacaqdır. Şəkinin problemləri də mütləq öz həllini tapacaqdır. Çünki bu barədə artıq işlər görülür. Bütün infrastruktur yeniləşir, qaz xətləri çəkilir, elektrik stansiyaları tikilir, ekologiya proqramı icra olunmağa başlayıbdır. Sahibkarlığa yardım güclənir və sahibkarlıqla məşğul olmaq istəyənlər üçün Dövlət büdcəsindən 100 milyon dollar həcmində kredit nəzərdə tutulubdur. «Aqrolizinq» Səhmdar Cəmiyyəti yaradılıbdır və kəndlilərə texnika verilməsinə kömək göstərilir. Buna da vəsait ayrılıbdır. İstənilən sahədə inkişaf var. Azərbaycanda elə bir sahə yoxdur ki, orada işlər görülməsin, artıq elə bir sahə yoxdur ki, orada düşünülmüş konsepsiya və proqram olmasın. Budur bizim reallıqlarımız.

Azərbaycan öz qüdrətini artırır. Azərbaycan xalqı ildən-ilə daha da yaxşı yaşamalıdır. Bizim bütün problemlərimiz öz həllini tapmalıdır. İşsizlik tamamilə aradan qaldırılmalı-

dır, yoxsulluq aradan qaldırılmalıdır. Bir ilə yoxsulluq 20 faiz aşağı düşübdür. Mənə verilən ilkin məlumata görə, bu ilin yekunlarına əsasən yenə də aşağı düşəcəkdir. Azərbaycanda bir nəfər də yoxsul olmamalıdır, bir nəfər də işsiz olmamalıdır. Bu, indi Azərbaycanın tutduğu yoldur. Bu, düzgün yoldur. Azərbaycan xalqı bu yolu dəstəkləyir. Bizim gördüyümüz işlər, bir tərəfdən, ölkənin möhkəmlənməsinə, qarşımızda duran qlobal məsələlərin həllinə yönəldilibdir. Digər tərəfdən, biz hər bir insanın problemlərinin həlli üçün çalışırıq. Əgər hər bir insanın problemi həll edilərsə, ölkənin bütün problemləri həll olunar. Bizim siyasətimiz bundan ibarətdir. Biz bazar iqtisadiyyatına sadiqik və iqtisadiyyatımızı bu prinsiplər əsasında inkişaf etdiririk. Bununla bərabər, Azərbaycanda sosial siyasət də çox güclüdür. İnsanların gündəlik həyatı yaxşılaşmalıdır. Hər bir vətəndaş müsbət dəyişiklikləri öz gündəlik həyatında hiss etməlidir. Yalnız bu təqdirdə biz öz vəzifəmizi yerinə yetirilmiş hesab edə bilərik.

Şəki şəhərinin çox qədim tarixi var. Azərbaycanın çox gözəl, çox böyük tarixə malik olan şəhəridir. Ona görə Şəki şəhərinin inkişafına xüsusi diqqət göstərilir. Mən bu ilin aprelində burada olarkən görüşlərdə, ondan sonra sahibkarlarla görüşdə, vəziyyətlə tanış olarkən həmişə vurğulamışam ki, biz Şəkinin inkişafına çox böyük diqqət göstərməliyik. Elektrik stansiyasının məhz Şəkidə tikilməsi də Şəkiyə olan özəl münasibətdən irəli gəlir. Biz Şəkinin inkişafına əlavə vəsait də ayırdıq və bu vəsaitlə böyük abadlıq işləri aparılır. Şəki şəhərinin və Şəki rayonunun inkişafına dəstək verən xüsusi sərəncam da imzalanmışdır. Baxmayaraq ki, 2004-cü ilin əvvəlində qəbul olunmuş regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında Şəkinin inkişafı öz əksini çox geniş tapmışdır. Bununla bərabər, xüsusi bir sərəncam imzalandı və o, icra olunur. Şəkinin bütün problemləri həll edilməlidir. Şəkinin çox böyük potensialı, çox böyük imkanları var. Burada turizmin inkişafı üçün çox gözəl şərait var. Turizmi inkişaf etdirmək üçün gərək infrastruktur yaradılsın. Elektrik enerjisi olmayan yerdə heç bir turizm inkişaf edə bilməz, heç

bir müəssisə fəaliyyət göstərə bilməz. Mən indi gedib yeni mehmanxananın açılışında iştirak edəcəyəm. Əgər yaxşı yol olmasa, işıq olmasa, su olmasa, istilik olmasa, hansı mehmanxana tikilə bilər, oraya kim gələcəkdir? Bunu etmək üçün infrastruktur, bütün lazım olan şərtlər – yollar, elektrik enerjisi, qaz, su olmalıdır və biz bunu yaradırıq.

Mən şübhə etmirəm ki, Şəki şəhərinin gələcək abadlaşması da uğurla gedəcək, Şəki öz qədimliyini, tarixi simasını saxlamaq şərti ilə müasirləşəcək və həmişə olduğu kimi, şəkililər Azərbaycanın inkişafında öz böyük rolunu oynayacaqlar.

Üç il həm qısa bir tarixi müddətdir, eyni zamanda, böyük müddətdir. Üç ildə iş görmək olar. Bizim təcrübəmiz göstərdi ki, bu, çox qısa müddət olmasına baxmayaraq, çox işlər görülübdür və daha da çox işlər görüləcəkdir. Biz bilirik haraya gedirik, bilirik nə istəyirik və bilirik ki, Azərbaycanın inkişafı hansı istiqamətdə davam etməlidir. Azərbaycan 15 ildir müstəqil ölkə kimi yaşayır. Öz müstəqilliyini artıq bütün dünyaya sübut edibdir. Bu bizim müstəqil siyasət aparmağımızdır. Bu müstəqil siyasət Azərbaycanı parlaq gələcəyə aparacaqdır.

Bütün bu işlərdə bu stansiyanın öz payı var. Belə stansiyalar çox olanda, bizim işlərimiz daha da rahat gedəcək və mən bunu arzulayıram.

Bu gözəl hadisə münasibətilə sizi bir daha ürəkdən təbrik etmək istəyirəm. Mən çox şadam ki, yenidən Şəkidəyəm, sizinlə bərabər buradayam. Mənim üçün bu əlamətdar gündə istədim ki, insanlarla birlikdə olum və xüsusi olaraq bu stansiyanın açılışını oktyabrın 14-nə təyin etdim. Bir tərəfdən, ona görə ki, düz bir il bundan əvvəl oktyabrın 14-də bu stansiyanın təməli qoyulubdur. Digər tarix də bizə bəllidir. Mən istədim ki, bu gündə sizinlə bərabər olum. Sizi ürəkdən bir daha salamlayıram, sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun.

## «ŞƏKİ SARAYI» HOTELİNİN İSTİFADƏYƏ VERİLMƏSİNƏ HƏSR OLUNMUŞ MƏRASİM

*14 oktyabr 2006-cı il*

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 14-də, elektrik stansiyasının açılışından sonra Şəki şəhərinə gələrək, burada «Şəki sarayı» hotelinin istifadəyə verilməsi münasibətilə keçirilən mərasimdə iştirak etmişdir.*

*Mərasimə toplaşan şəhər sakinləri dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Yerli iş adamı Cavanşir Feyziyevin maliyyə dəstəyi ilə «Tour-İnvest» şirkəti tərəfindən inşa edilən «Şəki sarayı»nın tikintisinə ötən ilin əvvəlində başlanmışdı. Milli memarlıq üslubunda və yüksək standartlara uyğun ucaldılan hotel binasının inşasında müasir arxitektura elementlərindən də geniş istifadə edilmişdir. Hotel Şəki şəhərinə xüsusi görkəm verməklə yanaşı, buraya gələn xarici turistlərə, iş adamlarına və beynəlxalq təşkilatların nümayəndələrinə yüksək səviyyədə xidmət göstərilməsinə imkan yaradacaqdır. Hoteldə fəaliyyət göstərəcək bələdçilər qrupu xarici qonaqları Şəkinin görməli yerləri, tarixi abidələri ilə tanış edəcək, bölgənin turizm imkanları barədə hərtərəfli məlumat verəcəkdir. Hotelin beşmərtəbəli binasının ümumi sahəsi 1200 kvadratmetr, nömrələrinin sahəsi isə 30–60 kvadratmetrdir. Burada «4 ulduz» sertifikatına uyğun, eyni vaxtda 65 nəfəri qəbul edə bilən 34 nömrə, o cümlədən 3 lüks nömrə var.*

*Prezident İlham Əliyev hotelin rəmzi açılışını bildirən lenti kəsdi. Dövlətimizin başçısı hotel ilə tanış oldu, ayrı-ayrı otaqları gəzdi. Bildirildi ki, birinci mərtəbədə avtomatlaşdırılmış qəbul şöbəsi, biznes mərkəzi, habelə 50 nəfərlik restoran və*

*bar fəaliyyət göstərir. Geniş foyedə qonaqların istirahəti üçün hər cür şərait yaradılmışdır. Biznes mərkəzində isə qonaqlar internet və peyk rabitəsi xidmətlərindən istifadə etməklə dünyanın istənilən guşəsi ilə əlaqə saxlaya biləcəklər. İkinci mərtəbədəki 60 nəfərlik konfrans-ziyafət salonunda beynəlxalq səviyyəli tədbirlər keçirmək mümkün olacaqdır.*

*Dövlətimizin başçısı binanın elektrik enerjisi, istilik təminatı, havalandırma sistemləri və s. ilə də maraqlandı. Məlumat verildi ki, kanal tipli havalandırma sistemi Yaponiyanın «Air kanal» firmasının texnologiyası əsasında qurulmuş, 12 nəfərlik lift «Mitsubişi» firmasının məhsuludur. Hoteli daimi elektrik enerjisi ilə təmin etmək üçün İngiltərənin «Perkins» firmasının istehsalı olan 500 kilovat gücündə transformator quraşdırılmışdır. Hoteldə 50 nəfərə yaxın daimi işçi çalışacaqdır.*

*Prezident İlham Əliyev binanın sonuncu mərtəbəsinə çıxaraq, qədim Şəkinin gözəlliyi ilə xoş təsir bağışlayan mənzərəsini seyr etdi, bu bölgədə turizmin inkişafına kömək edəcək belə obyektlərin yaranmasının əhəmiyyətini vurğuladı, ətraf ərazilərdə abadlıq-quruculuq işlərinin aparılması üçün tövsiyə və tapşırıqlarını verdi.*

* * *

*Prezident İlham Əliyev həmin gün Azərbaycan energetikasının ən böyük müəssisələrinin yerləşdiyi Mingəçevir şəhərində də olmuşdur. Şəhər sakinləri ilə səmimiyyətlə görüşən dövlətimizin başçısı energetikləri peşə bayramı münasibətilə təbrik etdi, onların qayğıları və problemləri, şəhərin sosial-iqtisadi həyatı ilə maraqlandı, lazımi tapşırıq və göstərişlərini verdi.*

## ABŞ-ın ÜMUMDÜNYA TİCARƏT TƏŞKİLATI YANINDA SƏFİRİ PETER ALLGEİERİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*16 oktyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Prezident sarayında ABŞ-ın Ümumdünya Ticarət Təşkilatı yanında səfiri Peter Allgeieri qəbul etmişdir.*

*Peter Allgeieri prezident İlham Əliyevin cari ilin aprel ayında Vaşinqtona səfərinin çox uğurla keçdiyini bildirdi, o vaxtdan ötən dövr ərzində ABŞ ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğuladı.*

*Dövlətimizin başçısı Vaşinqtona səfərini məmnuniyyətlə xatırlayaraq, o dövrdən bəri iki ölkə arasındakı əlaqələrin daha fəal xarakter aldığını qeyd etdi. Azərbaycan–ABŞ münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayan prezident İlham Əliyev əlaqələrimizin bundan sonra da genişləndiriləcəyinə əmin olduğunu bildirdi.*

**MACARISTAN RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB LASLO ŞOYOMA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Macarıstan Respublikasının elan edilməsi günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, ölkələrimiz arasındakı münasibətlər, dostluq və əməkdaşlıq əlaqələrimiz bundan sonra da ardıcıl şəkildə inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Macarıstan xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 oktyabr 2006-cı il*

**AVSTRİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB HAYNZ FİŞERƏ**

Hörmətli cənab Prezident!

Avstriya Respublikasının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Azərbaycan ilə Avstriya arasındakı münasibətlərin hazırkı səviyyəsindən məmnunluq duyuram.

Ümidvaram ki, bu münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Avstriya xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 oktyabr 2006-cı il*

**ÇEXİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VATSLAV KLAUSA**

Hörmətli cənab Prezident!

Çexiya Respublikasının milli bayramı münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan–Çexiya münasibətləri qarşılıqlı maraqlarımıza uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq məcrasında öz inkişafını davam etdirəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Çexiya xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 oktyabr 2006-cı il*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ**

Hörmətli cənab Prezident!

Əziz dostum, qardaşım!

Milli bayramınız – Respublika günü münasibətilə Sizi və Sizin simanızda bütün Türkiyə xalqını öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Biz qardaş Türkiyənin hər bir uğuruna sevinir, nailiyyətlərindən qürur duyuruq. Xalqlarımızın tarixi birliyi və yekdil iradəsi bu gün dövlətlərarası münasibətlərimizin, müttəfiqliyimizin yüksək səviyyəsində öz parlaq ifadəsini tapır.

Əminəm ki, biz zamanın sınağından çıxmış möhkəm dostluq və qardaşlıq münasibətlərimizi bundan sonra da daim uca tutacaq və öz əməllərimizdə yaşadacağıq.

Hörmətli cənab Prezident, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 oktyabr 2006-cı il*

**TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Baş nazir!

Əziz dostum, qardaşım!

Türkiyənin milli bayramı – Respublika günü münasibətilə Sizə və qardaş Türkiyə xalqına ən səmimi təbriklərimizi yetirməkdən son dərəcə məmnunluq duyuram.

Bu gün Türkiyə hərtərəfli inkişaf yolu ilə irəliləyərək öz tarixi köklərini, milli özgürlüyünü qoruyub saxlayan, ümumbəşəri dəyərləri bölüşən bir dövlət kimi, Dünya Birliyində layiqli yer tutur. Biz Türkiyənin qüdrətinin artmasını, yüksəlişini öz uğurumuz kimi qəbul edirik.

Qardaş xalqlarımızın iradəsindən və məramından qaynaqlanan, qarşılıqlı inam və etibara əsaslanan münasibətlərimiz bizim ən böyük mənəvi sərvətimizdir.

Bu xoş bayram günündə sevincinizə qoşulur, öz adımdan və Azərbaycan xalqı adından ən xoş arzularımızı ifadə edir, Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 oktyabr 2006-cı il*

**TÜRKMƏNİSTAN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB SAPARMURAD NİYAZOVA**

Hörmətli Saparmurad Atayeviç!

Milli bayram – Müstəqillik günü münasibətilə Sizi və dost Türkmənistan xalqını ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Türkmənistan arasında ənənəvi dostluq münasibətlərinin inkişafı, mehriban qonşuluğun və qarşılıqlı surətdə faydalı əməkdaşlığın möhkəmlənməsi bundan sonra da xalqlarımızın mənafelərinə, regionda sülh və təhlükəsizlik işinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, Türkmənistan xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 oktyabr 2006-cı il*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN BELARUS RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ

*17 oktyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 17-də Belarus Respublikasına ikigünlük rəsmi səfərə gəlmişdir.*

*Hər iki ölkənin dövlət bayraqları ilə bəzədilmiş Minsk Milli Hava Limanında Azərbaycan prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Milli geyimli qızlar dövlətimizin başçısına təyyarənin pilləkəni yanında gül dəstəsi və duz-çörək təqdim etdilər.*

*Prezident İlham Əliyevi Belarus Respublikasının Baş naziri Sergey Sidorski, Xarici İşlər naziri Sergey Martınov və digər yüksək vəzifəli dövlət, hökumət nümayəndələri böyük hörmət və ehtiramla qarşıladılar.*

*Azərbaycan prezidenti hava limanından onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

## Minskdə rəsmi qarşılanma mərasimi

*Oktyabrın 17-də Belarus Respublikası Prezidentinin «Zastavl-1» iqamətgahında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Azərbaycan prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Belarus prezidenti Aleksandr Lukaşenko Azərbaycan prezidenti İlham Əliyevi səmimiyyətlə qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidentinə raport verdi. Azərbaycanın və Belarusun dövlət himnləri səsləndi. Azərbaycan prezidenti İlham Əliyev və Belarus prezidenti Aleksandr Lukaşenko fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Dövlətimizin başçısı Belarus əsgərlərini salamladı.*

*Belarusun dövlət və hökumət nümayəndələri Azərbaycan prezidenti İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri Belarus prezidenti Aleksandr Lukaşenkoya təqdim olundu.*

*Dövlət başçıları rəsmi şəkil çəkdirdilər.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında prezidentlərin qarşısından keçdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKONUN TƏKBƏTƏK GÖRÜŞÜ

*17 oktyabr 2006-cı il*

*Oktyabrın 17-də, Minskdə Belarus prezidentinin iqamətgahında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun təkbətək görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişafı, iqtisadi əlaqələrin genişləndirilməsi üçün böyük potensialın olduğu vurğulandı.*

*President Aleksandr Lukaşenko xalqımızın ümummilli lideri Heydər Əliyevin iki ölkə arasında əlaqələrin inkişafındakı xidmətlərini xatırladaraq, bu münasibətlərin indiyədək qorunub saxlandığını vurğuladı və dedi ki, rəsmi Minsk Azərbaycanla istənilən sahədə əməkdaşlıq etməyə hazırdır.*

*Prezident İlham Əliyev iki ölkə arasında iqtisadi əməkdaşlığın daha da gücləndirilməsi üçün mövcud imkanlardan səmərəli istifadə edilməsinin əhəmiyyətli olduğunu bildirdi.*

*Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə olundu.*

### Təkbətək görüşdən sonra Azərbaycan prezidenti İlham Əliyevin və Belarus prezidenti Aleksandr Lukaşenkonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü

**A l e k s a n d r L u k a ş e n k o:** Qardaş Azərbaycanın dövlət nümayəndə heyətini Belarus torpağında bir daha

salamlayıram. Bu səfər dövlətlərimiz müstəqillik əldə etdikdən sonra Azərbaycan dövlət başçısının Belarus Respublikasına ilk səfəridir. Bu gün bizim perspektiv istiqamətləri işğüzar şəraitdə müzakirə etməyə imkanımız var. Əminəm ki, yüksək səviyyədə dialoqun fəallaşdırılması Belarus–Azərbaycan münasibətlərinin genişlənməsinə təkan verəcəkdir. İki dövlətin dinamik inkişaf edən iqtisadiyyatı, böyük istehsal potensialı qarşılıqlı marağı şərtləndirir, geniş səpkili məsələlər üzrə daha fəal birgə iş aparmağı zərurətə çevirir.

Qeyd etmək xoşdur ki, son illər ölkələrimiz arasında əmtəə dövriyyəsi sürətlə artır. Bu, 2005-ci ildə təxminən 30 milyon dollar olmuş və 2004-cü ildəkinə nisbətən 85 faizdən çox artmışdır. Yaxşı dinamikadır, lakin bununla yanaşı, mütləq rəqəmlərlə götürdükdə əmtəə dövriyyəsi cüzidir. Halbuki bizim əmtəə dövriyyəmiz daha çox ola bilər. Əminəm ki, İlham Heydəroviçin Belarusa səfərindən sonra belə də olacaqdır.

Belarusun Azərbaycana ixracı traktorlardan, yük avtomobillərindən, yol texnikasından, ağac emalı məhsulundan və bir çox digər məhsullardan ibarətdir. Azərbaycan isə ölkəmizə sənaye üçün böyük əhəmiyyəti olan pambıq lifi, tütün xammalı, habelə Belarusda istehsal edilməyən ərzaq məhsulları göndərir. Lakin biz əmtəə dövriyyəsini artırmaq, iki ölkənin təsərrüfat subyektləri arasında sabit əlaqələr yaratmaq, bu əlaqələrə uzunmüddətli xarakter vermək üçün heç də bütün imkanlardan istifadə etmirik. Yaxın vaxtlarda biz sənaye və energetika sahəsində iri müştərək layihələrin gerçəkləşdirilməsinə gəlib çıxmalıyıq.

Bizim münasibətlərimizdə qapalı mövzular yoxdur. Azərbaycana azacıq da olsa maraq göstərən nümayəndələrimizdən xahiş edərdim ki, oraya gedib, Azərbaycan tərəfinə əməkdaşlıq təklif etsinlər. Biz təkcə Azərbaycanda deyil, həmsərhəd ölkələrdə də öz bazarımızı tapacağıq. Azərbaycan rəhbərliyi bizi bu sahədə dəstəkləyəcəkdir. Üstəlik, Azərbaycan çox böyük maliyyə ehtiyatlarına malikdir və onları

yolların, hava limanlarının tikintisinə, kənd təsərrüfatına, yeni müəssisələr yaradılmasına və köhnə müəssisələrin modernləşdirilməsinə yönəldir. Bizə Azərbaycanda tələbat ola bilər. Mən hərbi-texniki əməkdaşlıq üzrə mütəxəssislərimizə təşəkkür etmək istəyirəm. Əgər hamı digər dövlətlərlə də işə bu cür yanaşsa, onda bizə həmişə tələbat olacaqdır. Azərbaycan prezidenti texnikamıza şəxsən baxdı. Azərbaycana çox yüksək məsuliyyətlə və mədəniyyətlə getmək lazımdır ki, bizim haqqımızda yaxşı danışsınlar. İndi bu, biznesdə əsas şərtdir.

Mən neft-qaz sahəsində ikitərəfli əməkdaşlığı çox perspektivli sayıram. Bu istiqamətdə niyyətimizi dəstəkləyən Azərbaycan prezidentinə minnətdaram. Azərbaycanda iri neft və qaz yataqlarının, Belarusda isə müasir güclü neftkimya kompleksinin olması elə bir təməldir ki, energetika sahəsində münasibətlərimiz onun əsasında faydalı şəkildə qarşılıqlı inkişaf edə bilər. Biz neftin, o cümlədən Xəzər neftinin ərazimizlə nəqlinin həcminin artırılmasında maraqlıyıq. Əgər bu, Azərbaycana lazım və faydalı olarsa, Xəzər neftinin Baltikyanı regiona və Polşaya tranziti üçün özümüzün bütün boru kəməri nəqliyyatının infrastrukturunu təqdim etməyə hazırıq. Bizim neft və qaz yataqlarının işlənilməsində müştərək layihələrin həyata keçirilməsi üçün də imkanımız var. Biz belə prinsipial dəstəyi alacağıq. Müasir şəraitdə kooperasiyanın genişləndirilməsi və dövlətlərimizin malik olduğu potensial əsasında müştərək müəssisələr yaradılması əhəmiyyətlidir. Azərbaycan tərəfi Belarus traktorlarının, digər kənd təsərrüfatı texnikasının yığılması üçün müəssisə yaradılmasında çox maraqlıdır. Bu, Azərbaycana kənd təsərrüfatının inkişafı üçün çox gərəkdir. Buna görə də onu bu sahədə dəstəkləmək lazımdır. Üstəlik, biz nəinki Azərbaycan bazarından istifadə edə, həm də qonşularla ticarət edə bilərik. Bu gün Azərbaycanın kənd təsərrüfatı büdcə vasitəsilə dəstəklənir. Düşünürəm ki, bu pulları orada qazanmaq lazımdır. Bizim bundan ötrü bütün

imkanlarımız var. Səmərəli münasibətləri inkişaf etdirmək üçün bizdə zəruri olan hər şey var.

Beynəlxalq məsələlərin əksəriyyətində mövqelərimiz oxşardır. Ölkələrimiz güclü və çiçəklənən dövlət quruculuğu xətti aparır. Əminəm ki, imzalanmağa təklif edilən Belarus ilə Azərbaycan arasında 2015-ci ilədək sosial-iqtisadi əməkdaşlıq haqqında müqavilə və Belarus–Azərbaycan sazişləri yaxın perspektiv üçün qarşılıqlı fəaliyyətimizin keyfiyyətcə yeni səviyyəsinə nail olmağa, onun uzunmüddətli xarakter daşımasını təmin etməyə imkan verəcəkdir.

İlham Heydəroviç, MDB-nin tədbirinin baş tutmamasına baxmayaraq, buraya gəldiyinizə görə Sizə ürəkdən təşəkkür etmək istəyirəm. Biz bunu yüksək qiymətləndirir və Sizin bu səfərə görə təəssüflənməməyiniz üçün hər şeyi edəcəyik.

Siz tamamilə haqlısınız. Belarusa səfərim və MDB-nin iclası bir vaxta təsadüf etdi. Lakin bu hadisələrin əhəmiyyəti baxımından, əlbəttə, ölkənizə rəsmi səfər digər hadisələrdən üstündür. Odur ki, MDB-nin iclasının təxirə salındığı məlum olduqda, rəsmi səfərin başqa vaxta keçirilməsi barədə təbii ki, heç bir söhbət gedə bilməzdi.

Biz ölkənizdə baş verən hadisələri çox böyük maraqla izləyirik, uğurlarınıza çox sevinirik. Düşünürəm ki, artıq bu gün bütün istiqamətlərdə əməkdaşlığı gücləndirmək üçün çox yaxşı zəmin var. Bunun üçün qarşılıqlı istək var. Praktiki baxımdan artıq müəyyən niyyətlər var. İki il əvvəl yaradılan hökumətlərarası komissiya fəal işləyir, müxtəlif nazirliklər və idarələr, istehsal müəssisələri səviyyəsində əlaqələr də fəaldır. İqtisadi sahədə, Belarusda istehsal edilən malların alınması sahəsində fəal əməkdaşlığımızın necə başlamasından çox məmnunuq. Məhz bu qarşılıqlı etimad və tam qarşılıqlı anlaşma gələcəkdə münasibətlərimizin uğurlu inkişafını bəri başdan müəyyənləşdirir.

Iqtisadiyyatlarımız bir-birini çox uğurla tamamlaya bilər. Bu gün Belarusda istehsal edilən məhsullara Azərbaycanda tələbat var. Azərbaycanda istehsal edilən məhsullar isə sizin

ölkəniz üçün maraq doğurur. Ona görə də energetika, neft-qaz sahəsində, müştərək müəssisələr, sənaye müəssisələri, o cümlədən kənd təsərrüfatında, müdafiə sənayesində müəssisələr yaradılması sahəsində əməkdaşlıq – bütün bu istiqamətlər çox praktiki əhəmiyyətə malikdir. Fəal iqtisadi əməkdaşlığımızın son dövrü göstərir ki, qərarlarımız dərhal həyata keçirilir. Biz əməkdaşlıq üçün hansısa bir istiqaməti müəyyənləşdirən kimi, hər iki tərəfdən müvafiq addımlar atılır, yerlərdə rəhbər işçilərə tapşırıq verilir və icraçılar öz vəzifələrinə məsuliyyətlə yanaşırlar. Düşünürəm ki, bu, ölkələrimiz arasında həqiqi tərəfdaşlıq münasibətlərinin necə qurulmalı olduğuna çox yaxşı nümunədir.

Iqtisadiyyatlarımız çox dinamik inkişaf edir. İqtisadi potensial, sənaye potensialı artır və təbii ki, bu daha fəal iqtisadi əməkdaşlıq üçün zəmin yaradır. Mən əminəm və Sizinlə tam razıyam ki, mövcud əmtəə dövriyyəsini göstərən mütləq rəqəmlər bizi qane edə bilməz. Əminəm ki, səfərdən sonra biz əmtəə dövriyyəsinin xeyli artacağını görəcəyik. İmzalanmağa təklif olunan sənədlər də münasibətlərimiz üçün yaxşı hüquqi baza yaradacaq, gələcək inkişaf perspektivlərini müəyyən edəcəkdir.

Biz Belarus ilə Azərbaycan arasında hərtərəfli əməkdaşlıqda maraqlıyıq və ümidvarıq ki, bu əməkdaşlıq qarşılıqlı surətdə faydalı olacaqdır və o, artıq məhz belədir. Əməkdaşlığın nəticələri bizi qane edir və çox geniş qarşılıqlı fəaliyyət üçün perspektivlər açır.

Bu gün biz Sizinlə çox geniş səpkili məsələləri müzakirə etdik və hətta müzakirənin gedişində hərə özü üçün yeni-yeni sahələr açdı. Elə sahələr ki, burada fəal əməkdaşlıq edə bilərik. Bu bizi çox sevindirir və ümidvaram ki, nəzərdə tutduğumuz hər şey həyata keçiriləcəkdir. Biz öz öhdəliklərimizin yerinə yetirilməsinə çox məsuliyyətlə yanaşırıq.

Biz istəyirik ki, ölkələrimiz arasında əməkdaşlıq uzunmüddətli əsasda olsun, habelə bu əməkdaşlığa cəlb edilmiş bütün qurumlar öz öhdəliklərinin yerinə yetirilməsinə çox

məsuliyyətlə yanaşsınlar. Qarşılıqlı etimad hər bir əməkdaşlığın əsasıdır. Bu gün ölkələrimiz arasında qarşılıqlı etimad var. Belarusun və Azərbaycanın ölkələrimizdə səfirliklərinin açılması da ikitərəfli əlaqələrə necə əhəmiyyət verdiyimizi göstərir, habelə əməkdaşlığın yeni sahələrini müəyyənləşdirmək üçün səmərəli mexanizmdir. Səfirliklər, hökumətlərarası komissiya, nümayəndə heyətlərinin qarşılıqlı səfərləri – belə səfərlər olmuşdur və ümidvaram ki, gələcəkdə də olacaq – əməkdaşlığımızın gələcək potensialını məhz bunlar irəlicədən müəyyən edəcəkdir. Mən bundan çox məmnunam və bir daha demək istəyirəm ki, səfərə dəvətə görə minnətdaram.

Getdikcə daha fəal olan dialoqumuzu davam etdirməkdən ötrü Sizi bir daha – artıq geniş tərkibdə – özünüz üçün əlverişli vaxtda Azərbaycana rəsmi səfərə dəvət etmək istəyirəm. Bu, ölkələrimizin və xalqlarımızın mənafelərinə uyğundur.

**Sənədlərin imzalanma mərasimi**

*Oktyabrın 17-də Dövlət başçılarının geniş tərkibdə görüşü başa çatdıqdan sonra sənədlərin imzalanma mərasimi olmuşdur.*

*Əvvəlcə Azərbaycan prezidenti İlham Əliyev və Belarus prezidenti Aleksandr Lukaşenko «Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında 2015-ci ilə qədər sosial-iqtisadi əməkdaşlıq haqqında müqavilə»ni imzaladılar.*

*Azərbaycan Respublikası hökuməti ilə Belarus Respublikası hökuməti arasında «Kombinə edilmiş yükdaşımalar haqqında saziş», Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi ilə Belarus Respublikasının Nəqliyyat və Kommunikasiyalar Nazirliyi arasında «Nəqliyyat sahəsində əməkdaşlıq haqqında memorandum», Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Belarus Respublikasının İdman və Turizm Nazirliyi arasında «Bədən tərbiyəsi və idman sahəsində əməkdaşlıq haqqında saziş», Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Belarus Respublikasının Təhsil*

*Nazirliyi arasında «Təhsil sahəsində əməkdaşlıq haqqında saziş», Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi ilə Belarus Respublikasının Fövqəladə Hallar Nazirliyi arasında «Əməkdaşlıq haqqında saziş», Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi ilə Belarus Respublikasının İqtisadiyyat Nazirliyi arasında «Kiçik sahibkarlığın inkişafı sahəsində əməkdaşlıq haqqında saziş», Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Belarus Respublikasının Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi arasında «Kənd təsərrüfati kompleksi sahəsində iqtisadi və elmi-texniki əməkdaşlıq haqqında saziş», «Azərbaycan Televiziya və Radio Verilişləri» Qapalı Səhmdar Cəmiyyəti ilə Belarus Milli Dövlət Teleradio Şirkəti arasında «Əməkdaşlıq haqqında saziş» imzalandı.*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV BELARUS RESPUBLİKASINDA

*17 oktyabr 2006-cı il*

## Minskdə «Qələbə» meydanındakı abidəni ziyarət

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 17-də Minsk şəhərinin «Qələbə» meydanında azadlıq rəmzi kimi ucaldılmış abidəni ziyarət etmişdir.*

*Meydanda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyev abidə önünə əklil qoydu. Azərbaycanın və Belarusun dövlət himnləri səsləndi.*

*Sonra dövlətimizin başçısı meydana toplaşmış Minsk şəhərində yaşayan soydaşlarımızla görüşdü, onların qayğı və problemləri ilə maraqlandı, Belarusdakı diaspor təşkilatımızın daha da gücləndirilməsi üçün müvafiq tövsiyə və tapşırıqlarını verdi.*

## Belarus Dövlət Hərbi Sənaye Komitəsində

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 17-də Belarus Respublikasının Dövlət Hərbi Sənaye Komitəsinə gəlmişdir.*

*Burada dövlətimizin başçısını Komitənin sədri Nikolay Azamatov böyük hörmət və ehtiramla qarşıladı.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev ilə Nikolay Azamatov arasında görüş keçirildi.*

*Dövlətimizin başçısı sonra Hərbi Sənaye Komitəsinin nəzdində fəaliyyət göstərən «Aka» Elm-istehsalat Birliyi ilə tanış oldu.*

## Minsk avtomobil zavodunda

*Oktyabrın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Minsk avtomobil zavodunda olmuşdur.*

*Azərbaycan rəhbərini burada Belarus Respublikasının Sənaye naziri Anatoli Rusetski ehtiramla qarşıladı. Dövlətimizin başçısına gül dəstəsi və duz-çörək təqdim olundu. Bu zavod 1944-cü ildə, Minsk şəhəri alman faşistlərindən azad olunduqdan sonra tikilmiş, 1947-ci ildə istifadəyə verilmişdir. Hazırda zavodda 27500 işçi çalışır və gün ərzində 90 avtomobil istehsal olunur. MAZ-ın məhsulları Azərbaycan bazarında da məşhurdur, 2004-cü ildən burada zavodun rəsmi dileri fəaliyyət göstərir.*

*Dövlətimizin başçısı hazırda 300 növ məhsul buraxan zavodun yük avtomobillərinə, mikroavtobuslarına, avtokranlara, digər texnikalara baxdı, ayrı-ayrı istehsal sahələri və sexləri ilə tanış oldu, zavodun xatirə kitabına ürək sözlərini yazdı:*

«Belarusun iqtisadi və sənaye potensialı sürətlə inkişaf edir. Sənaye məhsullarının nümunələri ilə tanış olarkən biz onların yüksək keyfiyyətinin və texnoloji nailiyyətlərin olması qənaətinə gəldik.

MAZ sənaye müəssisələri sırasında layiqli yer tutur və xaricdə zavodun məhsuluna tələbat böyükdür.

Zavodun işçilərinə yeni uğurlar və dost Belarus xalqına tərəqqi arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*17.10.2006-cı il».*

* * *

*Sonra prezident İlham Əliyev zavodun buraxdığı avtobuslara mindi, onların müasir standartlara uyğun istehsal olunduğunu bildirdi.*

# BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKONUN ADINDAN AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ

*Minsk,*
*Belarus Dövlət başçısının «Pronze» iqamətgahı*

*17 oktyabr 2006-cı il*

**Belarus prezidenti Aleksandr Lukaşenkonun nitqi**

Hörmətli yoldaşlar!

Bugünkü yüksək səviyyədə keçən görüşün yekunları Belarusla Azərbaycan Respublikası arasında münasibətlərin böyük potensialının olduğunu bir daha əyani şəkildə təsdiqləyir. Bir sıra mühüm razılaşmalar əldə olundu, ikitərəfli əməkdaşlığın gələcək inkişafının konkret istiqamətləri müəyyən edildi. Əsas sənədin – 2015-ci ilədək sosial-iqtisadi əməkdaşlıq haqqında müqavilənin, habelə müxtəlif fəaliyyət sahələrinə dair sazişlərin imzalanması ölkələrimizin qarşılıqlı əlaqələri üçün geniş imkanlar açır. Belarusla Azərbaycan arasında əməkdaşlığın hərtərəfli, sistemli xarakter alması üçün çox iş görülmüşdür. Sizinlə birlikdə gələcək üçün vəzifəmiz nəzərdə tutulanların hamısını həyata keçirməkdən ibarətdir.

Özünün əməksevərliyi, qonaqpərvərliyi və çox zəngin mədəni ənənələri ilə məşhur olan Azərbaycan xalqına Belarus həmişə rəğbət bəsləyir. İndi ölkələrimizin hər biri müstəqil sosial-iqtisadi inkişafın, dövlətçiliyi möhkəmlətməyin, dünya xalqlarının böyük ailəsində layiqli yer tutmağın çətin yolu ilə gedir. Sosial sabitlik, sadə insanlara əsl qayğı, dövlətin həyati əhəmiyyətli mənafelərinin başa düşülməsi, onları beynəlxalq aləmə çıxarmaq əzmi – bunlar ölkələrimizin siyasətinin

əsaslandığı sarsılmaz prinsiplərdir. Əminəm ki, bütün səviyyələrdə Belarus–Azərbaycan münasibətlərinin dostluq, mehriban qonşuluq xarakteri ikitərəfli əməkdaşlığın inkişafında möhkəm təməl yaradacaq, xalqlarımız üçün yaxşı perspektivlər açacaqdır.

Bu gün biz sadəcə dost, qardaş dövlətin rəhbərini deyil, gözəl, ağıllı, uzaqgörən, bacarıqlı insanı və ümidvaram ki, onun başçılıq etdiyi eynilə güclü, sivilizasiyalı, savadlı nümayəndə heyətini qəbul edirik.

Hörmətli İlham Heydər oğlu!

Mən böyük məmnuniyyətlə bu badəni Sizin ölkə qarşısında qoyduğunuz planların həyata keçməsi şərəfinə qaldırmağı təklif edirəm. Bu, böyük, lakin ən real planlardır. Mən Sizə cansağlığı diləmək istəyirəm, arzum budur ki, həmişə bax, beləcə, bugünkü kimi olasınız. Onda xalq Sizi məmnunluqla dəstəkləyəcəkdir. Əgər dövlətin daxilində xalqın səni dəstəkləyirsə, bu, bütün problemlərin həllinin rəhnidir.

Sizin şərəfinizə, Azərbaycan xalqının şərəfinə!

**Azərbaycan prezidenti İlham Əliyevin nitqi**

Əziz Aleksandr Qriqoryeviç!

Əziz dostlar!

Çox mehribancasına qəbula görə, qonaqpərvərliyə görə, nümayəndə heyətimizin bütün üzvlərinə belə səmimi, xoş münasibətə görə bir daha təşəkkür etmək istərdim. Biz bunu qardaş Belarus torpağında olduğumuz ilk andan hiss etdik. Bütün bugünkü günü qarşılıqlı anlaşma, dostluq və yüksək səviyyəli əməkdaşlıq şəraitində keçirdik.

Bu, Azərbaycan prezidentinin Belarusa ilk rəsmi səfəridir və biz buna çox böyük əhəmiyyət veririk. Bu gün inamla demək olar ki, səfər və onun nəticələri çox uğurludur. Birinci gün olduqca zəngin idi. Biz Aleksandr Qriqoryeviçlə təkbətək, sonra nümayəndə heyətləri üzvlərinin iştirakı ilə geniş tərkibdə görüşdə çox açıq, ətraflı söhbət etdik. İkitərəfli inkişafla, regional əməkdaşlıqla, beynəlxalq münasibətlərlə bağlı

məsələlərin kifayət qədər geniş dairəsini müzakirə etdik. İnkişafın, qarşılıqlı fəaliyyətin, Belarusla Azərbaycan arasında yaxın və uzaq perspektiv üçün əməkdaşlığın əsas yollarını müəyyən etdik, mühüm sənədlər imzaladıq. Zənnimcə, ən başlıcası budur ki, nümayəndə heyətimizin üzvləri və belaruslu həmkarlar dostlaşdılar. Bu çox vacibdir. Axı dövlətlərarası münasibətlər həm də insanlar arasında olan münasibətlər deməkdir. Aleksandr Qriqoryeviçlə bizim aramızda çox səmimi münasibətlər yarandı. Biz bu münasibətləri qiymətləndiririk. İndiki səfər bu münasibətləri daha da möhkəmlətdi. Bu münasibətlərin bütün səviyyələrdə çox səmimi, mehriban xarakter daşıması son dərəcə vacibdir.

Bu gün mən və əminəm ki, nümayəndə heyətinin bütün üzvləri müstəqillik əldə olunduğu vaxtdan bəri, bu 15 ildə Belarusun qazandığı nailiyyətlərdən aldığımız böyük təəssüratın altındayıq. Biz dinamik inkişaf edən ölkə gördük, Belarusun çox böyük intellektual, sənaye, iqtisadi potensiala malik olduğunu gördük. Ölkənizdə baş verən hadisələr, iqtisadi inkişafın sürəti barədə mənim məlumatım vardı. Lakin bu gün biz Minskin necə inkişaf etdiyini gördük, ölkənizdə necə müasir, yüksək texnologiyalara əsaslanan istehsalatın olduğunu gördük. Bu istehsalatlar və onların bugünkü səviyyəsi, inkişafı isə Belarus xalqının intellektual yaradıcılığının bəhrəsidir. Həmin istehsalatların bir qismi sovet dövründə də fəaliyyət göstərirdi, lakin sovet dövründə onlar bu gün nail olduqları potensiala malik deyildilər. İndi onlar dünya səviyyəli məhsul buraxırlar ki, bunu da Aleksandr Qriqoryeviçin rəhbərliyi ilə Belarus xalqı təmin etmişdir.

Dövlətin, xüsusən də qısa dövr ərzində və kifayət qədər çətin zaman kəsiyində formalaşmış gənc dövlətin inkişafı rəhbərin işinin nəticəsidir. Bu gün Belarusda gördüklərimiz Aleksandr Qriqoryeviç Lukaşenkonun çox böyük fəaliyyətinin – təşkilatçılıq, yaradıcılıq fəaliyyətinin, öz xalqına, öz dövlətinə sadiqliyinin, öz ölkəsini inkişaf etdirmək və onu tərəqqi yolu ilə aparmaq əzminin nəticəsidir. Bu çox sevindiricidir. Düşünürəm ki, ölkələrimizin nümayəndələri arasında

əlaqələr nə qədər çox olarsa, müxtəlif layihələr də bir o qədər çox olacaqdır.

Biz həmin layihələri artıq bu gün müəyyən etdik. Onların bir qismi mənim səfərimdən əvvəl müəyyən edilmişdi və artıq qısa müddətdə uğurla həyata keçirilir. Bu gün biz məsələləri müzakirə edərkən tam yekdil fikirdə olduq ki, bu əlaqələri intensivləşdirmək lazımdır, münasibətlərin inkişafına güclü təkan, dinamizm vermək lazımdır. Biz yekdil fikirdə və bu qənaətdəyik ki, qarşıya qoyulmuş vəzifələr qısa müddətdə, çox səmərəli şəkildə, yüksək səviyyədə yerinə yetirilməlidir.

Mən münasibətlərimizin gələcəyinə böyük nikbinliklə baxıram. Əminəm ki, Aleksandr Qriqoryeviç Lukaşenkonun Azərbaycana gələn il üçün nəzərdə tutulan səfərinədək bugünkü razılaşmaların nəticələrinin həyata keçirilməsi sahəsində əməli iş görüləcək, ölkələrimiz gələcəyə doğru birlikdə irəliləyəcəklər.

Belarusun, formalaşmış müstəqil dövlətin uğurlarını bir daha qeyd etmək, prezident Aleksandr Qriqoryeviçə ən xoş diləklərimi bildirmək, bütün Belarus xalqına xoşbəxtlik, cansağlığı, firavanlıq və tərəqqi arzulamaq istərdim.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV BELARUS RESPUBLİKASINDA

*18 oktyabr 2006-cı il*

### Minsk Traktor zavodunda

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 18-də Minsk Traktor zavoduna gəlmişdir.*

*Milli geyimli qızlar dövlətimizin başçısına gül-çiçək və duz-çörək təqdim etdilər.*

*Belarus Respublikası Baş nazirinin birinci müavini Vladimir Semaşko, zavodun Baş direktoru Aleksandr Puxovoy prezident İlham Əliyevi səmimiyyətlə qarşıladılar.*

*Dövlətimizin başçısına məlumat verildi ki, əsası 1946-cı il mayın 29-da qoyulan bu zavod kənd təsərrüfatı texnikası istehsalı sahəsində dünyada ən tanınmış müəssisələrdən biridir. Hazırda 20 mindən çox işçisi olan müəssisədə 100 adda məhsul buraxılır və dünyanın 60 ölkəsinə ixrac edilir.*

*Azərbaycan prezidenti İlham Əliyev gündə 196 traktor istehsal edən müəssisənin sexlərini gəzdi, istehsal prosesləri ilə tanış oldu. Sonra dövlətimizin başçısı zavodda istehsal olunan və əsasən kənd təsərrüfatı sahəsində istifadə edilən traktor və texnikadan ibarət sərgiyə baxdı. Prezident İlham Əliyev bu cür texnikanın Azərbaycanda yığılmasının təşkili üçün ölkəmizdə də şəraitin olduğunu vurğuladı və bu məqsədlə lazımi işlərin görülməsinin zəruriliyini söylədi.*

*Minsk Traktor zavodu müxtəlif ölkələrdə onun məhsullarını yığan müəssisələrin təşkilində yaxından iştirak edir. Zavodun məhsullarına Böyük Britaniya, ABŞ, Almaniya, Fransa, Kanada, İtaliya, İsveç və başqa ölkələrdə böyük tələbat vardır.*

## Belarus Milli Kitabxanası ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 18-də Belarus Milli Kitabxanasına gəlmişdir. Prezident İlham Əliyevi burada gül-çiçəklə və duz-çörəklə qarşıladılar. Kitabxananın direktoru Roman Motulski prezident İlham Əliyevə məlumat verdi ki, 2000-ci ildə prezident Aleksandr Lukaşenkonun sərəncamı ilə tikintisinə başlanmış bu kitabxana binası cari ilin əvvəlində istifadəyə verilmişdir. Ümumi sahəsi 166,5 min kvadratmetr olan kitabxana kompüterləşdirilmişdir.*

*Kitabxananın ədəbiyyat fondunda 8 milyon nüsxə kitab vardır. Yaxın 30 ildə onun sayını 14 milyon nüsxəyə çatdırmaq nəzərdə tutulmuşdur. Burada 500 işçi çalışır, müxtəlif şöbələr və 19 oxu zalı fəaliyyət göstərir. Gündə kitabxanaya 25 min oxucu müraciət edir.*

*Azərbaycan prezidenti İlham Əliyev ayrı-ayrı oxu zallarını və şöbələri gəzdi, binanın layihəsi ilə yaxından tanış oldu, Milli Kitabxananın onda dərin təəssürat oyatdığını söylədi, fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.*

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də Belarus Respublikasına ikigünlük rəsmi səfərini başa çatdıraraq Vətənə yola düşmüşdür.*

*Hər iki ölkənin dövlət bayraqları ilə bəzədilmiş Minsk Milli Hava Limanında Azərbaycan prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Belarus Respublikasının Baş naziri Sergey Sidorski, Xarici İşlər naziri Sergey Martınov və digər yüksək vəzifəli dövlət, hökumət nümayəndələri böyük hörmət və ehtiramla yola saldılar.*

*Dövlətimizin başçısı oktyabrın 18-də Bakıya gəldi.*

## MEKSİKANIN SƏHİYYƏ NAZİRİ XULİO FRENK İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*19 oktyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Prezident sarayında Meksikanın Səhiyyə naziri Xulio Frenki qəbul etmişdir.*

*Prezident İlham Əliyev Xulio Frenkin Meksikanın Azərbaycana səfər etmiş ilk naziri olduğunu vurğulayaraq bu səfərin ölkələrimiz arasında ikitərəfli münasibətlərin gələcək inkişafına öz töhfəsini verəcəyinə əminliyini bildirdi.*

*Xulio Frenk Azərbaycana səfər etməkdən məmnunluğunu ifadə etdi. Ölkəmizdə keçirdiyi görüşlər barədə prezident İlham Əliyevə məlumat verən qonaq Meksika ilə Azərbaycan arasında müxtəlif sahələrdə, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın gələcəkdə daha da inkişaf etdiriləcəyinə ümidvar olduğunu vurğuladı.*

**BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ BAŞ KATİBİ ZATİ-ALİLƏRİ CƏNAB PAN Gİ MUNA**

Hörmətli cənab Baş katib!

Birləşmiş Millətlər Təşkilatının Baş katibi vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Biz Azərbaycan Respublikası ilə BMT arasındakı əməkdaşlığa böyük əhəmiyyət veririk. Bu mənada təşkilatın bütün strukturları ilə əlaqələrimizi hərtərəfli genişləndirməyə, həyata keçirilən proqram və layihələrdə yaxından və səmərəli iştirak etməyə çalışırıq.

Sizi əmin edirəm ki, biz BMT-nin Nizamnamə və prinsiplərinə bundan sonra da sadiq qalacaq, Yer üzündə sülhün, sabitliyin və əmin-amanlığın bərqərar olması, beynəlxalq əməkdaşlığın inkişafı, insan hüquqları və azadlıqlarının təmin edilməsi naminə qarşıda duran vəzifələrin həlli istiqamətində birgə işimizi və səylərimizi ardıcıl şəkildə davam etdirəcəyik.

Bir daha Sizə öz təbriklərimi yetirir, möhkəm cansağlığı, səadət və qarşıdakı məsul işinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 oktyabr 2006-cı il*

# MÜQƏDDƏS RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ MÜSƏLMAN ÖLKƏLƏRİNİN RESPUBLİKAMIZDAKI SƏFİRLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*19 oktyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Müqəddəs Ramazan bayramı münasibətilə oktyabrın 19-da Prezident sarayında müsəlman ölkələrinin Bakıdakı Fövqəladə və Səlahiyyətli səfirlərini qəbul etmişdir.*

**İlham Əliyev**: Hörmətli səfirlər, mən sizin hamınızı qarşıdan gələn müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edirəm, xahiş edirəm ki, mənim təbriklərimi təmsil etdiyiniz ölkələrin dövlət və hökumət başçılarına çatdırasınız. Ramazan bayramı ölkəmizdə dövlət bayramı kimi, Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra qeyd olunur. Buna baxmayaraq, bütün dövrlərdə bu bayram Azərbaycanda çox əziz bayram olmuşdur. Azərbaycanda yaşayan insanlar bütün dövrlərdə bu bayramı geniş qeyd etmişlər və bu gün bir daha demək istəyirəm ki, müstəqil dövlət kimi, ölkəmizdə bu bayram hər bir azərbaycanlı üçün çox əziz bayramdır.

İndi Azərbaycan müstəqil bir dövlət kimi yaşayır və islam ölkələri ilə çox fəal əlaqələrimiz vardır. Biz bütün beynəlxalq məsələlərdə çox geniş əməkdaşlıq edirik. İslam Konfransı Təşkilatının fəal üzvü olan Azərbaycan öz xarici siyasətində bu istiqaməti həmişə diqqət mərkəzində saxlayır. Bildiyiniz kimi, bu il Azərbaycanda İslam Konfransı Təşkilatının xətti ilə iki çox əhəmiyyətli tədbir – xarici işlər və turizm nazirlərinin toplantıları keçirilmişdir. Bu onu göstərir ki, Azərbaycan

çox çalışır ki, islam dünyasında öz yerini möhkəmləndirsin və islam həmrəyliyinin möhkəmlənməsinə töhfəsini versin.

Təmsil etdiyiniz ölkələrlə də bizim çox işgüzar, səmimi münasibətlərimiz var. Mən təmsil etdiyiniz ölkələrin tam əksəriyyətinə səfərlər etmişəm və sizin ölkələrinizin dövlət və hökumət başçıları Azərbaycana səfərlər etmişdir. İkitərəfli formatda əlaqələrimiz çox uğurludur və bizim üçün çox əhəmiyyətlidir. Bizim əməkdaşlığımız, birgə səylərimiz ikitərəfli əlaqələrin inkişafı üçün vacibdir, həm də regionda gedən proseslərə çox böyük təsir göstərir, bizi narahat edən problemlərin həlli üçün də önəmlidir. Deyə bilərəm ki, bütün sahələrdə bizim aramızda qarşılıqlı anlaşma, böyük hörmət var, bizi dostluq, qardaşlıq münasibətləri bağlayır.

Azərbaycanın ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində də sizin ölkələrinizin dəstəyi bizim üçün çox vacibdir. Bu dəstəyə görə mən sizə və bütövlükdə bütün islam dünyasına öz minnətdarlığımı bildirmək istəyirəm.

Çünki İslam Konfransı Təşkilatının qərarlarında, qətnamələrində bu məsələyə çox ciddi münasibət göstərilir, Azərbaycanın haqq işi dəstəklənir. Əlbəttə ki, bu bizim mövqeyimizi daha da möhkəmləndirir. Bütün müsəlman ölkələri bir-birinə dayaq olmalıdır, lazım olan halda bir-birinə kömək etməlidir. İslam həmrəyliyi hər bir ölkənin möhkəmlənməsində öz rolunu oynayır və əminəm ki, bizim aramızda olan qardaşlıq, dostluq əlaqələri gələcəkdə daha da möhkəmlənəcəkdir.

İslam Konfransı Təşkilatının da son zamanlardakı fəaliyyəti çox uğurludur, təşkilat öz nüfuzunu, Dünya Birliyində öz çəkisini artırır. Əlbəttə ki, təşkilatın uğurlu fəaliyyəti ona üzv olan ölkələrin təşkilata olan münasibətinin nəticəsidir. Azərbaycan bu baxımdan İKT-də çox fəal iştirak edir və biz çalışırıq ki, islam dünyasını narahat edən bütün məsələlərin həllində fəal rol oynayaq.

Əziz dostlar, sizi qarşıdan gələn bu böyük bayram münasibətilə bir daha ürəkdən təbrik edirəm. Bir daha xahiş edi-

rəm ki, mənim ən səmimi salamlarımı dövlət və hökumət başçılarına çatdırasınız, təmsil etdiyiniz ölkələrin xalqlarına mənim hörmət və məhəbbətimi çatdırasınız. Sağ olun.

**A n d a r  Ş u k r u t o v** (*Qazaxıstanın ölkəmizdəki Fövqəladə və Səlahiyyətli səfiri*): Hörmətli cənab Prezident, ilk növbədə, bütün müsəlmanlar üçün müqəddəs olan Ramazan bayramı münasibətilə səmimi təbriklərimizi qəbul edin. İcazə verin, bununla əlaqədar müsəlman dövlətlərinin burada olan bütün səfirləri adından Sizi və Sizin simanızda qardaş Azərbaycan xalqını təbrik edim, sülh, firavanlıq və tərəqqi arzulayım. Sizin yeritdiyiniz xətt ölkənin iqtisadi sabitliyinin, iqtisadi inkişafının və beynəlxalq nüfuzunun möhkəmlənməsinin təmin olunmasına kömək edir. Fəal və tarazlı xarici siyasət beynəlxalq aləmdə də dəstəklənir. Ona görə də qeyd etmək xoşdur ki, müsəlman dünyası və müsəlman dövlətləri ilə əməkdaşlığın intensivləşdirilməsinə xüsusi diqqət yetirilir. Azərbaycan haqlı olaraq müsəlman birliyinin layiqli hörmətini qazanmışdır. Bu il İslam Konfransı Təşkilatı çərçivəsində bir sıra mühüm tədbirlər keçirilməsi buna parlaq sübutdur.

Təxminən 2 milyard əhalisi olan müsəlman ölkələrini öz sıralarında birləşdirən bu nüfuzlu beynəlxalq təşkilata il ərzində Azərbaycanın sədrlik etməsi münasibətilə Sizi təbrik edirik. Bununla əlaqədar xüsusi vurğulamaq istərdim ki, İKT-nin üzvü olan ölkələrin xarici işlər nazirlərinin 33-cü konfransı və turizm nazirlərinin 5-ci konfransı bu il Bakıda təşkilati baxımdan ən yüksək səviyyədə keçirilmişdir. Bu çox mühüm beynəlxalq tədbirlərdə qəbul olunmuş yekun sənədləri planetimizdə sülhün və sabitliyin qorunub saxlanması üçün müsəlman ümmətinin ümumi səylərinin birləşdirilməsinə kömək etmişdir.

10 müsəlman dövlətinin daxil olduğu İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələrinin dövlət və hökumət başçılarının Bakıda keçirilmiş 9-cu zirvə toplantısı region çərçivəsində əməkdaşlığa əlavə təkan vermişdir. Ümumiyyətlə, cari il mühüm hadisələr baxımından Azərbaycan üçün çox əlamətdar və zən-

gin olmuşdur. Yaranması Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı ilə bağlı olan Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikilib başa çatdırılması, şübhəsiz, Azərbaycanın daha böyük iqtisadi tərəqqisinə, inamlı inkişafına kömək edəcəkdir.

Hörmətli cənab Prezident, Siz Dağlıq Qarabağ probleminin nizama salınması prosesində mühüm addımlar atırsınız. Bununla əlaqədar ümidvar olduğumuzu bildiririk ki, çoxillik münaqişə diplomatik yolla, beynəlxalq normalara uyğun olaraq Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində həll ediləcəkdir. İslam ölkələri həmişə Azərbaycanın mövqeyini dəstəkləyir və əminik ki, bu, gələcəkdə də davam etdiriləcəkdir.

Hörmətli cənab Prezident, çıxışımın sonunda, icazə verin, səmimi qəbula görə həmkarlarım adından Sizə bir daha təşəkkür edim, Sizə və ailənizə xoşbəxtlik və firavanlıq, yüksək dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar, qardaş Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayım.

Ramazan bayramınız mübarək olsun!

**İlham Əliyev:** Sağ olun.

## İTALİYA XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ, AZƏRBAYCAN–İTALİYA İQTİSADİ ƏMƏKDAŞLIĞINA DAİR MƏŞVƏRƏT FORUMUNUN HƏMSƏDRİ FAMİANO KRUÇİANELLİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*20 oktyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də Prezident sarayında İtaliya Xarici İşlər nazirinin müavini, Azərbaycan ilə İtaliya arasında iqtisadi əməkdaşlığa dair məşvərət forumunun həmsədri Famiano Kruçianellinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı İtaliyanın ölkəmizin əsas iqtisadi tərəfdaşlarından biri olduğunu qeyd etdi. İki ölkə arasında iqtisadi əməkdaşlığın hazırda əsasən neft sənayesi sahəsində həyata keçirildiyini bildirən prezident İlham Əliyev qeyri-neft sektorunda əlaqələrin genişləndirilməsinin əhəmiyyətini vurğuladı. Dövlətimizin başçısı Azərbaycan iqtisadiyyatının sürətlə inkişaf etdiyini nəzərə çatdıraraq bunun qarşılıqlı iqtisadi əlaqələrin daha da möhkəmləndirilməsi üçün yeni imkanlar yaratdığını qeyd etdi.*

*Famiano Kruçianelli İtaliya–Azərbaycan münasibətlərinin yüksək səviyyədə olduğunu bildirdi. Azərbaycanın enerji təhlükəsizliyi baxımından İtaliya üçün strateji mövqedə yerləşdiyini qeyd edən qonaq iqtisadiyyatın digər sahələrində də əlaqələrin genişləndirilməsinin əhəmiyyətli oduğunu vurğuladı. O bir çox İtaliya şirkətlərinin Azərbaycana böyük maraq göstərdiyini bildirərək bu səfərin iqtisadi sahədə əlaqələrimizin daha da inkişafına töhfə verəcəyinə əminliyini söylədi.*

## ŞEYXÜLİSLAM PAŞAZADƏNİN MÜQƏDDƏS RAMAZAN AYI MÜNASİBƏTİLƏ AÇDIĞI İFTAR SÜFRƏSİNDƏ NİTQ

*20 oktyabr 2006-cı il*

*Oktyabrın 20-də Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə müqəddəs ramazan ayı münasibətilə öz iqamətgahında iftar süfrəsi açmışdır. Azərbaycan prezidenti İlham Əliyev iftar süfrəsinə dəvət olunmuşdur. Əvvəlcə Quran oxundu, sonra Şeyxülislam çıxış etdi.*

**Şeyxülislam Allahşükür Paşazadə:** Bismilləhir-Rahmənir-Rahim!

Möhtərəm cənab prezident İlham Əliyev həzrətləri!

Möhtərəm məclis iştirakçıları, alimlər, səfirlər, din xadimləri!

Bu gün çox sevinirəm ki, ulu öndər Heydər Əliyev həzrətlərinin arzuladığı kimi, müxtəlif millətlərin nümayəndələri bir süfrə arxasında oturmuşdur. Onun başında bizim hörmətli prezidentimiz İlham Əliyev həzrətləridir. Bu müqəddəs gündə bu cür görüşmək və bir-birimizlə salamlaşmaq çox savab işdir. Ona görə ki, Allah-taala bizə ramazan ayında Quranı nazil etmişdir. Bu ayda bir-birinə ehtiram, hörmət etmək, Allah-taalaya dua etmək vacibdir. Bu əhya gecələrində gələcək bir il içərisində nələr olacağı, bir növ, alnımıza yazılır.

Əlbəttə, mən elə bilirəm ki, biz keçən il etdiyimiz duaların bəhrəsini bu il gördük. Yəni biz keçən il orucluq ayında dua edirdik ki, İlahi, sən bizə qüdrət, imkan ver, səadətimiz, mənəviyyatımız, başda prezident İlham Əliyev həzrətləri olmaqla, daxildə və xaricdə siyasətimiz möhkəmlənsin. Biz bu il içərisində həmin duaların bəhrələrini gördük və Azər-

baycanın yüksəlişinin şahidi olduq. Əgər xaricdən kim Azərbaycana baxırsa, bu inkişafı daha çox görür, hiss edir.

Azərbaycanın inkişafı, əlbəttə ki, ilk növbədə onun prezidenti, rəhbəri ilə bağlıdır. Amma bu inkişafın bünövrəsini qoyan, onu istəyən, əziyyətini çəkən ulu öndərimiz, mərhum prezidentimiz Heydər Əliyev olmuşdur.

Mən bir dəfə ondan soruşdum ki, Bakı–Ceyhan məsələsi nə deməkdir, bununla nə olacaq? Düzü, mən bunu başa düşmürdüm. O mənə şərh edərək dedi ki, şeyx, bu bizim xalqımızın, demək olar, həm daxili, həm də xarici siyasətidir. Bununla minlərlə insan yaşayacaq, ailə dolanacaq, o cümlədən dünya siyasətində bizim böyük yerimiz olacaqdır. Bu gün biz onun bəhrəsini görürük. Onda bu bir xəyal idi, danışıq idi. Əlbəttə, biz çox çətin dövrlərdən keçmişik. Müstəqilliyimizin 15 illiyini bu yaxında qeyd etdik. 15 il az vaxtdır, amma bu 15 ilə, keçən dövrə baxanda görürük ki, Azərbaycanın inkişafı çox yüksəkdir. Allah-taaladan arzu edirik ki, o daha da yüksələ bilsin. Bu, Azərbaycanın dostları üçün fərəhdir, sevincdir, dualardır. Azərbaycanı istəməyənlər üçün çox böyük qubardır.

Məscidlərin tikintisi daha çox gözə çarpır, indi də məscidlər tikilir. Amma bir ilin içərisində 300-ə yaxın məktəbin inşa olunması xalqın rifahı deməkdir. Bu, xalqın, elmin yüksəlişidir.

Cənab Prezident, mən istərdim dini tərəfdən Sizə məlumat verim ki, bu il 5 minə yaxın insan Həcc ziyarətinə getmək istəyir. Halbuki vaxt var idi, sovetlər dövründə Azərbaycandan 1 nəfər, 5 nəfər, 10 nəfər Məkkəyə getmək istəyirdi. Bu həm mənəvi saflıqdır, həm də iqtisadiyyatın yüksəlişinin əlamətidir. Deyə bilərəm ki, bu bir barometrdir, yəni bizim xalqımızın, cəmiyyətimizin orta təbəqəsinin rifahı yaxşıdır və daha da yaxşılığa doğru gedir. Bunda Sizin əməyiniz çox böyükdür. Biz Sizinlə fəxr edirik. Mən fəxr edirəm ki, Sizin kimi prezidentim var. Fəxr edirəm ki, hətta Sizin yerişiniz, danışığınız da, Sizin prezidentlər içərisində

görünüşünüz belə, Allah-taala tərəfindən bəyənilmişdir. Ona görə də mən Allaha dua edirəm ki, Heydər Əliyevdən sonra Allah-taala Sizi bizə bəxş etdi. Biz prezidentimizi göz bəbəyi kimi qorumalı, ona tərəfdar olmalı və onun getdiyi, düşündüyü yolla getməliyik.

Əlbəttə, insan səhvsiz olmaz. Cəmiyyətin içərisində bəzi çürüklər də var, bəzi danışanlar da var. Gündə qəzetlərdə şəkil, karikatura verənlər də var. Hələ Peyğəmbər dövründə Peyğəmbəri istəməyənlər çox idi. Amma Peyğəmbər Məhəmməd Əleyhissəlam qələbə çaldı. Çünki o, haqqın tərəfdarı idi. O, haqq yolu ilə gedən bir insan idi və ona görə də qələbə çaldı. Qələbə bizimlədir. Sizin başçılığınız altında biz, inşallah, bundan sonra da bəlkə yüz illər, min illərlə qələbə çalacağıq. Azərbaycanın geriyə dönüşü yoxdur, irəliyə gedişi vardır. Bu gediş də Heydər Əliyevin qoyduğu yolla və Sizinlə bağlıdır.

Cəmiyyətdə hər insanın qəlbində Allah xofu vardır. Biz – din xadimləri, adi dindar adamlar Sizi istəyir, Sizin dediklərinizə, çıxışlarınıza baxır və qiymət veririk. Bu yaxınlarda Siz Türkiyədə soydaşlarımızın, dövlət rəhbərlərinin qarşısında çıxış edəndə bir daha fəxr etdim və sübut olundu ki, təkcə Azərbaycanın deyil, bütün türkdilli xalqların hamısının rəhbəri kimi, xalq Sizdən çox şey gözləyir.

Əlbəttə, müstəqilliyin bizə verdiyi bəhrələri dadırıq. Amma Ermənistan başda olmaqla, mənfur düşmənlərimiz var. Yəni Qarabağ məsələsi çox çətindir. Amma Sizin rəhbərliyinizlə biz bu məsələnin həllini, inşallah, yaxın vaxtlarda görəcəyik.

Mən istərdim Sizə qardaş, dost kimi bir daha öz minnətdarlığımı bildirim. Çünki Siz öz sözünüzü demisiniz, dost sözünü demisiniz və dostluğu indiyə qədər davam etdirirsiniz. Heydər Əliyev həzrətləri də bu şəkildə davam etdirirdi. Yadınızdadırsa, prezident seçiləndən sonra mən Sizi evə dəvət etdim. Bir az fikirləşdim, tərəddüd etdim ki, Sizi dəvət etmək olarmı? Amma heç yadımdan çıxmaz, Siz de-

diniz ki, mən nəyə görə dostluğumu, münasibətimi dəyişdirməliyəm, yaxud bildirməməliyəm. Mən gəlməliyəm, öz münasibətimi də bildirməliyəm. Ona görə də mən Sizə təşəkkür edirəm. Sizin ailənizə təşəkkür edirəm. Heydər Əliyevlər ailəsinə təşəkkür edirəm. Bu gün Sizin rəhbərliyiniz altında işləyən adamlara da təşəkkürümü bildirirəm ki, Sizə yaxından kömək göstərirlər.

Bu gün elə bir gündür ki, pislikdən danışmaq lazım deyil. Müxalifət deyilən söz, demək olar ki, Azərbaycanda yoxdur. Bəzi adamlar elə bilirlər ki, nəyinsə qabağında bunu yox edirlər, bəzi adamların siyasəti nəticəsində müxalifət yox oldu. Xeyr, müxalifət özü çürüdü. Ona görə ki, onun daxilində bir şey yox idi, onun dayağı, arxası yox idi. Onun arxasında xalq yox idi və bundan sonra da olmayacaqdır. Ona görə də biz Azərbaycanın gələcəyinə inanırıq.

Mən bir qardaş kimi, Sizi yenə dəvət edirəm. Siz hər il gəlməyə söz vermisiniz. Mən Sizi gələn il Ramazan bayramında iştirak etməyə bir daha dəvət edirəm. Bilirəm ki, Siz sözünüzü tutan adamsınız və inşallah, gələcəksiniz. Bu bir il ərzində həm siyasi, həm iqtisadi, həm də mənəvi cəhətdən Azərbaycana parlaq inkişaf arzulayıram.

Bizim mənəviyyatımıza yeni don geydirdiyiniz üçün Sizə minnətdarlığımı bildirirəm. Bu gün Sizin rəhbərliyiniz, bilavasitəköməyinizlə Təzəpirdə, Bibiheybətdə, İçərişəhərdə, Əjdərbəydə və başqa neçə-neçə məscidlərdə təmir gedir. Siz elə şəkildə kömək göstərirsiniz ki, biz dindarlar məcbur oluruq özümüzü o şəkildə aparaq. Yəni istəyirik biz də müasirləşək, yeniləşək. Ona görə də işiniz çox olduğu halda, mənəviyyat haqqında bu qədər fikirləşdiyinizə görə Sizə minnətdarlığımızı bildiririk.

Burada oturan qardaşlarımız Moskvadan, Şimali Qafqazdan gəliblər. Başqa dinin nümayəndələri, Vatikanın nümayəndələri də burada oturublar. Bizim böyük alim Rüstəm Əliyevin oğlu, dinlərarası dialoqun katibi buradadır. Bizim üçün böyük şərəfdir ki, o, Moskvada belə bir vəzifədə işləyir.

Bəzi adamlar gələ bilməyiblər. Qafqazdan olan müftilərin hamısı Sizə salam göndəriblər, Sizi, bütün Azərbaycan xalqını təbrik edirlər.

Mən Sizi həm ötən Müstəqillik günü, həm də gələcək Ramazan bayramı münasibətilə təbrik edirəm. Allah-taaladan Sizə, ailənizə cansağlığı arzulayıram. Allah-taala Sizi gözdən qorusun və Siz də xalq üçün işləyəsiniz.

Bu gün İrandan dostumuz Əhəd Qəzai də gəlibdir. O, Azərbaycan–İran Dostluq Cəmiyyətinin sədri seçilibdir. Allah hamınızı salamat etsin. Bir daha xoş gəlmisiniz!

*Xarici dövlətlərin ölkəmizdə akkreditə olunmuş səfirlərinin, dini icmaların nümayəndələrinin, çoxsaylı qonaqların, Milli Məclisin deputatlarının iştirak etdiyi mərasimdə Bakı və Xəzəryanı bölgə yeparxiyasının yepiskopu Aleksandr ata, Dağ yəhudiləri icmasının sədri Semyon İxiilov Azərbaycanda tolerantlığın hökm sürdüyünü xüsusi qeyd etdilər.*

*Vatikan dövlətinin Azərbaycandakı nunsisi Klaudio Quçerotti Roma papası XVI Benediktin salamlarını və təbriklərini çatdırdı.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.*

**İlham Əliyev:** Hörmətli şeyx həzrətləri!

Hörmətli din xadimləri!

Əziz dostlar!

Ramazan bayramı ərəfəsində bizim görüşlərimiz ənənəvi xarakter alır. Şeyx həzrətləri öz çıxışında qeyd etdi ki, mən prezident vəzifəsinə seçiləndən sonra bizim aramızda belə bir söhbət olmuşdu, şeyx həzrətləri maraqlanmışdı ki, bu görüşlərdə iştirak edəcəyəm, yoxsa yox. Mən isə dedim ki, heç bir vəzifədən asılı olmayaraq, bizim dostluğumuz da yerindədir, bir-birimizə olan hörmət də, münasibətlərimiz də yerindədir. Ən önəmlisi budur. Hər bir vəzifə müvəqqətidir. İnsani münasibətlər, səmimi ünsiyyət – bu amillər insanları daha da zənginləşdirir. Məhz buna görə, bu münasibətlərə görə və

bütövlükdə bu gün səslənən fikirlərə görə indi Azərbaycanda çox gözəl ab-hava var.

Din xadimlərinin çıxışlarında Azərbaycanda hökm sürən əmin-amanlıq, dini, milli tolerantlıq öz əksini tapmışdır. Bu, həqiqətən də belədir. Çıxışlarda səslənən fikirlər tam həqiqətdir. Bu gün Azərbaycanın uğurlu inkişafı bütün başqa amillərlə yanaşı, məhz bu amildən asılıdır. Azərbaycanın hərtərəfli inkişafı, Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması və möhkəmlənməsi üçün mütləq və mütləq millətlərarası dialoq möhkəmlənməlidir. Azərbaycan çoxmillətli ölkədir. Biz başqa ölkələrdən, qonşu ölkədən fərqli olaraq monodövlət deyilik. Azərbaycanda müxtəlif millətlərin və dinlərin nümayəndələri bir ailə kimi yaşayır. Bu, ölkəmizin inkişafı üçün çox mühüm bir amildir. Bu, bir tərəfdən, insanların ürəyindən gələn bir duyğudur, bir tələbdir, digər tərəfdən, din xadimlərinin fəaliyyətidir və əlbəttə ki, dövlət siyasətidir. Azərbaycanın hansı istiqamətdə inkişaf edəcəyi bu üç əsas amildən asılıdır.

Mən çox şadam ki, ölkəmizdə bütün sahələrdə irəliləyiş, inkişaf var. Həm iqtisadi sahədə, həm Azərbaycanın dünyadakı mövqelərinin möhkəmlənməsi işində və əlbəttə ki, ictimai proseslərin inkişafında da çox müsbət meyllər vardır. Bu siyasətin indiki vəziyyətinin təməlində ulu öndər Heydər Əliyevin qoyduğu yol dayanır. Məhz Azərbaycan üçün ən çətin, ən ağır illərdə, 90-cı illərin əvvəllərində onun cəsarətli addımları, uzaqgörənliyi, müdrikliyi, siyasi təcrübəsi Azərbaycanı böyük bəlalardan xilas etdi, inkişaf yoluna çıxardı. Bu gün biz hamımız, onun davamçıları, onun silahdaşları bu yolu davam etdiririk.

Əlbəttə, həyat yerində durmur, qarşımıza yeni vəzifələr çıxır, yeni çağırışlar meydana çıxır. Dünyada gedən proseslər istər-istəməz Azərbaycana da öz təsirini göstərir. Amma eyni zamanda, Azərbaycanın möhkəmlənməsi və güclənməsi ona gətirib çıxarır ki, ölkəmizdə gedən proseslər artıq bölgədə öz təsirini göstərməkdədir. Azərbaycan müstəqil ölkə kimi möhkəmlənir. Artıq bizim müstəqilliyimiz əbədi, dönməz xa-

rakter alıbdır. Bizim iqtisadi müstəqilliyimiz, enerji təhlükəsizliyimiz, müstəqil siyasət aparmaq iqtidarında olmağımız, əlbəttə ki, ölkə qarşısında duran bütün problemlərin həlli üçün başlıca vasitədir. Elə problem yoxdur ki, biz onu həll edə bilməyək. Bizim ölkə iqtisadi inkişaf cəhətdən birinci yerdədir və iqtisadi artım baxımından bu gün Azərbaycanla rəqabət aparmaq iqtidarında olan başqa ölkə yoxdur. Biz bunu qürur hissi ilə deyirik. Çünki bu, doğrudan da, böyük nailiyyətdir. Amma bu bizə əsas vermir ki, əldə edilmiş nailiyyətlərlə kifayətlənək. Ölkəmizdə hələ çoxlu problemlər var və biz bunların həlli üçün əlimizdən gələni edirik. Əminəm ki, bizim uğurlu iqtisadi siyasətimiz Azərbaycanın iqtisadiyyatını möhkəmləndirəcək və bu, Azərbaycanda yaşayan hər bir insanın gündəlik həyatında öz əksini tapacaqdır.

Ölkəmiz beynəlxalq müstəvidə böyük hörmətə malikdir. Həm beynəlxalq təşkilatlarda, həm də ikitərəfli formatda Azərbaycanın birmənalı siyasəti, düzgün, açıq və səmimi siyasəti çox böyük təqdirlə qeyd olunur. Siyasətdə və təbii ki, həyatda adamın bir üzü olmalıdır. Ancaq o halda sənə hörmət edəcəklər. Biz bu hörməti qazanmışıq, bu hörməti çox yüksək qiymətləndiririk və əlbəttə ki, gələcək fəaliyyətimizdə bu amil başlıca rol oynayacaqdır.

Əmin-amanlıq, təhlükəsizlik, Azərbaycanın hərtərəfli inkişafı, ictimai-siyasi vəziyyətin normal səviyyədə qalması ölkəmizin inkişafı üçün başlıca amildir. Hansı ölkələr inkişaf edir?! Biz bunu uzaq tarixdən də, yaxın tarixdən də bilirik. Son müddət ərzində bölgədə və dünyada gedən proseslər də bunu təsdiq edir. O ölkə inkişaf edir ki, orada iqtidarla xalq arasında birlik var. O ölkə inkişaf edir ki, iqtidarın fəaliyyəti xalq tərəfindən bəyənilir, dəstəklənir və qarşılıqlı inam var. O ölkə inkişaf edir ki, orada sabitlik və inkişaf var, maddi rifah, əmin-amanlıq var. Bütün bunlar Azərbaycanda var. Azərbaycanın hərtərəfli inkişafı onun əyani göstəricisidir. İndi ölkəmizdə elə bir sahə, iqtisadiyyatın elə bir sahəsi yoxdur ki, orada inkişaf getməsin. Hər bir istiqamətdə xüsusi proqram var və bizim işlərimiz proqram şəklində gedir.

Son illər ərzində əldə edilmiş nailiyyətləri sadalamaq üçün bəlkə də bir neçə saat vaxt lazım olar. Biz bunu bacardıq, biz bunu edirik. Mən çox şadam ki, ölkəmizin çox uğurlu gələcəyi heç kimdə şübhə yaratmır. Nə ölkə əhalisi, nə də beynəlxalq ictimaiyyət buna şübhə edir. Artıq hamı görür və hamı bilir ki, Azərbaycan müstəqil ölkə kimi, dünyadakı mövqelərini möhkəmləndirir, iqtisadi potensialını gücləndirir. Bizim nəhəng enerji layihələrimiz həm ölkəmiz üçün, həm bölgə üçün və desəm, yəqin ki, səhv etmərəm, həm də dünya üçün çox böyük əhəmiyyət kəsb edir. Biz bu işlərin təşəbbüskarıyıq və bu işləri inamla aparırıq.

Azərbaycanda iqtisadi inkişaf və sosial rifah prinsipləri prezident kimi, mənim üçün eyni əhəmiyyət kəsb edir. Çünki əsas vəzifəmiz insanların yaxşı yaşamasıdır. Biz bunun üçün də çalışırıq. Biz bunun üçün də elektrik stansiyaları yaradırıq, yollar salırıq, qaz xətləri çəkirik, məktəblər, xəstəxanalar tikirik – bütün başqa işləri məhz bunun üçün görürük. Mən çox şadam ki, bunun nəticələrini də görürük.

Azərbaycan islam dünyasında öz yerini möhkəmləndirir. İslam bizim dinimizdir. 15 il müstəqillik dövründə islam dini azərbaycanlılara qayıtdı. Düzdür, bütün dövrlərdə, ən çətin dövrlərdə insanların qəlbində islam dini yaşamışdır. Ancaq biz müstəqil ölkə olandan sonra bütün milli, dini bayramlarımızı dövlət bayramları kimi qeyd etməyə başladıq. O cümlədən müqəddəs Ramazan bayramı da dövlət bayramı kimi qeyd edilir və artıq iki gün qeyd olunacaqdır. İslam dünyasında Azərbaycanın çox böyük hörməti var. İslam Konfransı Təşkilatının xətti ilə Bakıda təkcə bu il iki mötəbər tədbir keçirilmişdir. Bizim fəaliyyətimiz çox uğurludur və islam həmrəyliyinin möhkəmlənməsinə Azərbaycan öz töhfəsini verir. Bizi islam ölkələri ilə çox güclü tellər bağlayır və son illər ərzində bu əlaqələr daha da möhkəmlənmişdir.

Burada deyildi ki, Azərbaycanda bütün dinlərə mənsub olan abidələr bərpa olunur, məbədlər tikilir. Bibiheybət məscidinin bərpası üçün lazımi tədbirlər görülür. Biz keçən ilin sonunda şeyx həzrətləri ilə bərabər orada görülən işlərlə ta-

nış olduq və müvafiq göstərişlər verildi. İndi orada təmir işləri çox yüksək səviyyədə aparılır. Təzəpir məscidinin bərpası üçün lazımi tədbirlər görülür və bununla bərabər, Qafqaz Müsəlmanları İdarəsinin yeni inzibati binasının tikintisi də artıq sürətlə gedir. Əminəm ki, məscidin binası və inzibati korpus yaxın zamanlarda yüksək səviyyədə istifadəyə veriləcəkdir. Əjdərbəy məscidinin təmiri uğurla gedir. İçərişəhər məscidində də işlər gedir. Xristian kilsələrində təmir-bərpa işləri gedir. Qeyd olundu ki, katolik kilsəsi tikilir. Yəni bütün bunlar elə bil ki, Azərbaycanda gedən prosesləri əks etdirir. Budur bizim reallıqlarımız, budur bizim nailiyyətlərimiz. Bütün bunlar bir məqsədə qulluq edir – Azərbaycan bir ölkə kimi daha da möhkəmlənsin, Azərbaycanda yaşayan bütün millətlərin, dinlərin nümayəndələri özlərini rahat, arxayın hiss etsinlər.

Mən bir dəfə demişəm, bir daha qeyd etmək istəyirəm, indi dünyada çoxlu söhbətlər gedir ki, millətlərarası, dinlərarası, sivilizasiyalararası dialoq aparılmalı və güclənməlidir. Əlbəttə, bu lazımdır. Amma əfsuslar olsun ki, biz həyatda tam başqa mənzərəni görürük. Dialoq əvəzinə qarşıdurma, əməkdaşlıq əvəzinə ədavət, süni şəkildə şişirdilmiş təxribatlar – bütün bunlar nəyə xidmət edir?! Bütün bunlar çox böyük təhlükə mənbəyidir. Biz Azərbaycanda bu işlərə çox böyük nəzarət edirik. Bir daha demək istəyirəm ki, bu, bir tərəfdən, xalqın tələbidir, Azərbaycanda yaşayan bütün xalqların ürəyindən gələn istəkdir, digər tərəfdən, dövlət tərəfindən aparılan siyasətdir. Bax, bütün bu amillər bugünkü Azərbaycanın uğurlu inkişafını, uzunmüddətli inkişaf strategiyasını müəyyən edir və beləliklə, gələcəkdə ölkə qarşısında heç bir ciddi problemin yaradılması bizi narahat etmir. Çünki biz bilirik haraya gedirik. Bilirik bizi gələcəkdə nələr gözləyir və bütün görülən işlər ancaq və ancaq Azərbaycanın öz resurslarına əsaslanır.

Biz bütün işlərimizi ancaq və ancaq öz gücümüzlə etməliyik – ulu öndər bizə bu yolu göstəribdir. Bütün ölkələrlə, tərəfdaşlarla, beynəlxalq təşkilatlarla əməkdaşlıq edirik və

bundan çox böyük fayda götürürük. Ancaq bütün işlərimizi özümüz görməliyik. Bu bizim ölkəmizdir. Bu ölkəni qorumaq, risklərdən qorumaq, möhkəmləndirmək, təhlükəsizlik tədbirlərini gücləndirmək üçün biz hamımız, bütün Azərbaycan xalqı çalışmalıyıq. İndi Azərbaycanda hökm sürən bu gözəl ictimai mühit, gözəl ab-hava, vətənpərvərlik, həmrəylik hisslərinin güclənməsi hər bir Azərbaycan vətəndaşı üçün lazımdır. Adi vətəndaş üçün, din xadimi üçün, prezident üçün – bütün Azərbaycan xalqı üçün lazımdır və bu gün bunlar var. Mən çox şadam ki, bir il ərzində görülən işlər – düz bir il bundan əvvəl burada idik, səmimi fikir mübadiləsi aparırdıq – bir daha sübut edir ki, biz düzgün istiqamətdə inkişaf edirik.

Əziz dostlar, istəyirəm sizə öz hörmətimi bir daha ifadə edim. Şeyx həzrətlərinə öz hörmət, məhəbbətimi ifadə edim. Şeyx həzrətləri ilə dostuq və bizi çoxdan dostluq münasibətləri bağlayır. Şeyx həzrətlərinin Azərbaycanda dini tolerantlığın inkişafında çox böyük əməyi, çox böyük xidmətləri var. Bunu biz də bilirik, bütün başqa dinlərin nümayəndələri və başçıları da bilir. Bütün dünyada şeyx həzrətlərinə çox böyük hörmət, çox böyük inam var. Başqa dinlərin başçılarının Azərbaycana səfərləri zamanı, Qafqaz xalqlarının dini nümayəndələrinin Azərbaycana səfərləri zamanı və beynəlxalq tədbirlərdə mən bunun şəxsən şahidi olmuşam. Əlbəttə ki, bu, bütövlükdə Azərbaycanın hörmətini qaldıran amildir.

Sizi qarşıdan gələn müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edirəm, hər birinizə cansağlığı, səadət arzulayıram.

* * *

*Şeyxülislam Allahşükür Paşazadə prezident İlham Əliyevə müqəddəs Qurani-Kərim təqdim etdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ RESPUBLİKA NAZİRLƏR KABİNETİNİN 2006-cı İLİN DOQQUZ AYININ SOSİAL-İQTİSADİ YEKUNLARINA HƏSR OLUNMUŞ İCLASINDA NİTQ

*Prezident sarayı*

*21 oktyabr 2006-cı il*

Nazirlər Kabinetinin bugünkü iclasında ilin 9 ayının yekunları müzakirə olunacaqdır. Bütövlükdə 2006-cı il Azərbaycan iqtisadiyyatı üçün çox uğurlu ildir. Bizim iqtisadiyyatımız yüksək sürətlə inkişaf etməkdə davam edir. Nəzərdə tutulmuş bütün proqnozlar həyatda öz həllini tapır, öz yerini tutur. Bütün proqramlarımız uğurla icra olunur və bütövlükdə 9 ay ərzində görülən işləri mən çox müsbət qiymətləndirirəm. Bunu statistik göstəricilər də sübut edir. 9 ayda Azərbaycan iqtisadiyyatı 34 faiz artmışdır. Nəzərə alsaq ki, keçən il Azərbaycanda ümumi daxili məhsul 26 faiz artmışdır, beləliklə, əminəm ki, il ərzində iqtisadi sürət bu səviyyədə qalacaqdır. İki ildə Azərbaycan iqtisadiyyatı 60 faiz artır. Əgər 2008-ci ildə bu sürət qalarsa – mən buna ümid edirəm – deməli, üç il ərzində Azərbaycanın ümumi daxili məhsulu iki dəfə artacaqdır. Bu, dünyada analoqu olmayan bir göstəricidir. Bu göstəriciyə görə Azərbaycan dünyada birinci yerdədir. Əlbəttə ki, biz bu böyük nailiyyəti iftixar hissi ilə qeyd edirik.

Sevindirici haldır ki, sənaye istehsalı da çox yüksək sürətlə inkişaf edir. 9 ayda artım 40 faiz təşkil etmişdir. Bizim sənaye potensialımız möhkəmlənir. Ancaq sənayenin inkişafında, xüsusilə qeyri-neft sektorunun inkişafında daha da böyük işlər görmək lazımdır.

Azərbaycana 9 ayda təxminən 5 milyard dollar həcmində investisiya qoyulmuşdur. Bu onu göstərir ki, investisiya qoyuluşu baxımından Azərbaycan öz cəlbediciliyini qoruyub saxlayır. Baxmayaraq ki, uzun illərdir xüsusilə neft-qaz sektoruna investisiyalar qoyulur və demək olar ki, bütün əsas enerji layihələri icra olunur, Azərbaycan yenə də xarici investorlar üçün, yerli investorlar üçün böyük maraq doğurur. Bu bizi çox sevindirir və onu göstərir ki, Azərbaycanda investisiya mühiti müsbətdir.

Regionların sosial-iqtisadi inkişafı proqramının icrası nəticəsində 9 ayda təxminən 120 min yeni iş yeri açılmışdır. Bütövlükdə, 2003-cü ilin oktyabr ayından bu günə qədər Azərbaycanda 470 min yeni iş yeri açılmışdır ki, bu da ölkənin həm hərtərəfli inkişafına, həm də insanların həyat səviyyəsinə müsbət təsir göstərir.

Bizim özəl sektorumuz da inkişaf edir. Özəl sektorun ümumi daxili məhsuldakı payı 75 faizdir. Bu çox yüksək göstəricidir və onu göstərir ki, Azərbaycanda özəl sektorun inkişafı sürətlə gedir. Sahibkarlıq inkişaf edir, sahibkarlığa dövlət tərəfindən həm mənəvi, həm də praktiki dəstək verilir. Kiçik və orta sahibkarlığın inkişafı üçün kreditlər verilir. Bu kreditlərin məbləği artır və beləliklə, dövlət öz tərəfindən özəl sektorun inkişafını dəstəkləmiş olur.

Bizim büdcə xərclərimiz artır. Azərbaycanın büdcəsi gələn il 6 milyard dolları keçəcəkdir. Büdcə xərcləri təxminən 6 milyard 300 milyon dollar səviyyəsində olmalıdır. Bu sürətli artım, əlbəttə, Azərbaycanın qarşısında duran əsas iqtisadi və sosial məsələlərin həlli üçün bizə imkan yaradacaqdır. Son 3-4 il ərzində Azərbaycanın büdcəsi dörd dəfə artmışdır. Gəlin statistikaya baxaq, hansı ölkədə büdcənin belə sürətlə artımı müşahidə olunur? Əminəm ki, heç bir ölkədə. Əlbəttə, bunun müxtəlif səbəbləri var: maliyyə intizamının möhkəmlənməsi, bütün iqtisadi sahələrə dövlət tərəfindən ciddi nəzarətin artırılması, bizim uğurlu investisiya layihələrimiz, Heydər Əliyev tərəfindən başlanılmış və bu gün uğurla icra edilən Azərbaycanın neft strategiyası, Azərbaycana xarici kapitalın

qoyulması, Azərbaycanda bazar iqtisadiyyatı prinsiplərinin bərqərar olunması, liberal iqtisadi siyasətin aparılması, özəl sektora verilən dəstək. Yəni bu səbəblər çox müxtəlifdir. Bunların içərisində, əlbəttə ki, ictimai-siyasi sabitliyin yüksək səviyyədə olması öz rolunu oynayır. Yəni bütün bu amillər Azərbaycanın iqtisadi inkişafında birbaşa rol oynayır və ona öz təsirini göstərir.

Bu gün bunu bütün beynəlxalq ictimaiyyət də görür, qəbul edir və qeyd edir ki, Azərbaycan çox uğurla inkişaf edən ölkədir. Həm iqtisadi, həm də siyasi cəhətdən öz mövqelərini möhkəmləndirir, regionda liderlik mövqelərinə çıxıb, dünyadakı mövqelərini möhkəmləndirir, çox yüksək beynəlxalq imicə malik olan ölkədir, etibarlı tərəfdaşdır, əməkdaşlığa açıq olan ölkədir. Eyni zamanda, öz prinsipiallığını qoruyan və möhkəmləndirən, müstəqil siyasət aparan ölkədir. Öz siyasətini Azərbaycan xalqının maraqları əsasında quran bir ölkədir. Prezident kimi, mən qürur hissi keçirirəm ki, Azərbaycan doğrudan da çox zəngin ölkəyə çevriləcək, çevrilir və beynəlxalq imicimiz də günü-gündən möhkəmlənir.

Azərbaycanın hərtərəfli inkişafı üçün iqtisadi amil əsas rol oynayır, maddi imkanlarımız artır. Maddi imkanlarımız artdıqca, bizim müstəqil siyasət aparmağımız da güclənir. Bu günə qədər Azərbaycanda həm Dövlət Neft Fondunda, həm də Milli Bankın valyuta ehtiyatlarında yığılan 3 milyard dollardan çox vəsait bizə əlavə güc verir. Bizə ümid verir ki, qarşıda duran bütün vəzifələr öz həllini tapacaqdır. Nəzərə alsaq ki, valyuta ehtiyatlarının formalaşmasında neft amili başlıca rol oynayır və bizim böyük neft layihələrimiz ilkin mərhələdədir, görərik ki, gələn illərdə, növbəti illərdə Azərbaycana çox böyük həcmdə valyuta axını olacaqdır. Bu böyük məbləğin idarə edilməsi, ondan səmərəli istifadə, əlbəttə ki, diqqət mərkəzində olmalıdır. 3 milyard dollar həcmində olan valyuta ehtiyatları böyük göstəricidir və Azərbaycanın iqtisadi inkişafında müsbət rol oynayır.

Bu il, xüsusilə üçüncü rübdən Bakı–Tbilisi–Ceyhan neft kəməri fəaliyyətə başladı. Bu, tarixi hadisədir. Həm Azər-

baycanda, həm də bölgədə gedən proseslərə çox güclü təsir edən hadisədir. Azərbaycanın neft strategiyasının, Heydər Əliyevin neft strategiyasının təntənəsidir. Bütövlükdə Azərbaycanın müstəqil ölkə kimi yaşamasını uzun illər, onilliklər, əsrlər boyu təmin edən amildir. Azərbaycanın müstəqil siyasətinin təntənəsidir. Bu hadisənin çoxşaxəli əhəmiyyəti var, təsiri var. Azərbaycan xalqı artıq bunu görür. Günü-gündən yaxşılaşan vəziyyət, abadlaşan şəhərlər, çəkilən yollar, artan maaşlar, pensiyalar, sosial məsələlərin həlli, məktəblərin, xəstəxanaların, elektrik stansiyalarının tikintisi – bütün bunların təməlində iqtisadi güc dayanır. Hamımız bilirik və yaddan çıxarmamalıyıq ki, iqtisadi gücü isə bizə neft strategiyamız verir. Bu, əsas, başlıca amildir. Bu amil özü mənfəət gətirir, özü maddi dəyərlər yaradır. Bununla bərabər, neft amili iqtisadiyyatın bütün başqa sektorlarına da güclü təsir göstərir. Xidmət sektoru, turizm sektoru inkişaf etməyə başlayır. İnfrastruktur layihələr icra olunur. Yəni bu aksiomadır, 15 il müstəqil ölkə kimi yaşayan Azərbaycanın həyatında tarixi əhəmiyyəti baxımından analoqu olmayan hadisədir.

Bu ilin sonuna qədər Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin fəaliyyətə başlaması gözlənilir. Nəzərə alsaq ki, son müddət ərzində enerji təhlükəsizliyi deyəndə, ilk öncə qaz amili nəzərdə tutulur, bu layihənin də çox böyük əhəmiyyəti var. Azərbaycan özünü qazla təmin etmək üçün bütün imkanlardan istifadə etməlidir. Əgər 1996-cı ildə «Şahdəniz» yatağı üzrə müqavilə imzalanmasaydı – baxmayaraq ki, əfsuslar olsun, ölkə daxilində də bu müqavilənin əleyhinə olanlar var idi – bu gün təsəvvür etmək çətindir ki, Azərbaycan hansı problemlərlə üzləşə bilərdi.

Bilirsiniz ki, qazın qiyməti getdikcə artır. Avropa üçün və MDB ölkələri üçün qazın, əsasən Rusiyadan verilməsi nəzərdə tutulur, başqa mənbə yoxdur. Rusiyadan verilən qazın qiyməti sürətlə artır. Əgər iki il bundan əvvəl 1000 kubmetrin qiyməti 50 dollar idisə, bu il 110 dollar olubdur. Gələn il daha da böyük rəqəm olacaqdır. Baxmayaraq ki, biz qaz hasilatımızı artırırıq, hələlik bu, kifayət etmir. «Şahdəniz» ya-

tağı ancaq ilin sonunda istismara veriləcəkdir. Beləliklə, bu iki layihə Azərbaycanın həm uzunmüddətli, dayanıqlı iqtisadi potensialını, həm də enerji təhlükəsizliyini möhkəmləndirəcəkdir.

Demək olar ki, artıq bütün sahələr üzrə düşünülmüş konkret proqramlar var. Bu proqramlar uğurla icra edilir və büdcə formalaşanda proqramlarda nəzərdə tutulan müddəalar da öz əksini tapır. Regionların sosial-iqtisadi inkişafı proqramı, demək olar, üç ilə yaxındır icra olunur və hər il biz bunu xüsusi təhlil edirik. Ona görə bu gün bu təhlilə ehtiyac yoxdur. Mən qeyd etdim ki, bu proqramın icrası nəticəsində 470 min yeni iş yeri açılmışdır və regionların inkişafı sürətlə gedir.

Bakının qəsəbələri üçün xüsusi proqram qəbul edilibdir, uğurla icra edilir. İnfrastruktur yeniləşir, elektrik, qaz xətləri, su kəmərləri çəkilir, məktəblər, xəstəxanalar tikilir. Azərbaycanda yol tikintisi geniş vüsət alıbdır. Həm dünya standartlarına cavab verən magistral yollar, həm də şəhərlərarası, kənd yolları çəkilir. Ən ucqar kəndlərə müasir yollar çəkilir. Bakıda yeni körpülər və yolötürücüləri tikilir ki, yol hərəkətinin tənzimlənməsinə kömək etsin. 9 körpü və yolötürücü tikilir və əminəm ki, bu, şəhər təsərrüfatının yaxşılaşmasına xidmət göstərəcəkdir.

Azərbaycanda qazlaşdırma sürətlə gedir. Biz 13 illik fasilədən sonra Naxçıvana təbii qazın verilməsinə nail olduq. Bu, böyük hadisədir. Heç vaxt, heç Sovet İttifaqı dövründə də qazlaşdırılmamış rayonlara qaz verilir. Bu yaxınlarda Lerik və Yardımlı rayonlarına qaz veriləcəkdir. Bu da çox böyük, həm iqtisadi, sosial, həm də siyasi məna daşıyan hadisədir. O rayonlarda tarixən heç vaxt qaz olmamışdır. Biz bunu edirik. Baxmayaraq ki, bu, böyük vəsait tələb edir. Qaz kəməri hündür dağlardan keçir, orada relyef də çox mürəkkəbdir. Amma buna baxmayaraq, biz bunu edirik, çünki bu, lazımdır. Orada yaşayan insanlara lazımdır, onların həyat səviyyəsinin yaxşılaşması, Azərbaycanın hərtərəfli inkişafı üçün lazımdır. Bu, bir daha onu göstərir ki, bizim qarşımız-

da həllini tapa bilməyən heç bir məsələ yoxdur. Biz istənilən məsələni həll edirik.

Bu yaxınlarda ekologiya proqramı qəbul olunubdur. Əminəm ki, uğurla icra ediləcəkdir. Abşeron yarımadası neftlə çirklənmiş sahələrdən tamamilə təmizlənəcək, Bakı buxtası təmizlənəcək və bütün lazımi başqa tədbirlər də görülməlidir.

Bilirsiniz ki, Bakını içməli su ilə təmin etmək üçün böyük layihə icra olunur. Oğuz–Qəbələ bölgəsindən çəkiləcək su kəməri Bakını çox keyfiyyətli içməli su ilə tam təmin edəcəkdir. Layihənin başa çatması 2008-ci ildə nəzərdə tutulur.

Qaçqın-köçkünlərin həyat şəraitini yaxşılaşdırmağa çalışırıq və böyük işlər görürük. Bu gün burada geniş məlumat veriləcəkdir. Köhnə çadır şəhərcikləri ləğv edilir və qaçqın-köçkünlər normal şəraitlə təmin olunurlar.

Enerji təhlükəsizliyi məsələlərinə mən toxundum. Onu da qeyd etmək istəyirəm ki, indi Azərbaycanda tikilən yeni elektrik stansiyaları ölkəmizin hərtərəfli inkişafı üçün gözəl şərait yaradır. Astara və Şəki modul tipli elektrik stansiyaları artıq istismara verilibdir. Xaçmaz, Bakı, Naxçıvan şəhərlərində də stansiyalar tikilir. Sumqayıtda 500 meqavatlıq böyük elektrik stansiyası tikilir. Avropa Yenidənqurma və İnkişaf Bankı ilə birlikdə Mingəçevir elektrik stansiyasında yenidənqurma işləri nəzərdə tutulur. Bakıda «Şimal-2» elektrik stansiyasının tikintisi nəzərdə tutulur, onun da gücü 400 meqavatdır. Yəni biz güclü energetika potensialı yaradırıq ki, ilk növbədə, Azərbaycanın, iqtisadiyyatın artan tələbatını ödəyək. Yeni müəssisələr, zavodlar açılır, əhalimiz artır, mənzil tikintisi aparılır – bütün bunlar elektrik enerjisi tələb edir. Digər tərəfdən, gələcəkdə Azərbaycan elektrik enerjisini ixrac edən ölkəyə də çevrilə bilər. Bizim təbii ehtiyatlarımız, neftimiz, mazutumuz, qazımız var. Elektrik stansiyaları kifayət qədər gücə malik olsa, gələcəkdə elektrik enerjisinin ixracı da nəzərdə tutula bilər. Bu isə neft ixracından daha əlverişli bir əməliyyatdır və biz buna da gedirik.

Bakıda tarixi binalarda təmir-bərpa işləri aparılır. Bəlkə də bu hadisə birbaşa iqtisadi artıma gətirib çıxarmır, ancaq gözəl şəhərimizi daha da gözəlləşdirməliyik. Mən Bakı şəhər meriyasına göstəriş verdim ki, bütün gözəl tarixi binaların təmizlənməsi, onların işıqlandırılması ilə məşğul olsun. Vaxtilə yöndəmsiz görkəmdə olan binalarda da təmir-bərpa işləri aparılsın. Onları müasirləşdirməliyik ki, şəhərimiz daha da gözəl olsun. Bu məqsəd üçün də vəsait ayrılır və mən hesab edirəm ki, bu da çox vacibdir. Mən vəzifə qoymuşam ki, tikilən hər bir yeni bina ən yüksək standartlara cavab versin. Mən Bakı şəhərində və bütün başqa şəhərlərdə eybəcər binaların tikintisinə qadağa qoydum. Hər bir yeni tikilən bina gərək öz memarlığı ilə fərqlənsin, çox səliqə ilə tikilsin, xarici görünüşü gözəl olsun. Ancaq o təqdirdə binanın tikintisinə icazə veriləcəkdir. Çünki bu vaxta qədər bəzi hallarda yaraşıqsız tikilmiş binalar şəhərimizin ümumi görünüşünü pozmuşdur. Ona görə bu proqram da həyata keçirilir.

Bununla bərabər, mədəni irsimizə də böyük diqqət göstəririk. Xüsusi proqram qəbul olunub və gələn ilin büdcəsində bu, nəzərdə tutulmalıdır. Muzeylərin, teatrların yenidən qurulması, bərpası ən yüksək səviyyəyə çatdırılmalıdır. Bakı şəhərinin bütün muzeyləri və teatrları 2007–2008-ci illərdə yüksək səviyyədə təmir olunmalıdır, ən yüksək dünya səviyyəsinə qalxmalıdır.

Azərbaycanda uzun illərdir ki, idman kompleksləri tikilir. Bu il və gələn il yeni komplekslərin tikintisi nəzərdə tutulur. Son iki il ərzində Azərbaycanda 600-dən çox məktəb tikilibdir. Bu gün bu barədə Təhsil naziri məlumat verəcəkdir. Bölgələrdə yeni, müasir xəstəxanalar tikilir. O xəstəxanalar insanların səhiyyə ilə bağlı əsas problemlərini həll edəcəkdir. İndi hər bir bölgədə müasir standartlara cavab verən diaqnostika və müalicə mərkəzləri tikilir. Birincisi Lənkəran şəhərində tikilibdir, onun açılışında və ondan əvvəl təməlqoyma mərasimində iştirak etmişəm. Orada ən yüksək səviyyə mövcuddur. Yeni tikilən bütün xəstəxanalarda böyrək xəstəliyi ilə bağlı xüsusi şöbə fəaliyyət göstərəcək, orada süni böy-

rək aparatı quraşdırılacaqdır. Çünki böyrək çatışmazlığından əziyyət çəkən insanlar Azərbaycanda kifayət qədərdir. Bakıda yaşayanlar o xidmətdən rahatlıqla istifadə edirlər. Amma ucqar yerlərdə yaşayanlar, təsəvvür edin, cənub bölgəsindən, yaxud da qərb bölgəsindən 300–400 kilometr məsafədən məcburdurlar həftədə iki-üç dəfə Bakıya gəlsinlər, o aparat vasitəsilə qanı təmizləsinlər və geri dönsünlər. Onsuz da insanlar bu xəstəlikdən əzab çəkir. Ancaq yerlərdə, bölgədə o aparatların olmaması ucbatından onların əzab-əziyyəti birə-on artır. O yolu gəlib-getmək əlavə xərcdir və əlbəttə ki, xəstə insanlara çox mənfi təsir göstərir. Ona görə göstəriş vermişəm, biz bunu edirik. İlk növbədə, hər bir bölgədə müasir komplekslər tikilir ki, uzaqbaşı, 100–150 kilometr məsafədən o xəstəxanalara getmək mümkün olsun. Gələcəkdə hər bir rayonda belə xəstəxana tikiləcəkdir.

Ordu quruculuğuna böyük diqqət göstərilir və gələn il hərbi büdcəmiz bir milyard dolları keçəcəkdir. Mən bu məqsədi hələ iki il bundan əvvəl qarşıya qoymuşdum. O vaxt bizim hərbi büdcəmiz 150 milyon dollar idi. Mən ürəyimdə bu məqsədi saxlayırdım, bu rəqəmi görürdüm. Bəlkə də onu əvvəlcədən deməyə dəyməzdi. Amma mən bilirdim biz haraya gedirik. Bilirdim ki, ölkəmizin iqtisadi inkişafı, büdcə artımı imkan verəcək ki, Azərbaycanın hərbi büdcəsi Ermənistanın bütün büdcəsinə bərabər olsun və onu keçsin. Mən çox şadam ki, qısa müddət ərzində, haradasa iki il yarım ərzində buna nail olduq. İndi bizim hərbi büdcəmiz Ermənistanın bütün büdcəsinə bərabər olacaqdır. Ondan sonrakı illərdə bunu kəskin şəkildə üstələyəcəkdir. Təbii ki, bu, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsinin ədalətli həllində öz mühüm və əvəzolunmaz rolunu oynayacaqdır.

Yəni, bir sözlə, bütün sahələrdə bizim işlərimiz proqram şəklində aparılır. Bu hadisələr o qədər tez-tez baş verir ki, bəzi hallarda biz görülən işləri də artıq yaddan çıxarırıq. Baxmayaraq ki, bu işlər bir-iki il bundan əvvəl görülübdür. O qədər iş görülür ki, hamısını, sadəcə, sadalamaq üçün bir neçə saat vaxt lazım olacaqdır. Amma biz bunları unutma-

malıyıq. Çünki bizim nailiyyətimizdir. Eyni zamanda, arxayınçılığa da yol vermək olmaz. Ölkə qarşısında çoxlu iqtisadi, sosial problemlər var, biz bunları həll etməliyik. Əsas odur ki, biz bilirik bunları necə həll etmək lazımdır. Artıq təcrübə də göstərir ki, atılan addımlar öz gözəl nəticələrini verir*.

## YEKUN NİTQİ

Təhsil sisteminin maddi-texniki bazasının möhkəmlənməsi işində böyük işlər görülür və bu rəqəmlər də səsləndi. Üç ildə 700-dən çox məktəbin tikintisi çox böyük nailiyyətdir. Bu, əlbəttə ki, davam edəcəkdir. Çünki hələ təmirə ehtiyacı olan çoxlu məktəb var. Yeni məktəblər tikilməlidir və hər bir məktəb yüksək səviyyədə tikilməlidir, müasir avadanlıqla təchiz olunmalıdır. Bilirsiniz ki, məktəblərdə kompüterləşmə proqramı da həyata keçirilir. 2008-ci ilə qədər bütün məktəblərdə kompüter sinifləri yaradılmalıdır. Əlbəttə ki, maddi-texniki bazanın möhkəmlənməsi ilə paralel olaraq təhsilin keyfiyyəti də artmalıdır. Çünki təhsil hər bir ölkənin gələcəyini müəyyən edir.

Mən neçə dəfə demişəm, bir də demək istəyirəm, əgər inkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, o ölkələr inkişaf edib ki, orada təhsil yüksək səviyyədədir, yeni texnologiyalar tətbiq olunur, intellektual potensial yüksək səviyyədədir. Hər bir ölkənin intellektual potensialı, ilk növbədə, təhsil ocaqlarında yaradılır. Ona görə də müasir sistemə keçmək, dünyada mövcud olan ən qabaqcıl texnologiyaları tətbiq etmək Təhsil Nazirliyinin gərək əsas prioritet vəzifəsi olsun. Bu sahədə işlər görülür və bu, ilkin təcrübədir. Azərbaycanda gərək virtual dərslər, yeni texnologiyalar geniş yayılsın, bütün məktəbləri əhatə etsin. Bu çox böyük, mü-

---

* Müşavirədə Dövlətqaçqınkomun sədri Əli Həsənov, Maliyyə naziri Samir Şərifov, İqtisadi İnkişaf naziri Heydər Babayev, Təhsil naziri Misir Mərdanov çıxış etdilər.

rəkkəb, çoxlu maliyyə vəsaiti tələb edən proqramdır. Amma biz bunu etməliyik. Çünki biz gələcəyə baxmalıyıq. Bizim indi nadir imkanlarımız var: təbii resurslarımız, qaz-neft kəmərlərimiz, coğrafi vəziyyətimiz, nəqliyyat infrastrukturunun möhkəmlənməsi. Böyük valyuta axını gözlənilir. Biz bunu hansı sahələrə yönəltməliyik?! İlk növbədə təhsilə, səhiyyəyə, sosial sahəyə, bir də mənfəət gətirən sahələrə, sənaye istehsalının inkişafına, qeyri-neft sektorunun inkişafına, neft amilinin təsirinin azaldılmasına gətirib çıxaran sahələrə. Təhsil bu sahədə birinci yerdə dayanan istiqamətdir.

Qeyd olundu, bu yaxınlarda mən gənclərimizin xaricdə təhsil alması üçün sərəncam imzalamışam. Əminəm ki, geniş proqram hazırlanacaqdır. Bu, Azərbaycanın intellektual potensialını daha da gücləndirəcəkdir. Bu proqram bəlkə də beş ildən, on ildən, on beş ildən sonra öz bəhrəsini verəcək, amma mütləq verəcəkdir. Çünki bizim gənclərimiz dünyanın ən tanınmış, mötəbər təhsil ocaqlarında təhsil almalı, öz biliklərini artırmalıdırlar. Azərbaycanda aldığı təhsili xaricdə təkmilləşdirməlidirlər. Əminəm ki, bir neçə ildən sonra Azərbaycanın hərtərəfli inkişafında rol oynayan insanlar çoxalacaqdır. Xaricdə təhsil almaq bütün dövrlərdə bütün ölkələrdə ancaq inkişafa, tərəqqiyə gətirib çıxaran vasitə olmuşdur.

Nazir texniki peşə məktəblərinin bərpası haqqında danışdı. Mən bunu dəstəkləyirəm. İndiki bazar iqtisadiyyatı şəraitində xüsusilə Azərbaycanda son illər ərzində aparılan neft-qaz əməliyyatları, sənaye potensialının möhkəmlənməsi texniki peşə məktəblərinin məzunlarına, əlbəttə, yeni imkanlar açır. Fikirləşmək olar, bəlkə texniki peşə məktəblərinin tikintisi, təchizatı ilə əlaqədar bir proqram tərtib edək. Biz üç ildə 700-dən çox məktəb tikdik. Mən indi bilmirəm, yəqin siz bilirsiniz, nə qədər texniki peşə məktəbi tikilməlidir ki, Azərbaycanın artan tələbatını yerli kadrlarla ödəyək. Çünki xarici neft şirkətləri Azərbaycanda uzun illər ərzində işləyəcəklər – 10 il, 20 il, ondan da çox. Çünki Azərbaycanda aşkar edilən neft-qaz ehtiyatları bütün proqnozları alt-üst edir. Yəni Azərbaycanda olan neft ehtiyatları bəlkə də 50–100 il bizə

kifayət edəcəkdir. Yerli mütəxəssislər, müasir texnologiyaları bilən insanlar yetişməlidir. Ona görə siz təklif verin, biz qərar qəbul edək, vəsait ayıraq və texniki peşə məktəblərinin ən yüksək səviyyədə təşkil olunması üçün bütün tədbirləri görək. Bu həm ölkəmizin inkişafı üçün lazımdır və həm də insanlar böyük fayda götürəcəklər.

Mən razıyam ki, Azərbaycanda texniki peşə məktəblərinə münasibət nədənsə o qədər də müsbət deyildir. Nazir də bunu qeyd etdi. Ancaq inkişaf etmiş ölkələrdə texniki peşə məktəbini bitirən insanlar çox böyük imkanlara malik olur, çox yaxşı maaşla təmin olunurlar. Nəzərə alsaq ki, indi Azərbaycanda sənaye sahəsində maaşlar humanitar sahədə olan maaşları üstələyir və yəqin ki, gələcəkdə bu ənənə davam edəcək, bu sahəyə çox böyük diqqət göstərməliyik.

Bu gün eyni zamanda, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədrinin məruzəsi səsləndi, görülən işlər haqqında məlumat verildi. Doğrudan da çox böyük işlər görülür. 10 mindən çox fərdi evin tikintisi, məktəblər, xəstəxanalar, su xətləri, yardımçı stansiyalar, yollar – bütün infrastrukturun yaradılması həm böyük vəsait, həm də peşəkarlıq tələb edir. Qısa müddət ərzində görülən işlər məni çox sevindirir. Biz yəqin ki, gələn il çadır şəhərciklərinin tamamilə ləğvi ilə bu sahədəki işimizi yekunlaşdıracağıq. O şəhərciklərdə yaşayan insanları yerli qəsəbələrə köçürəcəyik. Ondan sonrakı mərhələdə işlər başqa yerlərdə məskunlaşan qaçqın-köçkünlərin həyat səviyyəsinin yaxşılaşmasına yönəldilməlidir. Yataqxanalarda, məktəblərdə, köhnə taxta evlərdə kifayət qədər qaçqın-köçkün yaşayır. Biz onların da həyatını yüngülləşdirməliyik.

Bütövlükdə, bir də demək istəyirəm ki, Azərbaycanda hər bir sahədə inkişaf sürətlə gedir. Amma bununla bərabər, problemlər də var. Biz gərək öz diqqətimizi daha çox bu problemlərin həllinə yönəldək.

Əsas qlobal məsələlərdən biri də ondan ibarətdir ki, yaxın gələcəkdə Azərbaycana çox böyük neft gəlirləri daxil olacaq və bu gəlirlərdən səmərəli istifadə olunmalıdır. Bizdə artıq

kifayət qədər işlək və şəffaf mexanizm vardır. Bütün gəlirlər Dövlət Neft Fondunda cəmlənibdir. Gəlirlər haqqında mütəmadi qaydada, çox şəffaf, açıq şəkildə məlumat verilir. Azərbaycan hasilat sənayesində şəffaflıq təşəbbüsünə birinci olaraq qoşulmuşdur. Bu təşəbbüsdə liderlik göstərir və bizim bu fəaliyyətimiz başqa ölkələr üçün də nümunə sayılır. Bunu həm biz deyirik, həm də ən böyük ölkələrin dövlət, hökumət başçıları qeyd edir. Bu mexanizm var, yəni neft gəlirlərinin şəffaf şəkildə saxlanılması, idarə olunması mexanizmi var.

İndi əsas vəzifəmiz ondan ibarət olmalıdır ki, neft gəlirləri makroiqtisadi sabitliyə ciddi təsir göstərməsin, inflyasiyaya gətirib çıxarmasın. Eyni zamanda, ölkənin inkişafı üçün lazım olan sahələrə yönəldilsin. Onlara nəzarət çox güclü olmalıdır. Həm dövlət tərəfindən, həm də parlament tərəfindən bu nəzarət indi də var, biz beynəlxalq maliyyə qurumları ilə daim əlaqə saxlayırıq və bu sahədə işləyirik. Çünki hələlik kifayət qədər təcrübəmiz yoxdur. Xüsusilə böyük vəsaitin idarə olunmasında kifayət qədər təcrübəmiz yoxdur. Baxmayaraq ki, Neft Fondunun fəaliyyəti çox müsbətdir, ancaq gəlirlərin həcminin artması qarşımıza yeni vəzifələr qoyur. Bizim iqtisadiyyatımız buna gərək hazır olsun, bütün maliyyə mexanizmləri, müasir mexanizmlər tətbiq olunsun. Əsas vəzifə ondan ibarətdir ki, bahalaşmaya gətirib çıxarmasın. Əlbəttə, istər-istəməz gətirib çıxaracaq, bu, təbii bir prosesdir. Amma biz gərək bu riskləri maksimum dərəcədə azaldaq.

İstehlak mallarının bahalaşması bizi çox ciddi narahat edir. Düzdür, görülən tədbirlər nəticəsində inflyasiyanı birrəqəmli səviyyədə saxlamaq mümkündür və burada bütün qurumlar səmərəli işləyirlər. Bizim iqtisadiyyatımızın inkişafı üçün çox vacib amildir ki, inflyasiya birrəqəmli səviyyədə saxlanılsın. Ancaq gərək bütün imkanlardan istifadə edək, maliyyə imkanlarından da. Maliyyə nizam-intizamının möhkəmləndirilməsi  daha da ciddi diqqət tələb edir. Eyni zamanda, inzibati amillərdən də biz istifadə etməliyik. Baxın, kənd təsərrüfatı yarmarkalarının təşkilindən sonra onlarda qiymətlər bazardakı qiymətlərdən kəskin şəkildə fərqlənir və

insanlar bundan çox faydalanırlar. Mən özüm gedib yarmarkanın birində olmuşam və gördüm ki, həqiqətən o, insanlar tərəfindən çox yüksək qiymətləndirilir. Sirr deyil ki, bazardakı qiymətlə yarmarkada olan qiymət arasında böyük fərq var. Yəni bu, yaxşı bir təcrübədir, onu geniş tətbiq etmək lazımdır. Bununla bərabər, qiymətləri süni şəkildə qaldıranlara qarşı da ciddi tədbirlər, inzibati tədbirlər görülməlidir.

Məlumat verilir ki, tutaq ki, neftin bahalaşması ilə əlaqədar, yaxud da hansısa başqa amillərə görə xaricdən gətirilən mallar bahalaşır. Bu da təbiidir. Bütün dünyada belədir. Amma Azərbaycanda istehsal olunan mallar niyə kəskin şəkildə bahalaşır?! Mənə məlumat verirlər ki, ət çox bahalaşıbdır. İndi bazarda ətin qiyməti 5-6 manatdır və bu artım davam edir. Həm Bakıda, həm də rayonlarda. Ət Azərbaycana başqa yerlərdən gətirilmir. Azərbaycanda ət bazarlara yerli fermerlər tərəfindən təhvil verilir. Bəs qiymət nə üçün qalxır? Bunun səbəbi var. Əlbəttə ki, alıcılıq qabiliyyəti artır, maaşlar, pensiyalar qalxır. İnsanların həyat səviyyəsi yaxşılaşır və bazar dərhal, necə deyərlər, buna reaksiya verir, bəlkə daha da qabaqlayır. Amma bu çox təhlükəli bir meyldir. Düzdür, bazarda heç nə qalmır, hər şey satılır. Amma o demək deyil ki, hər kəs bunu ala bilir. Mən şübhə etmirəm ki, yenə də bahalaşsa, yenə də alacaqlar. Çünki varlıların sayı artır, orta təbəqənin sayı artır. Amma yoxsullar da var, kasıblar da var, pensiyaçılar, tənha adamlar, kimsəsiz insanlar da var. Onlar ala bilmir. Onlar nə etməlidir?!

Ona görə mən bir daha demək istəyirəm, biz bazar iqtisadiyyatı prinsiplərinə sadiqik. Azərbaycanın uğurlu inkişafı, bütün bu göstəricilər, ümumi daxili məhsulun, büdcənin, sənaye istehsalının artımı və sair – bütün bunlar bazar iqtisadiyyatı prinsiplərinə sadiq olmağımızdan irəli gəlir. Amma bununla bərabər, inzibati tədbirlər görməliyik. Süni şəkildə qiyməti qaldırana qarşı ciddi tədbir görülməlidir. Ona görə mən tapşırıq verirəm ki, aidiyyəti orqanlar bununla məşğul olsunlar və biz bu süni şəkildə bahalaşmanın qarşısını almalıyıq.

Bazarlarda inhisarçılar da var, onu da bilirəm. Yerləri tuturlar, ondan sonra pulla satırlar. Başqa adamları bazara buraxmırlar. Necə olur ki, yarmarkalarda insanlar rayonlardan malını gətirib ucuz qiymətə satır, 1 kiloqramı da qalmır. Bazarda isə eyni məhsul iki dəfə bundan bahadır. Nə üçün? Bunun səbəbi var. Bu kiminsə marağını təmin edir. Kimin marağıdır? Hər halda, Azərbaycan xalqının marağını təmin etmir. Ona görə ciddi araşdırma aparılmalıdır: bazarlarda inhisarçılıq edənlər kimlərdir, bazarları özəlləşdirən kimlərdir, orada insanları incidən kimlərdir, onların arxasında kimlər dayanır? Onlar orada özbaşına deyillər. Yəqin ki, hərənin yanında bir dayısı var. Ona görə bunu ciddi şəkildə yığışdırın. Qısa müddət ərzində bazarlarda qiymət aşağı düşməlidir. Əlbəttə, yarmarkalar öz fəaliyyətini davam etdirməlidir və bu qiymətlərə ciddi nəzarət olmalıdır. Yenə deyirəm, biz Azərbaycan xalqı qarşısında cavabdehik.

Manatın həddən artıq bahalaşması əlavə problem yarada bilər. Bu meyl var. Biz yeni manata keçəndə onu təxminən dollara bərabər nəzərdə tutmuşduq. İndi manat xeyli dərəcədə bahalaşıbdır və bu proses davam edir. Əlbəttə, mən bunu müsbət hal kimi qiymətləndirmirəm. Çünki manatın bahalaşması ilk növbədə, ixracyönümlü istehsala ciddi zərbə vurur. Biz də çalışırıq ki, istehsal məhsullarımız ixrac olunsun. Əlbəttə ki, ilk növbədə Azərbaycanın daxili tələbatı ödənilməlidir. Bununla bərabər, hər bir ölkənin iqtisadi uğurları onun ixrac potensialından asılıdır. Ona görə mən bilirəm ki, bunun təbii səbəbləri var və bu hadisələr təkcə Azərbaycanda deyil, başqa ölkələrdə də var. Başqa ölkələr də bu çətinliklərlə üzləşirlər. Hər halda, bunu daim diqqət mərkəzində saxlamalıyıq.

Artıq uzun illərdir ki, biz iqtisadiyyatımızın şaxələndirilməsi barədə danışırıq. Düzdür, bu proseslər gedir, indi yeni sənaye sahələri yaranır. Misal üçün, bu il Azərbaycanda ən böyük şəkər zavodu tikilibdir. Bütün MDB məkanında ən müasir, ən böyük şəkər zavodudur. Bu, fermerlərə də böyük kömək göstərir. İndi çuğundur əkənlərin sayı xeyli dərəcədə

artıbdır. Nəinki İmişlidən və onun ətrafında yerləşən bölgələrdən, lap ondan uzaqdakı rayonlardan da kəndlilər o şəkər zavoduna öz məhsullarını gətirirlər. Belə zavodlar çox olmalıdır. İş adamları gərək öz investisiyalarını daha da inamla qoysunlar. Bunu etmək üçün biznes mühitinin yaxşılaşması davam etməlidir.

Bütövlükdə Azərbaycanda biznes mühiti müsbət qiymətləndirilə bilər. Baxmayaraq ki, süni əngəllər də az deyildir. Bu yaxınlarda Dünya Bankı tərəfindən təqdim edilmiş məruzə onu göstərir ki, Azərbaycanda biznes açmaq üçün iş adamları çox böyük problemlərlə üzləşirlər. Süründürməçilik, bürokratiya, dövlət orqanlarının biznesə müdaxiləsi – bütün bunlar var və bizim işimizi çətinləşdirir. Buna baxmayaraq, Azərbaycanda biznes mühiti müsbətdir. Dövlət bunu dəstəkləyir, özəl sektoru dəstəkləyir. Bir daha demək istəyirəm, sahibkarlığın inkişafına həm mənəvi dəstək veririk, həm də hər il 100 milyon dollar həcmində yaxşı faizlə kreditlər verilir. Düzdür, o kreditlər vasitəsilə görülən işlərə də nəzarət etməliyik: o pullardan necə istifadə olunur, vaxtlı-vaxtında qaytarılır, yoxsa yox. Biz özümüz müəyyən etməliyik ki, bu kreditlər hansı sahələrə verilsin və maksimum dərəcədə bundan səmərə götürməliyik. Ancaq bununla bərabər, problemlər var.

İqtisadiyyatımızın neft amilindən asılı olması təbiidir və bu, uzun illər davam edəcəkdir. Neftin hasilatı, qiyməti qalxdıqca, əlbəttə, bu, Azərbaycan iqtisadiyyatının əsas sahəsi olacaqdır. Mən burada da heç bir qəbahət görmürəm. Bəzi hallarda eşidirik ki, Azərbaycan iqtisadiyyatı neftlə bağlıdır. Hər bir ölkənin, yəni bizim vəziyyətdə olan ölkələrin iqtisadiyyatı nəyəsə bağlıdır. Haradasa neftə, haradasa başqa təbii ehtiyatlara. Bizim iqtisadiyyatımız nəyin hesabına inkişaf etməlidir? İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, 50–100 il bundan əvvəl onların da iqtisadiyyatı hansısa təbii resursun əsasında qurulubdur. Bunda heç bir qəbahət yoxdur. Biz, sadəcə, elə etməliyik ki, bu

amildən səmərəli istifadə edib iqtisadiyyatın digər sektorlarını inkişaf etdirək.

Bu məqsədlə bu il yaradılan Dövlət İnvestisiya Şirkətinin fəaliyyəti daha da güclənməlidir. Biz şirkəti yaratdıq və oraya 100 milyon dollar vəsait, nizamnamə kapitalı qoyduq ki, o, xaricdən, yaxud da Azərbaycandan potensial investorları cəlb etsin, onlarla bərabər investisiyalarda iştirak etsin. Tutaq ki, 15–20 faiz payla. Xaricdən, yaxud da Azərbaycandan investisiya qoyulsun ki, müəssisələr yaransın, özəl sektor inkişaf etsin.

Ondan sonra Dövlət İnvestisiya Şirkəti yeni qurulan şirkətdəki payını açıq bazarda, auksionda, yaxud da hansısa başqa yolla sata bilər. Ancaq biz hələ ki, bunun nəticəsini görmürük. Təxminən bir il keçir, ilin 10 ayı keçibdir, amma hələlik heç bir layihə yoxdur. Mən demirəm ki, bir müəssisə yaradılsın, heç bir ciddi layihə də yoxdur. Yaxşı, biz bir il itiririk, 100 milyon dolları qoymuşuq ki, bundan istifadə edək, bizə lazım olan sahələrə investisiyalar cəlb edək. O şirkətin yaradılmasından məqsəd həm də bu idi. Çünki bilirsiniz ki, Azərbaycana xaricdən gələn investisiyalar xarici investorun marağına uyğun qoyulur. Xarici investor, yaxud da yerli investor baxır, hansı sahədə daha tez mənfəət götürmək olarsa, investisiyanı ora qoyur. Biz də bunu alqışlayırıq. Amma bizə lazım olan bəzi başqa sektorlar inkişaf etmir. Tutaq ki, oraya investorlar bu və ya digər səbəbə görə maraq göstərmirlər. Dövlət İnvestisiya Şirkətinin vəzifəsi də məhz ondadır ki, investisiyanı Azərbaycanın hərtərəfli inkişafına lazım olan sahələrə yönəldək. Tutaq ki, əgər bir layihə 100 milyon dollar dəyərindədirsə, Dövlət İnvestisiya Şirkəti ona 20 milyon dollar vəsait qoyarsa, investorun da inamını artırar və o da pulu oraya inamla qoyar. Ondan sonra bizim yerli banklar da iştirak edə bilərlər. Beləliklə, Azərbaycanın iqtisadiyyatının şaxələndirilməsi üçün yeni sənaye sahəsi yaranar. Amma hələ ki, biz bunu görmürük. Ona görə ciddi məşğul olun. Mən bir neçə dəfə qapalı müşavirələrdə bu barədə öz iradla-

rımı bildirmişəm. Bu gün də bunu deyirəm. Mənə ciddi təkliflər verin. Çünki biz faktiki olaraq bir ili itirmişik.

Sənaye potensialının möhkəmlənməsi ilə bağlı məsələlər bizi çox ciddi narahat edir. Biz növbəti illərdə böyük maliyyə imkanlarından istifadə edib yeni sənaye kompleksləri yaratmalıyıq. Yeni sənaye istiqamətlərinin inkişafı üçün işləməliyik. Burada da biz əgər böyük sənaye müəssisələrindən söhbət açırıqsa, dövlət fəaliyyəti mütləq və mütləq olmalıdır. Mən demək istəmirəm ki, dövlət hansısa öz müəssisələrini yaratmalıdır, zavodlar tikməlidir. Yox, bu heç bir səmərə verməyəcəkdir. Bunu Sovet İttifaqı zamanı görülən işlər göstərir. Ancaq dövlət öz tərəfindən bu sahəyə məqsədyönlü şəkildə dəstək verməlidir. Tutaq ki, Azərbaycanda fəaliyyəti dayanmış müəssisələr var. Düzdür, artıq onların bir çoxu, oradakı avadanlıq da köhnəlib, heç nə qalmayıbdır. Binalar da artıq uçub-tökülür, onların bərpasının bəlkə də heç bir mənası yoxdur. Nəzərə alsaq ki, onlar bütün sovet xalq təsərrüfatının inkişafında bir element idi, geniş bazarlara malik idi, ona görə bəlkə də o köhnə infrastruktura, zavoda, fabrikə o qədər də böyük diqqət vermək lazım deyildir. Amma yeni texnologiyalar var, yeni sahələr var.

Pul olan yerdə hər şey etmək olar, texnologiyalar almaq, gətirmək olar. Biz artıq o dövrdən çıxmışıq ki, ancaq kreditlərə ümid edək. Vaxtilə biz kreditləri çox çətinliklə alırdıq, ya almırdıq. İndi isə banklar sıraya düzülüblər ki, bizə kredit versinlər. Budur Azərbaycanın reallıqları. Biz seçirik ki, kiminlə işləyək, kiminlə işləməyək, hansı şərtlər bizə məqbuldur, hansı yox. Yəni Azərbaycanın indi imkanları artır. Maliyyə naziri də dedi ki, bizim kredit reytinqimiz də qalxıbdır. Yəni bütün görülən işlər belə zəncirvari reaksiya yaradır. Əldə edilmiş bütün nailiyyətlər, neft sektorunun fəaliyyəti, neft müqavilələrinin icrası, iqtisadi artım reytinqi qaldırır.

Biz artıq uzun müddətdir ki, beynəlxalq maliyyə qurumları ilə işləyirik. Milyardlarla dollar kredit almışıq. Etibarlı tərəfdaş kimi tanınırıq. Bizim üçün kredit almaq heç bir problem deyildir. Bu gün istənilən bankdan 1 milyard, 2 mil-

yard dollar həcmində kredit almaq olar. Yaxşı, bunu edək?! Özümüz pul qoyaq. Yəni biz bu müddətdə ciddi sənaye potensialımızı yaratmalıyıq. Sənaye potensialını yaratmalıyıq ki, o, 5 ildən, 10 ildən sonra ölkəmizin əsas ümumi daxili məhsulunu verəcəkdir. 50 ildən sonra neft hasilatı ki azalacaq, onda Azərbaycanın dayanıqlı inkişafını təmin edəcəkdir. Bu gün bunu eləməliyik. İndi danışıqlara başlasaq, ən azı bir il layihə işlərinə, texniki-iqtisadi əsaslandırmanın hazırlanmasına, 2-3 il bunun tikintisinə gedəcəkdir. Əgər biz ciddi sənaye potensialından danışırıqsa, bunun tikintisinə 5 il gedəcəkdir. İndi başlamasaq, deməli, 5 il yox, 10 il olacaqdır.

Biz Sənaye və Energetika Nazirliyini yaratdıq. Mən tələb edirəm ki, ciddi təkliflər verilsin: nəyi etməliyik, hansı sahələri inkişaf etdirməliyik. Mən hesab edirəm ki, biz istənilən sahəni inkişaf etdirə bilərik. Amma ilk növbədə Azərbaycanda bazası, təcrübəsi olan, əgər lazım olarsa, yerli xammalı olan müəssisələri yaratmalıyıq. Bu bundan sonra bizim iqtisadi siyasətimizin əsas istiqamətlərindən biri olmalıdır. Bizi əsas narahat edən məsələlər bunlardır.

Kiçik və orta sahibkarlığın inkişafı daha da sürətlə getməlidir. Burada da süni müdaxilələr olmamalıdır. Baxmayaraq ki, onlar azalıb, amma yenə də faktlar var. Məlumatlar gəlir ki, hüquq-mühafizə orqanları biznes strukturlarına müdaxilə edirlər, incidirlər, əsassız tələblər irəli sürürlər. Bunu yığışdırın. Düzdür, indi azalıbdır, amma var. Məndə bütün məlumatlar var.

Biz gərək özəl sektoru qoruyaq, onlara kömək edək ki, müəssisələr yaratsınlar, məhsul istehsal etsinlər, insanları işlə təmin etsinlər. 470 min iş yeri yaradılıbdır, onların tam əksəriyyəti özəl sektorda yaradılıbdır. İndi dövlət müəssisəsi tikmirik ki, orada iş yeri yaradılsın. Yaxud da dövlət aparatını artırmırıq ki, orada iş yeri açılsın. Bu, özəl sektorda yaradılır. Yaxşı, belə olan halda, biz gərək özəl sektora bütün şəraiti yaradaq. Mənim siyasətim bundan ibarətdir. Maksimum dərəcədə kreditlər veririk. «Aqrolizinq» yaratmışıq, infrastruktur yaradılır, qaz xətləri çəkilir, elektrik stansiyaları tikilir, yol-

lar salınır. Nə üçün? İnsanlar rahat yaşasınlar, biznes inkişaf etsin. Ona görə dövlət, hökumət orqanları tərəfindən bizneslə məşğul olanlara böyük diqqət olmalıdır. Unutmayın ki, mən bu sahəyə ciddi yanaşıram və iş adamlarını dəstəkləyirəm.

Biz indi gərək öz şəhərlərimizə, rayonlarımıza daha da böyük diqqət verək, abadlıq, quruculuq işləri daha da sürətlə getsin. Mən çıxışımın əvvəlində qeyd etdim ki, Bakı şəhərinin tarixi abidələrinin bərpası, təmizlənməsi, yeni küçələrin salınması, işıqlandırmanın yeniləşməsi, işıq dirəklərinin alınması – bütün bunlar şəhərin səviyyəsini göstərir. Bu işlər Bakıda gedir, daha da sürətlə getməlidir. Əminəm ki, qısa müddət ərzində bizim şəhərimiz daha da gözəlləşəcəkdir.

Mən rayonlarda da tez-tez oluram, orada da abadlıq-quruculuq işləri gedir. Demək olar ki, hər bir rayonda işlər görülür. Amma bəzi hallarda çox zövqsüz, bəsit şəkildə görülür. Yəni ki, heç bir müasir səviyyəyə cavab verməyən tikililər meydana çıxır. Yaxud da mən bilmirəm, icra hakimiyyətləri başçılarının zövqü nədir – bütün binaları çəhrayı, yaxud da tünd yaşıl rəngdə rəngləyirlər. Bunu harada görüblər, bunları necə cəlb edir? Özü də bir yerdə, iki yerdə olsa, deməzsən, hər yerdə belədir. Haraya gedirəm, çəhrayı divarlardır. Yaxşı ki, divarları rəngləyirlər, amma zövqlə edilməlidir. Ona görə mən artıq göstəriş vermişəm və yerli memarları cəlb etmişik, xaricdən cəlb etmişik ki, rayonlarımızın, şəhərlərimizin müasirləşməsi üçün təklif versinlər.

Bununla bərabər, mən hesab edirəm ki, biz gərək rayon icra hakimiyyəti başçılarını qrup-qrup Avropanın inkişaf etmiş şəhərlərinə göndərək. Bunu təşkil edin, bir neçə ay ərzində on-on getsinlər, baxsınlar, orada görsünlər ki, necə olmalıdır və öz zövqlərindən, bəzi hallarda bəsit zövqlərindən əl çəksinlər. Çünki birinin bundan xoşu gəlir, digərinin o birisindən xoşu gəlir. Elə olmamalıdır. Bir şura olmalıdır, orada bu işləri bilən insanlar olmalıdır. Rəssamlar, mədəniyyət işçiləri, ictimaiyyət bu işlərdə iştirak etməlidir. Yenə də deyirəm, işlər görülür və gözəl də işlər görülür. Ancaq mən istəyirəm ki, lap gözəl olsun. Bəlkə də bu, xırda məsələ kimi səslənə

bilər. Amma hesab edirəm ki, ciddi məsələdir. Ölkəmizin çox özünəməxsus, qədim, tarixi siması olan şəhərləri var. Demək olar ki, hər bir şəhərin. Onu saxlamaq şərti ilə biz gərək ən müasir səviyyəyə çataq. Bütün bunlar bir-biri ilə bağlıdır.

İndi məktəblərə kompüterlər qoyulur, internetə qoşulur. Bizim ən ucqar kənddə yaşayan uşaqlar internetə girəcəklər, baxacaqlar, öyrənəcəklər, öz savadlarını artıracaqlar. Yəni bütün bunlar bir-biri ilə bağlıdır. Bu olacaq, amma mən istəyirəm ki, daha da qısa müddət ərzində və keyfiyyətli olsun, bütün şəhərlər gözəlləşsin.

Biz bu gün əməkhaqqının qaldırılması haqqında söhbət açdıq. Bu ənənə gedir. Minimum əməkhaqqı qalxır, təhsil, səhiyyə işçilərinin əməkhaqqı qalxmışdır. Pensiyalar qalxır. Gələn ildən minimum əməkhaqqı yenə qalxacaqdır. Demişəm ki, minimum əməkhaqqı minimum tələbatı ödəmək üçün kifayət olmalıdır. Hələ ki, biz buna nail ola bilməmişik. Bunu etiraf edirik, amma nail olacağıq.

Baxmaq lazımdır, büdcədən maliyyələşən digər kateqoriyadan olan işçilərin əməkhaqqının qaldırılması üçün nə etməliyik? Mən hesab edirəm ki, biz ilk növbədə Milli Elmlər Akademiyasında çalışan insanların maaşlarına baxmalıyıq. Düzdür, orada artım olub, amma hələ ki, bizi qane edə bilməz. Akademiya sistemində işləyənlər ölkənin elitasıdır, ziyalılarıdır, elm adamlarıdır. Ona görə baxın, nə etmək olar ki, onların maaşlarını qaldıraq. Bütövlükdə büdcədən maliyyələşən təşkilatlarda çalışan bütün kateqoriyadan olan işçilərin maaşı, bir tərəfdən, minimum əməkhaqqının artımı hesabına qalxmalıdır, digər tərəfdən də, biz vaxtaşırı bu barədə xüsusi qərarlar qəbul etməliyik.

Bir də demək istəyirəm ki, bütövlükdə görülən işlər məni qane edir. İqtisadiyyatımız uğurla inkişaf edir. Nazirlər Kabineti səmərəli işləyir, nazirlər yaxşı işləyirlər. Mən sizin fəaliyyətinizdən razıyam. Amma qaldırdığım məsələlərə çox ciddi diqqət yetirin və bizi narahat edən bütün məsələləri qısa müddət ərzində aradan qaldırın. Sağ olun.

## RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Əziz həmvətənlər!

Sizi müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Mübarək ramazan ayı ilahi hikmətlər xəzinəsi olan müqəddəs Qurani-Kərimin nazil olması ilə əlamətdardır və inanclı insanlara mənəvi-ruhi ucalığın, əxlaqi saflığın fərəhini, xeyirxahlıq, şəfqət, həmrəylik duyğularının təntənəsini yaşadan bir aydır.

Bu günlər Allah və din yolunda mənəvi borcunu ləyaqətlə yerinə yetirən müsəlmanlarımız orucluğun sınaqlarından alnıaçıq çıxaraq bayram sevincini və fərəhini məmnunluqla bölüşürlər. Xalqımızın və dövlətimizin əmin-amanlığı üçün diləklər edilir, şəhidlərimizin ruhuna dualar oxunur. Mən də bütün xoş niyyət və diləklərə qoşularaq əziz bayram günlərində şəhidlərimizin xatirəsini ehtiramla yad edir, Allahdan onlara rəhmət, ailələrinə səbir diləyirəm.

Əziz bacı və qardaşlar!

Öz tarixi köklərinə, milli-mənəvi dəyərlərinə daim sadiq qalan Azərbaycan xalqı bütün müsəlmanların həmrəyliyini və birliyini nümayiş etdirən mübarək Ramazan bayramını hər il böyük təntənə və könül xoşluğu ilə qarşılayır. Bu əziz gündə bir daha bütün dünya azərbaycanlılarını, ölkə vətəndaşlarını səmimi-qəlbdən təbrik edir, onların ailələrinə firavanlıq, süfrələrinə xeyir-bərəkət arzulayıram.

Allah orucunuzu qəbul etsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 oktyabr 2006-cı il*

## LERİK RAYONUNA TƏBİİ QAZIN VERİLMƏSİ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN TƏNTƏNƏLİ MƏRASİMDƏ* NİTQ

*23 oktyabr 2006-cı il*

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 23-də Lerik rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısını Lerik qəsəbəsinin girəcəyində rayon ağsaqqalı, fermer Xanış Şahıyev və ailə üzvləri hərarətlə qarşıladılar.*

*İlham Əliyev dedi ki, keçən il Lerikə yolun açılışına gəlmişdim, bu il isə qaz xəttinin açılışına gəlmişəm. İnşallah, bundan sonra daha da çox gələcəyəm.*

*Xanış Şahıyev əziz qonağa ürəkdən təşəkkür edərək dedi ki, sovet dövründə borular da gətirdilər, üç-dörd il işlədilər, ancaq qaz xətti çəkə bilmədilər. Sən leriklilərə söz verdin ki, yoldan sonra qaz xətti çəkdirəcəksən, rayona bundan sonra tez-tez gələcəksən. Bu gün rayonun hər yerində deyirlər ki, İlham Əliyev yeganə insandır ki, dediyi sözə əməl edir. Ona görə Allah da onunladır. Ən böyük gözəllik budur ki, sənin bu zəhmətin əziz Ramazan bayramı ilə bir vaxta düşür. Məgər bu, balaca işdir?*

*Rayonun mərkəzi meydanına toplaşan minlərlə sakin dövlətimizin başçısını böyük hörmət və ehtiramla qarşıladı.*

---

* Mərasimdə Lerik Rayon İcra Hakimiyyətinin başçısı Füzuli Hacıyev, «Azəriqaz» Qapalı Səhmdar Cəmiyyətinin sədri Əlixan Məlikov, Rayon Ağsaqqallar Şurasının sədri Özbək Quliyev çıxış etdilər.

*Onların əllərində prezidenti salamlayan şüarlar, ulu öndərin və prezident İlhan Əliyevin portretləri və Azərbaycanın dövlət bayraqları var idi.*

*Prezident İlham Əliyev əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi önünə gül dəstəsi qoydu, sonra Lerik rayonuna ilk dəfə olaraq təbii qazın verilməsini bildirən məşəli alovlandırdı.*

*Lerik və Yardımlı rayonlarının qazlaşdırılması üçün hələ ötən əsrin 80-ci illərində layihə-smeta sənədləri hazırlanmış, 90-cı illərdə müəyyən işlər görülmüşdü. Lakin bu layihə yarımçıq qalmış, o vaxt çəkilmiş borular da yararsız hala düşmüşdü. Prezident İlham Əliyev 2005-ci ilin payızında bu bölgəyə səfəri zamanı həmin rayonların qazlaşdırılması barədə tapşırıq vermişdir. Qısa müddətdə «Azəriqaz» Qapalı Səhmdar Cəmiyyəti Lerik və Yardımlı rayonlarının qazlaşdırılması üçün layihə-smeta sənədləri və texniki-iqtisadi hesabat hazırlayaraq işə başlamışdır. Smeta dəyəri 11,5 milyon manat olan layihə başa çatdırılmışdır.*

**İlham Əliyev:** Əziz leriklilər!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram, sizi müqəddəs Ramazan bayramı münasibətilə təbrik edirəm.

Bu gözəl gündə biz birlikdəyik. Lerikdə çox əlamətdar bir hadisəni birlikdə qeyd edirik. Demək olar ki, bu, tarixi bir hadisədir. İlk dəfə olaraq biz Lerikə təbii qazın çəkilişinə nail olduq və bu gün bu məşəli yandırdıq. Bu münasibətlə də sizi ürəkdən təbrik edirəm.

Lerik rayonuna qazın çəkilişi onu göstərir ki, Azərbaycan dövləti hər şeyə qadirdir. Bizim əsas vəzifəmiz, əsas məqsədimiz ondan ibarətdir ki, Azərbaycanın hər bir bölgəsi inkişaf etsin. Hər bir bölgədə abadlıq-quruculuq işləri aparılsın, yollar çəkilsin, qaz xətləri çəkilsin, işıq çəkilsin ki, insanlar daha da yaxşı yaşasınlar. Bu gün Azərbaycanın, demək olar ki, bütün bölgələrində çox sürətli inkişaf gedir. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı uğurla icra edilir. Bu

proqramda nəzərdə tutulmuş bütün məsələlər öz həllini tapır. Proqram təxminən üç il bundan əvvəl qəbul edilmişdir və bu gün artıq onun icrası göstərir ki, nəzərdə tutulmuş bütün məsələlər həyatda öz əksini tapır. Verilmiş bütün vədlər həyatda öz əksini tapır.

Mən bir il bundan əvvəl burada, Lerikdə olarkən söz vermişdim ki, yaxın zamanlarda Lerikə qaz xətti çəkiləcəkdir. Biz buna nail olduq və bu gün birlikdə qeyd edirik. Bir il əvvəl isə bundan daha az əhəmiyyət kəsb etməyən məsələni – Lənkərandan Lerikə çəkilmiş yeni yolun açılışını birlikdə qeyd etdik.

Siz yaxşı xatırlayırsınız ki, o yol əvvəllər çox bərbad vəziyyətdə idi. Lerikdən Lənkərana getmək üçün insanlar çox böyük çətinlik, böyük əzab çəkirdi. O yolu getmək üçün bir neçə saat vaxt lazım idi. İndi isə çox rahat, bir saatdan az vaxtda bu yolu gəlmək olar. Bu gün də bu yolu gəlmişəm və görürəm ki, bir il ərzində yol öz keyfiyyətini itirməyibdir. Yəni bu onu göstərir ki, yol çox keyfiyyətli çəkilibdir. İstər paytaxtda, istərsə də ən ucqar rayonda, kənddə bizim bütün işlərimiz belə yüksək səviyyədə, dünya standartlarına uyğun səviyyədə olmalıdır. Yalnız o təqdirdə biz Azərbaycanımızı hərtərəfli inkişaf etdirə biləcəyik.

Mənim məqsədim bundan ibarətdir. Lerik rayonunun timsalında biz bunu görürük. Yeni yol salınıb, qaz xətti çəkilibdir. İndi Astara rayonunda yeni elektrik stansiyasının işə salınmasından sonra bütün cənub bölgəsinin elektrik enerjisi ilə təminatı daha da yaxşılaşacaqdır. Yeni, əlavə ötürücü xətlər çəkiləcəkdir. Bütün infrastruktur yeniləşir. Xüsusilə, cənub bölgəsinə böyük diqqət göstərilir. Astara modul tipli elektrik stansiyası son illər ərzində Azərbaycanda tikilən bu cür birinci stansiya idi. Lənkəranda müasir müalicə-diaqnostika mərkəzi tikilibdir və artıq müalicə üçün, yüksək keyfiyyətli tibbi xidmət almaq üçün Bakıya getməyə ehtiyac yoxdur. Lənkəranda ən müasir standartlara cavab verən avadanlıq quraşdırılıbdır.

Bilirsiniz ki, bu bölgənin hərtərəfli inkişafı üçün Lənkəran şəhərində yeni aeroportun tikintisi də başlanmışdır. Əminəm ki, gələn il aeroport fəaliyyətə başlayacaqdır. Bu, beynəlxalq aeroport olacaq, buradan istənilən şəhərə, istənilən ölkəyə getmək mümkün olacaqdır. Bütün bunlar regionun hərtərəfli inkişafına çox güclü təkan verir, gözəl şərait yaradır. Yeni iş yerlərinin açılması, maaşların, pensiyaların qaldırılması, elektrik enerjisi, qaz təchizatı insanların həyat səviyyəsini yaxşılaşdırır və beləliklə, hər bir vətəndaş müsbət dəyişiklikləri öz gündəlik həyatında görür.

İki gün bundan əvvəl Bakıda Nazirlər Kabinetinin geniş iclasında biz ilin 9 ayının yekunlarını müzakirə etdik və bir daha qeyd olundu ki, Azərbaycan ən yüksək sürətlə inkişaf edir. İqtisadi inkişaf, sənaye istehsalının artımı baxımından dünyada birinci ölkədir. Bu çox əlamətdar məsələdir. Ancaq ən önəmlisi odur ki, hər bir vətəndaş gündəlik həyatda bu müsbət dəyişiklikləri hiss etsin. Bunu etmək üçün hər bir imkan var.

Bu gün burada çıxış edən ağsaqqal qaz kəmərini Bakı–Ceyhan neft kəmərinə bənzətdi. Mən bu müqayisə ilə razıyam. Bu qaz kəməri az əhəmiyyət daşımır. Bakı–Tbilisi–Ceyhan neft kəməri Azərbaycanın hərtərəfli inkişafına gözəl imkanlar yaradır. Lerikə çəkilən qaz xətti bu rayonun inkişafına gözəl imkanlar yaradır və onu göstərir ki, bizim üçün bütün məsələlər eyni dərəcədə əhəmiyyət kəsb edir. Qlobal, nəhəng layihələr və bir qəsəbənin, bir kəndin problemləri arasında heç bir fərq qoymuruq. Çünki hər birindən məqsəd Azərbaycan xalqının daha da yaxşı yaşamasıdır. Bakı–Tbilisi–Ceyhan neft kəməri ulu öndər Heydər Əliyevin əsəridir. Onun başladığı uğurlu neft strategiyasının təntənəsidir. Biz bu kəmərin tikintisini başa çatdırdıq və Azərbaycan bundan sonra uzun illər, onilliklər ərzində rahat yaşayacaq, iqtisadi potensialımız, imkanlar artacaqdır.

Büdcəmiz artır. Yeni büdcə layihəsi parlamentə göndərilibdir. Gələn ilin büdcəsi 6 milyard dollardan çox olacaqdır. Üç il əvvəlki büdcə ilə müqayisədə dörd dəfə çox olacaqdır.

Bu nə deməkdir? O deməkdir ki, gələn il çoxlu abadlıq işləri görüləcək, maaşlar, pensiyalar qaldırılacaq, yanvarın 1-dən minimum əməkhaqqı artırılacaqdır. Bu da öz növbəsində insanların rifah halının yaxşılaşmasına xidmət edəcəkdir. Yeni sənaye müəssisələri, zavodlar, fabriklər, məktəblər, xəstəxanalar tikiləcəkdir. Bütün bunlar inkişaf deməkdir və Azərbaycanı gücləndirir, Azərbaycanda olan potensialı tam şəkildə səfərbər edir. Mən çox şadam ki, bütün bölgələrdə inkişaf çox sürətlə gedir.

Bakı–Tbilisi–Ceyhan neft kəmərinin çox böyük beynəlxalq əhəmiyyəti var. Regional işlərdə bizim mövqelərimizi möhkəmləndirir, ancaq ilk növbədə, Azərbaycanda həllini gözləyən problemlərin həll olunmasına kömək göstərir.

Buraya yolun, qaz kəmərinin çəkilişinə böyük vəsait xərclənmişdir. O vəsaiti biz haradan götürürük? Azərbaycanın artan maddi, iqtisadi imkanlarının hesabına əldə edirik. Bunun isə təməlində Bakı–Tbilisi–Ceyhan neft kəməri dayanır. Ondan gələn gəlirlər, bunun sayəsində digər sektorların inkişafı – bütün bunlar bir-birinə çox bağlıdır.

Lerik rayonuna qaz kəmərinin çəkilişi sırf sosial məqsəd daşıyan bir layihədir. Çünki, adətən, bazar iqtisadiyyatı şəraitində yaşayan ölkələrdə hər bir layihə sırf bazar iqtisadiyyatı prinsiplərini nəzərdə tutur. Yəni mənfəət götürülməsini nəzərdə tutur. Ən qabaqcıl, ən zəngin, inkişaf etmiş ölkələrdə də heç vaxt yanacaq-enerji sahəsi ilə əlaqədar hansısa sırf sosial xarakter daşıyan layihələrə vəsait ayrılmır. Amma Azərbaycanda biz bunu edirik. Bəlkə də nə vaxtsa bu kəmərdən əldə ediləcək gəlir heç vaxt ona xərclənən vəsaiti qaytarmayacaqdır. Məqsəd də bunda deyil, ondadır ki, Azərbaycanda ucqar rayonlarda, ucqar kəndlərdə, xüsusilə, Lerik rayonunda yaşayan insanlar təbii qazla təmin olunsunlar, daha da yaxşı yaşasınlar. Ekologiya qorunsun, meşələr qorunsun – bu, insanlara rahatlıq gətirən hadisədir. Ona görə bunun əhəmiyyəti çox böyükdür. Bunun həm iqtisadi, həm sosial, həm siyasi əhəmiyyəti var. Bir daha onu göstərir ki, Azərbaycan dövləti hər şeyə qadirdir. Əgər bu çox çətin rel-

yefdə, hündür dağlardan biz bu kəməri çəkə bildiksə, deməli, hər şeyə qadirik. Sadəcə olaraq, gərək bütün işlər vaxtlı-vaxtında, proqram şəklində görülsün. Azərbaycanın vətəndaşları da bütün bu abadlıq-quruculuq işlərində fəal iştirak etməlidirlər.

Bizim sözümüzlə işimiz birdir. Nəyi deyiriksə, onu da edirik. Üç il bundan əvvəl hansı vədlər verilmişdisə, onların hamısı yerinə yetirilib və yetirilir. Bu, ölkəyə dinamizm gətirir. İnsanlarda inam hissini gücləndirir. Bu çox önəmlidir. Xalqla iqtidar arasında birlik hər bir ölkənin inkişafı üçün əsas məsələdir. Əgər ölkə sürətlə inkişaf etməlidirsə, bu qarşılıqlı inam, bu dəstək mütləq olmalıdır. Bu da var! Bunu mən hər yerdə görürəm, rayonlara səfərlərimdə görürəm. Çünki bizim siyasətimiz real işlərdir. Bizim siyasətimiz şüar, boş-boş vədlər, reallığı əks etdirməyən bəyanatlar deyildir. Bizim siyasətimiz konkret işlərdir. Hər bir insanın qayğısına diqqət yetirmək, hər bir insanın, hər bir rayonun problemini çalışıb həll etməkdir.

Bu gün də Lerikdə mövcud olan problemlər haqqında fikirlər səsləndi. Biz onları da həll edəcəyik. Mənim rayonlara səfərlərimin məqsədi də məhz ondan ibarətdir ki, gedim, görüm vəziyyət necədir, insanlar necə yaşayırlar, onları hansı problemlər daha da ciddi narahat edir, hansı problemlər daha da tezliklə həll olunmalıdır. Mən Bakıda kabinetdə oturub, sadəcə olaraq, arayışları oxumaqla bu işlərə tam nəzarət edə bilmərəm. Ona görə bölgələrdə oluram, baxıram, soruşuram, danışıram, öz gözümlə görürəm. Görürəm ki, hər yerdə inkişaf var. Harada ki, problem var, biz onu dərhal həll edirik və bundan sonra da edəcəyik. Bizim siyasətimiz bundan sonra daha da sürətlə gedəcək, Azərbaycan hərtərəfli inkişaf edəcəkdir.

Biz hələ işlərin ilkin mərhələsindəyik. Bakı–Tbilisi–Ceyhan neft kəməri hələ təzə-təzə işə başlayıbdır. Növbəti illərdə böyük gəlir gətirəcəkdir. Milyardlarla dollar gəlir gətirəcəkdir. O pullarla, o vəsaitlə Azərbaycanın hər bir yerini gözəlləşdirmək mümkündür. Biz bunu edirik və edəcəyik. Hər bir

sahə üçün proqram var, hər bir istiqamət üçün nəzərdə tutulmuş tədbirlər planı var. Məktəb, xəstəxana tikintisi, yol çəkilişi, qaz, su kəmərlərinin, işıq xətlərinin çəkilişi – bütün bunlar infrastruktur üçün gözəl şərait yaradır.

Bununla bərabər, özəl sektorun inkişafı, kəndlilərə kreditlərin verilməsi, «Aqrolizinq» xətti ilə texnikanın gətirilib kəndlilərə icarəyə verilməsi – bu da böyük dəstəkdir. Kənddə yaşayan insanlara yeni imkanlar açır. Azərbaycan əhalisinin 50 faizi kəndlərdə yaşayır. Ona görə də kənd təsərrüfatının inkişafına çox böyük diqqət göstərilməlidir və göstəririk. Dövlət büdcəsindən vəsait ayrılır, imkanımız artdıqca daha da böyük vəsait ayrılacaqdır. İndi bizdə əgər büdcə artımı olmasaydı, nə bu kəməri, nə bu yolu çəkə bilərdik, nə üç ildə 700-dən çox məktəb tikə bilərdik. Biz bunu edirik, çünki imkanımız var. İmkan da haradan yaranır? Bizim səmərəli işimizdən, Azərbaycanda həyata keçirilən nəhəng layihələrdən, eyni zamanda, maliyyə nizam-intizamının möhkəmlənməsindən. Bütün bunlar kompleks şəkildə öz həllini tapmalıdır. Ona görə bazar iqtisadiyyatı prinsiplərinə sadiqlik davam edəcək, sosial sahəyə diqqət daha da böyük olacaq, maaşlar, pensiyalar mütəmadi qaydada qaldırılacaq, kreditlərin verilməsi davam etdiriləcək, abadlıq işləri gedəcək, infrastruktur yeniləşəcək və beləliklə, ölkəmiz zənginləşəcəkdir. Yol olmasa, qaz olmasa, işıq olmasa, heç bir müəssisə fəaliyyət göstərə bilməz. Bu, aksiomadır, hər bir ölkədə belədir.

Lerik rayonunun çox gözəl imkanları var, çox gözəl təbiətə malik məkandır. Bundan səmərəli istifadə etməliyik. Turizmin inkişafına böyük diqqət göstərilməlidir. Yol olmayanda turizm inkişaf edə bilməz.

Bir daha demək istəyirəm ki, bu məsələlər hamısı bir-birinə bağlıdır. Bunun təməlində, məsələlərin həlli üçün gərək möhkəm iradə olsun, proqram olsun, xalqla iqtidar arasında birlik olsun. Bunların da hamısı var. Azərbaycanın bugünkü reallıqları bunu sübut edir. Bu gün Lerikə çəkilən qaz kəmərinin istifadəyə verilməsi bir daha bizim gücümüzü göstərir. Mən çox şadam, çox sevinirəm ki, Lerik rayonunun əhalisini

narahat edən çox ciddi problemlər qısa müddət ərzində öz həllini tapıbdır. Keçən il biz burada yolun açılışını qeyd edirdik, bu gün qaz verilməsini qeyd edirik, əminəm ki, sonrakı illərdə də çoxlu bayramlarımız olacaqdır. Çünki bizim işimiz elə sürətlə gedir ki, demək olar, hər il belə bayramlar olacaq, biz də bunları bərabər qeyd edəcəyik.

Mən, əziz dostlar, bu gözəl gündə, hər bir azərbaycanlı üçün, hər bir müsəlman üçün müqəddəs olan bayram günündə sizi bir daha ürəkdən salamlayıram. Sizə öz hörmətimi, məhəbbətimi ifadə edirəm və əmin olduğumu bildirirəm ki, leriklilər, həmişə olduğu kimi, bundan sonra da Azərbaycanın müstəqilliyinə öz töhfələrini verəcək, doğma ölkəmizin inkişafı üçün öz səylərini əsirgəməyəcəklər. Hər birinizə cansağlığı, xoşbəxtlik arzulayıram, bayramınız mübarək olsun!

* * *

*Sonra dövlətimizin başçısı rayonun ağsaqqalları ilə görüşüb hal-əhval tutdu, qayğıları ilə maraqlandı. Leriklilər ulu öndər Heydər Əliyevin başladığı böyük işləri uğurla və daha geniş şəkildə davam etdirən Azərbaycan prezidentinə təşəkkürlərini bildirdilər, ölkəmizin və xalqımızın gələcəyi naminə fəaliyyətində müvəffəqiyyətlər dilədilər.*

## Lerik qəsəbəsindəki orta internat məktəbi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 23-də Lerik qəsəbəsindəki orta internat məktəbində olmuşdur.*

*Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş Valeh İbrahimovun adını daşıyan məktəbdə prezident İlham Əliyevi gül-çiçəklə qarşıladılar.*

*Dövlətimizin başçısı keçən il Lerikə səfəri zamanı bu məktəblə tanış olmuş və onun tamamilə yenidən qurulması barədə tapşırıq vermişdi. İndi məktəb büsbütün yeni görkəm almışdır. Prezident İlham Əliyev ulu öndərin həyat və fəaliy-*

*yətini əks etdirən guşə ilə tanış oldu, ayrı-ayrı sinif otaqlarına, habelə kompüter otağına baxdı.*

*Azərbaycan prezidentinə məlumat verildi ki, 200-ə yaxın şagirdin təhsil aldığı məktəbdə Mingəçevirdə yığılan kompüterlər quraşdırılmış və internetə qoşulmuşdur.*

*Dövlətimizin başçısı burada şagirdlərin yaxşı oxuması və biliklərə dərindən yiyələnməsi, habelə yeni müasir texnologiyalardan istifadə üçün yaradılmış şəraitdən razılığını bildirdi və bunun çox vacib olduğunu söylədi.*

## «Relax» turizm-istirahət mərkəzi ilə tanışlıq

*Oktyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yolüstü Lerik rayonundakı «Relax» turizm-istirahət mərkəzi ilə tanış olmuşdur.*

*Prezidentə məlumat verildi ki, regionlarin sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində bir il ərzində yaradılan turizm-istirahət mərkəzində 15 işçi çalışır. Qış, yay mövsümündə istirahət üçün hər cür şərait var, 20-dən çox kottec, habelə yay istirahət güşələri yaradılmışdır. Müasir standartlara cavab verən bu istirahət mərkəzinin ərazisi gələcəkdə daha da genişləndiriləcəkdir.*

*Dövlətimizin başçısı ölkəmizdə turizmin inkişafı üçün hər cür şəraitin olduğunu bildirdi və belə obyektlərin daha çox tikilməsinin zəruriliyini vurğuladı, kotteclərə baxdı və hazırlanan ləziz yeməklərdən daddı.*

## MASALLI–YARDIMLI AVTOMOBİL YOLUNUN AÇILIŞ MƏRASİMİ

*23 oktyabr 2006-cı il*

*Oktyabrın 23-də Masallı–Yardımlı avtomobil yolunun açılışı olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Dövlətimizin başçısı mərasimin keçirildiyi yerə – Yardımlı rayonunun Təkdam kəndinə gəldi. Yolun tikintisində çalışan inşaatçılar prezidenti gül-çiçəklə qarşıladılar.*

*Nəqliyyat naziri Ziya Məmmədov yolun əsas göstəriciləri barədə məlumat verərək dedi ki, cənab prezidentin tapşırığına uyğun olaraq, Masallı–Yardımlı yolu bir il ərzində yenidən bərpa edilmiş və istismara hazırdır. Yol 3-cü texniki dərəcəlidir. 53 kilometr uzunluğunda olan yolun hərəkət hissəsinin eni 7 metrdir. Yol boyu 6 körpü bərpa edilmiş və ya yenidən tikilmişdir. Layihənin smeta dəyəri 10 milyon manat olmasına baxmayaraq, 8 milyon manat xərclənmiş, 104 min ton asfalt-beton işləri görülmüşdür. Bu yol 54 kəndə, o cümlədən Masallı rayonunun 6, Yardımlı rayonunun 48 yaşayış məntəqəsinə gediş-gəlişi asanlaşdıracaqdır.*

**İlham Əliyev:** Yol çox gözəl və keyfiyyətlidir. Mən gələndə fikir verirdim, ən yüksək səviyyədədir, yəni dünyada hansı yüksək səviyyə varsa, burada da var.

**Sabir Rüstəmxanlı** (*Milli Məclisin deputatı*): Cənab Prezident, camaat 70–80 il bunun ağrısını çəkib, həsrətində idi ki, Yardımlıya normal yol olsun.

**İlham Əliyev:** Keçən il biz gələndə gördük, yol çox bərbad gündə idi.

**Sabir Rüstəmxanlı:** Onda mən də burada idim, Siz söz verdiniz.

**İ l h a m Ə l i y e v:** Yadınızdadır?

**S a b i r R ü s t ə m x a n l ı:** Bəli, yadımdadır.

**Z i y a M ə m m ə d o v:** Cənab Prezident, fəal sürüşməyə məruz qalan hissələrdə istinad divarları da tikilmişdir.

**İ l h a m Ə l i y e v:** Yolda müasir nişanlar da qoyulubdur. Bunlar da artıq Azərbaycanda istehsal olunur.

**Z i y a M ə m m ə d o v:** Bəli, biz bunu İsveç texnologiyası əsasında özümüz hazırlayırıq.

**İ l h a m Ə l i y e v:** Gərək bütün yollara qoyulsun.

**S a b i r R ü s t ə m x a n l ı:** İndi rayonların üç böyük problemi var: yol, məktəb və qaz. Ekoloji məsələ də var, meşələr çox qırılır. Qazın verilməsi ilə əlaqədar meşələrin qırılmasının qarşısı xeyli alınacaqdır. Əlavə iş yerləri də açılır.

**İ l h a m Ə l i y e v:** Əlbəttə, kənd təsərrüfatı inkişaf edir, məktəblər də tikilir.

**S a b i r R ü s t ə m x a n l ı:** Burada 40 ildə yaponlar bir məktəb tikmişdilər. Təkcə bir ildə, keçən il isə 31 məktəb tikilmişdir. Bu çox böyük işdir.

**İ l h a m Ə l i y e v:** Bu il də, gələn ildə də nəzərdə tutulubdur.

**S a b i r R ü s t ə m x a n l ı:** Yardımlıda 31 məktəbin tikilməsi çox böyük işdir. Bu, insanları buraya bağlayır. Özü də burada istedadlı uşaqlar çoxdur.

**İ l h a m Ə l i y e v:** Çoxdur. İndi rayonun inkişafı üçün bütün şəraiti yaradırıq. Astara elektrik stansiyasının işə düşməsindən sonra elektrik enerjisi də daha yaxşı veriləcək, Yardımlıya yeni xətlər çəkilməlidir.

**S a b i r R ü s t ə m x a n l ı:** Cənab Prezident, bir ildə Sizin iki dəfə rayona gəlməyiniz çox böyük hadisədir. Dövlət başçılarından heç biri Yardımlıya gəlməmişdi.

**Z i y a M ə m m ə d o v:** Cənab Prezident, bir faktı da demək istəyirəm. Bu yolun çəkilişini bilavasitə Nəqliyyat Nazirliyinin «Yolnəqliyyatservis» Departamentinin işçiləri, yerli mütəxəssislər həyata keçirmişlər. Yəni bu işə kənar firmalar cəlb olunmayıbdır.

**İ l h a m Ə l i y e v:** Yəni buna ehtiyac yoxdur. Artıq ən yüksək səviyyədə təcrübə var.

**Z i y a M ə m m ə d o v:** Bəli, öz mütəxəssislərimizdir. Bu da yeni iş yerlərinin yaranmasına, insanların rifah halının yaxşılaşmasına köməkdir.

**C a v i d Q u r b a n o v** («*Yolnəqliyyatservis» Departamentinin rəisi*): Cənab Prezident, Sizin köməyinizlə 1400 ədəd yeni texnika alınmışdır.

**İ l h a m Ə l i y e v:** 1400 texnika, yəni bununla hər şey etmək olar.

**Z i y a M ə m m ə d o v:** Bəli, təxminən 300–400 ədəd də alsaq, bizə kifayət edər.

**İ l h a m Ə l i y e v:** Mən keçən dəfə demişəm, əgər biz Xınalığa yol çəkə bilmişiksə, bundan böyük iş ola bilməz, çünki ondan yüksəkdə kənd yoxdur. Lerik yolu o yoldan da pis idi, siz keçən il o yolu da çəkdiniz.

**Z i y a M ə m m ə d o v:** Bəli, təkcə bunlar deyil, Daşkəsən, Xızı yolları da çəkilir.

**İ l h a m Ə l i y e v:** Mən bu gün səhər Lerikə getmişdim, yol yaxşıdır. Baxmayaraq ki, bir il keçib, yolda heç bir dağılma yoxdur.

**Ə h ə d A b ı y e v** (*Milli Məclisin deputatı*): Cənab Prezident, Masallı rayonunda da yüksək inkişaf var.

**İ l h a m Ə l i y e v:** Mən müşavirədə dedim, gərək rayon mərkəzlərinin görkəmi də dəyişsin.

**Ə h ə d A b ı y e v:** Hörmətli Prezident, bu əziz gündə xoş gəlmisiniz. İndi rayonlarda dəyişiklik, yenilik çoxdur. Camaat Sizi həddən artıq çox istəyir. Bütün sahələrdə inkişaf var.

**İ l h a m Ə l i y e v:** İşlər gərək daha da sürətlə getsin. Bu yolun tikintisində iştirak etmiş bütün yoldaşlara minnətdarlığımı bildirirəm. Sağ olun, çox böyük işlər görürsünüz. Həm Lerik yolu, həm də Xınalıq yolu istifadəyə verilib, indi Daşkəsən yolu da çəkilir. Magistral yolları çəkmək nisbətən asandır. Düzdür, o da böyük işdir, amma indi müasir texno-

logiyalar var. Dağ şəraitində yol çəkmək isə çox böyük işdir. Gələn ilin büdcəsində də çoxlu tikinti nəzərdə tutulubdur.

**Z i y a M ə m m ə d o v:** Cənab Prezident, yaratdığınız Yol Fondu vəsaitlərin toplanmasında, məqsədyönlü istifadəsində xeyli kömək edəcəkdir. Həm operativliyi artıracaq, həm də vəsait toplamaq baxımından səmərəli olmalıdır.

**İ l h a m Ə l i y e v:** Sizi təbrik edirəm. Sağ olun.

* * *

*Dövlətimizin başçısı Masallı–Yardımlı avtomobil yolunun açılışını bildirən rəmzi lenti kəsdi, inşaatçılarla xatirə şəkli çəkdirdi.*

## YARDIMLI RAYONUNA MAVİ YANACAĞIN VERİLMƏSİ MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ MƏRASİMDƏ* NİTQ

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Yardımlı rayonuna gəldi.*

*Yardımlı qəsəbəsinin mərkəzindəki Heydər Parkına toplaşan minlərlə sakin dövlətimizin başçısını hörmət və ehtiramla, hərarətli alqışlarla qarşıladı. Onların əllərində prezidenti salamlayan şüarlar, ulu öndər Heydər Əliyevin və respublikamızın rəhbərinin portretləri, Azərbaycanın dövlət bayraqları var idi.*

*Dövlətimizin başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi önünə gül dəstəsi qoydu, sonra Yardımlı rayonuna ilk dəfə olaraq təbii qazın verilməsini bildirən məşəli alovlandırdı.*

**İ l h a m  Ə l i y e v:** Əziz yardımlılar!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və müqəddəs Ramazan bayramı münasibətilə sizi səmimi-qəlbdən təbrik edirəm. Ramazan bayramı Azərbaycan xalqının qəlbində həmişə yaşamışdır. Ancaq Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra bu bayram ölkəmizdə dövlət bayramı kimi, geniş qeyd olunur. Bu həm də onu göstərir ki, Azərbaycanın müstəqilliyi xalqımızın ən böyük nemətidir.

---

* Mərasimdə Yardımlı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov, «Azəriqaz» Qapalı Səhmdar Cəmiyyətinin sədri Əlixan Məlikov, rayon ağsaqqalları adından əməkdar həkim Zeyni Adiyev çıxış etdilər.

Məhz müstəqillik dövründə Azərbaycan sürətlə inkişaf etməyə başladı.

Ağsaqqal burada çıxış edərkən çox düzgün məqamlara toxundu. Əsrlər boyu Azərbaycan dövlət müstəqilliyindən məhrum idi və Azərbaycanın təbii sərvətləri daha çox tərkibində olduğu ölkənin xeyrinə istifadə edilirdi. Yalnız və yalnız dövlət müstəqilliyimizi bərpa etdikdən sonra bütün təbii sərvətlər Azərbaycan xalqına məxsus oldu. Azərbaycan xalqı ulu öndər Heydər Əliyevin müdrik rəhbərliyi ilə bu təbii sərvətlərdən çox böyük səmərə ilə istifadə etdi. 15 il ərzində müstəqil yaşayan və möhkəmlənən bugünkü Azərbaycan bütün görülən işlərin bariz nəticəsidir.

Azərbaycan bu gün həm dünyada, həm də bölgədə öz mövqelərini möhkəmləndirir. Azərbaycanın beynəlxalq nüfuzu artır, aparılan siyasi, iqtisadi islahatlar ölkəmizin hərtərəfli inkişafı üçün gözəl şərait yaradır, insanların həyat səviyyəsi yaxşılaşır, maddi rifah artır, böyük quruculuq-abadlıq işləri gedir. Bakı–Tbilisi–Ceyhan neft kəməri, ulu öndər Heydər Əliyevin adını daşıyan neft kəməri istismara verilib və bu, ən böyük tarixi nailiyyətdir. Müstəqil Azərbaycanın ən böyük nailiyyətidir. Çünki bu kəmərin fəaliyyəti və istismarı dövrü ərzində görülən və görüləcək işlər Azərbaycan xalqının uzunmüddətli rifah mənbəyi olacaqdır. Çünki bu kəmərdən əldə olunan gəlirlər Azərbaycan xalqının həyat səviyyəsini yaxşılaşdıracaqdır. Biz artıq bunu görürük. Heydər Əliyevin neft strategiyasının nəticəsi olan Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum kəmərləri, digər layihələr bu gün Azərbaycanın müstəqil ölkə kimi yaşamasını təmin edir və edəcəkdir. Biz müstəqil siyasət aparırıq, müstəqil ölkəyik. Biz azad insanlarıq, Azərbaycanın gələcəyi, Azərbaycan xalqının müqəddəratı bizim əlimizdədir. Biz bunu sübut etdik və 15 il müstəqil ölkə kimi yaşamağımız bir daha sübut edir. Mən şübhə etmirəm ki, bundan sonrakı illərdə Azərbaycan yalnız və yalnız inkişaf dövrünü yaşayacaqdır. Bütün çətin illər, çətinliklər, problemlər, qarşıdurmalar keçmişdə qaldı.

Baxmayaraq ki, müstəqilliyin ilk illəri çox ağır keçirdi və bəzi hallarda ölkəmizin müstəqil yaşaması şübhə altında idi.

Amma ulu öndər Heydər Əliyevin siyasəti nəticəsində bütün o çətin günlər keçmişdə qaldı.

Bundan sonra mən Azərbaycanın qarşısında heç bir problem, heç bir maneə görmürəm. Qarşıda yalnız və yalnız inkişaf, maddi rifahın yaxşılaşmasını, ölkənin hərtərəfli inkişaf etdirilməsini, insanların həyat səviyyəsinin yaxşılaşmasını görürəm. Bu istiqamətdə hər bir vətəndaş öz payını verməlidir və bu həmrəylik indi Azərbaycanda var. Bizi birləşdirən milli ideyalar, azərbaycançılıq ideyası, amallar var: ölkəmizin hərtərəfli inkişafı, iqtisadi gücün yaranması və möhkəmlənməsi, sosial ədalətin bərqərar olması, demokratiyanın inkişafı, bütün azadlıqların qorunub saxlanılması və nəticədə güclü dövlətin yaradılması. Biz bunu yaradırıq və əgər keçid dövrünü yaşayan, yaxud da ki, bizimlə bərabər vəziyyətdə olan ölkələrlə özümüzü müqayisə etsək, görərik ki, Azərbaycan müstəqil siyasət aparmaq gücündə olan ölkədir. Bizi bu fərqləndirir. Heç kimdən asılı deyilik, yalnız və yalnız öz resurslarımıza arxalanırıq. Heydər Əliyevin yolu məhz bundan ibarət olmuşdur. Çünki Azərbaycanın üzləşdiyi problemləri biz təkbaşına həll edirik. Heç kim bizə kömək etmədi, heç kim bizim yanımızda durmadı. Özümüz çətin günlərdən, çətin vəziyyətdən çıxdıq və bu gün ölkəmizi hərtərəfli inkişaf etdiririk.

Ağsaqqalın sözləri məni də çox duyğulandırdı. Çünki bu, ürəkdən, qəlbdən gələn sözlərdir. Bir də ki, həqiqətdir. Həqiqəti isə hər zaman demək, bildirmək lazımdır. Həqiqət də ondan ibarətdir ki, bugünkü Azərbaycan ən dinamik, ən sürətlə inkişaf edən ölkədir. Bugünkü Azərbaycanın hərtərəfli inkişafı 1993-cü ildə məhz Heydər Əliyevin prezident vəzifəsinə seçilməsi ilə əlaqədardır. Məhz o illərdən başlayaraq bütün xoşagəlməz meyllər tədricən, yavaş-yavaş aradan qaldırıldı və inkişafa qədəm qoyuldu. Bu gün bizim bütün əsas layihələrimiz öz həllini tapmışdır. Bakı–Tbilisi–Ceyhan kəməri tarixi nailiyyətdir. Baxmayaraq ki, böyük çətinliklərlə üzləş-

mişdik, böyük təxribatlar da, hədələr də olmuşdu, sui-qəsdlər də təşkil edilmişdi. Digər təxribatlar da olmuşdu. Amma buna baxmayaraq, biz onu tikməyi bacardıq və bu kəmərin işə düşməsi, uğurlu fəaliyyəti nəticəsində Azərbaycanın hərtərəfli inkişafı mümkün olacaqdır. Digər layihələr də öz həllini tapır.

İndi qarşımızda yeni vəzifələr durur. Yeni vəzifələr də ondan ibarətdir ki, bu gözəl şəraitdən, iqtisadi inkişafdan, mövcud sabitlikdən istifadə edib ölkəmizi hərtərəfli inkişaf etdirək. Bu yolda bizim proqramlarımız var. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının məqsədi də məhz bundadır ki, hər bir bölgə inkişaf etsin. Hər bir bölgənin problemləri var. Ölkənin ümumi problemləri var, eyni zamanda, hər bir rayonun özünəməxsus problemləri var. Biz həm ümumi problemləri, həm də hər bir bölgənin problemlərini həll edirik. Mən bir neçə dəfə demişəm, bir də demək istəyirəm ki, əgər hər bir rayonun problemi öz həllini taparsa, deməli, ölkədə heç bir problem qalmaz.

Yardımlı rayonunun da böyük problemləri var idi. Yardımlı ucqar rayondur və uzun illər ərzində burada olan vəziyyət, əlbəttə ki, bizi qane edə bilməzdi. Ancaq rayonun problemləri ilə maraqlananda, görəndə ki, bu problemləri biz qısa müddət ərzində həll edə bilərik, proqram da qəbul edildi, yeni rəhbərlik təyin olundu və sürətlə inkişaf başladı. Deyə bilərəm ki, son iki il ərzində Yardımlıda görülən işlər, demək olar ki, rayonun hər bir sahəsinə öz təsirini göstərir. Bir il, il yarım ərzində 31 məktəb tikilibdir. Əvvəllər bəlkə də 100 il ərzində 31 məktəb tikilmirdi. Rayonda infrastruktur yarandı, yeni müəssisələr, xalça sexi işə düşdü. Mənim yadımdadır, keçən il burada olarkən müəssisələrlə tanış oldum. Ticarət mərkəzi tikildi, stadion bərpa olundu, yollar, elektrik xətləri çəkildi.

Bu gün isə biz iki böyük hadisəni qeyd edirik. Yardımlıya yeni yolun çəkilməsi və istismara verilməsi, bir də qaz xəttinin çəkilməsi. İki hadisənin rayonun inkişafı üçün çox böyük əhəmiyyəti var. Bu iki hadisə, xüsusilə yolun çəkilməsi, ümu-

miyyətlə, inkişafa ən böyük təkan verən amildir. Harada ki, müasir yol var, o bölgədə mütləq və mütləq inkişaf olacaqdır. Əgər yol yoxdursa, o bölgə inkişaf edə bilməz. Orada istənilən təbii sərvətlər, istənilən infrastruktur, gözəl binalar, mehmanxanalar olsa da, əgər yol yoxdursa və ya bərbad vəziyyətdədirsə, heç kim gəlməyəcəkdir. Yol birinci şərtdir və biz onu çəkdik.

İkinci şərt qaz xəttinin çəkilməsi. Yardımlı nadir rayonlardan idi ki, sovet dövründə də burada qazlaşdırma aparılmamışdı. Bilirsiniz ki, sovet dövründə Azərbaycan ərazisinin böyük əksəriyyəti qazlaşdırılmışdı. Düzdür, ondan sonra, 90-cı illərin əvvəllərindəki xoşagəlməz hadisələr nəticəsində qazın hasilatı kəskin şəkildə aşağı düşmüşdü və rayonların, demək olar ki, əksəriyyətinə qaz verilmirdi. 2000-ci ildən başlayaraq biz qazın verilməsini bərpa etdik və ilk növbədə qaz xətləri olan yerlərə verdik. Amma Yardımlıda qaz xətti yox idi. Keçən il qərar qəbul edildi ki, Yardımlıya qaz çəkilməlidir. Bu çətin şəraitdə hündür dağlardan keçməklə qaz xətti artıq çəkilibdir. Biz məşəli yandırdıq və növbəti aylarda rayon mərkəzinə tamamilə qaz veriləcəkdir. Yəni bu onu göstərir ki, əgər adamın buna marağı varsa, iradə varsa, hər bir məsələni həll etmək olar. Əlbəttə ki, bütün bu işlərin təməlində müxtəlif amillər dayanır, ancaq ən önəmlisi vətənə, xalqa olan məhəbbətdir. Budur ən önəmli amil, budur Azərbaycanı gələcəyə aparan əsas şərt.

Bu isə indi həm iqtidarda var, həm də xalqda var. Hamımız istəyirik ki, bizim güclü dövlətimiz olsun. Biz hər gün müxtəlif yollarla, xarici siyasətlə, daxili siyasətlə, iqtisadi islahatlarla, insanların həyat səviyyəsini yaxşılaşdırmaqla, yollar, qaz xətləri çəkməklə, bütün başqa işlərlə bunu gücləndiririk. Haraya baxsaq, görərik ki, hər bir sahədə proqram var, inkişaf var.

Məktəb lazımdır, məktəb əsas məsələdir. Məktəb olmasa, heç bir inkişaf ola bilməz. Məktəblə müqayisədə bəlkə də yol ikinci dərəcəli məsələdir. Yardımlıda 31 məktəb tikilibdir. Onlar indi kompüterlə təchiz edilməli, bütün məktəblərdə in-

ternet xətti olmalıdır. Uşaqlar lap balaca yaşlarından dünyadakı ən müasir yenilikləri bilməlidirlər. Onların müasir dünyagörüşü olmalıdır. Həm bizim milli ənənələrə, azərbaycançılıq ideologiyasına sadiq olmalıdırlar, eyni zamanda, dünyada gedən prosesləri bilməlidirlər. Öz biliklərini artırmalı, təhsil almalı, işləməlidirlər. Ona görə də bunlar lazımdır. O cümlədən xəstəxanalar, digər sosial infrastrukturlar.

Mən çox istəyirəm ki, nəzərdə tutduğumuz bütün proqramlar tezliklə həyata keçsin. Həmişə bütün icra nümayəndələrini tələsdirirəm ki, tez edin. Buraya yolun çəkilişi də cəmi 3-4 ay vaxt apardı. Bu yol böyük layihədir, 50 kilometrdən çox uzunluğu var. Özü də dağlıq, mürəkkəb relyefi olan yerdə bu yolu çəkmək asan məsələ deyildir. Buna həm böyük maliyyə vəsaiti xərclənib, həm də böyük zəhmət çəkilibdir. Amma biz istəyirdik tez olsun ki, insanlar daha əziyyət çəkməsinlər. Hər dəfə o yolu gedib-gəlmək asan məsələ deyildir. İndi Bakıda yaxşı yol ilə gedən bunu başa düşməz. Gərək insan bir-iki dəfə bu yolu gedib-gəlsin ki, başa düşsün, insanlar nə əziyyət çəkir. Bir halda ki, imkan var bunu düzəldək, nə üçün əziyyət çəkməlidirlər?

Hər bir insanın problemi prezidentin problemi olmalıdır. Ancaq o təqdirdə Azərbaycan sürətlə inkişaf edəcəkdir. Yaşadığı yerdən asılı olmayaraq, lap ucqar kənddə də gərək hər bir insanın həyatını təmin edən əsas amillər olsun – suyu, işığı, qazı olmalıdır, yaxşı yolu olmalıdır, uşağı yaxşı məktəbə getməlidir. Əgər xəstələnirsə, gərək yaxşı tibbi xidmətlə təmin olunsun. Bunlar insanın yaşayışını müəyyən edən məsələlərdir.

Biz bu işləri görürük. Biz iqtisadi inkişafa nail olmuşuq və indi Azərbaycan iqtisadi inkişaf baxımından dünyada birinci ölkədir.

İqtisadiyyatın artım sürətinə görə biz bir nömrəli ölkəyik. Biz bölgədə öz mövqelərimizi möhkəmləndirmişik və qonşularımızla çox gözəl, səmərəli, qarşılıqlı hörmətə əsaslanmış münasibətlərimiz var. Bu da Azərbaycanın inkişafı üçün çox vacib amildir. Ölkə daxilində vətəndaş həmrəyliyinə nail ola,

sabitliyi qoruyub saxlaya bilmişik. Baxmayaraq ki, bu sabitliyi pozmaq istəyən qüvvələr var idi. Onların cəhdləri məhz ona yönəlmişdi ki, Azərbaycanda sabitlik pozulsun, hərcmərclik, xaos, anarxiya yaransın. Başqa ölkələrdə bu xaosun, anarxiyanın nəyə gətirib çıxardığını görürük.

O ölkələr geriyə gedir, çox xoşagəlməz proseslər başlayır. Azərbaycanda bunların heç biri yoxdur. Biz sabitliyi qoruyuruq, saxlayırıq.

Biz deyəndə, mən Azərbaycan xalqını nəzərdə tuturam. Çünki bütün məsələləri Azərbaycan xalqının iradəsi müəyyən edir. İlk növbədə də sosial məsələlərin həlli. Sosial məsələlərin həlli birbaşa maddi dəyər yaratmır, əlavə mənfəət gətirmir. Bax, bu çəkdiyimiz yol birbaşa heç bir gəlir gətirməyəcəkdir. Yaxud çəkilən qaz xətti də heç bir mənfəət gətirməyəcəkdir. Abonentlərdən yığılan qaz haqqı çəkilmiş xərcləri bəlkə də 100 ildən sonra qaytara bilər. Məqsəd bunda deyil, məqsəd ondadır ki, iqtisadi imkanları, təbii sərvətləri insan kapitalına çevirək. Yaxşı işləyək, işlərimizi elə görək ki, inkişaf olsun. İnkişafdan əldə olunan gəlirləri insanların yaxşı yaşamasına yönəldək. Büdcə xərclərimiz 4 dəfə artır. Üç-dörd il bundan əvvəl 1 milyard 500 milyon dollar idi, indi olacaq 6 milyard 300 milyon dollar. Bu nə deməkdir? O deməkdir ki, 2007-ci ildə ölkə qarşısında duran əsas problemlər öz həllini tapacaqdır: yolların, elektrik, qaz, su xətlərinin çəkilməsi, məktəb, xəstəxana tikintisi, aeroportların inşası. İnsanları narahat edən bütün məsələlər öz həllini tapmalıdır və ilk növbədə, yerlərdə icra orqanları da çox səmərəli işləməlidir. Biz düzgün qərarlar, proqramlar qəbul edə, vəsait ayıra bilərik. Ancaq yerlərdə iş yaxşı qurulmursa, onda bunun heç bir səmərəsi olmayacaqdır. Mənim bölgələrə səfərlərimin məqsədlərindən biri də odur ki, gedib özüm görüm, vəziyyətlə tanış olum ki, işlər necə gedir, insanların əhval-ruhiyyəsi necədir, yerli icra orqanlarına münasibət necədir. Mən bunu görürəm, bəzi hallarda bunu heç demək də lazım deyildir. Mən insanların baxışlarından, üzlərdəki təbəssümdən bunu görürəm. Yaxud da ki, bəzi hallarda insanların narazılığın-

dan bunu görürəm və dərhal ölçülər götürülür, tədbirlər görülür. Belə olmalıdır. Biz elə etməliyik ki, bir dənə də problem qalmasın. Düzdür, elə ölkə yoxdur ki, orada problem olmasın. Ən zəngin, ən inkişaf etmiş ölkələrdə də kifayət qədər problemlər var. Amma biz çalışmalıyıq ki, ölkəmizdə bunları aradan qaldıraq. Çalışmalıyıq ki, insanların həyatını yüngülləşdirək, yaxşılaşdıraq ki, bütün xalqımız firavan yaşasın. Xalqımızın üzü gülsün, ürəyi sevinsin. Bunu etmək üçün iş görmək lazımdır. Xalqın dəstəyi ilə biz bu işi görürük və bundan sonra da görəcəyik. Mən bir il bundan əvvəl məhz burada çıxış edərkən öz ürək sözlərimi demişdim və söz vermişdim ki, işlər görüləcəkdir.

Keçən il Yardımlıya gəlişim buraya ilk səfərim idi. Amma demişdim ki, ondan sonra da gələcəyəm. Bəlkə də bəziləri fikirləşdi ki, sözdür, İlham Əliyev deyir. Amma gəlmişəm. Gəlmişəm ki, ilk növbədə, istəyirəm bu bayram günündə sizinlə birlikdə olum. Gəlmişəm ki, bu gözəl gündə qazın verilməsini bərabər qeyd edək. Gəlmişəm ki, xalqımla birlikdə olum.

Mən öz vəzifə borcumu bunda görürəm və sizi bir daha əmin etmək istəyirəm ki, gələcək fəaliyyətimdə də mən bu yola sadiq olacağam. Əlimdən gələni edəcəyəm ki, doğma xalqımız daha da yaxşı yaşasın, doğma vətənimiz güclənsin, zənginləşsin və qarşıda duran bütün vəzifələri yerinə yetirsin.

Əziz dostlar, sizi bu gözəl bayram münasibətilə bir daha təbrik edirəm, hər birinizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Sağ olun.

*Prezident İlham Əliyev sonra ağsaqqallarla və ictimaiyyətin nümayəndələri ilə səmimi söhbət etdi, ölkənin iqtisadi imkanları artdıqca Azərbaycanın bütün bölgələrinin hərtərəfli inkişafı üçün daha böyük işlərin görüləcəyini vurğuladı.*

## MASALLI OLİMPİYA İDMAN KOMPLEKSİNİN TİKİNTİSİ İLƏ TANIŞLIQ

*23 oktyabr 2006-cı il*

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 23-də Masallı Olimpiya İdman Kompleksində də oldu, tikinti işlərinin gedişi ilə maraqlandı. Prezidentə məlumat verildi ki, kompleksin tikintisi cədvələ uyğun aparılır.*

*Dövlətimizin başçısı ölkəmizdə bədən tərbiyəsi və idmanın inkişafına təkan verəcək, gənc nəslin sağlam böyüməsinə xidmət edəcək bu cür müasir idman obyektlərinin inşasının davam etdiriləcəyini bildirdi.*

*Bununla da prezident İlham Əliyevin ölkəmizin cənub rayonlarına səfəri başa çatdı.*

## «*bp*–AZƏRBAYCAN» ŞİRKƏTİNİN RƏHBƏRİ DEVİD VUDVORD İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 oktyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də Prezident sarayında «bp–Azərbaycan» şirkətinin rəhbəri Devid Vudvordu qəbul etmişdir.*

*Devid Vudvord «bp–Azərbaycan» şirkətinin ölkəmizdə cari fəaliyyəti barədə dövlətimizin başçısına məlumat verdi.*

## DÜNYA SƏHİYYƏ TƏŞKİLATININ BAŞ DİREKTORU VƏZİFƏSİNƏ NAMİZƏD PROFESSOR TOMRİS TÜRMƏN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 oktyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də Prezident sarayında Dünya Səhiyyə Təşkilatının Baş direktoru vəzifəsinə namizəd, türkiyəli professor Tomris Türməni qəbul etmişdir.*

*Görüşdə xanım Tomris Türmənin Dünya Səhiyyə Təşkilatının Baş direktoru vəzifəsinə namizədliyinin Azərbaycan tərəfindən dəstəklənməsi məsələsi müzakirə olundu.*

## XALQ RƏSSAMI FƏRHAD XƏLİLOVA

Hörmətli Fərhad Xəlilov!

Sizi – Azərbaycan təsviri sənətinin tanınmış nümayəndəsini anadan olmağınızın 60 illiyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Siz Azərbaycan rəssamlıq sənətinin inkişafında böyük xidmətlər göstərən mahir fırça ustalarındansınız. Müxtəlif janr və mövzularda yaratdığınız boyakarlıq və qrafika əsərləri özünün forma rəngarəngliyi, kompozisiya və rəng həlli, estetik kamilliyi, ideya-bədii dəyəri ilə səciyyələnir. Azərbaycan təbiətinin gözəlliklərini, müasirlərimizin zəngin psixoloji obrazlarını rənglərin diliylə dolğun əks etdirən tematik tablolarınız və mənzərə əsərləriniz sənətsevərlər tərəfindən həmişə rəğbətlə qarşılanmışdır. İstedadlı sənətkar fırçasının məhsulu olub həyata və təbiətə sevgidən yaranan həmin lövhələr insana xoş əhval-ruhiyyə bəxş edir.

Ölkəmizdə və onun hüdudlarından kənarda təşkil olunmuş incəsənət sərgilərində, muzey və qalereyalarda nümayiş etdirilən əsərləriniz Azərbaycan rəngkarlıq mədəniyyətini layiqincə təmsil etmiş, Sizi müasir ruhlu sənətkar və eyni zamanda, çoxəsrlik ənənələrə malik milli təsviri sənətimizin davamçılarından biri kimi tanıtmışdır.

Azərbaycan Rəssamlar İttifaqının sədri vəzifəsində uzun illərdən bəri yüksək təşkilatçılığınız və gənc rəssamlar nəslinin yetişdirilməsində səmərəli fəaliyyətiniz də təqdirəlayiqdir.

İnanıram ki, özünəməxsusluğu ilə seçilən yaradıcılığınızla siz bundan sonra da sənətinizin pərəstişkarlarını ye-

ni-yeni əsərlərlə sevindirəcək, milli mədəniyyətimizin inkişafı naminə əlinizdən gələni əsirgəməyəcəksiniz.

Sizə cansağlığı, xoşbəxtlik və sənət uğurları arzu edirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 oktyabr 2006-cı il*

**ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKAYA**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Əlcəzair inqilabı günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirməkdən məmnunluq duyuram. Ümidvaram ki, Azərbaycan–Əlcəzair münasibətlərinin inkişafı xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq məcrasında davam edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Əlcəzair xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 oktyabr 2006-cı il*

## AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 oktyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Prezident sarayında Avropa Yenidənqurma və İnkişaf Bankının nümayəndə heyətini qəbul etmişdir.*

*Nümayəndə heyətinin respublikamıza səfərinin əhəmiyyətli olduğunu vurğulayan dövlətimizin başçısı Avropa Yenidənqurma və İnkişaf Bankı ilə ölkəmizin əməkdaşlığının səviyyəsindən, birgə həyata keçirilən layihələrdən razılığını bildirdi. Prezident İlham Əliyev dedi ki, regionların və qeyri-neft sektorunun inkişafı ölkə rəhbərliyinin xüsusi diqqət yetirdiyi əsas istiqamətlərdən biridir. Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, AYİB ilə əməkdaşlıq Azərbaycanda gedən iqtisadi inkişaf prosesinə öz töhfəsini verəcəkdir.*

*Azərbaycanın coğrafi nöqteyi-nəzərdən çox mühüm bir ərazidə yerləşdiyini xatırladan prezident İlham Əliyev ölkəmizdə sosial infrastrukturun inkişafı istiqamətində görülən işlərdən də söhbət açdı. Sosial-iqtisadi inkişaf proqramlarının və bir sıra digər iqtisadi layihələrin Azərbaycanın öz daxili imkanları hesabına maliyyələşdirildiyini vurğulayan dövlətimizin başçısı ölkəmizdə büdcənin də sürətlə artdığını nəzərə çatdırdı. Bütün digər sahələrdə də böyük inkişaf əldə edildiyini, xarici sərmayələr üçün ölkəmizdə yaxşı mühit yaradıldığını bildirən prezident İlham Əliyev əmin olduğunu söylədi ki, Avropa Bankı ilə əməkdaşlıq bundan sonra daha da möhkəmlənəcəkdir.*

*AYİB-in direktoru xanım Karina Rautala bildirdi ki, onların Azərbaycana səfərinin əsas məqsədi ölkənin sosial-iqtisadi inkişafı ilə yaxından tanış olmaq və bu barədə tam məlumat əldə etməkdir. Ölkəmizdə keçirdikləri görüşlər, bölgələrə səfərlər, o cümlədən Səngəçal terminalı ilə tanış olmaları barədə dövlətimizin başçısına məlumat verən qonaq dedi ki, bütün bunlar Azərbaycanın iqtisadiyyatda və digər sahələrdə əldə etdiyi uğurlarla yaxından tanışlıq baxımından böyük əhəmiyyət daşıyır.*

*Azərbaycanda bütün sahələrdə, həqiqətən, böyük uğurlar qazanıldığını, irimiqyaslı layihələr həyata keçirildiyini söyləyən Karina Rautala Avropa Yenidənqurma və İnkişaf Bankının bu prosesdə yaxından iştirak etməsindən məmnunluğunu vurğuladı. O dedi ki, AYİB gələcəkdə də iqtisadi layihələrin həyata keçirilməsində Azərbaycanla əməkdaşlıq etməyə hazırdır.*

## ABŞ-ın ALMAN MARŞALL FONDUNUN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 oktyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də Prezident sarayında ABŞ-ın Alman Marşall Fondunun nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan ilə ABŞ arasında müxtəlif sahələrdə əməkdaşlığın uğurla inkişaf etdiyini bildirən dövlətimizin başçısı Marşall Fondu ilə əlaqələrin də genişləndiyini vurğuladı. Prezident İlham Əliyev Marşall Fondu ilə uğurlu əməkdaşlığın gələcəkdə də davam etdiriləcəyinə əmin olduğunu nəzərə çatdırdı.*

*Dünyada Azərbaycana böyük maraq olduğunu söyləyən nümayəndə heyətinin başçısı Skott Klaq ölkəmizlə ABŞ arasında əməkdaşlığın uğurla inkişaf etdiyini bildirdi. Azərbaycanın beynəlxalq aləmdə rolunun artdığını qeyd edən qonaq Marşall Fondu ilə Azərbaycan arasında əlaqələrin yeni mərhələyə qalxdığını vurğuladı. O, əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əmin olduğunu bildirdi.*

*Söhbət zamanı Azərbaycan–ABŞ ikitərəfli münasibətləri və beynəlxalq məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.*

## XARİCİ ÖLKƏLƏRİN KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN RUSİYADA AKKREDİTƏ OLUNMUŞ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 oktyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də Prezident sarayında xarici ölkələrin kütləvi informasiya vasitələrinin Rusiyada akkreditə olunmuş nümayəndələri ilə görüşmüşdür.*

*Görüşdə dövlətimizin başçısı Azərbaycanda gedən iqtisadi inkişaf prosesləri, o cümlədən neft və qeyri-neft sektorunun inkişafı, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, regional məsələlər, ölkəmizin xarici siyasəti və digər məsələlərlə bağlı suallara ətraflı cavab vermişdir.*

**İ l h a m  Ə l i y e v:** Sizi görməyimə məmnunam. Jurnalistlərdən ibarət böyük bir nümayəndə heyəti Azərbaycana gəlmişdir. Mən bunu yüksək qiymətləndirirəm. Hesab edirəm ki, bu səfər ölkəmizdə gedən inkişaf prosesləri, əldə olunan nailiyyətlər, problemlər ilə tanış olmaq üçün yaxşı imkandır. Zənnimcə, Azərbaycana nə qədər çox jurnalist səfər edərsə, ölkənin əldə etdiyi nailiyyətləri, inkişafı və ümumi vəziyyəti ilə daha yaxından tanış olmaq imkanı yarana bilər.

Bildiyimə görə, səfəriniz müddətində bir sıra mühüm tədbirlərdə iştirak etmiş, rayonlarda olmusunuz. Ümidvaram ki, bu səfər çox faydalı olacaqdır. Bir daha ölkəmizə xoş gəlmisiniz.

**F r e d  V i r (*«Christan Svience Monitor»*): Məncə bu il Sizin prezident Köçəryan ilə iki görüşünüz olubdur. Dağlıq Qarabağ və işğal edilmiş ərazilərlə bağlı Sizin mövqeyinizi**

**bilmək istərdim. Münaqişənin danışıqlar yolu ilə qısa müddət ərzində nizama salınacağına hansısa ümid varmı? Əgər yoxdursa, seçiminiz nə olacaq?**

**İ l h a m Ə l i y e v:** Danışıqlar prosesinin gələcəyi barədə əvvəlcədən bir şey demək çətindir. Çünki bir tərəfdən, danışıqlar on ildən artıqdır ki, davam etdirilir və bu heç bir nəticə verməmişdir. Buna səbəb beynəlxalq hüquq norma və davranışlarına əməl etmək istəməyən Ermənistanın nümayiş etdirdiyi mövqedir. Digər tərəfdən, indi biz Praqa formatı adlandırılan danışıqlar formatındayıq və bu, münaqişənin dinc yolla həllinə nail olmaq imkanı yarada bilər. Bizim mövqeyimiz beynəlxalq hüququn Dünya Birliyi tərəfindən tanınmış norma və prinsiplərinə əsaslanır. Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyildir. Ermənistan BMT Təhlükəsizlik Şurasının işğalçı qüvvələrin Azərbaycan ərazilərindən qeyd-şərtsiz və dərhal çıxarılmasını tələb edən dörd qətnaməsinə əməl etməlidir. Bu, Azərbaycanın qəti surətdə sadiq olduğu beynəlxalq hüququn əsas prinsipidir. Ermənistanın mövqeyi onların arzuları, gözləntiləri və xəyallarına əsaslanır. «Baş vermiş fakt» prinsipinə əsaslanır. Belə hesab edirlər ki, yalnız xarici dəstək sayəsində hərbi əməliyyatlarda əldə etdikləri müvəqqəti üstünlük onlara Dağlıq Qarabağ ərazisini Azərbaycandan ayırmaq və Ermənistana birləşdirmək barədə düşünmək hüququ verir. Bu, baş tutmayacaqdır. Ona görə də Ermənistan rəhbərliyi aydın başa düşməlidir ki, Azərbaycan ərazi bütövlüyü məsələsi ilə bağlı hər hansı güzəştə getməyəcəkdir.

Biz nə edə biləriksə, bunu təklif etmişik. Bu da ondan ibarətdir ki, Dağlıq Qarabağdakı ermənilərə və Dağlıq Qarabağa qayıdacaq azərbaycanlılara – Dağlıq Qarabağda azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirilməzdən əvvəl yerli əhalinin ən azı 30 faizini azərbaycanlılar təşkil edirdi – dünyada mövcud olan yüksək səviyyəli muxtariyyət statusu verilsin. Dünyada muxtariyyətlə bağlı müsbət təcrübə mövcuddur. Məlumdur ki, dünyanın, xüsusilə Avropanın bir çox ölkələrində milli azlıqlar, muxtariyyətlər vardır. Az-

lıq olmaq o demək deyil ki, o, başqa bir dövlətin ərazisini qopararaq burada digər dövlət yarada bilər. Xüsusən nəzərə alsaq ki, dünyanın bir çox ölkələrində ermənilər yaşayır, təsəvvür edin, onlar yaşadıqları hər bir ölkədə müstəqillik tələb etsələr, nələr baş verə bilər?! Bu bizim konstruktiv mövqeyimizdir. Bizim edə biləcəyimiz maksimum budur. Bir daha demək istəyirəm ki, bu mövqe beynəlxalq hüquq və davranış normalarına əsaslanır.

Danışıqlar uğursuzluğa məruz qalacağı təqdirdə, nəyin baş verəcəyini əvvəlcədən demək çətindir. Hər halda, əgər danışıqların bu raundu bir nəticə verməsə, onda Azərbaycan mütləq öz strategiyası, taktikası və davranışını yenidən nəzərdən keçirəcəkdir.

**R a f a e l  M o r e n o** ***(İspaniyanın «El Correo» qəzeti):*** **Xəzərdən enerji ehtiyatlarının Avropaya göndərilməsi üçün Gürcüstan vasitəsilə Ukraynaya boru kəməri çəkilməsi layihəsi varmı? Bütün kütləvi informasiya vasitələrində deyilir ki, belə imkan mövcuddur. Belə bir layihə realdırmı? Bununla əlaqədar daha bir sual: Rusiya ilə Gürcüstan arasında indiki münasibətlər hansısa şəkildə bu layihə ilə bağlı ola bilərmi?**

**İ l h a m  Ə l i y e v:** Neft üçün bizim artıq üç boru kəmərimiz var. Onların ikisi nefti Qara dənizə, biri isə Aralıq dənizinə nəql edir. Ona görə də yaxın perspektivdə neftin nəqli üçün daha bir boru kəmərinə ehtiyac yoxdur. Çünki neft bütün bazarlara – Avropa və dünya bazarlarına gedir. Əgər söhbət qaz kəmərindən gedirsə, o, artıq ilin sonunadək tikilib başa çatdırılacaqdır. Beləliklə, Azərbaycan qazı Gürcüstan ərazisi ilə Türkiyə bazarına nəql ediləcək, oradan isə digər bazarlara göndəriləcəkdir. Orada artıq bu qazı qəbul edə biləcək qaz nəqletmə sistemi – Avropa sistemi var. Odur ki, yeni boru kəmərlərinin tikintisi məsələsi, zənnimcə, yaxın vaxtlarda qalxmayacaqdır. Azərbaycanın maraq göstərdiyi boru kəməri sistemləri – Avropa qaz kəmərləri, neft kəmərləri mövcuddur. Məsələn, Ukrayna və Qara dəniz hövzəsinin digər ölkələri – Bolqarıstan, Rumıniya ilə əməkdaşlığımız

var. Bu əməkdaşlıq mövcuddur. Bu mənada mövcud boru kəməri sisteminin potensialından istifadə etmək olar.

**M a n f r e d  F r i n k** ***(«Die welt» qəzeti, Almaniya):*** **Neftin sayəsində büdcəniz artır, özü də böyük həcmdə. Buna baxmayaraq, sizdə çoxlu kasıb var, səhv etmirəmsə, 28 faiz təşkil edir. Siz bu fərqi necə və nə vaxt aradan qaldıracaqsınız? İcazənizlə, ikinci sual: keçən il parlament seçkilərindən sonra Avropa təşkilatları seçkilər zamanı və azad mətbuata münasibətdə Avropa normalarının pozulmasına görə Sizin hökuməti tənqid etdilər. Bu vəziyyəti, seçki prosedularını dəyişmək niyyətiniz varmı?**

**İ l h a m  Ə l i y e v:** Yoxsulluğun azaldılması proqramı var və Azərbaycan onu iri beynəlxalq maliyyə təşkilatları ilə birlikdə həyata keçirir. Bu proqram uğurla gerçəkləşdirilir. Cari ilin əvvəlinə, yanvar ayına yoxsulluğun səviyyəsi, dediyiniz kimi, 28-29 faiz olmuşdur. Lakin 2005-ci ilin yanvarına 49 faiz idi. Yəni, bir ildə Azərbaycanda yoxsulların sayı 20 faiz azalmışdır. Biz 2006-cı ilin nəticələrini gözləyirik. İlkin hesablamalara görə, yoxsulların sayı yenə də çox kəskin surətdə azalacaqdır. Qarşıya qoyduğumuz vəzifələrdən biri Azərbaycanda, ümumiyyətlə, yoxsulluğu qısa müddətdə ləğv etməkdir. Bunun üçün regional inkişaf proqramını həyata keçiririk. Son üç ildə Azərbaycanda təxminən 500 min yeni iş yeri yaradılmışdır. Əmək haqları, pensiyalar müntəzəm olaraq qaldırılır. İnfrastruktura çox böyük sərmayə qoyulur, yeni hava limanları, elektrik stansiyaları tikilir, yollar çəkilir, su təchizatı, qaz təchizatı yaxşılaşır, sosial infrastruktur inkişaf edir. Son iki ildə 600 məktəb tikilmişdir, hazırda regionlarda eyni vaxtda 10 müasir xəstəxana inşa edilir. Yəni, bütün bu tədbirlər yoxsulluğun nəinki azalmasına, ümumiyyətlə, ləğv olunmasına, eyni zamanda, işsizliyin də aradan qaldırılmasına kömək edəcəkdir. İnkişaf etmiş hər hansı digər ölkədəki kimi, işsizlər yalnız o kəslər olacaqlar ki, onlar işləmək istəmirlər. Təəssüf ki, beləlləri Avropada da var.

Bu proqramlar tamamilə realdır, maliyyə ehtiyatları ilə möhkəmləndirilmişdir. Siz qeyd etdiniz ki, bizim maliyyə və-

ziyyətimiz yaxşılaşır. Son 3-4 ildə Azərbaycanın büdcəsi 4 dəfədən çox artmışdır, özü də təkcə neftin hesabına yox. Biz böyük həcmdə neft çıxarmağa yalnız bu yaxınlarda başlamışıq. Yəqin bilirsiniz ki, yeni yataqlardan çıxarılan bütün neftdən əldə edilən gəlirlər Azərbaycan Neft Fonduna daxil olur. Neft Fondundan büdcəyə köçürmələr isə cəmi 500 milyon dollar məbləğində planlaşdırılır. Büdcəyə qalan mədaxillər, əsasən maliyyə intizamının möhkəmləndirilməsi, ictimai nəzarətin gücləndirilməsi və çox fəal iqtisadi islahatlar aparılması hesabına olur.

Azərbaycanda siyasi islahatlar da çox səmərəli və iqtisadi islahatlarla paralel surətdə həyata keçirilir. Mən qəti əminəm ki, çoxlu sayda yoxsul və işsizlər olan ölkədə sizin Qərbi Avropada öyrəşdiyiniz kimi, demokratik cəmiyyət qurmaq mümkün deyildir. Ona görə də yoxsulluğun azaldılması, əhalinin rifahının yaxşılaşdırılması, insanları narahat edən sosial məsələlərin həlli – bütün bunlar daha açıq cəmiyyət qurulmasına, demokratiyanın inkişafına, yəni bizim nail olmağa çalışdığımız məqsədlərə doğru aparır. Məqsədimiz isə aydındır – biz güclü, iqtisadi cəhətdən müstəqil, siyasi cəhətdən azad, Avropa qurumlarına inteqrasiya edilmiş dövlət qurmaq istəyirik. Ona görə də bütün inteqrasiya proseslərində fəal iştirak edirik. İndi biz Avropa İttifaqının qonşuluq proqramına qoşuluruq. Bu, beşillik proqramdır və o cümlədən Azərbaycanda siyasi sistemin möhkəmlənməsi üçün çox böyük əhəmiyyətə malikdir.

O ki qaldı keçən ilin parlament seçkiləri barədə sualınıza, deməliyəm ki, onun gedişini müxtəlif təşkilatlardan olan çox böyük sayda müşahidəçilər izləyirdilər. Təəssüf ki, onların bir qismi siyasi cəhətdən sifarişli idi və öz qiymətlərində real vəziyyəti deyil, müəyyən dairələrin siyasi iddialarını əks etdirirdilər. Eyni zamanda, parlament seçkilərini iri təşkilatlar da müşahidə edirdi, «exit-poll» keçirmişdilər. Bu təşkilatları biz yox, Amerika hökuməti seçmişdi. Sizə deyim ki, «exit-poll»un nəticələri ilə parlament seçkilərinin nəticələri 90 faiz üst-üstə düşmüşdür. «Exit-poll»un nəticələrinin 10 faizinin

rəsmi nəticələrlə uyğun olmadığı yerlərdə seçkilərin yekunlarını ləğv etdik. Biz 10 dairədə seçkilərin nəticələrini ləğv etdik. Bu dairələrdə təkrar seçkilər keçirildi, onlarda yenə də Amerika hökumətinin seçdiyi təşkilat tərəfindən «exit-poll» aparıldı. Təkrar seçkilərdə «exit-poll»un nəticələri ilə rəsmi nəticələr 100 faiz üst-üstə düşdü. Zənnimcə bu, ən parlaq sübutdur ki, parlament seçkiləri Azərbaycan cəmiyyətinin əhval-ruhiyyəsini tamamilə əks etdirmişdir. Pozuntuların olması başqa məsələdir və onlara görə iqtidar məsuliyyət daşımır. 125 yerə 2 min namizəd vardı. Bu, Azərbaycan üçün görünməmiş rəqəm idi. Əlbəttə, bir çox namizədlərin özləri qanunvericiliyi pozur, seçki prosesinə qarışır, seçiciləri pulla öz tərəfinə çəkir, çirkin təbliğat kampaniyası aparırdılar. Bunların hamısı olmuşdur. Lakin biz buna görə məsuliyyət daşımırıq. Hökumət kimi və dövlət kimi, biz bu seçkilərin demokratik, açıq keçməsi üçün hər şey etmişdik. Düşünürəm ki, biz buna nail olduq, hərçənd bizi məyus edən məqamlar da oldu. Biz obyektiv tənqidi qəbul edirik. Ancaq seçkilərin keçirilməsi məsələləri baxımından Azərbaycana qarşı olan və siyasi məqsədlər güdən hücumları qəbul etmirik.

**Frans-Press agentliyi: Mən Sizə İranın siyasəti ilə bağlı sual vermək istərdim. Azərbaycan ABŞ-ın İrana qarşı sanksiyalarını dəstəkləyəcəkmi və bu sanksiyaların ölkənizə təsiri necə olacaq?**

**İlham Əliyev:** İranın nüvə proqramı ilə bağlı narahatlıq doğuran bütün məsələlər danışıqlar yolu ilə həll olunmalıdır. Ümid edirəm ki, bu, regiondakı çox kövrək sabitliyin pozulmaması və məsələnin dincliklə nizamlanmasına nail olmaq üçün yeganə yoldur.

Məsələn, biz Azərbaycanda Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına birbaşa cəlb edilmiş beynəlxalq təşkilatlardan, o cümlədən Cənubi Qafqazda sülhün bərqərar olunmasında maraqlı olanlardan daim eşidirik ki, münaqişə dinc yolla həll edilməlidir. Ərazimizin on ildən artıq bir müddətdə işğal altında olmasına, Ermənistan tərəfindən həyata keçirilmiş etnik təmizləmə nəticəsində bir milyondan artıq soy-

daşımızın evsiz-eşiksiz qalmasına baxmayaraq, biz münaqişəni dinc yolla nizamlamağa çalışırıq. Siz onların yaşadıqları köhnə çadır düşərgələrinə və onlar üçün inşa etdiyimiz yeni qəsəbəyə baş çəkmisiniz. Tezliklə çadır düşərgələri tamamilə ləğv olunacaqdır.

Biz də nüvə proqramı ilə bağlı problemin həll edilməsi üçün beynəlxalq birliyin bütün imkanlarından istifadə etməsini gözləyirik. Sanksiyalara gəlincə, Azərbaycan bu sanksiyaları dəstəkləməyəcəkdir. Hesab edirik ki, belə sanksiyalar səmərə verməyəcəkdir. Onlar məsələnin həllinə aparıb çıxarmayacaq, yalnız regiondakı vəziyyəti daha da gərginləşdirəcəkdir. Bizim İranla yaxşı münasibətlərimiz var, uzun, min kilometrdən artıq sərhədimiz var. Fəal ticarət əlaqələrimiz mövcuddur. Buna görə də biz çox narahatıq ki, vəziyyəti gərginləşdirəcək istənilən potensial addım ümumən regional inkişafa böyük təsir göstərə bilər.

**Robert Baaq** ***(Almaniya radiosu)*****: Bildiyimiz kimi, Azərbaycan Türkiyəyə çox yaxındır. Fransanın «erməni soyqırımı»nın inkar edilməsini cinayət kimi nəzərdə tutan qanun layihəsi səbəbindən Fransa ilə Türkiyə arasında münasibətlər pisləşmişdir. Bu məsələ ilə bağlı Azərbaycanın rəsmi mövqeyi nədən ibarətdir?**

**İlham Əliyev:** Bizim rəsmi mövqeyimiz Xarici İşlər Nazirliyinin bəyanatında öz əksini tapmışdır. Burada açıq şəkildə bildirilmişdir ki, Azərbaycan bu qanunvericilik təşəbbüsünün irəli sürülməsi və səsvermənin keçirilməsindən çox narahatdır. Biz belə yanaşmanı rədd edirik. Eyni zamanda, bu məsələ ilə bağlı parlamentimiz tərəfindən də oxşar bəyanat verilmişdir. Biz Fransa rəsmilərindən Fransa hökumətinin bu qanun layihəsini dəstəkləmədiyini eşitməyimizdən məmnunuq. Bu mövqe Fransa Xarici İşlər nazirinin Azərbaycanın Xarici İşlər naziri ilə bu yaxınlarda Parisdə keçirilən görüşündə də ifadə olunmuşdur. Eyni zamanda, bu mövqe Fransanın Bakıdakı səfirliyi tərəfindən də bildirilmişdir. Biz Fransa parlamentinin üzvləri ilə deyil, Fransa hökuməti ilə işləyirik və bizim üçün Fransa hökuməti tərəfindən ifadə

olunmuş mövqe qənaətbəxşdir. Biz ümidvarıq ki, Fransa tarixin saxtalaşdırılmasına əsaslanmış bu antidemokratik layihənin qanun kimi təsdiqlənməsinə imkan verməyəcəkdir. Çünki Fransa parlamentində baş verənlər fikir, söz azadlığının, demokratiyanın və demokratiyanın əsas prinsiplərinin kobud surətdə pozulmasıdır. Bu layihənin lehinə səs vermiş parlament üzvləri üçün gələcəkdə demokratiya haqqında danışmaq və digər ölkələri demokratik olmağa öyrətmək çox çətin olacaqdır.

Biz belə qanunvericilik aktını pisləyirik. Hesab edirik ki, əvvəla, bunun reallıqla heç bir əlaqəsi yoxdur. Qondarma «soyqırımı» ermənilərin və erməni lobbisinin uydurmasıdır. Onlar bundan Azərbaycana qarşı təcavüzlərinə bəraət qazandırmaq, özlərini qurban, «hücumlardan» əziyyət çəkmişlər kimi təqdim etmək üçün istifadə edirlər. Buna görə də belə hesab edirlər ki, hazırda azərbaycanlılara qarşı bu cür əməlləri törətmək hüquqları vardır. Xocalıda soyqırımı törədənlər məhz ermənilər olmuşlar. Ermənistanın silahlı qüvvələri tərəfindən Azərbaycanın Xocalı şəhərində 600-dən çox insan – uşaq, yaşlı adamlar, o cümlədən qadınlar qətlə yetirilmişdir. Biz eyni zamanda, Türkiyə hökumətinin Ermənistana təklif etdiyi müzakirələrin başlanması və arxivlərin açılması təklifini dəstəkləyirik.

**F r e d   V i r (*«Christian Svience Monitor»*): Azərbaycana tez-tez terrorçuluğa qarşı mübarizədə ABŞ-ın müttəfiqi kimi istinad edilir. Bilmək istəyirəm, İraqda davam edən müharibə baxımından ABŞ-a yardım etmək üçün Azərbaycanın atacağı addımlar hansılar olacaqdır?**

**İ l h a m   Ə l i y e v:** Bizim müxtəlif sahələrdə ABŞ-la çox möhkəm tərəfdaşlıq əlaqələrimiz var. Bunlardan biri antiterror əməliyyatlarıdır. Biz Əfqanıstandakı koalisiya qüvvələrinə dərhal qoşulduq, Kosovoya əsgərlərimizi göndərdik. İraqda müharibə başlayanda biz oraya əsgərlərini göndərən ilk ölkələrdən biri olmuşuq. Yeri gəlmişkən, yalnız bundan sonra, Azərbaycanın İraqa öz əsgərlərini göndərməsindən bir ildən artıq vaxt keçəndən sonra, Ermənistan da geridə

qalmamaq üçün öz əsgərlərini deyil, sürücülərini oraya göndərdi.

Bu bizim ABŞ ilə möhkəm tərəfdaşlığımızın aydın göstəricisi oldu. Biz terrorizmə qarşı mübarizədə əməkdaşlıq edirik. Bu əməkdaşlıq çox əhəmiyyətlidir, onun artıq yaxşı tarixçəsi və hesab edirəm ki, yaxşı gələcəyi vardır. Dediyim kimi, ABŞ ilə enerji, regional inkişaf və antiterror əməliyyatları kimi müxtəlif sahələrdə yaxşı əlaqələrimiz mövcuddur. Biz hesab edirik ki, bu münasibətlərin tarixi Azərbaycanın etibarlı tərəfdaş olduğunu sübut edir.

**D e v i d   N a u e r (*İsveçrənin «Tages Anzeiger Zürich» qəzeti*): Rusiya ilə Gürcüstan arasındakı qarşıdurma sizin hər iki ölkə ilə münasibətlərinizə necə təsir göstərmişdir?**

**İ l h a m   Ə l i y e v:** Təsir göstərməmişdir və hesab edirəm ki, göstərməyəcəkdir. Belə ki, istər Rusiya, istərsə də Gürcüstan ilə münasibətlərimiz özünəməxsus əhəmiyyətə malikdir. Hər iki ölkə bizim qonşumuzdur. Hər iki ölkə ilə çox yaxşı münasibətlərimiz var və bu münasibətlər strateji tərəfdaşlıq xarakteri daşıyır. Buna görə də Rusiya ilə Gürcüstan arasında baş verənlər münasibətlərimizə təsir göstərməyibdir. Biz xarici siyasətimizi prioritetlərimiz və xalqımızın maraqları əsasında həyata keçiririk. Heç bir ölkənin daxili işlərinə qarışmırıq, digər dövlətlər arasında olan münasibətlərə müdaxilə etmirik. Hesab edirəm ki, bütün ölkələr diqqətlərini öz problemləri üzərində cəmləşdirsələr, dünya daha təhlükəsiz olar, daha proqnozlaşdırıla bilən olar. Biz dostlarımızı bir-birinə dost kimi görmək istərdik.

**C e y m s   K i l n e r (*Röyter agentliyi*): İki qısa sualla Sizə müraciət etmək istərdim. Siz bildirdiniz ki, həm İran, həm də ABŞ ilə yaxşı münasibətləriniz var. Mənim üçün bilmək maraqlıdır, Siz bu münasibətləri necə tarazlaşdırırsınız?**

**İkinci sualım iqtisadiyyatla bağlıdır. Azərbaycan iqtisadi artıma görə dünyanın ən sürətlə inkişaf edən ölkələrindən biridir. Siz 20–25 ildən sonra neft gəlirlərinin çox yüksək səviyyədə olacağı təqdirdə, iqtisadiyyatın hansı digər sahələrini inkişaf etdirməyi planlaşdırırsınız?**

**İ l h a m  Ə l i y e v:** Hesab edirəm ki, başqa ölkələrlə əlaqələrimizə dair birinci sualınıza artıq mən cavab vermişəm. Azərbaycan digər ölkələrin qarşıdurma, rəqabət aparacağı yer deyildir. Biz açıq şəkildə bildirmişik ki, Azərbaycanın əməkdaşlıq məkanı olmaqda davam etməsini istəyirik. Ölkələrin bir-biri ilə yaxşı və ya pis münasibətləri ola bilər. Nə üçün Azərbaycan öz siyasətini bəzi ölkələrin əməkdaşlıq etmək istəməməsi faktı üzərində qurmalıdır? Bunun bizə heç bir təsiri yoxdur. Artıq qeyd etdiyim kimi, ABŞ ilə yaxşı münasibətlərimiz var. Bu əməkdaşlığın bir çox nümunələri mövcuddur. Eyni zamanda, bizim İranla da yaxşı münasibətlərimiz var. Bizim siyasətimizdə bu iki element bir-birinə qarşı durmur. Ola bilsin ki, bir gün siyasətimizin bu elementləri regionda daha dinc mühitin yaradılması üçün böyük əhəmiyyətə malik olacaqdır. Azərbaycanın xarici siyasəti müdrik, çox proqnozlaşdırılan və açıqdır.

Neft gəlirlərinə gəlincə deyərdim ki, Azərbaycan 1994-cü ildən həyata keçirilən layihələrdən yalnız keçən ildən etibarən əhəmiyyətli dərəcədə neft gəlirləri əldə etməyə başlamışdır. Əlbəttə, hazırda bütün enerji layihələrimiz reallığa çevrilir. Bakı–Tbilisi–Ceyhan Azərbaycanın tarixi nailiyyətidir. Bakı–Tbilisi–Ərzurum qaz kəməri də ölkəmizin və ümumiyyətlə, regionun inkişafı üçün böyük əhəmiyyət kəsb edir. Biz qarşıdan gələn illərdə ölkəyə nəhəng neft gəlirlərinin axını ərəfəsindəyik. Əlbəttə, biz 50–70 ildən sonra, neftin hasilatı aşağı düşdükdən sonra nələrin baş verəcəyi barədə indidən düşünürük. Biz bu nadir imkandan istifadə etməliyik.

Hazırda biz, əsasən təhsil və elm sahəsinə investisiya qoyuruq. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, bu və ya digər ölkənin uğurunu irəlicədən müəyyən edən neft və ya qaz deyil, beyin və texnologiyalardır. Biz müasir Azərbaycan naminə güclü intellektual potensialın yaradılması məqsədi ilə və eyni zamanda, gənclərin dünyada baş verənlərdən xəbərdar olması üçün gələcək nəsillərə, informasiya texnologiyalarına, iqtisadiyyatın qeyri-neft sektoruna sərmayə qoyuruq. Biz Azərbaycandakı bütün məktəblərin kompüterləşdirilməsi

proqramının həyata keçirilməsinə başlamışıq. Gələn ilin sonuna kimi Azərbaycandakı bütün 4500 məktəb, o cümlədən ən ucqar yerlərdəki məktəblər kompüterlər və internetə çıxışla təmin olunacaqdır. Biz bunu nə üçün edirik? Ona görə edirik ki, gənclərimiz beynəlxalq ictimaiyyətin və dünya iqtisadiyyatının bir hissəsinə çevrilsin.

Digər proqram sənayenin inkişafı ilə bağlıdır. Biz hazırda qeyri-neft sektoruna investisiyaların cəlb edilməsi üzərində işləyirik. Xaricdən və Azərbaycandan qeyri-neft sektoruna sərmayələrin cəlb edilməsi məqsədi ilə kapitalı 100 milyon ABŞ dolları təşkil edən Dövlət İnvestisiya Şirkəti yaratmışıq. Biz bunu neftin tükəndiyi zaman güclü iqtisadiyyata nail olmaq və gələn 5–10 il müddətində neft qiymətlərindən asılılığı minimum həddə endirmək məqsədi ilə edirik. Hesab edirəm ki, bu mümkündür. Əgər biz möhkəm çalışsaq – biz bunu edirik – hazırda gündəlikdə olan bütün layihələri həyata keçirsək iqtisadiyyatımız 5–10 ildən sonra neftdən asılı olmayacaq və Azərbaycan bu regionun mühüm sənaye mərkəzinə çevriləcəkdir.

**«E L  C o r r e o»  q ə z e t i (*İspaniya*): Əgər, ümumiyyətlə, ölkənin belə arzusu varsa, Azərbaycanın NATO-ya daxil olması mümkünlüyünün perspektivləri necədir?**

**İ l h a m  Ə l i y e v:** Bilirsiniz, bu məsələ təkcə bizdən asılı deyildir. Bu, ikitərəfli prosesdir. Təşkilatlar ölkənin daxil olmasını istəməlidir. Bunu ölkə də istəməlidir və buna hazır olmalıdır. Biz NATO ilə dialoq çərçivəsində də, «Sülh naminə tərəfdaşlıq proqramı» çərçivəsində də çox fəal əməkdaşlıq edirik. İki il əvvəl yeni formata keçmişik. Bu, NATO ilə «Fərdi tərəfdaşlığın fəaliyyət planı»dır. Qeyd etdiyim kimi, NATO qoşunları ilə birlikdə sülhyaratma əməliyyatları aparırıq. Əməkdaşlığımız çox səmərəli şəkildə inkişaf edir. Biz bundan çox məmnunuq. Bu əməkdaşlığın haraya aparıb çıxaracağını, onun son mərhələsinin nədən ibarət olacağını zaman və vəziyyətin inkişafı göstərəcəkdir.

**A d e l  S m i s (*İsveçrənin «Roman» radiosu*): Beynəlxalq Sərhədsiz Reportyorlar Təşkilatının bu yaxınlarda mətbuat**

**azadlığı ilə bağlı dərc etdiyi hesabatında Azərbaycan 134-cü yerdədir. Belə görünür ki, bu, yerli jurnalistlərin təqiblər, qorxutma və yüksək dərəcədə korrupsiya ilə bağlı bir sıra şikayətləri ilə əlaqədardır. Sizcə, ölkənizdə mətbuat azadlığının yaxşılaşdırılması üçün imkanlar varmı və bunun üçün hansı tədbirlər görülür?**

**İ l h a m Ə l i y e v:** Əlbəttə ki, yaxşılaşma üçün imkanlar var. Lakin Azərbaycana və ya hər hansı digər ölkəyə gəldikdə, şəxsən mən bu cür reytinqlərə böyük şübhə ilə yanaşıram. Hesab edirəm ki, belə reytinqlər ölkədəki real vəziyyəti əks etdirmir, bəzən şəxsi yanaşmaya və ya istənilən digər səbəblərə əsaslanır. Çünki demokratiya sahəsində aparıcı hesab olunan dövlətlərin bəziləri bu siyahının ortasında, üçüncü dünya ölkələrindən kifayət qədər aşağıdadır. Bu o qədər də inandırıcı görünmür. Səmimi deyim ki, belə reytinqlər gündəlik həyatımızda və ya Azərbaycandakı siyasi proseslərdə o qədər də əhəmiyyətli rol oynamır. Dövlət başçısı kimi, mən də ona heç bir fikir vermirəm. Bununla yanaşı, əlbəttə ki, vəziyyəti daha da yaxşılaşdırmaq üçün imkanlar var. Azərbaycanın müstəqillik tarixi qısadır. Yalnız 15 ildir ki, biz müstəqil dövlət kimi yaşayırıq. 15 il bundan qabaq ölkəmiz Sovet İttifaqının bir hissəsi idi və siz bunun nə olduğunu başa düşürsünüz. Biz müstəqillik qazandıqdan sonra ilk illər iqtisadiyyatın və siyasi sistemin tam tənəzzülü ilə müşayiət olunmuşdur. Yeri gəlmişkən, bu gün özlərini demokratik müxalifət adlandıranlar o vaxt qəzetləri bağlayır, jurnalistlərə hədə-qorxu gəlir, onları həbs edirdilər. 1992–93-cü illərdə müxalifətdə olan partiyamızın nümayəndələri hədə-qorxuya məruz qalır, qəddar şəkildə döyülürdülər. Bütün bunlar bu gün özlərini demokrat adlandıran şəxslər tərəfindən edilmişdir.

Sonrakı dövrlərdə yenə böyük çətinliklər oldu. Yalnız 1996-cı ilin axırı – 1997-ci ildən başlayaraq vəziyyət sabitləşdi və ölkə sürətlə inkişaf etməyə başladı. Hesab edirəm ki, Azərbaycanda azad mətbuatın təşviqi üçün bir çox işlər görülmüşdür. Azərbaycanda 500-dən artıq qəzet, bir çox televiziya kanalları, radio stansiyaları fəaliyyət göstərir. Senzura

yoxdur. Yeri gəlmişkən, Azərbaycanda senzura 1992–93-cü illərdə hakimiyyətdə olan bugünkü müxalifət tərəfindən tətbiq edilmişdir. Azərbaycanda senzura Xalq Cəbhəsi hökuməti tərəfindən tətbiq olunmuşdur. Onlar bunu unutmağa çalışırlar, lakin insanların yadından çıxmır.

Bir sözlə, ölkəmizdə söz və mətbuat azadlığı var. İstədiyiniz qəzeti açsanız burada hökumət, ayrı-ayrı insanlar barəsində xoşagəlməz, təhqiredici məqalələr görə bilərsiniz. Müxalifət qəzetlərində daha çox hücumlara məruz qalmağıma baxmayaraq, prezident seçilən zaman bütün hökumət rəsmilərinə müraciət edərək, jurnalistləri onların yazdıqları yanlış məlumatlara və etdikləri təhqirlərə görə məhkəməyə verməməyə çağırdım. Bunu mən etdim, heç kim məni buna məcbur etmədi. Hesab etdim ki, bu, ölkənin demokratik inkişafı üçün vacib addımdır. Lakin təəssüf ki, bunun müqabilində gözlədiyimiz olmadı. Bu müraciət təsirsiz qaldı. Jurnalistlərin bir qismi, az bir hissəsi dərhal belə qərara gəldi, indi onlar heç bir məsuliyyət daşımadan və azərbaycanlıların mentalitetinə diqqət vermədən istədiklərini edə bilərlər. Buna görə də insanlar hər bir demokratik ölkədə olduğu kimi, özlərini məhkəmələrdə müdafiə etməyə başladılar. Buna heç də azad mətbuata təzyiq və ya onu bağlamaq cəhdi kimi baxılmamalıdır. Əsla yox! Azad mətbuat normal inkişafın əsas elementlərindən biridir.

Bir daha qeyd edirəm ki, bizə lazım olan çoxşaxəli inkişafa nail olmaq üçün yaxşı iqtisadi göstəricilərimiz var. Siyasi islahatlar da iqtisadi islahatlarla paralel aparılır. Yalnız bu halda biz uğur qazana bilərik.

**N i v  V a r t e r («*Russian today*»): Ermənistan və Rusiya arasındakı tarixi əlaqələri və mədəni bağlılığı və habelə Çeçenistandan qaçqınların Azərbaycana axınını nəzərə alsaq, belə hesab etmirsiniz ki, Moskva Dağlıq Qarabağ münaqişəsinin və ölkənizin qaçqınlar probleminin həllinə maneçilik törədir?**

**İ l h a m  Ə l i y e v:** Rusiya Azərbaycanın qonşusudur. Yeri gəlmişkən deyim ki, o, Ermənistanın qonşusu deyil və onunla sərhədi yoxdur. Rusiya münaqişənin həllinin tapıl-

masına yardım etmək mandatına malik olan ATƏT-in Minsk qrupunun üç həmsədr ölkəsindən biridir. Mən sizə deyə bilərəm ki, Rusiya rəsmiləri ilə iş təcrübəmiz və onların bu münaqişənin həlli ilə bağlı apardıqları siyasət müsbətdir. Biz görürük ki, Rusiya hökuməti Ermənistan və Azərbaycanın münaqişənin dinc yolla həllinə nail olmaları üçün səmimi səylər göstərir. Buna görə də 90-cı illərdə üzləşdiyimiz gərginlik dövrü sona çatmışdır. Biz Rusiya ilə Azərbaycan arasında həll edilməmiş bütün problemlərin aradan qaldırılmasına nail olmuşuq və indi münasibətlərimizi poza biləcək heç bir problem qalmamışdır. Əksinə, iqtisadi, siyasi və mədəni inkişaf sahələrində çox yaxşı nailiyyətlərimiz var.

Bu il Azərbaycanda Rusiya İlidir və o, başa çatmaq üzrədir. Ötən il Rusiyada Azərbaycan İli olmuşdur. Mən artıq bu məsələyə toxunmuşam, başqa dövlətlər arasındakı münasibətlər, onların tarixi və digər əlaqələri bizim aramızda olan münasibətlərə mane olmamalıdır.

Siz qeyd etdiniz ki, Rusiya ilə Ermənistan arasında yaxşı münasibətlər var. Bəli, bu doğrudur. Lakin mən hesab etmirəm ki, bu, Rusiyanın, Ermənistanla olduğu kimi, Azərbaycanla da yaxşı münasibətlərə malik olmasına mane olur. Hazırda biz bunun şahidi də oluruq. Əgər biz Ermənistan və Azərbaycanın vacibliyini müqayisə etsək, onda hansı ölkənin vacib olduğunu görərik. Əməkdaşlıq, enerji, coğrafi mövqe, siyasi vəziyyət, geosiyasi mövqe baxımından və istənilən digər nöqteyi-nəzərdən Ermənistan ilə Azərbaycanın əhəmiyyətini, əlbəttə ki, müqayisə etmək olmaz. Ona görə də bu, əlavə gərginlik yarada bilən bir element sayıla bilməz.

Qaçqınlara gəlincə, deməliyəm ki, Azərbaycan təcavüz qurbanıdır. Qaçqın həyatının nə olduğunu biz bilirik. Çeçenistandan insanlar özlərinin və ailələrinin həyatlarını müharibədən xilas etmək üçün Azərbaycana gələndə bir qonşu və dost kimi, ölkəmiz ehtiyacı olan insanlar üçün öz qapılarını açdı. Burada, Qafqazda belə qəbul olunubdur.

**B o r i s  A n z o v: Salaməleyküm. Mən Bolqarıstan informasiya agentliyinin müxbiriyəm. Səmimi qəbula görə sizin**

**mətbuat xidmətinizə minnətdarlığımı bildirirəm. Mən həm də Rusiya Xalqlar Dostluğu Universitetinin məzunuyam. Bilirəm ki, Siz Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu bitirmisiniz. Dünən İqtisadiyyat naziri ilə görüşdə naziriniz dedi ki, respublikada gənclərlə bağlı xüsusi Dövlət Proqramı var. Bu yaxınlarda Rusiya Xalqlar Dostluğu Universitetində sizin adamların gənclərlə necə işlədiyini gördüm. Həqiqətən, bu, böyük işdir. Biz iki gündür buradayıq və mən Sizin siyasətinizlə bağlı sosioloji sorğu aparmışam. Deyə bilərəm ki, Sizin ünvanınıza bir dəfə də olsun pis fikrə, yaxud tənqidə rast gəlmədim. Hamı deyir ki, Azərbaycanda bütün işlər Sizin köməyiniz sayəsində görülür. Mənim Sizə bir sualım var. Siz Bolqarıstanla Azərbaycanın qarşılıqlı münasibətlərini necə görürsünüz?**

**İ l h a m  Ə l i y e v:** Şərhinizə görə təşəkkür edirəm. Biz həqiqətən də çalışırıq ki, insanların həyatı yaxşılaşsın. Prezident kimi, mənim başlıca vəzifəm insanlara xidmət etməkdir. Ola bilsin, bu çox təmtəraqlı səslənir, lakin həqiqətən belədir. Azərbaycanda görülən bütün işlər insanların daha firavan yaşamasına, iqtisadi durumun yaxşılaşmasına, Azərbaycanın mövqeyinin dünyada və regionda möhkəmlənməsinə xidmət edir. Artıq bu gün həmin mövqelər həlledicidir. Biz istəyirik ki, qanunun aliliyinin hökm sürdüyü, adət və ənənələrimizə çox güclü şəkildə bağlı olan, əməkdaşlıq üçün açıq olan müasir dövlət yaradaq.

Bolqarıstanla münasibətlərimizə gəldikdə isə deməliyəm ki, bu, kifayət qədər yüksək səviyyədədir, bizim çox fəal dialoqumuz var. Ötən il Bolqarıstan prezidenti Azərbaycana rəsmi səfərə gəlmişdi, bu il isə mən Bolqarıstanda rəsmi səfərdə olmuşam, biz çoxlu ikitərəfli sazişlər imzalamışıq. Biz regional formatda çox fəal əməkdaşlıq edirik. Bolqarıstanın Avropa İttifaqının üzvünə çevriləcəyi bir vaxtda biz Azərbaycanın Avropaya inteqrasiyasının bundan sonra da dəstəklənəcəyinə ümid bəsləyirik. Biz güclü Mərkəzi Asiya–Qafqaz–Qara dəniz hövzəsi qurşağı yaradılması kimi iri regional geosiyasi təşəbbüslər üzərində birgə işləyirik. Bunun üçün

ikitərəfli səviyyədə yaxşı perspektivlər var. İndiki halda Azərbaycan çoxtərəfli xarakter daşıyan bir çox təşəbbüslər irəli sürmüşdür. Zənnimcə, bu, etimadın möhkəmlənməsinə, regionun, ölkələrin inkişafına kömək göstərəcəkdir. Məsələn, nəqliyyat məsələsi. Asiya ilə Avropa arasında nəqliyyat əlaqəsindən danışarkən Azərbaycandan yan keçmək olmaz, coğrafiya da buna imkan vermir, üstəlik, biz güclü nəqliyyat infrastrukturu yaradırıq və artıq nəqliyyat mərkəzinə çevrilmişik. Ona görə də həm bu baxımdan, həm ikitərəfli münasibətlər, həm də Avropa İttifaqı–Azərbaycan münasibətləri baxımından Bolqarıstanla əlaqələrimiz çox müsbətdir. Bundan əlavə, sizin ölkəyə səfərimdən çox məmnun qalmışam. Çox əla və gözəl ölkədir, xalqınız mehriban və qonaqpərvərdir. Mən Bolqarıstanda özümü evdəki kimi hiss edirdim. Ona görə də bütün bolqar dostlarıma mənim ən yaxşı arzularımı çatdırmağınızı xahiş edirəm.

**T o t  P r i i n s (*Bloomberq agentliyi*): Keçən həftə ölkənizin hərbi büdcəsi hökumətinizin diqqət mərkəzində olmuşdur. Gələn il hərbi büdcənizin bir milyard dollardan artıq olacağı gözlənilir. Bilmək istərdim ki, hansı dövlətlərdən hansı silahları alırsınız, əsgərlərinizə təlimi kim keçir?**

**İkinci sualım da var. Bəzi mətbuat orqanlarında hökumətinizin daxilində parçalanma barədə məqalələr dərc edilmişdir. Siz bu barədə nə deyə bilərsiniz?**

**İ l h a m  Ə l i y e v:** Nazirlər Kabinetinin son iclasında ilin ötən 9 ayının nəticələrini müzakirə etdik və bu nəticələr çox müsbətdir. Biz dünyada ən yüksək, 34-35 faizlik ümumi daxili məhsul artımına malikik. Dünyada ən yüksək, təqribən 40 faizlik sənaye istehsalı artımına və ola bilsin ki, ən sürətlə artan büdcəyə malikik. Ona görə də biz yalnız hərbi büdcəni ümumi kontekstdən çıxarmamalıyıq. Hərbi büdcə ümumi büdcənin bir hissəsidir. Üç il bundan əvvəl Azərbaycanın büdcəsi 1,5 milyard dollar olanda, əlbəttə ki, hərbi büdcə də aşağı səviyyədə idi. Nəzərə alsaq ki, gələn il Azərbaycanın büdcəsi təxminən 6,5 milyard dollar olacaq, bu halda, əlbəttə, hərbi büdcə də artır. Bu təbiidir. Çünki bütün

digər sahələr – təhsil, səhiyyə, infrastruktur sahələr üçün ayrılan xərclər də artır. Burada xüsusi heç bir şey yoxdur. Azərbaycanın yalnız hərbi büdcəsi artsaydı, bəzi təşkilatların narahatlığını başa düşərdim.

Lakin bununla yanaşı, biz müharibə vəziyyətindəyik və güclü olmalıyıq. Hazırda danışıqlar, sülh prosesi gedir. Ancaq eyni zamanda, uzaq və yaxın tarixdən anlayırıq ki, güclüsənsə, məqsədlərinə çatmaq üçün qüdrətin və qabiliyyətin varsa, danışıqlar prosesində mövqeyin də güclənməyə başlayır. Biz buna nail oluruq. Biz diplomatik formatda işləyirik, beynəlxalq təşkilatlarla işləyirik.

Keçən ilin yanvar ayında Avropa Şurası kimi təşkilat Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğalını pisləyən qətnamə qəbul etmişdir. Demək olar ki, onillik fasilədən sonra BMT yenidən bu məsələyə qayıtmışdır və biz postsovet məkanında dondurulmuş münaqişələrə dair məsələnin müzakirə olunması təşəbbüsü ilə çıxış etmişik.

Avropa İttifaqı ilə qonşuluq proqramında münaqişənin Azərbaycanın ərazi bütövlüyünə hörmət əsasında həll edilməsinə dair müddəa var və bu da çox vacibdir. Çünki Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımır. Birləşmiş Millətlər Təşkilatı tanıyır, Minsk qrupunun həmsədrləri – ABŞ, Rusiya, Fransa tanıyır, Avropa İttifaqı tanıyır, Ermənistan isə yox.

Eyni zamanda, biz İslam Konfransı Təşkilatı, müsəlman dünyası ilə də əməkdaşlıq edirik. Bu təşkilatın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi qətnamələr də çox müsbətdir. Bu, məsələnin diplomatik tərəfidir. Biz iqtisadi sahədə də fəaliyyət göstəririk. İqtisadi cəhətdən qüdrətlənirik. Ermənistan bu baxımdan bizimlə rəqabət apara bilməz. Vaxt ötdükcə, biz daha da güclü olacağıq, imkanlarımız daha da artacaqdır. Eyni zamanda, biz hərbi sahədə də çalışırıq. Bu təbiidir. Hər bir dövlət bunu edər. Ola bilsin, gündəliyimizin bu formatı çox genişdir. Lakin Dağlıq Qarabağ münaqişəsinin həlli bizim üçün bir nömrəli məsələdir. Bu münaqişədən başqa bizim heç bir böyük problemimiz yoxdur.

Mən artıq yoxsulluğun azaldılması, işsizlik probleminin həlli və digər məsələlərə toxundum. Lakin Dağlıq Qarabağ probleminə biz bir nömrəli problem kimi baxırıq. Biz bu münaqişənin beynəlxalq hüquq normaları əsasında həll edilməsi üçün zəruri olan bütün işləri görəcəyik.

Hökumətdə parçalanmaya dair qeyd etdiyiniz məqalələrə gəldikdə isə, deməliyəm ki, bütün bunlar jurnalistlərin uydurmasından başqa bir şey deyildir. Bəzən qəsdən belə yanlış məlumatlar yayılır. Bilirik ki, belə şayiələrin əsas mənbəyi müxalifət qəzetləridir. Bunun səbəbləri müəyyən mənada aydındır. Çünki bu gün Azərbaycanda gördüyümüz vəziyyət hökumətimizə qarşı özlərini müxalifət adlandırmağa çalışan həmin qüvvələrin tam iflası, onların tarixinin sonu deməkdir. Çünki onlar 13 ildir ki, müxalifətdədirlər və bu günə qədər xalqımız üçün cəlbedici ola biləcək heç bir ideya irəli sürməyiblər. Bu 13 il ərzində onların bütün fəaliyyəti hökumətin tənqid olunmasına əsaslanır. Lakin həmin 13 il ərzində hökumət böyük işlər görübdür. Biz boru kəmərləri tikmişik, yaşayış şəraitini yaxşılaşdırmışıq, müasir ölkə yaratmışıq, Avropa Şurası kimi beynəlxalq təşkilatların üzvü olmuşuq. Hazırda biz Avropa İttifaqının qonşusuna çevrilirik. Biz Birləşmiş Ştatların güclü tərəfdaşıyıq, Rusiya ilə yaxşı münasibətlərimiz və tərəfdaşlığımız var. Regionda öz mövqeyimizi tutmuşuq və iqtisadi baxımdan güclüyük. Bütün bunlar müxalifətin bizi tənqid etməyə çalışdığı həmin 13 ildə baş veribdir.

Bu gün xalq Azərbaycanda nəyin baş verdiyini, bizim gündəliyimizdə və onların gündəliyində nəyin olduğunu görür. Bundan əlavə, hər hansı siyasi qüvvə müəyyən bir nailiyyət əldə etməyə çalışdığı zaman, ilk növbədə, özünə və xalqa hörmət etməlidir. Onlar parlament seçkilərində yenidən uğursuzluğa düçar olduqda nə etdilər?! Öz qəzetlərində ABŞ-a hücum etməyə başladılar. Parlament seçkilərindən əvvəl onlar belə şayiələr yayırdılar ki, Qərb Azərbaycanda inqilab planlaşdırır. Təbii ki, bu, tam yanlış məlumat idi. Onlar hər zaman özlərini son dərəcə qərbyönümlü qüvvə kimi təqdim etməyə çalışırdılar. Parlament seçkiləri başa çatdıqdan və təbii

ki, heç bir dəstək almadıqdan dərhal sonra onlar Birləşmiş Ştatlara, Avropaya, Avropanın aparıcı ölkələrinə, Avropa təşkilatlarına hücuma keçməyə başladılar. Siz yalnız bunu təsəvvür edin ki, həmin insanlar hakimiyyətə gəlsələr, nələr baş verər?! Onların siyasəti nə ola bilər?! Onların Qərb dünyasına münasibəti necə ola bilər?! Əgər görsələr ki, gözləntilərindən bəziləri reallaşmır, onda arxalarını çevirəcəklər.

Bir sözlə, bu həmin yazıların əsas mənbəyidir. Onlar hesab edirlər ki, bizi zəiflətmək məqsədi ilə müxalifət üçün, belə desək, yeganə vasitə hökumətdə süni parçalanma yaratmağa çalışmaqdan ibarətdir. Bu da ki, düzgün deyil, hökumətimiz güclü və möhkəmdir. Bizim gücümüz xalqın dəstəyindədir. Buna görə də həmin şayiələr reallıqdan uzaqdır. Biz xalqın əksəriyyəti tərəfindən dəstəklənən çox möhkəm hökumət sisteminə malikik.

Bəzən Azərbaycanda baş verənləri tənqid edirlər. Mən beynəlxalq mətbuatı izləyirəm. Lakin eyni zamanda, biz görəndə ki, Azərbaycan xalqının tam əksəriyyəti bizi dəstəkləyir, bu o deməkdir ki, biz haqlıyıq, bizi tənqid edənlər isə yox. Bu, əsas nəticədir. Bizim üçün Azərbaycanın dünyada hansı şəkildə təqdim edilməsi, onun beynəlxalq nüfuzu və ölkəmizin imici olduqca vacibdir. Lakin səmimi olaraq deyirəm ki, Azərbaycanın ən ucqar kəndindəki vətəndaşın Azərbaycan və onun hökuməti haqqında nə düşünməsi, bir prezident kimi, mənim üçün ən vacib məsələdir. Çünki ölkənin necə olacağına və hökumətin fəaliyyətinin səmərəli olub-olmamasına qiymət verilməsini məhz o, həll edir.

## AŞ PA-nın MONİTORİNQ KOMİTƏSİNİN AZƏRBAYCAN ÜZRƏ HƏMMƏRUZƏÇİLƏRİ TONİ LLOYD VƏ ANDRES HERKEL İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*30 oktyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da Prezident sarayında Avropa Şurası Parlament Assambleyasının Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçiləri Toni Lloyd və Andres Herkeli qəbul etmişdir.*

*Görüşdə Azərbaycanda gedən demokratikləşmə prosesləri, ölkəmizdə siyasi, iqtisadi və digər sahələrdə həyata keçirilən islahatlar, Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlığın hazırkı vəziyyəti və gələcək perspektivləri barədə fikir mübadiləsi aparıldı.*

## İSPANİYANIN SƏHİYYƏ VƏ İSTEHLAK NAZİRİ ELENA SALQADONUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*30 oktyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da Prezident sarayında İspaniyanın Səhiyyə və İstehlak naziri Elena Salqadonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Xanım Elena Salqado İspaniya hökumətinin Azərbaycan Respublikasına səfər edən ilk üzvü olduğunu qeyd edərək, bu səfərin ölkələrimiz arasında əlaqələrin genişləndirilməsi üçün mühüm rol oynayacağına ümidvar olduğunu bildirdi. O, hökumətinin Azərbaycan ilə münasibətləri müxtəlif sahələrdə inkişaf etdirməkdə maraqlı olduğunu vurğuladı və iki ölkə arasında əməkdaşlığın gücləndirilməsi üçün yaxşı imkanların olduğunu qeyd etdi.*

*Dövlətimizin başçısı bu səfərin Azərbaycan ilə İspaniya arasında əlaqələrin genişləndirilməsinə öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi. Bu yaxınlarda ölkəmizin İspaniyada səfirliyinin fəaliyyətə başladığını qeyd edən prezident İlham Əliyev bunun İspaniya ilə münasibətlərin inkişafına Azərbaycanın verdiyi önəmin göstəricisi olduğunu vurğuladı.*

## GÜRCÜSTANIN MƏDƏNİYYƏT, ABİDƏLƏRİN QORUNMASI VƏ İDMAN NAZİRİ GEORGİ QABAŞVİLİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*30 oktyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da Prezident sarayında Gürcüstanın Mədəniyyət, Abidələrin Qorunması və İdman naziri Georgi Qabaşvilini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Gürcüstan arasında münasibətlərin müxtəlif sahələrdə, o cümlədən mədəniyyət, idman və digər humanitar sahələrdə uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev bu səfərin ikitərəfli əlaqələrimizin daha da möhkəmlənməsinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Georgi Qabaşvili Gürcüstan ilə Azərbaycan arasında münasibətlərin müvəffəqiyyətlə inkişafından ölkəsinin məmnunluğunu ifadə etdi. Səfər müddətində keçirdiyi görüşlər barəsində dövlətimizin başçısına məlumat verən qonaq əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əmin olduğunu bildirdi.*

**BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GEORGİ PIRVANOVA**

Hörmətli cənab Prezident!

Bolqarıstan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Biz Azərbaycan ilə Bolqarıstan arasındakı tarixi ənənələrə malik dostluq və əməkdaşlıq münasibətlərinə böyük əhəmiyyət veririk. Ümidvar olduğumu bildirirəm ki, istər ikitərəfli qaydada, istərsə də regional və beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımızın inkişafı üçün bundan sonra da ardıcıl şəkildə səylər göstərəcəyik.

Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, xoşbəxtlik, dost Bolqarıstan xalqının rifahı naminə fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 oktyabr 2006-cı il*

## NİGERİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB OLUSEQUN OBASANCOYA

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı xəbərindən son dərəcə kədərləndim.

Baş vermiş faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Nigeriya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 oktyabr 2006-cı il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN GƏNCƏ ŞƏHƏRİNƏ SƏFƏRİ

*31 oktyabr 2006-cı il*

### Gəncə Beynəlxalq Hava Limanının açılış mərasimində* nitq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 31-də qədim Gəncə şəhərinə gəlmişdir. Yeni tikilmiş Gəncə Beynəlxalq Hava Limanında dövlətimizin başçısını və xanımı Mehriban Əliyevanı böyük hörmət və ehtiramla, gül-çiçəklə qarşıladılar.*

*Sonra prezident İlham Əliyev Gəncə Beynəlxalq Hava Limanının təntənəli açılış mərasimində iştirak etdi.*

*Azərbaycan prezidenti İlham Əliyevə məlumat verildi ki, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq, Gəncənin beynəlxalq hava limanının müasir standartlar səviyyəsində yenidən qurulması layihəsinin dəyəri 39,5 milyon dollardır. Yenidənqurma işlərində 1500 nəfər çalışmışdır. Sovet dövründə qurulmuş bütün avadanlıq tamamilə yeniləşdirilmişdir. Uzunluğu 3300 metr olan yeni uçuş-enmə zolağı ağırtipli təyyarələri qəbul etməyə imkan verəcəkdir. Burada sərnişinlərin rahatlığı üçün də hər cür şərait yaradılmışdır. «A-319» aerobusları və «AN-140» təyyarələri ilə Moskva, Sankt-Peterburq, Kiyev, Bakı, Naxçıvan, Təbriz, Qars, Rostov, Volqoqrad və Mineralnıye-Vodı şəhərlərinə uçuşların təşkili nəzərdə tutulmuşdur. Zəruri hallarda «İl-76»*

---

* Mərasimdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov və «Azərbaycan Hava Yolları» Dövlət Konserninin Baş direktoru Cahangir Əsgərov çıxış etdilər.

*və «AN-12» təyyarələri ilə yükdaşımalar da həyata keçiriləcəkdir. Azərbaycanda fəaliyyət göstərən xarici aviaşirkətlərə Gəncə hava limanından müxtəlif reyslər təklif olunacaqdır. Buradan həm də Avropa və Asiyaya uçuşları həyata keçirən Azərbaycanın və xarici dövlətlərin aviaşirkətlərinin təyyarələri üçün tranzit ehtiyat hava limanı kimi də istifadə ediləcəkdir. Hava limanında 200 yeni iş yeri yaradılmışdır.*

**İ l h a m Ə l i y e v:** Əziz gəncəlilər!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və Gəncənin yeni aeroportunun açılışı münasibətilə təbrik edirəm.

Bu aeroport dünyanın ən yüksək standartlarına cavab verir. Burada ən müasir avadanlıq quraşdırılıbdır və aeroportun xarici görünüşü də çox gözəldir. Mən xatırlayıram, biz aeroportun tikintisinə hazırlaşanda qərara gəldik ki, Gəncədə geniş müşavirə keçirək. Çünki Gəncə ictimaiyyətinin bu işlərdə iştirakını çox vacib sayırdıq. Ötən ilin may ayında burada keçirilmiş geniş iclasda aeroportun tikintisi məsələləri həll olundu və eyni zamanda, aeroportun xarici görünüşü haqqında geniş fikir mübadiləsi aparıldı. Mən məsələni belə qoymuşdum ki, Gəncəyə xas olan üslubda aeroport tikilsin və ictimaiyyətin nümayəndələri də bu fikirlə razılaşmışdılar. Beləliklə, bu aeroportun yaradılması bizim hamımızın zəhmətidir, hamımızın xidmətidir. Bu gözəl aeroport uzun illər – onilliklər ərzində Gəncə şəhərinə və gəncəlilərə xidmət edəcəkdir.

Gəncə Azərbaycanın ikinci şəhəridir, qədim şəhərdir və mən çox istəyirəm ki, burada yaradılan hər bir yeni tikili, hər bir yeni müəssisə yüksək standartlara cavab versin. Bu gün biz bunu görürük. Görürük ki, Gəncə gözəlləşir, yeni yollar salınır, binalar tikilir, abadlıq işləri gedir. Bu məni çox sevindirir və bundan sonra da Gəncəni daim dəstəkləyəcək, Gəncənin inkişafına köməyimi əsirgəməyəcəyəm. Bununla yanaşı, onu da qeyd etməliyəm ki, mən Gəncə icra orqanlarının fəaliyyətini də yüksək qiymətləndirirəm. Burada

göstərilən təşəbbüslər, görülən işlər məni çox sevindirir. Belə olan halda, işlərimiz daha da sürətlə gedir. Biz düzgün qərarlar qəbul edə, vəsait ayıra bilərik və bunu edirik də. Ancaq yerlərdə bizim göstərişlərimiz əgər icra olunmursa, yaxud da yerli rəhbərlik təşəbbüs göstərmirsə, əlbəttə ki, işimiz istənilən nəticəni verməz. Gəncənin timsalında hər iki amili görürük – həm dövlət qayğısı və əlavə vəsaitin ayrılması, eyni zamanda, yerli icra orqanlarının səmərəli fəaliyyəti. Bunun nəticəsində Gəncə gözəlləşir, abadlaşır və ən müasir şəhərə çevrilir.

Aeroportun tikintisi bütövlükdə bu regionun inkişafına böyük təkan olacaqdır. Çünki bilirsiniz ki, Azərbaycanın regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının məqsədi məhz regionların inkişaf etdirilməsidir. Regionun da inkişaf etdirilməsi üçün orada müasir infrastruktur obyektləri olmalıdır. Aeroport, avtomobil yolları, sosial infrastruktur obyektlər – bütün bunlar olmalıdır və artıq var. İndi Gəncə–Qazax avtomobil yolunun tikintisi gedir. Bu yol Bakı–Qazax avtomobil yolunun tərkib hissəsidir. Gələn ilin sonuna qədər bu yolun tikintisi başa çatmalıdır və beləliklə, ən müasir, dünya səviyyəli avtomobil yolu yaradılacaqdır. Aeroport tikiləndə vəzifə qoyulmuşdu ki, oradan magistrala qədər olan yol da tikilsin. Çünki bir halda ki, belə gözəl aeroport tikilir, onun ətrafı da gözəl olmalıdır və bu gün mən bunu görürəm. İndi bura çox gözəl, abad yerdir. Amma siz də yaxşı xatırlayırsınız, mən də yaxşı xatırlayıram ki, bura nə gündə idi. Aeroportun binası faktiki olaraq dağılmışdı. Çox görkəmsiz bir mənzərə var idi. Bu gün isə həm xarici görünüşü, həm də abadlıq işləri ən yüksək standartlara cavab verir. Eyni zamanda, burada aeroport infrastrukturunun bütün parametrləri mövcuddur.

Biz nəqliyyat sektorunun inkişafına çox böyük diqqət göstəririk. Çünki Azərbaycanın coğrafi vəziyyəti çox əlverişlidir. Biz əgər güclü nəqliyyat imkanlarına malik olsaq, ölkəmizi daha da inkişaf etdirə biləcəyik. Bu məqsədlə yeni

aeroportlar tikilir. Bu gün Gəncədə aeroport açılır, ondan sonra Lənkəranda, Zaqatala şəhərində yeni aeroportlar istifadəyə veriləcəkdir. Azərbaycanda avtomobil yollarının tikintisi sürətlə gedir. Bütün istiqamətlərdə Azərbaycanı qonşu ölkələrlə birləşdirən magistral yollar tikilir: Bakı–Gürcüstan sərhədi, Bakı–Rusiya sərhədi və Bakı–İran sərhədi. Bununla bərabər, şəhərlərarası yollar, kənd yolları çəkilir. Yol infrastrukturu bütün başqa sahələrə daha da sürətli inkişaf gətirəcək, böyük təkan verəcəkdir. Ona görə buna böyük əhəmiyyət veririk.

Eyni zamanda, nəqliyyat sektorunda mühüm rolu olan gəmiçilik sistemində islahatlar gedir. Yeni yük gəmiləri, tankerlər alınır. Xəzər dənizinin şərqində yerləşən ölkələrdən Azərbaycan ərazisi ilə yükdaşımaların həcmi artır. Dəmir yolunun bərpası və infrastrukturunun inkişafı da indi diqqət mərkəzindədir. Yeni təyyarələr alınır. Yəni ki, bütün sahələrdə işlər gedir. Bütün bunlar Azərbaycanda güclü nəqliyyat sektorunun yaranmasına xidmət göstərir və biz bu gün buna artıq nail olmuşuq.

Azərbaycan istər siyası, istər iqtisadi, istərsə də nəqliyyat baxımından bölgənin mərkəzidir. Belə olan halda, əlbəttə ki, bizim gücümüz, təsiretmə imkanlarımız artır. Ölkəmiz hərtərəfli inkişaf edir. İnsanlar bütün sahələrdə, o cümlədən nəqliyyat sektorunda daha da yüksək xidmət alırlar. Bütün başqa sahələrdə də biz bunu görürük. Mən bu gün Gəncədə yeni tikilən üzgüçülük hovuzunun açılışında da iştirak edəcəyəm. Bu hovuzun tikintisi də şəhərin infrastrukturu üçün, idmançılar, şəhər sakinləri üçün çox önəmlidir. Siz yəqin yaxşı xatırlayırsınız ki, Milli Olimpiya Komitəsi tərəfindən Gəncədə tikilmiş Olimpiya kompleksinin açılışında ulu öndər Heydər Əliyev iştirak etmişdir. Olimpiya kompleksi tikiləndən sonra biz qərara gəldik ki, mütləq üzgüçülük hovuzu da tikilsin. Bu gün də bu, reallığa çevrilibdir. Deyə bilərəm ki, Heydər Əliyevin Gəncəyə o səfəri Gəncənin yeni dövrünün başlanması demək idi. Mən yaxşı

xatırlayıram, o vaxt burada olan nöqsanlar, şəhərin bərbad vəziyyətdə olması, infrastrukturun dağıdılması prezident Heydər Əliyevi çox narahat etmişdi. Məhz o səfərdən sonra islahatlar başlandı, yeni rəhbərlik təyin olundu. Gəncənin inkişaf və tərəqqi dövrü başlandı.

Bu gün Gəncə çox sürətlə inkişaf edən şəhərdir. Gəncənin çox gözəl tarixi abidələri, özünəməxsus xüsusiyyətləri, bənzərsiz siması var. Bütün bunlar qorunub saxlanmaqla bərabər, şəhər müasirləşir. Yeni yollar, xiyabanlar, binalar, aeroport, bütün başqa infrastruktur Gəncənin inkişafı deməkdir. Bu, Azərbaycanın inkişafı deməkdir. Mən çox şadam, çox sevinirəm ki, bütün bu işlərdə bizim hamımızın əməyi var, qəbul etdiyimiz bütün qərarlar vaxtlı-vaxtında icra edilir, bütün proqramlar həyatda öz əksini tapır. Bu çox vacibdir. Çünki biz istəyirik və prezident kimi mən çox istəyirəm ki, bütün sahələrdə – infrastruktur, sosial sektor, məktəblər, xəstəxanalar – inkişaf sürətlə getsin. Gəncədə indi yeni diaqnostika və müalicə mərkəzi tikilir. Onun təməlini biz birlikdə qoymuşduq. Yəqin ki, yaxın zamanlarda onun da açılışını qeyd edəcəyik. Bu, tibbi xidmətin səviyyəsini artıracaqdır. Orada ən müasir avadanlıq quraşdırılacaq və insanlar yüksək tibbi xidmət alacaqlar.

Azərbaycanın inkişafı bundan ibarətdir – güclü iqtisadiyyat, güclü infrastruktur və güclü sosial siyasət. Bütün bu amillər birləşəndə, biz uğura nail ola bilirik. Azərbaycanda maaşlar, pensiyalar artırılır, məktəblər, xəstəxanalar, bütün başqa infrastruktur obyektlər tikilir, iş yerləri açılır – o cümlədən Gəncə şəhərində yeni müəssisələr işə düşür – investisiyalar qoyulur, istilik-elektrik mərkəzinin tikintisi başlanmışdır.

Bir neçə il bundan əvvəl təsəvvür etmək çətin idi ki, Gəncədə yeni müasir, çoxmərtəbəli binalar tikiləcəkdir. Amma indi bu reallıqdır və məndə olan məlumata görə, tələbat daha da artır. Yəni insanların imkanları artır və yeni evlərin tikilməsi bunun göstəricisidir. Yeni binaların tikilməsi və

bütövlükdə tikinti sektorunun inkişafı hər bir ölkənin ümumi inkişafından xəbər verir. Bakıda tikinti çox sürətlə gedir. O qədər sürətlə gedir ki, indi biz bunu bir az dayandırmağa çalışırıq. Gəncədə isə bu proses təzə-təzə başlayır. Çox vacibdir ki, tikilən bütün binalar gözəl memarlıq standartlarına cavab versin. Yəni xarici görünüşü də gözəl olsun, daxili quruluşu da müasir səviyyəyə cavab versin. Mən şübhə etmirəm ki, Azərbaycanın bütün bölgələri, o cümlədən Gəncə şəhəri bundan sonra da sürətlə inkişaf edəcəkdir. Bunu etmək üçün bütün imkanlar var. Elə möhkəm təməl qoyulub ki, bu təməl üzərində istənilən məsələni həll etmək mümkündür.

Bizim məqsədimiz çox konkret və çox sadədir – Azərbaycanın güclənməsi, güclü iqtisadiyyatın yaranması, siyasi sistemin möhkəmlənməsi və insanların həyat səviyyəsinin yaxşılaşdırılması. Bütün bunlar bir-birilə bağlı olan məsələlərdir. Bunları etmək üçün bütün imkanlar var və ən önəmlisi güclü iradə və xalqın dəstəyi var. Bu dəstəyə arxalanaraq, mən bütün islahatları inamla aparıram və sizə söz verirəm ki, gələcək fəaliyyətimdə də bu siyasətə sadiq olacağam.

Üç il bundan əvvəl, oktyabrın 31-də mən prezident kimi, öz fəaliyyətimə başladım. Üç il ərzində görülən işlər haqqında çox danışmağım bəlkə də düzgün deyildir. Amma sizə səmimi deyirəm, çox böyük qürur hissi keçirirəm ki, verdiyimiz bütün vədlər həyatda öz əksini tapır, gördüyümüz bütün işlər Azərbaycanın güclənməsinə xidmət edir, bütün siyasətimiz insanların yaxşı yaşamasına yönəldilibdir və biz bu gün bunun gözəl nəticələrini görürük. Bir daha sizə demək istəyirəm, mən bundan sonra da əlimdən gələni edəcəyəm ki, doğma xalqıma, Vətənimə sədaqətlə xidmət edim, sizin etimadınızı daim doğruldum.

Əziz bacılar və qardaşlar, əziz gəncəlilər!

Bu gözəl, tarixi gündə mən bir daha sizin hamınızı ürəkdən salamlayır, gözəl aeroportun açılışı münasibətilə sizi təbrik edirəm, hər birinizə cansağlığı, səadət arzulayıram. Sağ olun.

## Gəncə Elm Mərkəzinin direktoru professor Fuad Əliyevin çıxışı

Möhtərəm cənab Prezident!

Siz qədim Gəncə torpağına xoş gəlmisiniz. Heç də təsadüfi deyil ki, burada 31 oktyabrı xatırlatdınız, Eldar müəllimin adını çəkdiniz. Həmin gün biz də Bakıda Sizin andiçmə mərasiminizdə iştirak edirdik. Bu üç il ərzində Gəncə şəhərində çox böyük dəyişikliklər nəzərə çarpır. Sizə deyə bilərəm ki, Gəncə şəhərində iqtisadi və mədəni sahələrdə çox böyük işlər görülmüşdür. Sizin xeyir-duanızla və Heydər Əliyev Fondunun dəstəyi və köməyi ilə şəhərimizdə xalqımızın qəhrəmanlıq salnaməsində şərəfli yeri olan Cavad xanın məzarı abadlaşdırılmış və burada məqbərə tikilmiş, orta əsrlərin yadigarı olan Comərd Qəssab türbəsi bərpa edilmiş, müstəqil dövlətçiliyimizin memarı və qurucusu olan Heydər Əliyevin muzeyi tikilib başa çatdırılmışdır.

Bundan başqa, şəhərimizdə 20-dək məscid yenidən bərpa olunub və buna görə də biz Heydər Əliyev Fonduna öz minnətdarlığımızı bildiririk.

Möhtərəm Prezident, Sizin təsdiqlədiyiniz regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının Gəncə–Qazax iqtisadi rayonuna dair bölməsi şəhər icra hakimiyyətində geniş müzakirə olunmuş və o vaxtdan Gəncədə böyük quruculuq işləri aparılmışdır. Gəncəmiz dünyanın ən iri şəhərləri kimi, avtomobil istehsalına başlamış, şəhərdə yeni toxuculuq kombinatı, asfalt-beton zavodları, yeni şərab zavodu və qeyd etdiyiniz kimi, ən müasir tipli Olimpiya idman kompleksi istifadəyə verilmişdir.

Möhtərəm Prezident, bizə çox gözəl imkan verdiniz ki, şəhərimizdə tarixi bir hadisəni qeyd edək. Bu da bizim Gəncənin 2500 illiyidir. Mən bu münasibətlə, Gəncəmizin 2500 illiyinin keçirilməsi münasibətilə Sizə şəhərimizin zi-

yalıları, bütün sakinləri adından dərin minnətdarlığımı bildirirəm. Çox sağ olun, möhtərəm Prezident!

Cənab Prezident, bu tarixi hadisə münasibətilə ziyalılarımızın təşəbbüsü ilə «Gəncə–2500» ordeni təsis olunmuşdur. Gəncə ziyalıları öz yığıncaqlarında belə bir yekdil qərara gəldilər ki, 1 nömrəli «Gəncə–2500» ordenini Sizə, xalqımızın ən görkəmli övladına, Gəncənin inkişafında böyük xidmətləri olan möhtərəm prezidentimizə təqdim edək. Biz ziyalılar öz aramızda Sizi Qurucu prezident adlandırırıq.

Yaşasın İlham Əliyev! Yaşasın Qurucu Prezidentimiz!

İcazə verin, Gəncə sakinləri adından bu ordeni Sizə təqdim edək.

* * *

*Azərbaycan tarixinin bütün dövrlərində xüsusi yeri və rolu olan Gəncənin 2500 illiyi şərəfinə təsis edilmiş orden ilk olaraq prezident İlham Əliyevə təqdim olundu.*

* * *

*Sonra prezident İlham Əliyev Gəncə Beynəlxalq Hava Limanının rəsmi açılışını bildirən lenti kəsdi, qədim şəhərin yeni hava qapısının aerovağzal binası, burada quraşdırılan müasir avadanlıqla tanış oldu.*

*Dövlət Konserninin Baş direktoru Cahangir Əsgərov viza bürosu, yükün qəbulu və göndərilməsi, pasport-nəzarət şöbəsi, sərnişinlərin gözləmə salonu, gələn sərnişinlərin qəbulu, bilet satışı, baqajın alınması və digər bölmələrin fəaliyyəti barədə məlumat verdi.*

*Video-müşahidə otağına gələn dövlətimizin başçısına məlumat verildi ki, burada quraşdırılan müasir kompüter və müşahidə aparatları vasitəsilə bütün şöbələrə, büro və məntəqələrə nəzarət etmək mümkündür.*

*Meteoroloji təminat şöbəsinin işi ilə tanışlıq da maraq doğurdu. Şöbə uçuşların meteoroloji cəhətdən təhlükəsizliyini təmin edir, kompleks avtomatlaşdırılmış stansiya vasitəsilə meteoroloji elementlər üzərində müşahidələr aparır, hava limanına enən və buradan qalxan təyyarələr üçün məlumatları lazımi qurumlara çatdırır.*

*Daha sonra prezident İlham Əliyev hava limanının uçuşları idarəetmə qülləsinə çıxdı və buradan qədim Gəncənin mənzərəsini seyr etdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV GƏNCƏ ŞƏHƏRİNDƏ

*31 oktyabr 2006-cı il*

### Gəncə Olimpiya İdman Kompleksinin üzgüçülük hovuzunun açılış mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 31-də Gəncə Olimpiya İdman Kompleksinin üzgüçülük hovuzunun açılış mərasimində iştirak etmişdir.*

*Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı burada gül-çiçək dəstələri ilə qarşıladılar. Dövlətimizin başçısı ümummilli liderimiz Heydər Əliyevin iştirakı və xeyir-duası ilə fəaliyyətə başlamış Gəncə Olimpiya İdman Kompleksində üzgüçülük hovuzunun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Kompleksin direktoru Fuad Rzayev prezident İlham Əliyevə məlumat verdi ki, tikintisini «Azərsun Holdinq» şirkətinin maliyyələşdirdiyi hovuzun uzunluğu 25 metr, eni 15 metr, dərinliyi isə 2 metr olan qapalı idman qurğusudur. Tamaşaçılar üçün 150 nəfərlik oturacaq quraşdırılmışdır. Burada beynəlxalq səviyyəli yarışların da keçirilməsi mümkündür. Kompleksin genişləndirilməsi Azərbaycan Milli Olimpiya Komitəsinin regionlarda idmanın inkişaf etdirilməsi istiqamətində həyata keçirdiyi tədbirlərin bir hissəsidir.*

*Prezident İlham Əliyev idman qurğusunun yardımçı otaqları, gimnastika salonu ilə də tanış oldu.*

*Dövlətimizin başçısı kompleksin ətrafındakı 150 nəfərlik tribunaları olan voleybol və basketbol meydançalarına da baxdı, Olimpiya kompleksinin ətrafını gəzdi, müvafiq tövsiyə və tapşırıqlarını verdi.*

## Ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət

*Oktyabrın 31-də Azərbaycan prezidenti İlham Əliyev ümummilli lider Heydər Əliyevin Gəncənin mərkəzi meydanında ucaldılan abidəsini ziyarət etmişdir.*

*Dövlətimizin başçısı və xanımı abidənin önünə gül dəstələri qoydular.*

*Sonra prezident İlham Əliyev mərkəzi meydanda aparılan yenidənqurma, tikinti-quruculuq işləri ilə tanış oldu, burada quraşdırılmış gözoxşayan, musiqili, rəngli fəvvarəni seyr etdi.*

*Prezident İlham Əliyev Gəncə sakinlərinin istirahəti üçün yaradılmış parkı gəzdi, buradakı bulaq kompleksinin yenidən qurulub müasir görkəmə salınması barədə tövsiyələrini verdi.*

## Gəncənin gerbinə ucaldılmış abidə ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 31-də Gəncənin Heydər Əliyev prospektində qədim şəhərin gerbinə ucaldılmış abidə ilə tanış olmuşdur. Abidənin üzərində «Əsrlər boyu Gəncə xanlığının bayrağında həkk olunmuş bu rəmz 1804-cü ilin yanvarında şəhərin işğalı zamanı ləğv edilmişdir. 2004-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Gəncənin qədim rəmzi yenidən gerb olaraq bərpa olunmuşdur» sözləri yazılmışdır. Bu abidənin müəllifi Əməkdar rəssam Şərif Şərifovdur.*

## «Jardin Royal» şokolad fabrikinin açılış mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 31-də Gəncədə «Jardin Royal» şokolad fabrikinin açılış mərasimində iştirak etmişdir.*

*Müəssisənin kollektivi dövlətimizin başçısını gül-çiçəklə, böyük ehtiramla qarşıladı. Prezident İlham Əliyev lenti kəsdi və fabrikin işə düşməsini bildirən düyməni basdı. Dövlətimizin başçısına məlumat verildi ki, əsasən Fransa texnologiyası əsasında işləyən bu müəssisədə 120-yə yaxın adam çalışır,*

*əməkhaqqı 100 manatdan 500 manatadəkdir. Fabrikdə 20-dən çox çeşiddə məhsul istehsal olunur. Yerli tələbatı ödəməklə yanaşı, məhsullar xarici bazara da çıxarılır. Gələcəkdə fabrikin genişləndirilməsi və yeni istehsal sahələrinin yaradılması nəzərdə tutulur.*

*Prezident İlham Əliyev istehsal prosesi ilə yaxından tanış oldu, müasir avadanlığın işi ilə maraqlandı və yüksək səviyyəli müəssisənin fəaliyyətindən razılığını söylədi. Dövlət başçısı belə müasir müəssisələrin regionlarda sosial-iqtisadi inkişafa müsbət təsir göstərdiyini bildirdi.*

*Prezident İlham Əliyev müəssisənin müasir standartlara uyğun yeməkxanası ilə də tanış oldu. Bildirildi ki, burada işçilər pulsuz nahar edirlər.*

*Dövlətimizin başçısına xatirə olaraq fabrikin fəaliyyətinə dair videodisk hədiyyə edildi.*

## Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva Gəncədəki həzrəti Zeynəb məscidini ziyarət etmişdir

*Azərbaycan prezidenti İlham Əliyevin respublikanın qərb rayonlarına səfəri çərçivəsində Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva oktyabrın 31-də Gəncədəki Həzrəti Zeynəb məscidini ziyarət etmişdir.*

*Bu müqəddəs ziyarətgah Fondun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yenidən qurulmuşdur. Qafqaz Müsəlmanları İdarəsinin qərb bölgəsi üzrə qazisi Hacı Tahir bu xeyirxahlığa görə Mehriban Əliyevaya minnətdarlıq etdi. O, Gəncədə tarixi abidələrin, ocaqların və pirlərin təmiri və bərpasına həssaslıq göstərən dövlətimizin başçısına və xanımına uca Allahdan cansağlığı və xoşbəxtlik dilədi, belə xeyirxah işlərin heç vaxt əvəzsiz qalmayacağını və Tanrı tərəfindən mükafatlandırılacağını vurguladı. O, Mehriban xanıma müqəddəs Qurani-Kərim təqdim etdi.*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN DAŞKƏSƏN RAYONUNA SƏFƏRİ

*31 oktyabr 2006-cı il*

## Gəncə–Daşkəsən–Xoşbulaq avtomobil yolunun açılış mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 31-də Daşkəsən rayonuna gəlmişdir. Dövlətimizin başçısı əvvəlcə Gəncə–Daşkəsən–Xoşbulaq avtomobil yolunun açılış mərasimində iştirak etdi.*

*Buraya toplaşan inşaatçılar, eləcə də ətraf kəndlərin sakinləri prezident İlham Əliyevi böyük hörmət və ehtiramla qarşıladılar.*

*Nəqliyyat Nazirliyinin «Yolnəqliyyatservis» Departamentinin rəisi, Milli Məclisin deputatı Cavid Qurbanov Gəncə–Daşkəsən–Xoşbulaq avtomobil yolunun göstəriciləri barədə dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, ümumi uzunluğu 47 kilometr olan 3-cü texniki dərəcəli yolun örtüyü əsasən asfalt-betondur. Yolun yatağının eni 12 metr, hərəkət hissəsinin eni isə 7 metrdir. Yol boyu 10 körpü bərpa edilmiş və yenidən qurulmuşdur. Daşkəsən şəhərini respublikanın magistral yollar şəbəkəsi ilə birləşdirən bu yeganə yol Azərbaycan prezidentinin 2006-cı il 13 iyul tarixli sərəncamına uyğun olaraq, qısa müddətdə əsaslı şəkildə təmir edilmişdir. Layihənin ümumi dəyəri 21,3 milyon manatdır. İndiyə qədər 10,2 milyon manatlıq iş görülmüşdür. Qalan 10,1 milyon manat isə əlavə işlərə və əsasən, dayaq divarlarının tikintisinə xərclənəcəkdir. Yola 76 min ton asfalt-beton döşənmişdir. Hərəkətin*

*təhlükəsizliyi üçün 320-dən çox yol işarələri qoyulmuş, 800-dən çox siqnal dirəyi basdırılmışdır.*

*Avtomobil yolu Xanlar rayonunun 5 kəndinin, Daşkəsən rayonunun 37 kəndinin əhalisinin gediş-gəlişini asanlaşdıracaqdır.*

*Bundan əlavə, Daşkəsən şəhərində 3,5 kilometr küçə təmir olunmuş, 7250 ton asfalt salınmışdır. Bütün işləri «Yolnəqliyyatservis» Departamenti görmüş, eyni zamanda, 300-ə yaxın yerli sakin işlə təmin olunmuşdur.*

*Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi. İnşaatçıları təbrik edərək dedi ki, qısa müddət ərzində Xınalıq, Lerik, Yardımlı yolları, indi də Daşkəsən yolu çəkilmişdir. Sizə təşəkkür edirəm, yüksək səviyyədə, gözəl yol çəkmisiniz. Özü də bu dağ şəraitində yol tikmək çətindir.*

*Dövlətimizin başçısı sonra inşaatçılarla xatirə şəkli çəkdirdi.*

## Ümummilli lider Heydər Əliyevin abidəsinin açılışı

*Oktyabrın 31-də Daşkəsən şəhərində xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsinin açılışı olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev heykəlin üzərindən ağ örtüyü götürdü. Postamentlə birlikdə abidənin hündürlüyü 6 metrdir. Dövlətimizin başçısı və xanımı Mehriban Əliyeva abidənin önünə gül dəstələri qoydular.*

*Prezident İlham Əliyev burada salınmış Heydər Əliyev parkına da baxdı, sakinlərin istirahəti üçün yaradılmış şəraiti, görülmüş abadlıq işlərini yüksək qiymətləndirdi.*

## Heydər Əliyev muzeyinin açılışı

*Oktyabrın 31-də Daşkəsən şəhərində ümummilli lider Heydər Əliyev muzeyinin açılışı olmuşdur.*

*Prezident İlham Əliyev açılışı bildirən lenti kəsdi və muzeylə tanış oldu.*

*Dövlətimizin başçısına məlumat verildi ki, burada ulu öndərin uşaqlıq, gənclik illərinə aid, milli təhlükəsizlik orqanlarında çalışdığı illərə, respublikamıza rəhbərliyinin hər iki dövrünə aid, rayonlara səfərlərini, zəhmətkeşlərlə görüşlərini, xarici ölkələrə səfərlərini, ölkəmizin sosial-iqtisadi sahədə dirçəlişi, Azərbaycanın yeni neft strategiyasının hazırlanması və həyata keçirilməsini, ordu quruculuğu sahəsindəki fəaliyyətini əks etdirən zəngin fotoşəkillər toplanmışdır. Muzeydə ulu öndərin büstü də qoyulmuşdur.*

*Prezident İlham Əliyev muzeyin ayrı-ayrı guşələrinə baxdı. Daşkəsən rayonunun tarixi, sosial-iqtisadi göstəriciləri ilə bağlı məlumatlar, rayon ərazisindəki faydalı qazıntıların nümunələri də böyük maraq doğurdu.*

*Dövlətimizin başçısı muzeyin fəxri qonaqlar kitabına ürək sözlərini yazdı:*

«Heydər Əliyev muzeyinin eksponatları və muzeydə nümayiş etdirilən fotoşəkillər ulu öndərin həyat və fəaliyyətini əks etdirir. Muzeyin xarici görünüşü və daxili tərtibatı yüksək standartlara cavab verir. Müstəqil Azərbaycanın inkişafında Heydər Əliyevin müstəsna və əvəzolunmaz rolu olmuşdur. Bu gün onun siyasi kursu uğurla davam etdirilir.

Daşkəsən rayonunun sürətli inkişafı bunun əyani sübutudur. Daşkəsən rayonunun inkişafına çox böyük diqqət göstərilir. Xüsusi sərəncam imzalanmışdır və uğurla icra edilir. Abadlıq işləri geniş vüsət almışdır. Bütün daşkəsənlilərə yeni uğurlar və qələbələr arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*31 oktyabr 2006-cı il».*

## Anar Mürsəlov adına məktəblə tanışlıq

*Oktyabrın 31-də Azərbaycan prezidenti İlham Əliyev Daşkəsən şəhərində şəhid Anar Mürsəlov adına 2 nömrəli orta məktəblə tanış olmuşdur.*

*Dövlətimizin başçısı əvvəlcə Daşkəsən rayonunun keçmişini və bu gününü əks etdirən fotoguşələrə baxdı.*

*Məlumat verildi ki, 500 şagirdin təhsil aldığı məktəbin üçmərtəbəli binası Təhsil Nazirliyi tərəfindən yüksək səviyyədə təmir olunmuşdur.*

*Prezident İlham Əliyev ayrı-ayrı siniflərə, kompüter otağına baş çəkdi. Gənclərin müasir texnologiyalardan istifadə etməsinin, məktəblərin kompüterləşdirilməsinin əhəmiyyətini vurğuladı.*

*Məktəbin direktoru Frunze Rüstəmov təhsilə göstərdikləri diqqət və qayğıya görə dövlətimizin başçısına, habelə Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevaya təşəkkürünü bildirdi. Şagirdlərin yaxşı təhsil alması üçün hər cür şərait yaradıldığını bildirən direktor məktəbin kitabxanasına verilən latın əlifbası ilə çap edilmiş kitablara, dərs vəsaitlərinə, bədii ədəbiyyata görə də minnətdarlıq etdi.*

*Məktəbin qarşısındakı binaların eyvanlarına çıxan sakinlər prezident İlham Əliyevi və xanımını səmimiyyətlə salamladılar, Daşkəsənə göstərdiyi qayğıya görə təşəkkürlərini bildirdilər.*

## «Daşkəsən Filizsaflaşdırma» Açıq Tipli Səhmdar Cəmiyyəti ilə tanışlıq

Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 31-də «Daşkəsən Filizsaflaşdırma» Açıq Tipli Səhmdar Cəmiyyətində olmuşdur.

Burada dövlətimizin başçısını və xanımını böyük hörmət və ehtiramla, gül-çiçəklə qarşıladılar. Yüzlərlə yerli sakin, müəssisənin işçiləri prezidentin pişvazına xalqımızın ümum-

milli lideri Heydər Əliyevin və ölkə rəhbərinin portretləri, dövlət bayraqları və transparantlarla çıxmışdılar.

Azərbaycan prezidenti əvvəlcə bu böyük ASC-nin «Daşkəsən» və «Gəncə» layihələri, gələcəkdə yaradılacaq zavodların planları ilə tanış oldu.

«Detal Limited» şirkətinin Baş direktoru Əli Özkurt məlumat verdi ki, investisiya proqramına əsasən, gələcəkdə bu layihələr üzrə yeni zavodlar yaradılacaq və bunun nəticəsində minlərlə yeni iş yeri açılacaqdır. Ümumilikdə 235 milyon dollar həcmində sərmayə qoyulacaq və bütün işlər yeni texnologiya əsasında görüləcəkdir. Dünyada ABŞ-dan sonra bu tipli ikinci müəssisə Azərbaycanda olacaqdır. Hazır məhsul Qazaxıstana və digər ölkələrə göndəriləcəkdir.

**İlham Əliyev:** Bu bizdə heç vaxt olmamışdır. Buradan çıxarılan filiz həmişə Gürcüstana aparılırdı.

**Əli Özkurt:** İndi hər şey burada olacaq və gənc azərbaycanlılar çalışacaqlar. Gəncədə istehsal gücü 160 min ton olan alüminium zavodu fəaliyyətə başlayacaqdır. Bütün bu işlər 2009-cu ilə qədər başa çatdırılacaqdır.

**İlham Əliyev:** Cəmi neçə zavod olacaqdır?

**Əli Özkurt:** Cənab Prezident, ardıcıl reduksiya zavodu, poladəritmə zavodu və Gəncədə alüminium zavodu. «Daşkəsən» layihəsi üzrə 1250, «Gəncə» layihəsi üzrə 1250, alüminium zavodunda isə 2500 işçi çalışacaqdır. 3 il ərzində 5 min yeni iş yeri yaradılacaqdır.

**İlham Əliyev:** Deməli, Gəncədə və Daşkəsəndə 5 min yeni iş yeri açılacaqdır. Təxminən nə qədər məhsul istehsal edəcəksiniz?

**Əli Özkurt:** Cənab Prezident, 100 min ton alüminium, 500 min ton dəmir filizi. Həmin filizdən də boru istehsal edəcəyik. Çünki bazarda boru ən qiymətli məhsuldur. Bundan başqa, armatur, habelə inşaatda istifadə olunan digər materiallar istehsal olunacaqdır.

**İlham Əliyev:** Bu gün buna həm Azərbaycanda, həm də qonşu ölkələrdə böyük tələbat var. Azərbaycanda

daha çox tələbat var və hələ uzun müddət ərzində bu tələbat azalmayacaq, əksinə, artacaqdır. Yəni bizdə inkişaf sürətlə gedir.

**Əli Özkurt:** Biz bu il Sumqayıtda 60 min ton alüminium istehsal etməyi planlaşdırmışıq.

**İlham Əliyev:** Orada 30 min ton idi, indi 60 min ton. Burada da 100 min ton olacaqdır.

**Əli Özkurt:** Bəli, cənab Prezident. Gəncədə istehsal olunan alüminium oksidinin 80 faizi daxili tələbata yönəldiləcəkdir.

**İlham Əliyev:** Qalan hissəsini də xaricə göndərəcəksiniz?

**Əli Özkurt:** Bəli.

**İlham Əliyev:** İndi bizdən xaricə neçə faiz məhsul gedir?

**Əli Özkurt:** Alüminium oksidinin 100 faizi. Biz bu il 425 min ton istehsal edəcəyik. Keçən il isə 400 min ton idi. Sovet dövründə heç vaxt bu həcmdə istehsal olmamışdır.

**İlham Əliyev:** Bəli, gələn 3 ildə inkişafımız daha da yüksək olacaqdır. Həm təzə iş yerləri, həm yeni istehsal sahələri yaranacaq, həm də qeyri-neft sektoru – sənaye yüksək səviyyəyə çatacaqdır.

**Əli Özkurt:** Cənab Prezident, dəqiq hesablamalara görə, burada hələ 250 milyon ton dəmir filizi ehtiyatı vardır. Biz ildə 2,5 milyon ton hasil edirik.

**İlham Əliyev:** Yəni bizim 100 illik işimiz var.

**Əli Özkurt:** Allaha şükür. Sizin sayənizdə çalışacağıq.

**Tahir Kərimov** (*Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı*): Cənab Prezident, ulu öndərimizin dövründə bu zavod 700 min ton məhsul istehsal edirdi. Yenidən hakimiyyətə gələndən sonra 1 milyon ton oldu. O vaxtdan da zavodun inkişaf dövrü başlandı. Sizin rəhbərliyinizlə bu zavod yeni inkişaf dövrünü yaşayacaqdır.

**İ l h a m  Ə l i y e v:** O dövrdə sovet texnologiyası idi. Bizdə başqa texnologiya yox idi. Amma indi burada dünyadakı ən yüksək texnologiya olacaqdır.

**Ə l i  Ö z k u r t:** Bizim müəssisə dünyada 2-ci, 3-cü olacaqdır.

**İ l h a m  Ə l i y e v:** Bütövlükdə bu, nadir bir yataqdır.

**Ə l i  Ö z k u r t:** Bu, Allahın bir nemətidir.

**İ l h a m  Ə l i y e v:** Onun ehtiyatı Azərbaycan xalqının rifah halının yaxşılaşmasına yönəldilməlidir.

**Ə l i  Ö z k u r t:** Cənab Prezident, biz gənclərə də şərait yaradırıq. Təhsil ocaqları ilə razılıq əldə etmişik. Tələbələrə ingilis dilində iqtisadiyyat üzrə xüsusi dərslər keçilir. Yəni kadr hazırlığına da xüsusi diqqət yetiririk.

**İ l h am  Ə l i y e v:** Oradakı bayraq da çox böyükdür.

**Ə l i  Ö z k u r t:** Cənab Prezident. Dağın sinəsinə vurulmuş bayraq 5 min kvadratmetrdir. Uzunluğu 100, eni isə 50 metrdir. Daim orada qalacaqdır.

* * *

*Prezident İlham Əliyev «Daşkəsən Filizsaflaşdırma» ASC-nin yeni yatağının istifadəsinə başlanmasını bildirən düyməni basdı. Daha sonra isə növbəti düyməni basmaqla, dəmir filizinin daşındığı kanat yolunu işə saldı.*

*Sonra təntənəli mərasim* keçirildi.*

*Prezident İlham Əliyev mərasimdə nitqi söylədi.*

**İ l h a m  Ə l i y e v:** Əziz daşkəsənlilər!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram, sizə öz dərin hörmət və məhəbbətimi ifadə edirəm.

---

* Mərasimdə Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Tahir Kərimov, «Detal Limited» şirkətinin Baş direktoru Əli Özkurt, «Daşkəsən Filizsaflaşdırma» ASC-nin Baş mühəndisi Müzayəddin Həsənov çıxış etdilər.

Bu gün Daşkəsən rayonunun həyatında iki əlamətdar hadisə baş verir. Daşkəsən rayonuna gələn yol yenidən tikilib istifadəyə verilibdir. Bu gün mən bu yolu gəlmişəm, onu açmışam. Çox qısa müddət ərzində çəkilən ən müasir dünya standartlarına cavab verən bu yol Daşkəsən rayonunun inkişafına, daşkəsənlilərə xidmət edəcəkdir.

Azərbaycanda yol tikintisi çox geniş vüsət alıbdır. Bütün istiqamətlərdə yollar çəkilir. Azərbaycanı başqa ölkələrlə birləşdirən magistral yollar və eyni zamanda, rayonlara gedən yollar, şəhərlərarası yollar, kənd yolları, ən ucqar kəndlərə yollar çəkilir. Əsas şərt də ondan ibarətdir ki, bütün yollar ən yüksək dünya standartlarına cavab versin. Bu gün biz bunu görürük və Daşkəsənə çəkilən yol da ən yüksək səviyyədədir. İndi insanlar rahat gəlib-gedəcəklər. Mən bilirəm ki, bu yol tikiləndən bəri heç vaxt təmir olunmamışdı, çox bərbad vəziyyətdə idi. İnsanların gəliş-gedişi üçün çox böyük problemlər yaradırdı. İndi isə bu yolu rahat getmək olar. Bu çox böyük əhəmiyyət kəsb edən məsələdir. Bir tərəfdən, insanlara rahatlıq verəcək, digər tərəfdən, rayonun inkişafına xidmət göstərəcəkdir.

Rayonunuzun çox böyük imkanları, potensialı var. Burada çox gözəl yerlər var, təbiət çox gözəldir, çox zəngindir. Əminəm ki, bu yol tikiləndən sonra burada turizmin inkişafı daha da sürətlə gedəcəkdir. Rayonun infrastrukturuna sərmayələr qoyulacaq və beləliklə, Daşkəsən rayonu sürətlə inkişaf edəcəkdir.

İkinci önəmli hadisə filizsaflaşdırma kombinatının işə düşməsidir. Deyə bilərəm ki, bu, Daşkəsən rayonunun tarixində çox əlamətdar hadisədir. Hesab edirəm ki, bu kombinatın fəaliyyətə başlaması bütövlükdə Azərbaycanın hərtərəfli inkişafı üçün çox tarixi əhəmiyyətə malikdir. Kombinatın işə başlaması nəticəsində minlərlə yeni iş yerləri açılacaqdır. Artıq iş yerlərinin açılması prosesi başlanmışdır. Yeni sənaye istiqaməti, sənaye kompleksi yaranacaqdır. Azərbaycanda yeni zavodlar tikiləcək, minlərlə insan yüksək

maaşla təmin olunacaqdır. Azərbaycanın sənaye kompleksi, qeyri-neft sektoru inkişaf edəcək və ümumən ölkəmizin iqtisadiyyatı hərtərəfli inkişaf edəcəkdir. Filizsaflaşdırma kombinatının tarixini siz yaxşı bilirsiniz. 40-cı illərdə burada bu mədən yaradılmışdı. O vaxt hökumət qərar vermişdi ki, burada işlər başlansın və uzun illər ərzində bu mədən səmərəli işləmişdir. Amma 90-cı illərin əvvəlində bu kombinatın dayanması ilə yaranan problemlər insanlara çox böyük təsir göstərmişdir. Həm burada işləyən insanların kombinatın fəaliyyətində böyük zəhməti olub, həm də kombinatın mövcudluğu rayonun inkişafına, insanlara böyük dəstək idi.

Kombinat bağlanandan sonra, əlbəttə ki, işsizlik də yarandı, insanların rayondan getmə prosesi də başlandı. İndi biz kombinata və demək olar ki, Daşkəsən rayonuna yeni həyat veririk. Buraya qısa müddət ərzində, növbəti üç ildə 200 milyon dollardan çox vəsait qoyulacaq, həm Daşkəsəndə, həm də Gəncədə ən yüksək səviyyəli zavodlar tikiləcəkdir. Rayonun bütün infrastrukturu yeniləşəcək və bəlkə də vaxt gələcək, gün gələcək ki, burada kombinatda və onun fəaliyyəti nəticəsində yaradılacaq zavodlarda işləmək üçün başqa yerlərdən insanlar gələcəklər. Bu vaxt gələcək, mən buna əminəm. Beləliklə, rayonun əhalisi yaxşı yaşayacaq. İnsanlar yüksək maaş alacaqlar, yaxşı şəraitdə yaşayacaqlar. Həm insanların rifah halı yaxşılaşacaq, həm Azərbaycanın iqtisadi potensialı güclənəcək və bütünlükdə ölkənin sənaye kompleksi inkişaf edəcəkdir. Bu kombinatın fəaliyyətə başlamasının nəticələri budur. Biz bunu bilirik və bilirik ki, haraya gedirik, məqsədimiz nədir. Məqsədimiz güclü dövlətin yaranması, güclü iqtisadiyyatın yaranmasıdır. Biz buna nəyin hesabına nail ola bilərik? Əlbəttə ki, yeni sənaye müəssisələrinin yaranması ilə. Yalnız sənaye müəssisələrinin yaranması Azərbaycanın hərtərəfli inkişafına xidmət göstərə bilər. Bizim indi güclü iqtisadi potensialımız var. İqtisadiyyatımız dünyada ən yüksək sürətlə inkişaf edir. Bu ilin 9 ayında iqtisadi artım 34 faiz olubdur. Bu, dünyada görün-

məmiş bir hadisədir. Azərbaycanda sənaye istehsalı 40 faiz artıbdır. Bunun nəticəsində ölkəyə böyük valyuta axını gəlir, büdcəmiz ildən-ilə artır və imkan verir ki, biz sosial məsələlərin həlli üçün vəsait ayıraq. Rayonların abadlaşmasına vəsait ayıraq. Daşkəsən rayonunun timsalında da biz bunu görürük.

Güclü iqtisadi potensial Azərbaycan üçün çox önəmlidir. Çünki qarşıda duran bütün vəzifələrin həlli üçün əsas şərt iqtisadi güc, iqtisadi potensialdır. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə başlanmış Azərbaycanın müasir neft strategiyasının nəticəsi olan Bakı–Tbilisi–Ceyhan neft kəmərinin işə düşməsi tarixi hadisədir. Bütün iqtisadiyyata təkan verən hadisədir. İndi bu nadir imkanlardan istifadə etməli, güclü sənaye kompleksi yaratmalıyıq. Bu məqsədlə Azərbaycanda Sənaye və Energetika Nazirliyi yaradılmışdır. Nazirlik qarşısında konkret vəzifələr qoyulmuşdur ki, qısa müddət ərzində Azərbaycanın qeyri-neft sektorunun inkişafına dair proqram təqdim olunsun, biz bunu qəbul edək və işə başlayaq. Qısa müddət ərzində Azərbaycanda müxtəlif sahələrdə yeni, müasir standartlara cavab verən sənaye kompleksləri, sənaye istiqamətləri yaranacaqdır.

Əminəm ki, filizsaflaşdırma kombinatının fəaliyyətə başlaması böyük bir sənaye kompleksinin yaranması deməkdir. Bu işlər digər sahələrdə, bütün qeyri-neft sektorunda getməlidir. İndi bizim diqqət mərkəzimizdə duran əsas məsələ qeyri-neft sektorunun inkişafıdır. Çünki neft-qaz sektorunda işlərimiz yaxşı gedir, bütün vəzifələri yerinə yetirmişik. Bakı–Tbilisi–Ceyhan neft kəməri artıq fəaliyyətdədir, Bakı–Tbilisi–Ərzurum qaz kəməri bu ilin sonuna qədər işə başlayacaqdır. Beləliklə, biz neft-qaz sektorunda bütün məsələlərin həllinə nail olmuşuq. İndi əsas məsələ qeyri-neft sektorudur. Sənaye istehsalı, infrastruktur layihələr və sosial məsələlərin həlli. Bütün bunlar bir-birinə bağlıdır və ilk növbədə iqtisadi potensiala bağlıdır. Məsələn, buraya çəkilən yolun timsalında biz bunu görürük. Əgər

Azərbaycanın uğurlu iqtisadi siyasəti olmasaydı, büdcə gəlirləri artmasaydı, bu yolu nəyin hesabına çəkə bilərdik? Ancaq və ancaq uğurlu iqtisadi siyasət nəticəsində büdcə gəlirləri artır, əlavə vəsait yaranır və biz bu vəsaiti infrastruktur layihələrə və insanları narahat edən məsələlərə xərcləyirik və bundan sonra da bu istiqamətə yönəldəcəyik. Məktəblər tikilir. Daşkəsən rayonunda da tikilir və bu gün mən yeni təmir olunmuş məktəbə də baş çəkdim. Orada şəkillər asılmışdı, məktəbin əvvəlki və indiki vəziyyətini gördüm. Çox böyük fərq var.

Eyni zamanda, məktəbdə bütövlükdə Daşkəsən rayonunun əvvəlki və indiki vəziyyətini əks etdirən fotoşəkillər nümayiş etdirilirdi. Mən ilk dəfədir ki, Daşkəsən rayonundayam. Ona görə mən müqayisəni yalnız bu fotoşəkillər vasitəsilə edə bilərəm. Siz, burada yaşayan insanlar bunu əyani şəkildə görürsünüz. Qısa müddət ərzində rayonun demək olar ki, bütün siması dəyişibdir. Yollar salınıb, asfaltlaşdırılıb, işıq dirəkləri qoyulub, parklar salınıb, binalar təmir olunub və rayon çox gözəl görkəm alıbdır. Bütün bunları etmək mümkündür. Bu onu göstərir ki, əgər iradə varsa və əgər düzgün qərarlar qəbul olunursa, hər bir şeyi etmək mümkündür. Qərarlar da qəbul olunur. Bilirsiniz ki, Daşkəsən rayonunun inkişafına dair xüsusi sərəncam imzalanmışdır. Sərəncamda nəzərdə tutulan məsələlər rayonun bütövlükdə abadlaşmasına və infrastrukturun yeniləşməsinə gətirib çıxaracaq və artıq biz bunun ilkin nəticələrini görməkdəyik. Daşkəsən rayonunun rəhbərliyi dəyişdirilmiş, yeni icra hakimiyyəti başçısı təyin edilmişdir. Qısa müddət ərzində böyük işlər görülübdür və bunları qeyd etmək mümkündür. İş görmək üçün qərarlar, proqramlar qəbul olunmalı, maddi vəsait ayrılmalı, düzgün kadr siyasəti aparılmalı və yerlərdə işləyən insanlar öz vəzifə borcunu ləyaqətlə icra etməlidirlər. Bütün bunlar Daşkəsən rayonunun timsalında var və çox şadam ki, mənim təyin etdiyim icra hakimiyyəti başçısı Tahir sizin etimadınızı və mənim eti-

madımı doğruldubdur. Hər bir adamın əməlləri onun gördüyü işlərdə öz əksini tapır. Söz demək, vəd vermək olar, hansısa bəyanat vermək olar. Amma bunların arxasında konkret işlər dayanmırsa, heç bir əhəmiyyəti yoxdur.

Ona görə mən həmişə demişəm, bir də demək istəyirəm ki, bizim siyasətimiz bizim işimizdir. Bizim siyasətimiz görülən işlərdir, əldə olunan nəticələrdir, yaradılan müəssisələr, açılan iş yerləri, tikilən məktəblər, salınan yollar, körpülər, tikilən elektrik stansiyaları, su xətləridir. Budur bizim siyasətimiz, budur bizim işimiz. Bu gün səhər Gəncə şəhərində aeroportun açılışında iştirak edirdim. Aeroportun tikilməsi də mənim təşəbbüsümlə başlanmışdı və indi ən yüksək dünya standartlarına cavab verir. İndi başqa yerlərdən insanlar yeni alınmış xarici istehsallı rahat təyyarələrlə uçacaq, gözəl aeroportun xidmətindən istifadə edəcək, gözəl yolla Daşkəsənə gələcək və Daşkəsəndə bu abadlığı, bundan sonrakı inkişafı görəcəklər. Bütün bunları edirik, edəcəyik. Ölkəmizi hərtərəfli inkişaf etdiririk, Azərbaycan xalqının rahat yaşamasını təmin edirik.

Əziz daşkəsənlilər, çox şadam ki, bu gün sizinlə birlikdəyəm. Ağsaqqal öz çıxışında daşkəsənlilərin mənə olan münasibətini bildirdi. Mən də öz tərəfimdən demək istəyirəm ki, daşkəsənliləri sevirəm, daşkəsənliləri dəstəkləyirəm və Daşkəsənin hərtərəfli inkişafı üçün bundan sonra da əlimdən gələni əsirgəməyəcəyəm. Sizi kombinatın işə başlaması münasibətilə bir daha ürəkdən təbrik edirəm, hər birinizə cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun.

* * *

*Prezident İlham Əliyev sonra mərasim iştirakçıları ilə söhbət etdi, müəssisənin işçiləri, eləcə də yerli sakinlərlə xatirə şəkli çəkdirdi.*

*Dövlətimizin başçısı daha sonra bu yüksəklikdən filiz yataqlarını, kanat yollarını, Daşkəsəni, uzaqda görünən Gəncə*

*şəhərini seyr etdi və mənzərəli yerlərdə xanımı Mehriban Əliyeva ilə birlikdə xatirə şəkli çəkdirdi.*

## Daşkəsəndə Qarabağ Müharibəsi Əlilləri və şəhid ailələri üçün yeni yaşayış binasının istifadəyə verilməsi

*Daşkəsən şəhərində oktyabrin 31-də Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün tikilmiş yaşayış binası istifadəyə verilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyevanı burada böyük hörmət və ehtiramla, gül-çiçəklə qarşıladılar.*

*Dövlətimizin başçısına məlumat verildi ki, 12 mənzildən ibarət üçmərtəbəli binanın iki mərtəbəsi Nazirlər Kabinetinin, bir mərtəbəsi isə Heydər Əliyev Fondunun vəsaiti hesabına tikilmişdir. Birinci, ikinci mərtəbələrdəki 8 mənzil aidiyyəti üzrə paylanır. Üçüncü mərtəbədəki 4 mənzil isə internat məktəbində böyümüş gənclər ailə qurduqdan sonra onlara veriləcəkdir.*

*Prezident İlham Əliyev mənzillərə baxaraq, burada yaradılan şəraitlə yaxından tanış oldu və görülən işləri yüksək qiymətləndirdi. Respublikamızın rəhbəri adından hər mənzilə televizor hədiyyə edildi.*

*Sonra dövlətimizin başçısı mənzillərin orderlərini sahiblərinə təqdim etdi.*

*Şəhid Mikayıl Mustafayevin atası Murtuzəli Mustafayev prezidentə müraciət edərək, şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə göstərilən qayğıya, o cümlədən belə rahat mənzillər verilməsinə görə minnətdarlığını bildirdi.*

*Rayon Qarabağ müharibəsi əlilləri və şəhid ailələri ictimai birliyinin sədri Bəxtiyar İsmayılov da dövlətimizin başçısına təşəkkür edərək gələcəkdə də belə binaların tikilməsinə ehtiyac olduğunu söylədi.*

**İ l h a m Ə l i y e v:** Burada nə qədər Qarabağ müharibəsi əlili var?

**B ə x t i y a r İ s m a y ı l o v:** Daşkəsən rayonunda 38 nəfərdir.

**İ l h a m Ə l i y e v:** Onların ev şəraiti yaxşı deyil?

**B ə x t i y a r I s m a y ı l ov:** Xeyr.

**İ l h a m Ə l i y e v:** Yavaş-yavaş həll edərik. İndi bütün rayonlarda şəhid ailələri, Qarabağ əlilləri üçün yaşayış binaları tikilir və daha da çox tikiləcəkdir. Bizim iqtisadi imkanlarımız artır. İlk növbədə, biz ehtiyacı olan insanların həyat səviyyəsini yaxşılaşdırmalıyıq. Xüsusilə Qarabağda vuruşan və sağlamlığını itirmiş insanların həyat səviyyəsini yaxşılaşdırmaq hər bir vəzifəli şəxsin borcu olmalıdır. O cümlədən, şəhid ailələrinə qayğı. Düzdür, bu evlər, bu şərait həlak olmuş insanları qaytarmaz. Amma heç olmasa, sizin dərdinizi bir balaca yüngülləşdirər. Ona görə bu siyasət Azərbaycanda aparılır. Bütün rayonlarda bu siyasət davam edəcəkdir. Ona görə də siz arxayın olun, belə binalar çox tikiləcəkdir.

Sizi bir daha təbrik edirəm. Arzu edirəm ki, bu gözəl evdə xoşbəxt yaşayasınız. Siz çox böyük çətinliklər çəkmisiniz, əlil olmusunuz, doğmalarınızı itirmisiniz. Ona görə gərək bütün icra nümayəndələri sizə qayğı göstərsinlər.

İcra hakimiyyətinin başçısı da burada yaxşı işlər görür. Görürsünüz ki, Daşkəsəndə qısa müddətdə böyük dəyişikliklər olubdur.

**M u r t u z ə l i M u s t a f a y e v:** Cənab Prezident, hələ indiyədək Daşkəsən rayonuna belə icra nümayəndəsi gəlməmişdi. Göndərdiyiniz kadra görə çox sağ olun. Bütün sakinlər adından Sizə dərin minnətdarlığımızı bildiririk. Sizin göstərişləriniz uğurla icra edilir. Daşkəsən camaatının 85 faizi işsizlikdən qurtarıbdır. İndi normal şəraitdə yaşayırıq. Sizə çox minnətdarıq. Hazırda başqa rayonlardan gəlib Daşkəsəndə işləyirlər. Vaxtilə bizim camaat buradan Şəmkirə,

Bakıya, başqa yerlərə çörək dalınca gedirdi. Bəli, Sizin sayənizdə çörək tapmışıq. Günümüz çox yaxşı keçir.

**İlham Əliyev:** Düz deyirsiniz, bundan sonra buraya başqa rayonlardan işləməyə gələcəklər. İndi böyük kombinat işə başlayır. Burada minlərlə insan işləyəcəkdir. Zavodlar olacaq, infrastruktur yaradılır, yol çəkilir. Bilmirəm, siz təzə yolla getmisiniz, yoxsa yox, çox yüksək səviyyədədir.

**Murtuzəli Mustafayev:** Bəli, getmişik. Cənab Prezident, ilk dəfədir Daşkəsən rayonuna bu cür yol çəkilibdir. Heç SSRİ-nin vaxtında da belə yol olmayıbdır.

**İlham Əliyev:** Düzdür, heç vaxt olmayıbdır. Amma indi ən yüksək səviyyədədir. Ona görə də Daşkəsən rayonu irəliyə gedəcəkdir. Artıq burada gözəl işlər görülür, şəhər abadlaşır. İndi işıq, qaz problemi də həll olunur. Elektrik enerjisi ilə təminat necədir?

**Murtuzəli Mustafayev:** Yaxşıdır, problem yoxdur. Əvvəllər çətinlik olurdu, amma indi yoxdur.

**İlham Əliyev:** İndi biz Azərbaycanda 6 elektrik stansiyası tikirik. Nə üçün? Ona görə ki, hər yerdə işıq olsun. Ən ucqar kənddə də, ən uzaqda yerləşən yerdə də işıq olmalıdır. Daşkəsən də belə yerlərdən biridir. Azərbaycanın başqa rayonlarından fərqli olaraq, ucqar rayondur. Özü də buraya yol ancaq Gəncədəndir. Ona görə prinsipcə belə rayonların, yəni əsas magistral yollardan kənarda yerləşən rayonların inkişafına daha da böyük diqqət göstərilməlidir. Çünki mərkəzdə yerləşən rayonlarda iş daha çoxdur, gediş-gəliş var, ticarət daha yaxşı gedir. Amma ucqar yerlərdə imkanlar o qədər də geniş deyildir. Ona görə ilk növbədə diqqət bu rayonlara göstərilməlidir.

Biz Lerikə, Yardımlıya, Xınalığa, indi Daşkəsənə yol çəkdik. Nə üçün? İnsanlar rahat gedib-gəlsinlər, yaxşı yaşasınlar. Bu bizim planlarımızdır və siz də bunu görürsünüz ki, burada qısa müddətdə çox böyük dəyişikliklər olubdur. Bundan sonra da olacaq ki, insanlar yaxşı yaşasınlar.

**T a h i r K ə r i m o v:** Cənab Prezident, Sizin rayonların inkişafı, insanların yaxşı yaşaması üçün qarşıya qoyduğunuz hər bir tapşırığı bundan sonra da ləyaqətlə yerinə yetirməyə çalışacağıq.

**B ə x t i y a r İ s m a y ı l o v:** Cənab Prezident, rayon rəhbərliyi tərəfindən Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinə qayğı göstərilir.

**İ l h a m Ə l i y e v:** Hər bir vəzifəli şəxs xalqa xidmət etməlidir. Prezident kimi, mən də öz borcumu bunda görürəm. Mən xalqa xidmət etmək üçün işləyirəm.

**M u r t u z ə l i M u s t a f a y e v:** Xalq Sizin arxanızdadır, Sizi dəstəkləyir, Sizə minnətdarıq. Bütün şəhid ailələri Sizin daxili və xarici siyasətinizi dəstəkləyir.

**B ə x t i y a r İ s m a y ı l o v:** Cənab Prezident, Daşkəsən rayonu xoşunuza gəldimi?

**İ l h a m Ə l i y e v:** Çox. Mən birinci dəfədir Daşkəsənə gəlirəm. Çox gözəl, səfalı məkandır. Dağlar, yollar, çaylar – yolun kənarı ilə də çay axır – çox gözəl mənzərədir. Şəhərin mərkəzi də çox müasirdir. Amma düzdür, köhnə şəkillərə baxanda mən bir az təəccübləndim və dedim ki, belə olmaz. Rayon son altı ay ərzində görkəmini tamamilə dəyişdi. Bütün binalar rənglənir, yeni binalar tikilir, təmir olunur, küçələr asfaltlanır, işıq dirəkləri qoyulur. Burada abadlıq var.

**M u r t u z ə l i M u s t a f a y e v:** Cənab Prezident, Daşkəsən sanki Londondur. Qəribə səslənsə də, əvvəlki vəziyyətə baxdıqda, indi Londona bənzətmək olar. Bu, qısa müddətdə Sizin köməyinizlə olmuşdur.

**İ l h a m Ə l i y e v:** Amma Londonda belə gözəl dağlar, belə təmiz hava yoxdur.

**B ə x t i y a r İ s m a y ı l o v:** Cənab Prezident, Sizdən bir xahişimiz də var. Rayonumuzdan olan Qarabağ müharibəsi əlilləri uzun müddətdir avtomobil növbəsindədirlər. İndiyədək Daşkəsəndən bir nəfər də avtomobil almayıbdır.

**İ l h a m Ə l i y e v:** Almayıb?

**T a h i r  K ə r i m o v:** Cənab Prezident, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri ilə danışmışam.

**İ l h a m  Ə l i y e v:** Mənim adımdan deyin, tezliklə təşkil edib göndərsin.

**B ə x t i y a r  İ s m a y ı l o v:** Cənab Prezident, çox sağ olun.

*Prezident İlham Əliyev yeni mənzillərin sahiblərini bir daha təbrik etdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN GƏDƏBƏY RAYONUNA SƏFƏRİ

*1 noyabr 2006-cı il*

*Azərbaycan prezidenti İlham Əliyev noyabrın 1-də Gədəbəy rayonunda olmuşdur. Rayon mərkəzinə toplaşan minlərlə sakin dövlətimizin başçısını və xanımı Mehriban Əliyevanı böyük hörmət və ehtiramla, əsl bayram əhval-ruhiyyəsi ilə, gül-çiçəklə qarşıladılar. Prezident İlham Əliyev Heydər parkında ucaldılmış ulu öndərin abidəsini ziyarət etdi. Dövlətimizin başçısı və xanımı abidənin önünə gül dəstələri qoydular və parka tamaşa etdilər. Müəllifi Xalq rəssamı Natiq Əliyev olan abidənin hündürlüyü postamentlə birlikdə 6 metrdir. 5 hektar ərazisi olan parkda sakinlərin istirahəti üçün lazımi şərait yaradılmışdır.*

*Sonra prezident İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri qarşısında nitq söylədi.*

**İ l h a m  Ə l i y e v:** Əziz bacılar və qardaşlar!

Əziz gədəbəylilər!

Mən sizin hamınızı ürəkdən salamlayıram, sizə öz hörmət və məhəbbətimi bildirirəm.

Mən ilk dəfədir ki, Gədəbəy rayonundayam. Çoxdan gəlmək istəyirdim, planlaşdırırdım və bu gün buradayam, sizinlə birlikdəyəm. Mən çox şadam ki, Azərbaycanın bütün yerlərində olduğu kimi, Gədəbəydə də sürətli inkişaf gedir, abadlıq-quruculuq işləri gedir, məktəb tikintisi geniş vüsət alıbdır. Çox istəyirəm ki, rayonun infrastrukturu yeniləşsin, müasirləşsin.

Gədəbəyin çox gözəl təbiəti, çox gözəl iqlimi var. Burada turizmin inkişafı üçün çox böyük işlər görmək olar. Mən he-

sab edirəm ki, əgər biz bu məsələlər üzərində birlikdə, səmərəli işləsək, qısa müddət ərzində bu gözəl diyar turistlər üçün də çox cəlbedici ola bilər. Bütövlükdə rayonun hərtərəfli inkişafı üçün bütün işlər görülür. Müvafiq sərəncamlar verilmişdir, Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramında xüsusi tapşırıqlar öz əksini tapmışdır. Beləliklə, rayonun inkişafı ilə bağlı işlər ardıcıl və məqsədyönlü şəkildə aparılır.

İndi Azərbaycanın hər bir yerində sürətli inkişaf var. Yeni iş yerləri yaradılır, yeni müəssisələr, fabriklər açılır və insanların həyat səviyyəsi yaxşılaşır. İş yerlərinin açılması bir tərəfdən, ölkə iqtisadiyyatının hərtərəfli inkişafına kömək edir, digər tərəfdən, insanların həyat səviyyəsini yaxşılaşdırır. Son 3 il ərzində Azərbaycanda təxminən 500 min yeni iş yeri açılmışdır. Bu bizə imkan verir ki, ölkə iqtisadiyyatı sürətlə inkişaf etsin. Azərbaycanda büdcə gəlirləri artır, sosial məsələlər öz həllini tapır, maaşlar, pensiyalar artır. Beləliklə, insanlar da yaxşı yaşamağa başlayır, iqtisadiyyat da inkişaf edir. Regionların sosial-iqtisadi inkişafı proqramının əsas məqsədi də məhz budur – ölkəmizi hərtərəfli inkişaf etdirmək. Bunu etmək üçün bizim imkanlarımız var, proqramlarımız var.

İmkanlarımız da getdikcə artır. Ulu öndər Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycanda geniş neft-qaz əməliyyatları başlanmışdır. 10 ildən artıqdır ki, bu proses sürətlə gedir və Bakı–Tbilisi–Ceyhan neft kəmərinin fəaliyyətə başlaması onun məntiqi nəticəsidir. Bundan sonra Azərbaycanın iqtisadi inkişafı çox yüksək sürətlə gedəcəkdir. İndi də belədir, bizim iqtisadiyyatımız dünyada analoqu olmayan sürətlə inkişaf edir. Dünyada bu göstəriciyə görə Azərbaycan birinci yerdədir. Biz istəyirik ki, həyat səviyyəsi baxımından da Azərbaycan dünyada birinci yerdə olsun. Biz istəyirik ki, Azərbaycanda işsizlik, yoxsulluq aradan qaldırılsın. Bütün səylərimizi bu istiqamətə yönəltmişik. Çünki belə olarsa, onda Azərbaycanın bütün məsələləri öz həllini tapa bilər.

Qlobal məsələlər öz həllini tapır, iqtisadiyyatın ümumi inkişafı bizi qane edir, eyni zamanda, hər bir rayonun inkişafına da böyük diqqət göstərilir. Ona görə rayonlara səfərlər edərkən həm vəziyyətlə tanış oluram, həm də müvafiq göstərişlər verirəm. Göstərişlər nəticəsində konkret proqramlar müəyyən olunur və icrasına başlanır. Bütün sahələrdə bu proqramlar var.

Mən qeyd etdim, son illər ərzində Gədəbəy rayonunda məktəb tikintisi çox sürətlə gedir. Siz də bunu bilirsiniz. Bu, Azərbaycanda çox böyük problemdir. Çünki məktəb binalarının tam əksəriyyəti köhnəlmiş vəziyyətdədir. Bəziləri yararsız vəziyyətdədir və uşaqlar çox çətin şəraitdə oxuyurlar. Müəllimlər də çox çətin şəraitdə işləyirlər. Bunu aradan qaldırmaq üçün indi Azərbaycanın hər yerində geniş məktəb tikintisi aparılır. Son 3 il ərzində 700-dən çox məktəb tikilibdir. Növbəti illərdə məktəb tikintisi daha da genişlənəcəkdir. Bu tikinti həm dövlət xətti ilə, həm də Heydər Əliyev Fondunun təşəbbüsü ilə aparılır.

Azərbaycanda xəstəxana tikintisi sürətlə getməlidir. Regionlarda artıq müasir xəstəxanalar inşa olunur. Bu bölgədə – həm Gəncədə, həm də Qazaxda yeni, müasir, bütün standartlara cavab verən müalicə-diaqnostika mərkəzləri tikilir. Bu bölgədə yaşayan insanların yaxşı tibbi xidmət almaq üçün artıq Bakıya getməsinə ehtiyac olmayacaqdır. Bu yaxınlarda Gəncədə, Qazaxda açılacaq xəstəxanalar bütün bölgə əhalisinə xidmət göstərəcəkdir. Ancaq bu, işimizin birinci mərhələsidir. İkinci mərhələdə hər bir rayon mərkəzində müasir xəstəxana və tibb mərkəzi açılacaqdır ki, insanlar ən yüksək tibbi xidmət ala bilsinlər.

Pensiyalar, maaşlar, minimum əməkhaqqı artırılır. Müəllimlərin, səhiyyə işçilərinin, digər kateqoriyadan olan insanların əməkhaqqı artırılır və son 3 il ərzində dəfələrlə artırılıbdır. Düzdür, bu bizi indi tam qane edə bilməz. Çünki büdcədən maliyyələşən təşkilatlarda işləyənlərin əməkhaqqı

hələ aşağıdır. Ancaq biz nail olacağıq ki, bu əməkhaqqı insanların bütün tələbatını ödəyə bilsin.

Ölkənin hərtərəfli inkişafı üçün sahibkarlığın inkişafının da böyük əhəmiyyəti var. Bu məsələyə də çox böyük diqqət göstərilir. Sahibkarların fəaliyyəti üçün lazımi şərait yaradılır, kreditlər ayrılır. Hər il fermerlərə, kənd təsərrüfatı ilə məşğul olanlara, emal müəssisələri yaratmaq istəyənlərə 100 milyon dollar səviyyəsində kreditlər verilir. Sahibkarlıq vasitəsilə ölkəmizdə işsizlik də, yoxsulluq da aradan qaldırılacaqdır. Yaradılan «Aqrolizinq» Səhmdar Cəmiyyəti xüsusilə kənd təsərrüfatı ilə məşğul olanlar üçün nəzərdə tutulubdur. Azərbaycan əhalisinin, demək olar ki, yarısı kəndlərdə yaşayır. Gədəbəy rayonunda da kənd təsərrüfatı iqtisadiyyatın əsas istiqamətidir. «Aqrolizinq»in möhkəmlənməsi və geniş fəaliyyətə başlaması Azərbaycanda kənd təsərrüfatının inkişafına böyük təkan verəcəkdir. Bizim çox gözəl imkanlarımız var, çox gözəl təbii şəraitimiz – iqlimimiz, torpağımız var. Sadəcə olaraq müasir, yeni texnika, gübrələr alınmalı, kəndlilərə icarəyə verilməlidir. Beləliklə, məhsul istehsalı daha da sürətlə artacaqdır.

Azərbaycan özünü əsas kənd təsərrüfatı məhsulları, o cümlədən əsas ərzaq məhsulları ilə təmin etməlidir. Əfsuslar olsun ki, biz hələlik buna nail ola bilməmişik, ərzaq məhsullarının böyük əksəriyyəti xaricdən gətirilir. Ancaq son illər ərzində artıq bu nisbət yerli istehsalçıların xeyrinə dəyişir. Bütün bölgələrdə yeni fabriklər açılır, yeni zavodlar açılır. Bu həm yeni iş yeri, həm də yerli istehsal deməkdir, idxalı əvəzləmək, vergilərin çoxalması deməkdir. Bütün bunlar bir-birilə çox bağlıdır. Ona görə bizim diqqət yetirdiyimiz məsələlər, demək olar ki, ölkə qarşısında duran bütün sahələri əhatə edir.

Qlobal məsələlər – Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisi və fəaliyyətə başlaması Azərbaycan siyasətinin təntənəsidir. Bu yaxınlarda qaz kəməri istismara veriləcəkdir.

Digər önəmli, qlobal əhəmiyyət daşıyan məsələlər öz həllini tapır.

Eyni zamanda, hər bir kəndin məsələsi də diqqət mərkəzində olmalıdır. Bunu etmək üçün, əlbəttə, ancaq gözəl proqramlar qəbul etmək, yaxud da qərarlar vermək kifayət etməz. Bütün aidiyyəti qurumlar səmərəli işləməlidir. Qərarlar verilməlidir və yerlərdə icra nümayəndələri onları ləyaqətlə yerinə yetirməlidir. Yalnız o təqdirdə biz istədiyimizə nail ola bilərik. İstədiymiz də çox aydın və çox açıqdır.

Biz istəyirik ki, güclü ölkə yaransın. Biz istəyirik ki, Azərbaycanın mövqeləri daha da möhkəmlənsin və bölgədə gedən bütün proseslərdə Azərbaycan fəal iştirak etsin. Bu indi də var. Bu gün biz bölgədə liderlik mövqelərimizi möhkəmləndiririk. Ancaq mən istəyirəm ki, daha da möhkəm olsun. Azərbaycan nəinki bölgədə gedən proseslərdə, geniş mənada, bizim qitədə gedən proseslərdə öz sözünü deyə bilsin. Bu gün bu belədir. Həm coğrafi mövqeyimiz, həm siyasi əhəmiyyətimiz, eyni zamanda, təbii sərvətlərimizin olması və onların artıq dünya bazarlarına çıxarılması Azərbaycanın önəmini qat-qat artırır. Bu, ölkənin hərtərəfli inkişafına yaxşı xidmət göstərəcəkdir. O cümlədən, daxili siyasət də Azərbaycanın inkişafına yönəldilibdir. İctimai-siyasi asayişin qorunması, sabitliyin qorunması əsas məsələlərdir. Biz görürük, harada sabitlik pozulursa, bütün işlər də tamamilə pozulur, ölkə iqtisadiyyatı tənəzzülə uğrayır, ölkədə xoşagəlməz proseslər başlayır, asayiş pozulur, xaos yaranır. Ondan sonra bu xaosun nəticələrini aradan qaldırmağa başlayırlar.

Azərbaycan öz tarixində, 90-cı illərin əvvəllərində bu acı məqamları yaşamışdır. Ölkə faktiki olaraq dağılırdı. Ölkədə gedən proseslər Azərbaycanın parçalanmasına gətirib çıxarırdı, faktiki olaraq bizim müstəqilliyimizə son qoya bilərdi. Ulu öndər Heydər Əliyevin müdrikliyi, cəsarəti və siyasəti, xalqın onu dəstəkləməsi Azərbaycanı o bəlalardan qurtardı və 1993-cü ildən başlayaraq bu günə qədər Azərbaycan öz

inkişaf dövrünü yaşayır. Biz bu inkişaf dövrünü əbədi, dönməz etmişik. Bu inkişaf dövrü Azərbaycan xalqına, onun rifah halının yaxşılaşmasına xidmət edir. Ölkəmizin rahat şəraitdə, sabitlik şəraitində yaşamasına xidmət edir. Azərbaycanda çox gözəl ictimai-siyasi ab-hava var. Xalqla iqtidar arasında birlik var. Bizim bütün proqramlarımız xalq tərəfindən dəstəklənir və məhz bunun nəticəsində uğurla icra edilir.

Əlbəttə, mən heç şübhə etmirəm ki, Azərbaycanın gələcək inkişafı uğurlu olacaqdır. Bunu etmək üçün bütün imkanlarımız var. Siyasi iradə, xalqla iqtidar arasında birlik var, iqtisadi potensial, təbii ehtiyatlar var, insanların intellektual potensialı var. Bütün bunlar hər bir ölkənin uğurlu inkişafını şərtləndirən amillərdir.

Biz bunların hamısını Gədəbəy rayonunun timsalında da görürük.

Rayonun gələcək inkişafı, infrastrukturun yeniləşməsi üçün əlavə tədbirlər görüləcəkdir. Mən çıxışımın əvvəlində dedim, ilk dəfədir Gədəbəydəyəm və gördüm ki, Şəmkirdən Gədəbəyə gələn yol bizi qane edə bilməz, standartlara uyğun deyildir. Bu gün burada Nəqliyyat Nazirliyinə tapşırıq verirəm ki, layihə hazırlasınlar və Şəmkir–Gədəbəy yolunun əsaslı təmirini təşkil etsinlər.

İndi Azərbaycanda yeni çəkilən yollar ən yüksək standartlara cavab verir. O cümlədən, Gəncə–Qazax avtomobil yolu yenidən tikilibdir. Bakı–Qazax avtomobil yolu tikilir. Şəmkir–Gədəbəy avtomobil yolu tikiləndən, müasir səviyyəyə gətiriləndən sonra insanlar buradan maşınla Şəmkirə, oradan istər Bakı istiqamətinə, istərsə də Qazax istiqamətinə rahat gedəcəklər. İnsanların rahatlığı birinci məsələdir və biz buna nail olacağıq.

Əziz dostlar, mən sizi bir daha ürəkdən salamlayıram. Əminəm ki, Gədəbəy rayonunun inkişafı bundan sonra da uğurlu olacaqdır. Bu bizim hamımızdan – həm dövlətdən, həm yerli nümayəndələrdən, həm də burada yaşayan in-

sanlardan asılıdır. Sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun.

* * *

*Sonra prezident İlham Əliyev sakinlərlə görüşüb hal-əhval tutdu, onların qayğı və problemləri ilə maraqlandı.*

*Dövlətimizin başçısına dərin minnətdarlıqlarını bildirən gədəbəylilər ümummilli lider Heydər Əliyevin tarixi xidmətlərini yada saldılar və ölkənin ümumi inkişafına, o cümlədən Gədəbəy rayonuna göstərdiyi qayğıya görə prezidentə təşəkkür etdilər, gələcək işlərində ona uğurlar arzuladılar.*

*Prezident Gədəbəyin «Xalq aşıqları» ansamblının ifasını dinlədi. Aşıqlar dövlətimizin başçısına həsr etdikləri mahnını ifa etdilər. Onlar mədəniyyətimizə, muğamımıza göstərdikləri diqqət və qayğıya görə Azərbaycan prezidenti İlham Əliyevə və YUNESKO-nun Xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyevaya ürəkdən təşəkkür etdilər.*

*Dövlətimizin başçısı el sənətkarlarına minnətdarlığını bildirdi.*

## Gədəbəy filiz yatağı nümunələrindən ibarət sərgi ilə tanışlıq

*Prezident İlham Əliyev noyabrın 1-də Azərbaycan Beynəlxalq Mədən Əməliyyat Şirkətinin Gədəbəy filiz yatağı nümunələrindən ibarət sərgisi ilə tanış olmuşdur.*

*Şirkətin Baş direktoru Qorden Luis dövlətimizin başçısına sərgidə nümayiş etdirilən filiz nümunələri və yatağın işlənilməsi layihələri barədə məlumat verdi. XIX əsrin ikinci yarısında Almaniyanın «Siemens qardaşları» firması Gədəbəy ərazisində yerləşən mis yataqları bazasında iri misəritmə zavodları yaratmışdılar. XX əsrin əvvəllərinədək bu zavodlarda min tonlarla mis əridilmişdi. Azərbaycan Beynəlxalq*

*Mədən Əməliyyat Şirkəti yeni yataqların axtarışına 2005-ci ilin fevralından başlamışdır. Hazırda burada 100-dən artıq işçi çalışır və gələcəkdə onların sayı daha da artacaqdır. Gədəbəy rayonu müxtəlif faydalı qazıntılarla zəngindir. Kəşfiyyat-qazma işlərində ən müasir texnologiyalardan istifadə edilir.*

*Prezident İlham Əliyev ərazini seyr etdi, yatağın iş planı, filiz nümunələri ilə tanış oldu, aparılan kəşfiyyat-qazma proseslərini əks etdirən fotoşəkillərə baxdı.*

*Dövlətimizin başçısına Azərbaycan Beynəlxalq Mədən Əməliyyat Şirkəti adından minerallardan ibarət hədiyyə təqdim olundu.*

## Gədəbəy İdman Kompleksi ilə tanışlıq

*Prezident İlham Əliyev noyabrın 1-də Gənclər və İdman Nazirliyi tərəfindən tikilmiş və yeni istifadəyə verilmiş Gədəbəy İdman Kompleksi ilə tanış olmuşdur.*

*İdmançılar dövlətimizin başçısını və xanımını səmimiyyətlə qarşıladılar, onlara gül dəstələri təqdim etdilər.*

*Kompleksdə idmanın müxtəlif növləri ilə məşğul olmaq üçün gözəl şərait yaradılmışdır və burada respublika əhəmiyyətli yarışlar keçirmək mümkündür. Açıq havada futbol, mini-futbol, basketbol, voleybol meydançaları da tikilmişdir. Gələcəkdə qış idman növləri üzrə qurğuların yaradılması da nəzərdə tutulmuşdur. Bütün bunlar ucqar dağ rayonu olan Gədəbəydə bədən tərbiyəsi və idmanın inkişafına güclü təkan verəcəkdir.*

*Dövlətimizin başçısı geniş idman zalında kiçik yaşlı cüdoçuların və stolüstü tennisçilərin məşqlərinə tamaşa etdi. Balaca cüdoçular Tamerlan Hüseynov və Rüfət Quliyev öz məharətlərini nümayiş etdirdilər. Rayonda müxtəlif yaş qrupları üzrə futbol komandaları da yaradılmışdır.*

*Prezident İlham Əliyev futbol meydançasını gəzdi, topa zərbə də endirdi. Gədəbəydə idmanın inkişafı üçün yaradılmış şəraiti yüksək qiymətləndirən dövlət başçısı ölkəmizdə gənc*

*nəslin sağlam böyüməsinə bundan sonra da qayğı göstəriləcəyini bildirdi.*

## Slavyanka kəndində görüşlər

*Prezident İlham Əliyev noyabrın 1-də Gədəbəy rayonunun əhalisi əsasən ruslardan ibarət olan Slavyanka kəndində olmuşdur.*

*Rus icmasının nümayəndələri dövlət başçısını və xanımını böyük mehribanlıqla, duz-çörəklə qarşıladılar, onlara gül dəstələri təqdim etdilər.*

*Prezidentlə görüşə qonşu İvanovka və Saratovka kəndlərinin sakinləri də gəlmişdilər.*

*Slavyankanın ağsaqqalı İvan Popov və kəndin digər sakinləri Azərbaycan dövlətinin başçısını səmimiyyətlə salamlayaraq regionların, o cümlədən ucqar kəndlərin inkişafına daim diqqət yetirdiyinə görə ona minnətdarlıq etdilər.*

**İlham Əliyev:** Hörmətli kənd sakinləri, məni mehribanlıqla qarşıladığınıza görə hamınıza təşəkkür edirəm.

Azərbaycan burada yaşayanların hamısının vətənidir. Milliyyətindən, dinindən asılı olmayaraq, hamı qardaşımızdır. Bu, Azərbaycanın uğurlu inkişafının təminatıdır. Əlbəttə ki, Azərbaycanda uzun illərdən, onilliklərdən, əsrlərdən bəri yaşayan ruslar da ölkəmizin layiqli vətəndaşlarıdır. Onlar keçmişdə olduğu kimi, indi də Azərbaycanın inkişafına çox böyük töhfə verirlər.

**İvan Popov:** Mən özüm haqqımda belə deyəcəyəm. Otuz il tarlaçılıq briqadiri işləmişəm. Bizim nəsil mərhum atanız Heydər Əliyeviçi yaxşı tanıyır və sevirdi. İş elə gətirmişdi ki, mənim briqadam tez-tez rayonda birinci olurdu. Bir dəfə o mənə «Volqa» avtomobili hədiyyə edilməsi barədə göstəriş verdi. Yəni Əliyevlə biz çoxdan tanış idik, qiyabi olsa da, hər halda, tanış idik.

Mənim mərhum valideynlərim televizora baxmırdılar, amma Heydər Əliyeviç çıxış edəndə mütləq onu dinləyir-

dilər. Çıxışa əvvəldən axıradək baxırdılar, ertəsi gün təkrar göstərildikdə, yenə də ekranın qarşısında əyləşirdilər.

*Prezident İlham Əliyev və xanımı sonra kəndin sakini Mariya Vasilenkovanın qonağı oldular, onun yaşayış şəraiti, təsərrüfat fəaliyyəti ilə maraqlandılar. Sonra elə buradaca, çay süfrəsi arxasında kənd sakinləri ilə səmimi söhbət oldu.*

*4 minə yaxın əhalisi olan kəndin sakinləri adından dövlət başçısına əmin-amanlıq və uğurlar arzusu ilə dini kitab – Bibliya təqdim edildi.*

*Çay süfrəsi arxasında söhbət zamanı Slavyanka sakini Nadejda İsmayılova dövlətimizin başçısına bu yerlərdə hansı kənd təsərrüfatı bitkiləri yetişdirilməsindən danışdı.*

**Nadejda İsmayılova:** Bizə torpaq payı verdilər. Kartof, buğda əkib-becəririk, imkanı olanlar arpa əkir. Məhsulumuzu satırıq.

**İlham Əliyev:** Normal qiymətə alırlar?

**Nadejda İsmayılova:** Yaxşıdır, şikayətlənmirik.

**İlham Əliyev:** Qazancınız bəs edirmi? Bəs sizdə kənd təsərrüfatı texnikası sarıdan vəziyyət necədir?

**Nadejda İsmayılova:** Bizdə kolxozdan qalan texnika var.

**İlham Əliyev:** Təzəsi yoxdur?

**Nadejda İsmayılova:** Təzəsi də var. Bu yaxınlarda veriblər.

**İlham Əliyev:** İndi yaradılan «Aqrolizinq» vasitəsilə alınan yeni texnika varmı?

**Nadejda İsmayılova:** Bəli, təzə texnika da var – traktor və toxumsəpən, kartofyığan maşınlar. Gübrə gətirirlər, satırlar. Qiyməti də münasibdir.

**İlham Əliyev:** Başlıcası odur ki, texnika, gübrə olsun, satış qaydaya salınsın. Təsərrüfatda qalan hər şey özünüzündür?

**Nadejda İsmayılova:** Bəli, özümüzündür. Məsələn, bu moruğu özümüz yetişdirmişik.

**İlham Əliyev:** Bazardan heç nə almırsınız?

**N a d e j d a İ s m a y ı l o v a:** Xeyr. Yalnız inəyi olmayanlar alırlar. Bu il meyvəmiz olmadı, ağaclar çiçəkləyəndə şaxta vurdu.

**İ l h a m Ə l i y e v:** Yəni sizdə natural təsərrüfatdır. İnək saxlayırsınız, süd, yağ, taxıl, çörək də öz məhsulunuzdur.

**N a d e j d a İ s m a y ı l o v a:** Çörək bişirməyənlər onu satın alırlar. Çuğundur da satırıq.

**İ l h a m Ə l i y e v:** Çuğundur da? Çuğundur əkirsiniz?

**N a d e j d a İ s m a y ı l o v a:** Az əkirdik.

**İ l h a m Ə l i y e v:** Əkmirdiniz, çünki satmağa yer yox idi. İndi isə İmişlidə zavod tikmişik, orada çuğundura böyük tələbat var. İndi bir çox rayonlarda çuğundur əkirlər. Onu dərhal alıb, zavoda aparırlar.

Müxtəlif millətlərin nümayəndələrinin yaşadıqları bəzi ölkələrdə problemlər var, bizdə isə yoxdur. Dövlət səviyyəsində də belədir və hər bir yerdə də belə olmalıdır. Biz hamımız bir ailəyik.

**M a r i y a V a s i l e n k o v a:** Nə qədərdir burada yaşayırıq, həmişə bir ailə kimi olmuşuq. Bizdə işdə də, məktəbdə də heç vaxt elə olmayıb ki, desinlər, o azərbaycanlıdır, bu rusdur.

**İ l h a m Ə l i y e v:** İndi də belədir və Azərbaycanda heç vaxt başqa cür olmayacaqdır. Burada hamı rahat yaşayır.

**M a r i y a V a s i l e n k o v a:** Siz buraya hər il gəlin. Çox şad olarıq.

**V a l e n t i n a H ü s e y n o v a:** Əgər bilsəydilər ki, Heydər Əliyeviç hakimiyyətə qayıdacaq, ruslardan heç biri köçüb getməzdi. Çıxıb gedənlər isə indi çox təəssüflənirlər.

**Q a l i n a Ə l i y e v a:** 90-cı illər çox ağır illər idi, xüsusən də ona görə ki, bizim rayon sərhəd bölgəsidir. Heydər Əliyeviçə, Sizə çox minnətdarıq ki, hər yerdə qayda-qanun yaradılıbdır.

**İ l h a m Ə l i y e v:** Əvvəla, albəttə, onda müharibə gedirdi. İkincisi, hakimiyyətdə olan Xalq Cəbhəsinin adamları ölkəni əslində uçuruma, dağılmağa doğru aparırdılar. Onlar

bir ildə nəinki iqtisadiyyatı dağıtdılar, ölkəni hərc-mərcliyə sürüklədilər, həm də Azərbaycanın həmişə məhz fəxr etdiyi millətlərarası həmrəyliyə çox böyük ziyan vurdular. İqtisadiyyatı, fabrikləri bərpa etmək olar, amma əmin-amanlığı, xoş münasibətləri, etimadı bərpa etmək çətindir. Odur ki, əgər Heydər Əliyev hakimiyyətə bir il gec gəlsəydi, nə olacağını, ümumiyyətlə, təsəvvür etmək çətindir. Lakin o, qayıdan kimi bütün bunlara son qoydu. Ölkə on il ərzində məhz belə inkişaf etdi, indi də üç ildir bu cür inkişaf edir. Əminəm ki, bu siyasət Azərbaycanda əbədi olacaqdır. Xəttimiz əbədi olacaq, ona görə də heç kim narahatlıq keçirməməlidir.

Əksinə, indi eşidirəm ki, əvvəllər çıxıb gedənlərin bəziləri geri qayıdırlar. Bu proses gedəcəkdir. Çünki Azərbaycanda iqtisadi vəziyyət yaxşılaşdıqca, daha çox iş yeri olduqca, daha çox əməkhaqqı verildikcə adamlar geri qayıdacaqlar. Niyə də qayıtmasınlar? Burada bərəkətli torpaq, təmiz hava, belə təbiət, kənd təsərrüfatı var.

Əlbəttə, kömək etmək lazımdır. Buna görə də «Aqrolizinq» yaratmışıq ki, kəndlilərə texnika, gübrə, kredit verək. Bunlar hamısı son illər yaranmışdır və ona görədir ki, kənd təsərrüfatı ilə məşğul olan insanlar daha yaxşı yaşaya bilsinlər. Onda ölkə də inkişaf edəcəkdir. Bu olmasa, camaat kənddən getməyə başlayacaq, kimisi şəhərə, kimisi başqa ölkəyə. Onda nə baş verəcək? Ölkə necə inkişaf edəcək?

**Nadejda İsmayılova:** Çox sağ olun, kəndimizdə yeni məktəb də tikilir.

**İlham Əliyev:** Burada məktəb tikilir?

**Kamran Rzazadə:** (*İcra Hakimiyyətinin başçısı*): Bəli, Heydər Əliyev Fondunun xətti ilə 260 şagird yerlik məktəb tikilir. İnşaat işləri artıq başa çatmaq üzrədir.

**İlham Əliyev:** Bəlkə gedək baxaq?

**Qalina Əliyeva:** Bizim Saratovkada da yeni məktəb korpusunun tikiləcəyini vəd edirlər. Çox sağ olun. Artıq

təmir işləri görülmüşdür. Məktəbimizdə rus bölməsi genişlənir, əvvəl uşaq az idi, indi isə artır.

**İlham Əliyev:** Kəndiniz böyükdür?

**Qalina Əliyeva:** 2000 nəfər əhalisi var.

**Kamran Rzazadə:** Saratovkada Heydər Əliyev Fondunun xətti ilə məktəb üçün 100 şagird yerlik əlavə binanın tikintisi planlaşdırılmışdır.

**İlham Əliyev:** Bütün bu işləri qaydaya salmaq lazımdır. Azərbaycanda 3 il ərzində 700-dən çox məktəb tikilmişdir. O cümlədən Gədəbəydə də çox tikilmişdir. Uşaqlar yaxşı şəraitdə oxumalıdırlar. Müəllimlər də yaxşı şəraitdə işləməlidirlər. Ümumiyyətlə, təkcə məktəblərdə deyil, hər yerdə – həm kəndlərdə, həm də şəhərlərdə yaxşı şərait olmalıdır. Yol da olmalıdır, işıq da, qaz da. Mənə dedilər ki, Saratovkada qaz yoxdur. Ancaq orada heç vaxt qaz olmayıb. Sovet dövründə də olmayıb. Ona görə də mən tapşırıq verəcəyəm ki, «Azəriqaz» məsələyə baxsın və müvafiq qərar qəbul etsin. Mən şəhərlərə, rayonlara, kəndlərə gedirəm ki, insanların ehtiyaclarını öyrənim. İndi gəlmişəm, siz dediniz, deməli, tədbir görüləcəkdir. Gərək insanları narahat edən bütün məsələlər həll olunsun. İndi yaxşıdır, insanları narahat edən məsələlər getdikcə azalır. Çünki yollar salınır, məktəblər tikilir, iş var, texnika ayrılır və bundan sonra daha çox ayrılacaqdır.

Kənd təsərrüfatı ilə məşğul olmaq sərfəlidir, məhsulu yığıb satırsan. Problem yoxdur və əlbəttə, pul da qazanırsan. Bəs insanlar kəndlərdə necə yaşayırlar? Bütün dünyada belə yaşayırlar. Buna görə də mütləq işıq, qaz, su lazımdır. Taxılı özünüz yetişdirirsiniz. Dövlət öz tərəfindən hər şeyi etməlidir, özəl sektor da öz tərəfindən hər şeyi etməlidir – zavod, fabrik, emal müəssisələri tikməlidir. Mən artıq dedim ki, şəkər zavodu tikilmişdir. İndi Azərbaycanın bütün rayonlarında şəkər çuğunduru əkir və şəkər istehsalı üçün oraya aparırlar. Biz artıq şəkəri xaricdən gətirməyəcəyik, özümüz istehsal edəcəyik. Kəndli isə şəkər çuğunduru əkəcək. Əgər

o, şəkər çuğundurunu əkirsə və bu heç kimə lazım deyilsə, o bir daha əkməyəcəkdir. Məhsulu kiməsə satmaq lazımdır...

**L u i z a  Y e v q r a f o v a:** Mən Buryatiyadan valideynlərimin yanına qonaq gəlmişəm. Xoşbəxtlik nəsib oldu ki, Sizinlə də görüşdüm.

**İ l h a m  Ə l i y e v:** Buryatiyada vəziyyət necədir?

**L u i z a  Y e v q r a f o v a:** Orada artıq qışdır. Əlbəttə, hər yerdə yaşamaq olar. Rus atalar sözündə deyildiyi kimi, «biz olmayan hər yer yaxşıdır».

**İ l h a m  Ə l i y e v:** Siz oraya necə gedib çıxmısınız?

**L u i z a  Y e v q r a f o v a:** Sevimli ərimlə.

**İ v a n  P o p o v:** Hamımız başa düşürük ki, bizim başlıca problemimiz Dağlıq Qarabağ məsələsidir. Lakin həyat öz axarı ilə gedir, yaşamaq lazımdır. İmkan daxilində bizə kömək edin.

**İ l h a m  Ə l i y e v:** Mən artıq tapşırıq vermişəm və biz bu məsələni həll edəcəyik. İnsanları narahat edən məsələyə diqqət başlıca işdir. Siz Saratovkada qaz problemindən danışırsınız, onu həll etmək lazımdır. Əgər başqa narahatçılıq olsaydı, onu da deyərdiniz. İşıq var, yol çəkilir, yeri gəlmişkən, indi mən Şəmkirdən Gədəbəyə yol çəkilməsi barədə tapşırıq vermişəm. Müasir, asfalt döşənmiş yol olacaq, Avropadakı kimi. Məktəblər tikilir və sair.

Qaz problemi narahat edirsə, onu həll etmək lazımdır.

Ölkəmiz möhkəmlənir, iqtisadiyyatımız möhkəmlənir. Bu imkanlar olanda hər şeyi həll etmək mümkündür, başlıcası odur ki, insanlarımız yaxşı yaşasınlar, kənd yerlərində rahatlıqla öz işləri, təsərrüfatları ilə məşğul olsunlar, şəhərlərdə fabriklər işləsin ki, iş olsun. Onda hər şey yaxşı olacaq. İnsanlara və rəhbərliyə nə lazımdır? Sakit həyat. Televizor vasitəsilə yəqin görürsünüz ki, başqa şəhərlərdə və ölkələrdə nələr baş verir, insanları müxtəlif əlamətlərə görə necə sıxışdırırlar. Bizdə bu yoxdur və heç vaxt olmayacaqdır. Çünki milliyyətindən, dinindən, dilindən asılı olmayaraq, biz

hamımız bir ailəyik. Düşünürəm ki, bu baxımdan Azərbaycan nümunə ola bilər.

**N a d e j d a İ s m a y ı l o v a:** Bu yəqin ona görə belədir ki, bizim prezidentimiz yaxşı, çox gözəl doğma bir insandır. Ona görə də biz sakit və yaxşı yaşayırıq.

**İ l h a m Ə l i y e v:** Başlıcası budur ki, xalq yaxşı yaşasın. Qonaqpərvərliyə görə çox sağ olun. Sizinlə görüşməyimə çox şad oldum. Bir də gələcəyəm, Saratovkaya gələcəyəm.

**O l q a M a l t s e v a:** Mən Ermənistandan, Krasnoselsk rayonundan qaçqınam.

**İ l h a m Ə l i y e v:** Buraya gəlməkdə düz iş görmüsünüz. Ermənistanda, ümumiyyətlə, heç bir başqa millət yaşamır, orada əhalinin 99 faizi ermənilərdir. Dünyada ikinci belə ölkə yoxdur.

**O l q a M a l t s e v a:** Sizin atanıza minnətdaram, Sizə təşəkkür edirəm, bizi burada yaxşı qarşıladılar.

**İ l h a m Ə l i y e v:** Burada xoşbəxt yaşayın. Dünyada az ölkə tapılar ki, orada yalnız bir millət yaşasın. Onlardan biri də Ermənistandır. Orada başqa millət, sadəcə, yaşaya bilmir. Kimini zorla qovurlar, kimini sıxışdırıb çıxarırlar. Yeri gəlmişkən, özləri də köçüb gedirlər, əhalinin yarısı köçüb getmişdir. Belə şərait həm çətindir, həm də düzgün deyil, bu, ölkəni zəifləndir. Ona görə də biz Azərbaycanda ölkəmizin məhz çoxmillətliliyi ilə fəxr edirik.

**L u i z a Y e v q r a f o v a:** Mən Buryatiyada Azərbaycan dilini eşidəndə çox sevindim, düşündüm ki, özümüzünkülərdir.

**İ l h a m Ə l i y e v:** Sağ olun, salamat qalın.

* * *

*Görüşdə kənd sakinləri rus xalq mahnıları oxudular, sonra dövlətimizin başçısı və xanımı ilə xatirə şəkli çəkdirdilər.*

* * *

*Rus icmasının nümayəndələri ilə görüşdən sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan Slavyanka beynəlmiləl orta məktəbinin binasında tikinti işlərinin gedişi ilə tanış oldular.*

*260 yerlik məktəb binasının tikintisinə bu ilin avqustundan başlanmışdır. 30-dan çox yerli sakinin gördüyü inşaat işlərinin növbəti mərhələsi artıq başa çatmaq üzrədir. «Yeniləşən Azərbaycana yeni məktəb» layihəsinin ikinci mərhələsinə əsasən məktəb binası bu ilin sonunadək hazır olacaqdır.*

*Dövlətimizin başçısı tikintinin getdiyi ərazini gəzdi, işlərin qısa vaxt ərzində və yüksək keyfiyyətlə başa çatdırılması barədə müvafiq tapşırıqlarını verdi.*

*Bununla da Azərbaycan prezidenti İlham Əliyevin Gədəbəy rayonuna səfəri başa çatdı.*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞƏMKİR RAYONUNA SƏFƏRİ

*1 noyabr 2006-cı il*

## Şəmkir Olimpiya İdman Kompleksinin təməlqoyma mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev noyabrın 1-də Şəmkir şəhərində, Bakı–Qazax yolunun kənarında Olimpiya idman Kompleksinin təməlinin qoyulması mərasimində iştirak etmişdir.*

*Mərasimə toplaşmış rayon ictimaiyyətinin nümayəndələri, idmançılar dövlətimizin başçısını mehribanlıqla, hərarətli alqışlarla qarşıladılar.*

*Prezidentə Olimpiya idman kompleksi barədə ətraflı məlumat verildi. Bildirildi ki, Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında nəzərdə tutulmuş bu kompleksə idman oyunları, güləş, boks, ağır atletika və gimnastika salonları, idman meydançası, su hovuzu, iki tennis kortu, 30 yerlik mehmanxana və 73 yerlik yeməkxana, 2 min tamaşaçı yeri olan futbol stadionu, maşınlar üçün dayanacaq və birmərtəbəli kotteclər daxildir. Tikintisi iki il ərzində başa çatacaq kompleksin layihəsini Gənclər və İdman Nazirliyinin sifarişi ilə «Azərinşaatlayihə» institutu vermişdir. Dövlətimizin başçısı «Bu kompleksin təməli 1 noyabr 2006-cı il tarixdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qoyulmuşdur» sözləri yazılmış vərəqi imzalayaraq kapsulun içərisinə qoydu. Kapsul obyektin bünövrəsinə qoyuldu, dövlətimizin başçısı bünövrəyə ilk beton qarışığını tökdü, tikintiyə xeyir-duasını verdi.*

*Sonra təməlqoyma münasibətilə mərasim keçirildi. Azərbaycan prezidenti mərasimdə nitq söylədi.*

**İ l h a m Ə l i y e v:** Əziz şəmkirlilər!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı Şəmkir Olimpiya İdman Kompleksinin təməlqoyma mərasimi münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Bu gün təməlini qoyduğumuz kompleksin tikintisi başlanır. Əminəm ki, qısa müddət ərzində çox gözəl, möhtəşəm idman qurğusu tikiləcəkdir. Burada ən yüksək dünya standartları tətbiq olunacaqdır. Bundan həm idmançılar, eyni zamanda Şəmkir şəhərinin sakinləri də faydalanacaqlar. Burada ən böyük idman zalları, açıq meydançalar, üzgüçülük hovuzu, mehmanxana, digər müxtəlif idman infrastrukturu olacaqdır. Kompleks həm idmanın inkişafına, həm də Şəmkir rayonunun hərtərəfli inkişafına öz töhfəsini verəcəkdir. Eyni zamanda bu kompleksin xarici görünüşü də çox gözəldir, müasirdir. Mənim də göstərişim bundan ibarətdir ki, yeni tikilən bütün binalar, müəssisələr, obyektlər ən yüksək dünya səviyyəsinə cavab versin və xarici görünüşü də gözəl, müasir olsun.

Şəmkir rayonu da müasirləşir, gözəlləşir. Burada çoxlu abadlıq, quruculuq işləri görülür. Mən Şəmkir rayonunda dəfələrlə olmuşam və bu dəyişiklikləri də görürəm. Axırıncı dəfə iki il bundan əvvəl olmuşdum. O vaxtdan bu günə kimi çox böyük işlər görülübdür. Həm rayonun abadlaşması sürətlə gedir, eyni zamanda çox önəmli obyektlər tikilir. Yeni müəssisələr, fabriklər yaranır, iş yerləri açılır, bununla bərabər sosial infrastruktur da yeniləşir. Çoxlu məktəblər tikilir. Bu çox vacibdir. Bilirsiniz ki, Azərbaycanda məktəb tikintisi çox geniş vüsət almışdır. Azərbaycanın hər bir rayonunda məktəb tikilir. Bu bizim dövlət proqramımızdır. Qarşıya vəzifə qoyulmuşdur ki, Azərbaycanda yararsız vəziyyətdə olan bütün məktəblər 2008-ci ilə qədər ya əsaslı şəkildə təmir olunmalıdır, yaxud da yeni məktəblər tikilməlidir. Hər iki proqram uğurla icra edilir. Üç il ərzində 700-dən çox məktəbin tikilməsi bunun əyani göstəricisidir.

Bir sözlə, burada hərtərəfli inkişaf üçün bütün amillər var. Yeni iş yerləri açılır, şəhər abadlaşır, gözəlləşir, yeni yollar salınır, fabriklər açılır və sosial obyektlər də tikilir. Mən əminəm ki, Şəmkirdə bu idman kompleksinin tikilməsinin şəhər infrastrukturunun inkişafına çox böyük təsiri olacaqdır. Çünki burada beynəlxalq tədbirlər, respublika əhəmiyyətli çempionatlar keçiriləcək, buraya gələn qonaqlar gözəl mehmanxanada qalacaqlar. Bu, özlüyündə turizmin inkişafına və bütövlükdə Şəmkir rayonunun daha da inkişafına kömək edəcəkdir.

Bu gün Azərbaycan çox sürətlə inkişaf edir. Demək olar ki, Azərbaycanın bütün sahələri inkişafdadır. Bu inkişafın təməlində 1993-cü ildə Azərbaycanda başlanmış Heydər Əliyev siyasəti durur. Bu gün biz Heydər Əliyev muzeyinin açılışını etdik. Orada nümayiş etdirilən şəkillər bir daha göstərir ki, Şəmkir rayonuna ulu öndərin xüsusi münasibəti var idi. Heydər Əliyev həm 70-ci illərdə, həm də artıq müstəqil Azərbaycanın prezidenti kimi, dəfələrlə Şəmkir rayonunda olmuş, buradakı problemlərlə məşğul olmuş, öz göstərişlərini vermişdir. Rayonun inkişafında onun çox böyük əməyi var idi. Bu gün bu siyasət davam etdirilir. Mən Şəmkir rayonuna böyük diqqət göstərir, bu rayonun inkişafına çox böyük əhəmiyyət verirəm. Şəmkir Azərbaycanda çox strateji əhəmiyyətə malik rayondur, çox böyük sənaye, kənd təsərrüfatı, intellektual potensialı var. Şəmkirlilər bütün dövrlərdə Azərbaycanın inkişafına öz töhfələrini vermişlər. Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə böyük töhfə vermişlər. Mən çox istəyirəm ki, rayon daha da sürətlə inkişaf etsin. Biz bu gün bunu görürük. Rayonun inkişafına dair xüsusi sərəncam da imzalanmış, əlavə vəsait də ayrılmışdır və yenə ayrılacaqdır.

Bilirsiniz ki, rayonların inkişafı son üç ildə bizim siyasətimizin əsas istiqamətlərindən biridir. Çünki Azərbaycanın hərtərəfli inkişafı məhz hər bir rayonun inkişafından başlayır. Azərbaycanda güclü iqtisadi potensial yaranır. Əlbəttə

ki, sənaye və iqtisadi potensial baxımından hər bir ölkənin əsas şəhəri, yəni paytaxtı daha da çox fərqlənir. O cümlədən Azərbaycanda da belədir. Bu lazımdır. Bakı şəhəri də inkişaf etməli, onun potensialı da güclənməlidir. Amma mən tam əminəm ki, ölkəmizin uğurlu inkişafı üçün ilk növbədə regionlar inkişaf etməlidir. Bunun bir neçə səbəbi var. Birinci səbəb ondan ibarətdir ki, rayonlarda, kəndlərdə yaşayan insanların həyat səviyyəsi yaxşılaşmalıdır. Kəndlə, rayonla böyük şəhərlər arasında fərq azalmalıdır. İnkişaf etmiş ölkələrdə bu fərq çox azdır və bəzi hallarda rəmzi xarakter daşıyır. Bu, özlüyündə ölkənin ümumi inkişafını göstərir. O ölkələrdə ki, rayonlarla paytaxt arasında fərq böyükdür, həmin ölkələr o qədər də inkişaf etmiş ölkə sayıla bilməz. Əlbəttə ki, Azərbaycan indi özünü inkişaf etmiş ölkə kimi təqdim edə bilməz. Bunun üçün hələ çoxlu işlər görmək lazımdır. Ancaq biz bu yolda uğurla irəliləyirik. Rayonlarda, bölgələrdə müasir infrastrukturun yaranması, ən müasir sənaye müəssisələrinin, məktəblərin, xəstəxanaların tikintisi – bütün bunlar o fərqi azaldır.

Yeni yollar salınır. Məsələn, siz yaxşı bilirsiniz ki, Şəmkir–Qazax avtomobil yolu yenidən tikilmişdir. Bu yol Bakı–Qazax yolunun bir hissəsidir. O yol da uğurla tikilir və yəqin ki, gələn ilin sonuna qədər istismara veriləcəkdir. Beləliklə, Bakıdan Şəmkirə, Qazaxa və Gürcüstan sərhədinə çox rahat, ən yüksək səviyyəyə cavab verən avtomobil yolu ilə gəlmək mümkün olacaqdır. Bütün bunlar regionları inkişaf etdirir.

Digər tərəfdən, regionların inkişaf etdirilməsi ona görə önəmlidir ki, bu, böyük şəhərlərə miqrasiya meyllərini azaldır. Bütün böyük şəhərlərdə bu proseslər var. İnsanlar çalışırlar daha çox paytaxtlarda iş tapsınlar. Çünki orada həm şərait daha yaxşıdır, həm də iş tapmaq üçün daha böyük imkanlar var. Bu proseslər başqa ölkələrdə də gedir. Böyük şəhərlərə miqrasiya prosesi həm onların infrastrukturuna əlavə yükdür, eyni zamanda regionlardan insan axınına

gətirib çıxarır. Buna biz imkan verə bilmərik. Amma necə? Ancaq və ancaq rayonlarda yüksək şəraitin yaradılması ilə. Yollar çəkilməlidir və çəkilir. Şəmkir rayonunda da geniş yol tikintisi aparılır. Mən əlavə vəsait ayıracağam ki, kənd yollarına da asfalt döşənsin və insanlar kəndlərə də rahat gedə bilsinlər.

Bir müddət bundan əvvəl büdcədənkənar əlavə vəsait ayrılmışdı və ondan səmərəli istifadə olundu. Məktəb tikintisi, xəstəxanaların, idman qurğularının tikintisi, iş yerlərinin açılması davam edir. Mənə məlumat verilib ki, Şəmkirdə böyük quşçuluq fabriki yaradılıb, bu gün gedib baxacağam. Çox müsbət haldır, çox müsbət göstəricidir. Bir tərəfdən, insanlar işlə təmin edilir, işsizlik aradan qaldırılır, insanlar daha da yaxşı maaş alırlar. Digər tərəfdən də, Azərbaycanda yerli istehsal yaranır. Azərbaycan artıq bir sıra məhsullarla özünü təmin edən ölkədir. Çalışmalıyıq ki, gələcəkdə öz tələbatımızı maksimum dərəcədə Azərbaycanda istehsal olunan məhsullarla təmin edək və biz buna doğru gedirik. Ona görə də 2004-cü ilin fevral ayında regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının qəbul olunması və uğurla icra edilməsi Azərbaycanın inkişafına çox böyük təkan vermişdir.

Biz indi işin, demək olar ki, ilkin mərhələsindəyik. İndi diqqətimizi Azərbaycan üçün ən böyük əhəmiyyət kəsb edən məsələlərə yönəltmişik. Yollar, elektrik stansiyaları tikilir. Azərbaycanda yeni elektrik stansiyalarının tikilməsi ilə biz nəinki öz tələbatımızı yüz faiz ödəyəcəyik, həm də gələcəkdə elektrik enerjisini ixrac edəcəyik. Qaz xətləri çəkilir, rayonlar qazlaşdırılır. Azərbaycanda qaz hasilatı artdıqca bu iş daha da genişlənəcəkdir. İnsanları narahat edən digər problemlər də həll ediləcəkdir. Bir daha məktəb tikintisinə qayıtmaq istəyirəm. Azərbaycanda 4500 məktəb var. Təkcə üç il ərzində çox yüksək səviyyədə 700-dən artıq məktəb tikilib və hər bir məktəbdə kompüter sinfi yaradılır. Uşaqlar yaxşı təhsil, bilik almalıdırlar.

Bizim iqtisadi imkanımız artır və bu bizi çox sevindirir. Bu onu göstərir ki, dövlət siyasəti düzgün istiqamətdə gedir. Son üç ildə büdcə gəlirlərimiz 4 dəfə artıbdır. Bu bizim imkanlarımızı artırır. Ancaq eyni zamanda ölkənin uğurlu inkişafı üçün ilk növbədə insanlar bilikli, savadlı olmalıdırlar. Mən bu məsələyə çox böyük diqqət göstərirəm. Həm təhsil infrastrukturu yaxşılaşmalı, yəni məktəb tikintisi təmin olunmalı, eyni zamanda təhsilin keyfiyyəti yaxşılaşmalıdır. Gənc nəsil gərək dünyada gedən bütün proseslərdən xəbərdar olsun, bunu izləsin. Dünyada gedən proseslər, yeni texnologiyalar, yeni ixtiralar, elm sahəsində yeni nailiyyətlər – bizim uşaqlarımız bunu bilməli və çox savadlı, bilikli olmalıdırlar. Azərbaycanın uzunmüddətli inkişafını onlar təmin edəcəklər.

Bizim təbii sərvətlərimiz var. Bu bizim böyük xoşbəxtliyimizdir. Eyni zamanda bizim böyük xoşbəxtliyimiz ondadır ki, bu təbii sərvətlərdən səmərəli istifadə edirik. 1994-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə başlanmış və bu gün uğurla icra edilən neft strategiyamız böyük tarixi nəticələrə gətirib çıxartdı. Bakı–Tbilisi–Ceyhan neft kəməri istismara verildi və bundan sonra uzun illər, onilliklər ərzində təbii sərvətlər, neft və qaz sərvətlərimiz Azərbaycanın iqtisadi inkişafını təmin edəcəkdir. Amma vaxt gələcək və onlar qurtaracaqdır. Çünki bunlar tükənən sərvətlərdir. Ondan sonra Azərbaycan necə yaşayacaq? 50 ildən, 70 ildən sonra ölkənin inkişafı nəyin hesabına olacaq? Biz indidən bu barədə düşünürük. Bizim siyasətimiz həm qısamüddətli, həm də uzunmüddətli məsələlərə yönəldilibdir. Qısamüddətli məsələlər öz həllini tapır. Bizim iqtisadi islahatlarımız, büdcə gəlirlərinin artımı, Neft Fondunun uğurlu fəaliyyəti, neft sahəsində görülən işlər, iqtisadi islahatlar, sahibkarlığın inkişafı, Dövlət İnvestisiya Şirkətinin yaranması, kreditlərin verilməsi, «Aqrolizinq» Səhmdar Cəmiyyətinin yaradılması – onun vasitəsilə kəndlilərə texnika və gübrə verilir – bütün bunlar qısamüddətli proqramlardır. O cümlədən elektrik

stansiyalarının, qaz xətlərinin tikintisi – bunlar qısa müddət ərzində, 4-5 il ərzində ölkənin bütün əsas tələbatlarını ödəyəcəkdir.

Ancaq biz gərək gələcəyə baxaq. Gərək baxaq ki, 10 ildən, 20 ildən sonra nə olacaq, indidən bunu planlaşdıraq. İndidən bütün uzunmüddətli strategiyamızı müəyyən edək ki, ölkə məqsədyönlü şəkildə inkişaf etsin. Bu gün biz bu məsələlər üzərində işləyirik, bu barədə fikirləşirik. Ölkənin geniş inkişaf konsepsiyası hazırlanır və demək olar ki, onun ilkin konturları görünməkdədir.

Azərbaycan artıq güclü dövlətdir. Regionda söz sahibidir, aparıcı dövlətdir. Bunu təkcə biz yox, regionla məşğul olan bütün təşkilatlar, böyük ölkələrin mötəbər dairələri də təsdiq edir ki, Azərbaycan bölgədə lider dövlətdir. Bölgədə heç bir məsələ bizim razılığımız olmadan həll oluna bilməz. Bölgədə Azərbaycanın iştirakı olmadan regional əməkdaşlıq çərçivəsində heç bir məsələ həll edilə bilməz. Biz nəinki bütün layihələrin iştirakçılarıyıq, eyni zamanda bir çox layihələrin təşəbbüskarıyıq. Yəni bizim gücümüz, siyasi çəkimiz artır. Əlbəttə, bundan istifadə edib ölkəni daha da inamla, daha da sürətlə inkişaf etdirmək olar. Xarici siyasətimiz açıqdır, proqnozlaşdırılandır və Azərbaycan xalqının iradəsinə əsaslanır, onun maraqlarının tam şəkildə müdafiə olunmasına yönəldilibdir. Daxili siyasətimiz də açıqdır və aydındır. Bu da ondan ibarətdir ki, insanlar daha da yaxşı yaşasınlar. İnsanları narahat edən problemləri aradan qaldıraq. Hər yerdə, hər bir bölgədə, hər sahədə və bütün ölkələrdə problem var. Elə ölkə yoxdur ki, orada problem olmasın. Hətta iqtisadi, siyasi və bütün başqa cəhətlərdən ən inkişaf etmiş ölkələrdə də kifayət qədər problemlər var. Əsas məsələ ondan ibarətdir ki, dövlət bu problemlərə necə münasibət göstərir. Başqa yerlərdə, ölkələrdə bəzi hallarda dövlət bu məsələlərə biganə qalır. O dövlətin və o iqtidarın ömrü uzun ola bilməz. O ölkələrdə ki, dövlət insanların və ölkənin problemlərini

özü üçün prioritet kimi görür, orada uzunmüddətli inkişaf da olur.

Azərbaycanda uğurlar çoxdur. Müstəqilliyin əldə edilməsindən, demək olar, 2-3 il sonra Azərbaycan inkişaf dövrünə başlamışdır. Bütün bunlar var və biz haqlı olaraq qürur hissi keçiririk ki, ölkəmiz artıq çox böyük beynəlxalq nüfuza malikdir və ölkə daxilində çox gözəl ab-hava, ictimai-siyasi mühit var. Amma bizim əsas məqsədimiz mövcud olan problemlərə münasibət göstərmək, onları qısa müddətdə, tezliklə aradan qaldırmaqdır. Bunu etmək üçün mən bölgələrdə tez-tez oluram, özüm gözümlə görürəm, vəziyyətlə tanış oluram. Sizə deyim ki, hər bir səfərdən özüm üçün çox önəmli nəticələr çıxarıram. Bəzi hallarda mənə məlum olmayan məsələləri öyrənirəm. Öyrənirəm ki, insanları narahat edən nədir, hansı problem var, onu necə həll etmək olar. Bəzi hallarda elə problem var ki, onu həll etmək üçün heç böyük vəsait də lazım deyildir. Sadəcə, diqqət lazımdır və insanlar biganə olmamalıdırlar. Elə problem də var ki, böyük vəsait tələb edir və əlbəttə, biz də bunu etməliyik.

İndi Azərbaycan bütün layihələrin həyata keçirilməsində sərbəstdir, müstəqildir, heç kimdən asılı deyildir. Öz siyasətini özü aparır və bütün layihələri həyata keçirə bilər. Əgər biz o çətin, ağır şəraitdə, xüsusilə 90-cı illərin ortalarında bölgədə hökm sürən çətin şəraitdə Heydər Əliyevin siyasəti, cəsarəti, müdrikliyi nəticəsində Bakı–Tbilisi–Ceyhan neft kəmərini reallaşdırıb istismara verə bilmişiksə, bundan sonra istənilən məsələni həll edə bilərik.

Ondan sonra Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin tikintisi başlanmışdır və bu ilin sonuna qədər istismara veriləcəkdir. İndi Türkiyə və Gürcüstanla bərabər, biz Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisinə diqqət göstəririk. Azərbaycan artıq bəyan edib ki, öz maliyyə imkanlarını ortaya qoyur və tikintiyə lazım olan vəsaitin yarısını öz üzərinə götürür. Biz bunu da edəcəyik. Belə olan halda, o qədər böyük vəsait tələb etməyən məsələlərin həlli bizim üçün elə bir

böyük problem yaratmır. Sadəcə olaraq biz bilməliyik ki, harada qüsurlar, çatışmazlıqlar var, harada işlər yaxşı qurulmur. Yerlərdə də işlər yaxşı qurulmalıdır. Ölkə üçün vacib qərarlar, əlbəttə ki, mərkəzdə qəbul olunur. Amma yerlərdə də təşəbbüs olmalıdır.

Mən çox şadam ki, indi bölgələrdə quruculuq işləri çox sürətlə gedir. Rayonlarda gedən işlər də məni sevindirir. Yenə də deyirəm, tez-tez rayonlarda oluram, görürəm və müqayisə etmək üçün imkanlarım var. Hər bir gəlişimdə yenilik görürəm, yeni bir müəssisə, yaxud park, yeni küçə, yaxud da gözəl sosial infrastruktur obyektlər görürəm. Bu inkişafdır və Azərbaycanda var və istəyirik ki, daha da sürətlə getsin. İnsanları narahat edən problemlər tezliklə aradan qalxsın və hər bir vətəndaş işlə təmin olunsun, hər bir vətəndaşın yaxşı ev şəraiti olsun, yaxşı maaş alsın, uşaqları yaxşı məktəbə getsin. Budur bizim vəzifəmiz və prezident kimi, mən öz əsas vəzifəmi bunda görürəm, Azərbaycan xalqına xidmət etməkdə görürəm. Azərbaycan xalqı üçün nə etmək lazımdırsa, onu edirəm və bundan sonra edəcəyəm.

Olimpiya idman kompleksi bu işlərin içərisində bəlkə də çox balaca bir layihədir. Amma bir daha demək istəyirəm ki, çox böyük önəm daşıyır. Mən arzu edirəm ki, bu idman kompleksi tezliklə, özü də ən yüksək dünya standartları səviyyəsində tikilsin və mən də bir daha Şəmkirə gəlim və biz sizinlə bərabər bunun açılışını qeyd edək.

Əziz dostlar, mən sizi bir daha ürəkdən salamlayıram. Sizə xoşbəxtlik, cansağlığı arzulayıram. Sağ olun.

*Sonra prezident İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri ilə səmimi görüşüb hal-əhval tutdu, onların qayğı və problemləri ilə maraqlandı. Şəmkirlilər dövlətimizin başçısına razılıqlarını ifadə edərək xalqımızın ümummilli liderinin layiqli davamçısına gələcək fəaliyyətində uğurlar arzuladılar.*

## Ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət

*Azərbaycan prezidenti İlham Əliyev noyabrın 1-də Şəmkir şəhərində ulu öndərin adını daşıyan prospektdə xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət etmişdir. Dövlətimizin başçısı və xanımı abidənin önünə gül dəstələri qoydular.*

*Prezident İlham Əliyev burada salınmış Heydər Əliyev parkına baxdı, sakinlərin istirahəti üçün yaradılmış şəraiti, görülmüş abadlıq işlərini, prospekt boyu yaradılan səliqə-sahmanı yüksək qiymətləndirdi.*

## Heydər Əliyev muzeyinin açılış mərasimi

*Noyabrın 1-də Şəmkir şəhərində Heydər Əliyev muzeyinin açılışı olmuşdur. Prezident İlham Əliyev açılışı bildirən lenti kəsdi və muzeylə tanış oldu.*

*Muzeyin direktoru Fəxri Yusibov dövlətimizin başçısına məlumat verdi ki, ümumi sahəsi 567 kvadratmetr olan ikimərtəbəli binanın birinci mərtəbəsində linqafon kabineti, inzibati otaqlar və arxiv yerləşmişdir. İkinci mərtəbədə isə iki ekspozisiya salonu və elektron kitabxana zalı vardır.*

*Heydər Əliyev Fondunun verdiyi tərtibat əsasında hazırlanmış ekspozisiyada ulu öndərin uşaqlıq və gənclik illərinə, milli təhlükəsizlik orqanlarında çalışdığı illərə, respublikamıza rəhbərliyinin hər iki dövrünə, Azərbaycanın yeni neft strategiyasının hazırlanması və həyata keçirilməsinə, ordu quruculuğu sahəsindəki fəaliyyətinə, xarici ölkələrə səfərlərinə aid fotoşəkillər, müxtəlif kitablar nümayiş etdirilir. Ulu öndərin həyat və fəaliyyəti ilə bağlı materiallar kompüterlərin yaddaşına və disklərə yazılmışdır. Heydər Əliyev Fondunun dəstəyi ilə muzeydə rayonun ən fəal gəncləri, məktəbliləri üçün xüsusi kurslar da açılacaqdır.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva rəssam Afaq Kərimovanın üzərində ulu öndərin ayrı-ayrı sahələr*

*üzrə tarixi xidmətlərini nümayiş etdirən «Heydər Əliyev və Azərbaycan xilaskarı» adlı rəsm əsərinə maraqla tamaşa etdilər, muzeyin ekspozisiyasına, o cümlədən əbədiyaşar prezidentin 1972, 1979, 1998 və 2000-ci illərdə Şəmkirə səfərlərini və burada keçirdiyi görüşləri əks etdirən fotoşəkillərə, ümummilli liderin Xalq rəssamı Natiq Əliyev tərəfindən hazırlanmış büstünə baxdılar.*

*Prezident İlham Əliyev gənclərin bu cür muzeylərdən mərkəz kimi istifadə edərək Heydər Əliyevin zəngin irsini öyrənməsinin əhəmiyyətli olduğunu bildirdi.*

*Dövlətimizin başçısı muzeyin fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.*

## Şəmkir–Qazax avtomobil yolunun açılış mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev noyabrın 1-də Şəmkir–Qazax avtomobil yolunun açılış mərasimində iştirak etmişdir.*

*İnşaatçılar, tikinti şirkətlərinin nümayəndələri və sakinlər dövlətimizin başçısını və xanımını səmimiyyətlə, gül-çiçəklə qarşıladılar.*

*Nəqliyyat Nazirliyinin «Yolnəqliyyatservis» Departamentinin rəisi, Milli Məclisin deputatı Cavid Qurbanov avtomobil yolunun göstəriciləri barədə dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, Dünya Bankının ayırdığı kredit hesabına çəkilən 2-ci texniki dərəcəli yolun örtüyü əsasən asfalt-betondur. Yolun hərəkət hissəsinin eni 7,5 metrdir. 9 yeni körpü, 14 keçid salınmışdır. Layihə üzrə görülən işlərə 31,6 milyon ABŞ dolları xərclənmişdir. 603 min kubmetr çınqıl, 1 milyon 617 min kubmetr torpaq işləri görülmüş, yüzlərlə insan işlə təmin olunmuşdur.*

*Yolun ümumi uzunluğu 94 kilometrdir, 21 kilometri ötən ilin fevral ayında təhvil verilmişdir. 2001-ci ildə ulu öndərimiz tərəfindən təsdiq edilmiş sazişə əsasən, 2011-ci ildən başlayaraq qaytarmaq şərti ilə 35 illik güzəştli kredit hesabına Azərbaycan və Almaniya şirkətləri tərəfindən həyata keçirilir.*

**İ l h a m Ə l i y e v:** Deməli, bu yol Qazaxa qədər gedəcəkdir, Qazaxdan Gürcüstan sərhədinədək olan hissənin layihəsi ayrıca hazırlanmışdır?!

**C a v i d Q u r b a n o v:** Cənab Prezident, bu hissə Yevlax–Gəncə yolu layihəsinə daxil edilmişdir.

**İ l h a m Ə l i y e v:** Yevlax–Gəncə və Qazax–Gürcüstan sərhədi.

**C a v i d Q u r b a n o v:** Bəli. Bu yolların yenidən bərpa edilməsi nəzərdə tutulmuşdur.

**İ l h a m Ə l i y e v:** Yol enlidir. Baxmayaraq ki, zolaqlıdır, amma enlidir. Məncə, o zolaqlar adi zolaqlardan bir az enlidir.

**C a v i d Q u r b a n o v:** Sizə məruzə etmişdik. Sizin razılığınızla yolu genişləndirib hərəkət hissəsinin enini 9 metrə çatdırdıq. Yolun yatağı isə 15 metrdir, ancaq 9 metr enində asfaltlanmışdır. Bəzi yerlərdə asfaltın qalınlığı 22–25 santimetrdir.

**İ l h a m Ə l i y e v:** Yəni bütün yük maşınlarının ağırlığına davam gətirəcəkdir.

**C a v i d Q u r b a n o v:** Ümumiyyətlə, bu yol, demək olar, intensiv şəraitdə salınıbdır. Son üzlük asfaltın döşənməsindən əvvəl burada maşınlar hərəkət edirdi. İnanıram ki, bu yol keyfiyyətlidir.

**İ l h a m Ə l i y e v:** Çox yaxşı. İndi bütövlükdə Bakı–Gürcüstan sərhədi yolunun tikintisi nə vəziyyətdədir, başqa hissələrdə işlər gedir, yoxsa yox?

**C a v i d Q u r b a n o v:** Cənab Prezident, Hacıqabuldan Kürdəmirədək olan təxminən 86 kilometrlik məsafədə tikinti işləri gedir. Bu işi İtaliya və Azərbaycan şirkətləri görür. Sizin tapşırığınızla yol bütün şəhərlərdən kənar keçir. Ona görə də həmin hissədə yol 10 kilometr uzanmışdır.

**İ l h a m Ə l i y e v:** Əlbəttə, magistral yol şəhərə girməməlidir. Kim istəyir, şəhərə başqa yolla gedə bilər.

**C a v i d Q u r b a n o v:** Artıq Ucar–Yevlax arasındakı məsafənin çəkilişi ilə əlaqədar iştirakçı firmalar seçilibdir.

**İ l h a m  Ə l i y e v:** Hələ orada tikinti getmir?

**C a v i d  Q u r b a n o v:** Allah qoysa, bu ilin dekabrında başlanacaqdır.

**İ l h a m  Ə l i y e v:** Yevlax–Gəncə layihəsinə isə yenidən baxacaqsınız.

**C a v i d  Q u r b a n o v:** Bəli, yenidən baxırıq, layihənin icrasına gələn ilin fevral-mart aylarında başlanacaqdır.

**İ l h a m  Ə l i y e v:** Elə edin ki, eni kifayət qədər olsun. Bütövlükdə, gələcəkdə ikizolaqlı yolu gərək genişləndirək. O vaxt layihə hazırlananda nədənsə Bakı–Hacıqabul yolu dördzolaqlı, Hacıqabul–Gürcüstan sərhədi ikizolaqlı nəzərdə tutulurdu. Elədir?

**C a v i d  Q u r b a n o v:** Bəli.

**İ l h a m  Ə l i y e v:** İndi hərəkətin intensivliyi, yükdaşımalar artır. Bəlkə də gələcəkdə dördzolaqlı yol da bəs etməyəcəkdir. Gərək bunun üzərində də işləyək.

**C a v i d  Q u r b a n o v:** Sizin tapşırığınızla biz artıq bunun layihələşdirilməsi ilə məşğuluq. Nəqliyyat Nazirliyində bu məsələyə baxılır. Bütün yol boyu, yəni Bakıdan Qazaxadək olan 501 kilometrlik məsafənin ikinci zolağı yenidən işlənir.

**İ l h a m  Ə l i y e v:** Bəli, Bakıdan Hacıqabula qədər artıq bu var. Düzdür, Bakı–Ələt yolu hələ ki, bir az yubanır. O nədən yubanır? Axı bu, Bakıya ən yaxın olan hissədir.

**C a v i d  Q u r b a n o v:** Cənab Prezident, həmin yol əvvəllər ümummilli liderimizin tapşırığı ilə tikilmişdir və eni 50 metrdir. Onun təkcə bir zolağının eni 11 metrdir.

**İ l h a m  Ə l i y e v:** Bəli, çox genişdir.

**C a v i d  Q u r b a n o v:** Ancaq tikinti daxili investisiyanın hesabına olduğundan oraya pul ayrılmırdı. Sizin tapşırığınızla gələn ilə bu yol üçün 10 milyon manat ayrılmışdır.

**İ l h a m  Ə l i y e v:** Bu, kifayət edəcək?

**C a v i d  Q u r b a n o v:** Yəqin ki, kifayət edəcəkdir.

**İ l h a m  Ə l i y e v:** O yol da bu səviyyədə olmalıdır. Bundan aşağı səviyyədə olmamalıdır. Özü də Bakıya daha yaxın-

dır. Bakıdan rayonlara gedən əsas yol oradandır. Səngəçal terminalına, ondan sonra başqa rayonlara – biri cənub, digəri qərb istiqamətinə ayrılır. Amma çalışın ki, o yol yaxşı vəziyyətdə, yüksək səviyyədə olsun. Ortada olan zolaq isə enlidir. Vaxtilə hansısa məqsədlər üçün belə tikilibdir. Bəlkə də oradan sovet vaxtında tank keçməli idi. O qala bilər və heç bir maneçilik törətmir.

**C a v i d  Q u r b a n o v:** Həmin yol 80-ci illərdə tikilibdir. Biz hamımız Rafiq Xələfovun tələbələriyik. O vaxt ondan soruşmuşdum. Deyirdi ki, o yolun tikintisi ilə bağlı ulu öndər Heydər Əliyevə müraciət edəndə tapşırmışdı ki, yolu enli tikin. Çünki Bakıya yaxındır. Ulu öndər bunu uzaqgörənlik edib ehtiyat kimi, enli tikdirmişdir.

**İ l h a m  Ə l i y e v:** İndi ortada olan torpaq zolağını da bəlkə yola qataq?

**C a v i d  Q u r b a n o v:** Cənab Prezident, mümkündür.

**İ l h a m  Ə l i y e v:** Bunu etsək, hardasa, altızolaqlı yol olacaqdır.

**C a v i d  Q u r b a n o v:** Bəli. Cənab Prezident, Sizin tapşırığınızla Bakı dairəvi yolunun layihəsi hazırlanıb, bir ay-ay yarımdan sonra tikintisinə başlanacaqdır. Həmin yol altızolaqlıdır. Əgər bu, altızolaqlıdırsa, davamı kimi, dördzolaqlı Ələt yolunu da ona bərabərləşdirmək olar.

**İ l h a m  Ə l i y e v:** Bəli, ortada olan torpaq hissəni yol etmək olar. İndi bizim bu qədər imkanımız var. Xüsusilə yol tikintisinə böyük vəsait ayrılır. Gələn il də nəzərdə tutulubdur. Yol Fondu da yaradılıbdır. Bizə imkan verəcək ki, bu işləri çevik şəkildə tənzimləyək.

*Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi. İnşaatçılarla, tikintidə iştirak edən xarici və yerli şirkətlərin nümayəndələri ilə görüşüb onları təbrik etdi.*

**İ l h a m  Ə l i y e v:** Azərbaycanda bütün yollar ən yüksək səviyyədə olmalıdır. Dünyada harada ən yüksək səviyyədə yol varsa, Azərbaycanda da o yoldan olmalıdır. Mənim

tələbim budur. Yaxşı da iş görürsünüz. Mən görürəm, keyfiyyətlidir. Düzdür, bu yolun keyfiyyətini bəlkə 2-3 ildən sonra dəqiq biləcəyik. Əgər burada hər şey yaxşı olsa, mən sizi tapıb bir daha təşəkkürümü bildirəcəyəm. Əgər pis olsa, onda gərək gizlənəsiniz.

*Dövlətimizin başçısı sonra inşaatçılarla xatirə şəkli çəkdirdi və avtomobili özü idarə edərək yeni yolun açılışını etdi.*

### Akademik Zərifə xanım Əliyevanın abidəsini ziyarət

*Prezident İlham Əliyev və xanımı həmin gün Şəmkir şəhərinin mərkəzində yerləşən və sakinlərin sevimli istirahət guşələrindən biri olan akademik Zərifə Əliyeva adına parka gəldilər. Burada görkəmli oftalmoloq alimin abidəsi ucaldılmışdır. Dövlətimizin başçısı və xanımı abidənin önünə gül dəstələri qoydular.*

### Şəmkir Quşçuluq Fabriki ilə tanışlıq

*Prezident İlham Əliyev noyabrın 1-də «AtaHoldinq» Şirkətlər Qrupuna daxil olan «AtaSənaye» MMC-nin Şəmkir rayonunun Yeni Həyat kəndində yerləşən quşçuluq fabrikində olmuşdur.*

*«AtaHoldinq» ASC Müşahidə Şurasının sədri Əhməd Erentok, «AtaSənaye» MMC Müşahidə Şurasının sədri Fuad Kərimov, Şəmkir Quşçuluq Fabriki İdarə Heyətinin sədri Şahmar Məmmədov və müəssisənin işçiləri dövlətimizin başçısını səmimiyyətlə qarşıladılar. Əhməd Erentok müəssisə haqqında məlumat verərək bildirdi ki, ulu öndər Heydər Əliyev tərəfindən tikdirilən Şəmkir Quşçuluq Fabriki 1980-ci ildə istifadəyə verilmişdi. Azərbaycanın qərb zonasını məhsulla təmin edirdi. «AtaHoldinq» Şirkətlər Qrupu 2004-cü ilin axırında müvafiq biznes planı əsasında layihə hazırlayıb 2005-ci ilin fevral ayında fabrikin beynəlxalq standartlara uyğun yenidən qurulmasına başlamışdır. İndiyədək 5 milyon dollar*

*sərmayə qoyulmuşdur, bütün işlərin başa çatmasına isə 10 milyon dollar xərclənəcəkdir. İşçilərin orta aylıq əməkhaqqı 280 manatdır.*

*Hazırda burada quraşdırılmış bütün avadanlıq Hollandiya və Türkiyənin ən qabaqcıl texnologiyalarına əsaslanır. Almaniya cinsli toyuqlar 60 qramlıq yumurta verir. Fabrikin istehsal etdiyi «Kənd» yumurtası, «Kənd» toyuğu ticarət brendi kimi, Azərbaycanda çox yaxşı tanınır və yüksək keyfiyyətinə görə dərhal satılır. Burada ildə 30 milyon ədəd yumurta istehsal edilir. 2007-2008-ci illərə qədər bunun 100 milyon ədədə çatdırılması planlaşdırılır. Bundan əlavə, fabrikdə min ton toyuq əti istehsal etmək mümkündür.*

*Hazırda fabrikdə 110 işçi çalışır. Tam gücü ilə işə düşəndən sonra işçilərin sayı 300 nəfərə çatacaqdır. Müəssisənin fəaliyyəti ilə bağlı formalaşmış ticarət şəbəkəsində çalışanlar da nəzərə alınmaqla, iş yerlərinin sayı 700 olacaqdır.*

*Dövlətimizin başçısı müəssisənin istehsal sahələri, laboratoriyası ilə tanış oldu, məhsulun satışı və keyfiyyəti ilə maraqlandı. Məlumat verildi ki, heç bir problem yoxdur. Bakıda təşkil olunan yarmarkalara gündə 40 min ədəd yumurta göndərilir. Bu fabrik prezidentin sahibkarlığın inkişafına göstərdiyi qayğının bariz nümunəsidir.*

*Müəssisə ilə tanışlıqdan xatirə olaraq dövlətimizin başçısına hədiyyələr təqdim edildi.*

## Füzuli qəsəbəsindəki orta məktəblə tanışlıq

*Prezident İlham Əliyev noyabrın 1-də, Şəmkirə səfərinin sonunda rayonun Füzuli qəsəbəsindəki şəhid İ.Əliyev adına orta məktəbə gəlmişdir.*

*Məktəbin pedaqoji kollektivi dövlətimizin başçısını və xanımını böyük hörmətlə, gül-çiçəklə qarşıladı.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ayrı-ayrı fənn kabinetlərinə, kompüter və sinif otaqlarına baxdılar, yaradılan şəraitlə tanış oldular. Bildirildi ki, Heydər Əliyev*

*Fondu tərəfindən əsaslı təmir etdirilmiş məktəbdə iki növbədə 373 şagird təhsil alır. Kompüterlər internetə qoşulmuş, istilik sistemi yenidən qurulmuşdur.*

*Bildirildi ki, məktəbdə uşaqların xarici dil öyrənməsi üçün müasir avadanlıq var. Dövlətimizin başçısı bunu müsbət qiymətləndirərək dedi ki, gərək uşaqlar ingilis, rus dillərini bilsinlər, başqa dillər də vacibdir.*

*Bununla da prezident İlham Əliyevin ölkəmizin qərb bölgəsinə səfəri başa çatdı.*

## TÜRKİYƏNİN TƏHSİL NAZİRİ HÜSEYN ÇELİK İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 noyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də Prezident sarayında Türkiyə Cümhuriyyətinin Təhsil naziri Hüseyn Çeliki qəbul etmişdir.*

*Ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən təhsil sahəsində əlaqələrin uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı Türkiyənin Təhsil nazirinin ölkəmizə səfərinin təcrübə mübadiləsi üçün yaxşı imkan yaratdığını bildirdi. Prezident İlham Əliyev Azərbaycanda xeyli türkiyəli, Türkiyədə isə xeyli azərbaycanlı gənclərin təhsil almasının dost ölkələrimizin bu sahədə əlaqələrinin daha da genişləndirilməsində mühüm amil olduğunu nəzərə çatdırdı.*

*Azərbaycanın dövlət siyasətində gənclərin təhsilinə böyük diqqət yetirildiyini vurğulayan dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, ölkələrimizin təhsil sahəsində əməkdaşlığı bundan sonra da inkişaf edəcəkdir.*

*Azərbaycan–Türkiyə əlaqələrinin bütün sahələrdə uğurla inkişaf etdiyini söyləyən qonaq təhsil sahəsində əməkdaşlığın da yaxşı səviyyədə olduğunu bildirdi. Ölkəmizə səfərindən məmnunluqla bəhs edən cənab Hüseyn Çelik bu səfərin Azərbaycanda təhsil sahəsindəki inkişafla yaxından tanış olmaq üçün yaxşı imkan yaratdığını bildirdi.*

## *bp* ŞİRKƏTİNİN VİTSE-PREZİDENTİ ENDRYU İNQLİS İLƏ GÖRÜŞ

*2 noyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də Prezident sarayında bp şirkətinin vitse-prezidenti Endryu İnqlisi qəbul etmişdir.*

*Ölkəmizə səfərindən məmnunluğunu bildirən qonaq Azərbaycanda neft sənayesinin, energetika sektorunun davamlı inkişaf etdiyini və bu sahədə böyük uğurlar əldə olunduğunu vurğuladı. «Şərqi Azəri» yatağında on gün bundan əvvəl neft hasilatına başlandığını söyləyən cənab Endryu İnqlis «Şahdəniz» layihəsinin tezliklə başa çatacağını mühüm uğur kimi dəyərləndirdi. O, təmsil etdiyi şirkətin Azərbaycanla əlaqələrinin bundan sonra da uğurla davam edəcəyini bildirdi.*

*Azərbaycanın yanacaq-energetika sektorunda qısa müddətdə çox böyük irəliləyişin, inkişafın baş verdiyini xatırladan prezident İlham Əliyev «Azəri»,«Çıraq»,«Günəşli» yataqlarında neft hasilatının yüksək həddə yaxınlaşmasını mühüm hadisə kimi dəyərləndirdi.*

*«Şahdəniz» yatağında görülən işləri yüksək qiymətləndirən dövlətimizin başçısı bütün bunların xarici şirkətlərlə, o cümlədən bp şirkəti ilə ölkəmizin on ildən çox davam edən uğurlu əməkdaşlığının gözəl nəticəsi olduğunu bildirdi.*

## XƏZƏRİN KARBOHİDROGEN EHTİYATLARININ İŞLƏNİLMƏSİ ÜZRƏ MƏSLƏHƏT ŞURASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 noyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də Prezident sarayında Xəzərin karbohidrogen ehtiyatlarının işlənilməsi üzrə Məsləhət Şurasının üzvlərini qəbul etmişdir.*

*Məsləhət Şurasının üzvü cənab Stüart Eyzenştat Səngəçal terminalı ilə tanışlıqdan aldıqları xoş təəssüratdan danışaraq dedi ki, orada çox böyük işlər görülür. Diqqəti çəkən məsələlərdən biri də orada təlim mərkəzinin olmasıdır. Azərbaycanlıların terminalın müxtəlif sahələrində çalışması üçün hər il 120 nəfər təlim mərkəzində yüksək hazırlıq keçir.*

*Təlim mərkəzində məşğələlərin xüsusi əhəmiyyət daşıdığını bildirən dövlətimizin başçısı bu sahədə işlərin çox uğurla getdiyini vurğuladı. Prezident İlham Əliyev dedi ki, biz çalışırıq Azərbaycanda inkişaf edən energetika sahəsi daim bacarıqlı kadrlarla təmin olunsun. İndi həm Səngəçalda, həm də digər sahələrdə çoxlu sayda yerli kadrların çalışmasının əhəmiyyətini vurğulayan dövlətimizin başçısı hazırda azərbaycanlıların həm sıravi işlərdə, həm də yüksək vəzifələrdə nümunə göstərdiklərini bildirdi. Prezident İlham Əliyev gələcəkdə bu sahədə daha böyük işlər görüləcəyinə əmin olduğunu vurğuladı.*

**ANQOLA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB JOZE EDUARDU DUŞ SANTUŞA**

Hörmətli cənab Prezident!

Anqola Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm. Ümidvaram ki, Azərbaycan ilə Anqola arasındakı münasibətlər, mövcud əlaqələrimiz bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 noyabr 2006-cı il*

## AZƏRBAYCAN RESPUBLİKASININ TELEVİZİYA VƏ RADİO İŞÇİLƏRİNƏ

Hörmətli televiziya və radio işçiləri!

Bu il Azərbaycanda milli radio verilişlərinin yayıma başlamasının 80, televiziya fəaliyyətinin 50 ili tamam olur.

Öz tarixini 1926-cı ildən başlayan Azərbaycan radio və televiziyası məhsuldar və şərəfli inkişaf yolu keçmişdir. Milli radio və televiziyamız fəaliyyət göstərdiyi bütün dövrlərdə Azərbaycan ədəbi dilinin yaranması və inkişafında, xalqımızın maariflənməsində, milli mədəniyyətimizin, ədəbiyyatımızın təbliğində, dünya azərbaycanlılarının birliyi və həmrəyliyi ideyalarının yayılmasında əvəzsiz rol oynamışdır. Bundan başqa, ölkədə gedən ictimai-siyasi, iqtisadi və mədəni quruculuq prosesləri, dövlət siyasətinin mahiyyətinin xalqa çatdırılması, cəmiyyətin aktual problemlərinin müzakirəsi, günün nəbzinə uyğun verilişlər hazırlanması da Azərbaycan televiziyası və radiosu üçün daim prioritet istiqamətlər olmuşdur.

Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra radio və televiziya yeni ictimai-siyasi şəraitdə və hüquqi çərçivədə fəaliyyət göstərməyə başladı. Ölkəmizdə cərəyan edən taleyüklü proseslərin, həyata keçirilən sosial-iqtisadi layihələrin, siyasi, hüquqi islahatların təbliğində və informasiya dəstəyi ilə təmin olunmasında radio və televiziya mühüm rol oynamışdır.

Müasir dövrdə radio və televiziya hər evə, ailəyə daxil olmuş, insanların gündəlik həyatının ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Radio və televiziyanın texniki imkanları hədsiz dərəcədə genişlənmiş, qarşılıqlı əlaqə və kommunikasiyanın yeni formaları yaranmış, onun operativliyi və təsir dairəsi yüksəlmişdir. İctimai fikrə təsir imkanları baxımın-

dan televiziya və radio bütün digər kütləvi informasiya vasitələrindən yüksəkdə dayanır.

Ümummilli liderimiz Heydər Əliyev radio və televiziyanı daim diqqətdə saxlayır, onun cəmiyyət həyatında rolunu yüksək dəyərləndirirdi. İstər Azərbaycana rəhbərliyinin birinci dövründə, istərsə də müstəqil dövlətimizə başçılıq etdiyi illərdə Heydər Əliyev radio və televiziyanın inkişafına, onun maddi-texniki bazasının, yaradıcılıq imkanlarının genişlənməsinə xüsusi diqqət və qayğı göstərmiş, dövlət quruculuğunda, ölkəmizdə gedən ictimai-siyasi proseslərdə, azərbaycançılıq ideyalarının, milli-mənəvi dəyərlərin təbliğində onun əhəmiyyətini layiqincə qiymətləndirmişdir.

Hazırda Azərbaycan dövləti və cəmiyyəti keyfiyyətcə yeni inkişaf mərhələsini yaşamaqdadır. Ölkənin sosial-iqtisadi həyatının, regionların, qeyri-neft sektorunun, sahibkarlığın inkişafı, güclü nəqliyyat-enerji və sosial infrastrukturların yaradılması, dünya standartlarına cavab verən informasiya texnologiyalarının, təhsil, mədəniyyət, səhiyyə və idman şəbəkəsinin formalaşdırılması, milli mənəvi-əxlaqi dəyərlərin qorunması və zənginləşdirilməsi, torpaqlarımızın azad edilməsi və təcavüzkar erməni işğalının nəticələrinin aradan qaldırılması uğrunda mübarizə və s. kimi işlər Azərbaycanın dinamik inkişafından xəbər verir.

Əlbəttə, ölkədə gedən inkişaf prosesləri televiziya və radiolardan da yan keçməmişdir. Hazırda Azərbaycanın televiziya və radio məkanı getdikcə zənginləşir. Ölkəmizdə səhmdar cəmiyyətə çevrilmiş Azərbaycan Televiziya və Radio Verilişləri təşkilatından başqa, bir sıra ümumrespublika və regional özəl teleradio kanalları, İctimai Televiziya və Radio Yayımları Şirkəti mövcuddur. Bu qurumlarda yüzlərlə gənc və istedadlı teleradio jurnalisti, rejissorlar, başqa mütəxəssislər nəsli yetişmiş və müvəffəqiyyətlə fəaliyyət göstərirlər. Ölkəmizdə teleradio fəaliyyətinə dair qanunvericilik təkmilləşdirilir, onun hüquqi-normativ bazası qabaqcıl dünya və Avropa standartlarına uyğunlaşdırılır, müasir şəraitə

və bazar iqtisadiyyatının tələblərinə cavab verən qaydalar, fəaliyyət normaları müəyyənləşdirilir.

Biz Azərbaycanın radio və televiziyalarından vətəndaşlarımıza və dünya ictimaiyyətinə ölkəmizdə baş verən taleyüklü hadisə və proseslər haqqında obyektiv və dolğun informasiya çatdırılmasını, onların peşəkarlıqla şərh edilməsini, insanlarımızın ümummilli vəzifələrin həllinə səfərbər edilməsini gözləyirik. Qloballaşma və beynəlxalq inteqrasiya proseslərinin geniş vüsət aldığı indiki dövrdə radio və televiziya həm də milli-mənəvi dəyərlərimizin qorunmasında, azərbaycançılığın bütün dünya azərbaycanlılarının birləşdirici və səfərbəredici dəyəri kimi təbliğ edilməsində, Azərbaycan dilinin, mədəniyyətinin, ölkəmizlə bağlı tarixi həqiqətlərin yayılmasında mühüm rol oynamalıdır.

Əmin olduğumu bildirirəm ki, azad rəqabət mühitinin hakim olduğu bazar iqtisadiyyatı, siyasi plüralizm və demokratiya şəraitində Azərbaycanın radio və televiziya təşkilatları da yeni dövrün tələblərinə uyğun fəaliyyət göstərərək, cəmiyyətin aktual problemlərinə diqqəti bir qədər də artıracaq, dinləyicilərin və tamaşaçıların informasiyaya artan tələbatını ödəyəcək, müxtəlif kateqoriyalardan olan insanların zövqünə və maraqlarına cavab verən cəlbedici proqramlar hazırlayacaqlar.

Əziz televiziya və radio işçiləri!

Sizi Azərbaycanda televiziya fəaliyyətinin 50 və radionun 80 illiyi münasibətilə ürəkdən təbrik edir, hər birinizə cansağlığı, uzun ömür, şəxsi həyatınızda və yaradıcılığınızda uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 noyabr 2006-cı il*

## İORDANİYANIN BAŞ NAZİRİ MƏRUF ƏL-BƏXİTİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*6 noyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 6-da Prezident sarayında İordaniyanın Baş naziri, Müdafiə naziri Məruf əl-Bəxitin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

**İlham Əliyev:** Hörmətli Baş nazir, hörmətli qonaqlar! Mən sizin hamınızı Azərbaycanda salamlayıram. Xoş gəlmisiniz! Mən əminəm ki, ölkəmizə səfəriniz ikitərəfli münasibətlərə çox güclü təkan verəcək və bizim aramızda olan dostluq, qardaşlıq münasibətləri daha da güclənəcəkdir. Biz bütövlükdə ikitərəfli əlaqələrimizin inkişafı ilə bağlı bütün məsələləri çox səmimi şəkildə müzakirə edirik və görürük ki, bu münasibətlər uğurla inkişaf edir.

Əlahəzrət Kral II Abdullahın Azərbaycana rəsmi səfəri, əlbəttə ki, bu işdə çox önəmli addım olmuşdur. Səfər zamanı çox geniş fikir mübadiləsi aparılmış və münasibətlərimiz bir daha təhlil edilmişdir. Siyasi əlaqələr çox yüksək səviyyədədir. Biz çalışmalıyıq ki, iqtisadi əlaqələr də bu səviyyəyə qalxsın. Hələlik iqtisadi sahədə əməkdaşlığımız nə sizi, nə də bizi qane edir. Ticarət dövriyyəsinin artması üçün əməli addımlar atılmalıdır və ölkələrin potensialı buna imkan verir. Mən ümid edirəm ki, nümayəndə heyətinin tərkibində olan nazirlər öz həmkarları ilə görüşəcəklər və beləliklə, iqtisadi sahədə də güclü inkişaf müşahidə olunacaqdır.

Bildiyiniz kimi, artıq bir müddətdir ki, İordaniyada Azərbaycan səfirliyi fəaliyyətə başlayıb və ikitərəfli münasibət-

lərin bütün sahələrdə inkişafı üçün öz rolunu oynayacaqdır. Bir sözlə, mən şübhə etmirəm ki, sizin səfəriniz gələcək münasibətlərimiz üçün önəmli addım olacaq və sizi bir daha Azərbaycanda ürəkdən salamlayıram. Əminəm ki, səfəriniz həm uğurlu olacaq, həm də sizin üçün xoş keçəcəkdir.

**M ə r u f ə l - B ə x i t:** Çox sağ olun, zati-aliləri cənab Prezident! Hər şeydən əvvəl demək istəyirəm ki, Kral çox istəyirdi və çox israrlı idi ki, biz Azərbaycana gələk. İcazə verin, Sizə İordaniya kralı II Abdullahın hörmət və ehtiramını, salamlarını çatdırım.

Biz bu ölkəyə açıq ürəklə gəlmişik və Azərbaycanla bütün sahələrdə əlaqələrin səviyyəsini öyrənmək və onu inkişaf etdirmək və Sizinlə Kral arasında olan dostluğun səviyyəsinə çatdırmaq istəyirik. Dövlətlərimiz arasında həm siyasi, həm ticarət-iqtisadi, həm də sosial və digər sahələrdə əməkdaşlıq üçün çox geniş imkanlar vardır.

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ

Hörmətli cənab Prezident!

Görkəmli dövlət xadimi və siyasi xadim Bülənd Ecevitin vəfatı xəbəri bizi son dərəcə kədərləndirdi.

Bütün ömrü boyu Atatürk ideyalarına sadiq qalmış Bülənd Ecevit yenilməz iradə, mətanət və qətiyyətlə Vətəninə, xalqına xidmət etmişdir.

Bülənd Ecevit türk dünyasının yüksəlişi, türkdilli xalqların mənafeləri uğrunda fədakarcasına çalışmış, Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin möhkəmlənməsinə böyük töhfələr vermişdir.

Bu əvəzsiz itki ilə əlaqədar dərdinizi bölüşür, Sizə, qardaş Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 noyabr 2006-cı il*

**TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ
CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Baş nazir!

Tanınmış dövlət xadimi, siyasət aləminin görkəmli simalarından biri Bülənd Ecevitin vəfatı xəbərini kədər hissi ilə qarşıladıq.

Dərin məzmunlu bir ömür yaşamış Bülənd Ecevit yarım əsrə çatan siyasi fəaliyyəti ilə, əməl və məramı ilə öz adını tarixin səhifələrinə əbədi həkk etmişdir.

Bu ağır itki ilə əlaqədar Sizə dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 noyabr 2006-cı il*

## XANIM RƏHŞAN ECEVİTƏ

Hörmətli Rəhşan Ecevit!

Həyat yoldaşınız – görkəmli dövlət xadimi və siyasi xadim Bülənd Ecevitin vəfatı xəbərindən hədsiz kədər içindəyik.

Bu ağır anlarda dərdinizə şərik çıxır, Sizə, əzizlərinizə və yaxınlarınıza dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 noyabr 2006-cı il*

**LATVİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM VAYRA VİKE-FREYBERQAYA**

Hörmətli xanım Prezident!

Milli bayramınız – Latviya Respublikasının elan edilməsi günü münasibətilə Sizi və Sizin simanızda dost Latviya xalqını öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ölkələrimiz arasında tarixən mövcud olmuş əlaqələr bu gün yeni məzmun kəsb etməkdədir.

Qarşılıqlı səfərlərimiz zamanı əməkdaşlığımızın geniş spektrinə dair imzalanan sənədlər münasibətlərimizin hərtərəfli inkişafını təmin edən mükəmməl hüquqi baza yaratmışdır.

Əminəm ki, belə bir möhkəm təməl üzərində qurulan əməkdaşlığımız xalqlarımızın rifahına yeni-yeni töhfələr verəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 noyabr 2006-cı il*

**OMANIN SULTANI ƏLAHƏZRƏT**
**QABUS BİN SƏİDƏ**

Əlahəzrət!

Ölkənizin milli bayramı – Təvəllüd gününüz münasibətilə Sizi və dost Oman xalqını öz adımdan və Azərbaycan xalqı adından təbrik etməkdən məmnunluq duyuram.

Əminəm ki, Azərbaycan ilə Oman arasında yaranmış münasibətlərin inkişafı xalqlarımızın iradəsinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq məcrasında davam edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 noyabr 2006-cı il*

**LİVAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB EMİL LƏHHUDA**

Hörmətli cənab Prezident!

Livan Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün Livan xalqını ürəkdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafeləri naminə daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 noyabr 2006-cı il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BELÇİKAYA İŞGÜZAR SƏFƏRİ

*6 noyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 6-da Belçikaya işgüzar səfərə yola düşmüşdür. Elə həmin gün dövlətimizin başçısını Brüsselin «Abelaq» hava limanında Belçika Krallığının dövlət və hökumət rəsmiləri, Avropa İttifaqının və NATO-nun nümayəndələri böyük hörmət və ehtiramla qarşıladılar.*

*Azərbaycan prezidenti hava limanından onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

## AVROPA İTTİFAQI ŞURASININ BAŞ KATİBİ, XARİCİ İŞLƏR VƏ TƏHLÜKƏSİZLİK SİYASƏTİ ÜZRƏ ALİ NÜMAYƏNDƏSİ XAVYER SOLANA İLƏ GÖRÜŞ

*Brüssel*

*7 noyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Brüsseldə Avropa İttifaqının iqamətgahına gəldi.*

*Binada Azərbaycan Respublikasının dövlət bayrağı asılmışdı.*

*Prezident İlham Əliyevi binanın önündə Avropa İttifaqı Şurasının Baş katibi, xarici siyasət və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Xavyer Solana böyük hörmət və ehtiramla qarşıladı.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Baş katibi Xavyer Solana ilə təkbətək görüşü oldu.*

*Dövlətimizin başçısı Azərbaycanda gedən siyasi-iqtisadi inkişaf proseslərindən və müxtəlif sahələrdə qazanılan uğurlardan danışdı.*

*Avropa İttifaqının Azərbaycanla əlaqələrə böyük əhəmiyyət verdiyini bildirən Xavyer Solana bunun müxtəlif sahələrdə, o cümlədən enerji sahəsində əməkdaşlığın inkişafına təkan verəcəyini vurğuladı. O, yeni qonşuluq siyasətindən danışaraq, bunu Azərbaycan–Avropa İttifaqı əməkdaşlığının yeni mərhələsi adlandırdı. Xavyer Solana Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli və regional məsələlərlə də maraqlandı.*

*Prezident İlham Əliyev ölkəmizin Avropa İttifaqı ilə münasibətlərə çox böyük önəm verdiyini vurğuladı, «Yeni qon-*

*şuluq siyasətinə dair fəaliyyət planı»nın əhəmiyyətindən danışdı və əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminliyini söylədi. Dövlətimizin başçısı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesinin hazırkı vəziyyəti barədə ətraflı bəhs edərək dedi ki, bu məsələ yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü prinsipinə əməl olunmaqla həll edilə bilər.*

*Xavyer Solana Azərbaycanı regionda çox əhəmiyyətli rol oynayan dövlət kimi səciyyələndirdi və ümumiyyətlə, Avropa İttifaqının regionla əlaqələrində ölkəmizlə əməkdaşlığın çox mühüm yeri olduğunu vurğuladı.*

# MƏTBUAT NÜMAYƏNDƏLƏRİ ÜÇÜN KEÇİRİLMİŞ BRİFİNQDƏ AVROPA İTTİFAQI ŞURASININ BAŞ KATİBİ XAVYER SOLANANIN VƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATLARLA ÇIXIŞLARI VƏ JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*Brüssel*

*7 noyabr 2006-cı il*

## Xavyer Solonanın bəyanatı

Xanımlar və cənablar!

Sabahınız xeyir olsun!

İcazənizlə, ilk növbədə onu deyim ki, burada, Brüsseldə ikinci dəfə Azərbaycan prezidenti cənab İlham Əliyev ilə görüşməkdən olduqca məmnunam. O, Avropanın çoxdankı dostudur və Avropa İttifaqı ilə Azərbaycan və ümumiyyətlə, həmin regionun ölkələri arasındakı münasibətlərin mühüm bir anında buraya səfər etmişdir.

Bu gün Avropa İttifaqı ilə Azərbaycan arasında mühüm sənəd, enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumu imzalanacaqdır.

Gələn həftənin əvvəlində isə Avropa İttifaqının «Yeni qonşuluq siyasəti»nə dair Azərbaycan və Cənubi Qafqazın digər ölkələri – Gürcüstan və Ermənistan ilə tədbirlər planı imzalanacaqdır. Təbii ki, biz yeni qonşuluq siyasətinin mühüm hissəsi olan ikitərəfli münasibətləri və gələn həftə həyata keçirilməsinə başlanılacaq tədbirlər planını müzakirə etdik.

Eyni zamanda, enerji sahəsində əməkdaşlıq haqqında danışdıq, regiondakı məsələləri, o cümlədən Dağlıq Qarabağ

məsələsini, Gürcüstandakı və ümumiyyətlə, bütün regiondakı vəziyyəti müzakirə etdik. Mən prezident Əliyevdən çox sualları öyrəndim. Apardığımız danışıqları mühüm və önəmli sayıram və onunla yenidən Bakıda görüşməyimi arzulayıram. Bakıya səfərim mənim yaxşı yadımdadır.

Cənab Prezident, buraya səfər etdiyinizə görə Sizə bir daha minnətdarlığımı bildirirəm. Əminəm ki, yeni qonşuluq siyasətinə dair tədbirlər planı sizin ölkə və region ilə əlaqələrin gücləndirilməsinə yeni təkan verəcəkdir. Çox sağ olun.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Çox sağ olun, cənab ali nümayəndə!

Bizə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə minnətdaram. Burada, Brüsseldə yenidən olmağımdan və ikitərəfli əlaqələrimiz, regional proseslərə dair fikir mübadiləsi aparmaq imkanından çox məmnunam.

Bu gün biz Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın yeni mərhələsinə başlayırıq. Əminəm ki, bundan sonra olduqca uzun müddət ərzində həyata keçirəcəyimiz daha sıx tərəfdaşlıq, əməkdaşlıq və əlaqələr Azərbaycana siyasi və demokratik islahatları, ölkənin müasirləşdirilməsini, güclü siyasi və iqtisadi sistemin qurulmasını davam etdirmək imkanı yaradacaqdır.

Avropa İttifaqının Cənubi Qafqaz regionuna aid yeni qonşuluq siyasəti gələn beş il ərzində ölkəmizdə siyasi və iqtisadi inkişaf meyarlarının Avropa İttifaqındakı göstəricilərə uyğunlaşdırılmasının əsasını qoyacaqdır. Bu bizim məqsədimiz və gündəliyimizdə duran məsələlərdir. Avro-atlantik məkana inteqrasiya sahəsində Azərbaycanın neçə illər ərzində apardığı siyasət həm ölkəmiz, həm də bütövlükdə regional əməkdaşlıq üçün çox böyük nəticələr vermişdir.

Hazırda əməkdaşlığımızın elementlərindən biri enerji sahəsindəki əlaqələrdir. Avropanın etibarlı tərəfdaşı və dostu

olan Azərbaycan hamımız üçün get-gedə daha mühüm məsələyə çevrilən enerji təhlükəsizliyində vacib rol oynamaqdadır. Ümumiyyətlə, mən əməkdaşlığımızı olduqca səmərəli və mühüm hesab edirəm. Bu əməkdaşlıq müstəqilliyimizin qısa dövrü, yəni 15 ili ərzində ölkəmizdə sürətlə inkişaf edən iqtisadiyyat, güclü siyasi sistem qurmaq imkanını yaratdı və Avroatlantik məkana inteqrasiya arzumuzu möhkəmləndirdi.

Mən Azərbaycanın böyük dostu cənab Xavyer Solananı ölkəmizə səfərə dəvət etdim. O, Azərbaycanda dəfələrlə olubdur. Əminəm ki, gələcək səfəri zamanı cənab Solana ölkəmizdəki bir çox dəyişiklikləri görəcək və biz öz dialoqumuzu olduqca səmimi və açıq formada davam etdirəcəyik. Avropa və Azərbaycanın gələcəyi naminə əməkdaşlığımız irəli gedəcəkdir. Sağ olun.

**«Azad Avropa» radiosu:** Sualım prezident Əliyevədir. Siz Rusiya ilə müqayisədə ölkənizi Avropa İttifaqı üçün enerji təchizatında alternativ kimi görürsünüzmü?

**İlham Əliyev:** Biz ölkəmizi heç vaxt hər hansı digər ölkənin alternativi hesab etməmişik. Biz, sadəcə, öz işimizi yerinə yetirmişik. Ölkəmiz və bütün region üçün düzgün olan işləri görmüşük. Bizim indiki enerji infrastrukturumuz böyük həcmdə neft və qazı Avropa və dünya bazarlarına çıxarmaq imkanı yaradır. Bu siyasətin əsası 1994-cü ildə qoyulmuşdur. Artıq 10 ildir ki, biz bu siyasəti həyata keçiririk. Bir daha demək istəyirəm ki, həmin siyasətin məqsədi ölkəmizin tələbatının ödənilməsindən, sürətli iqtisadi inkişafdan ibarətdir. Bu gün isə Avropadakı və dünyadakı vəziyyət 10 il əvvəl olan vəziyyətdən fərqlənir. Bu səbəbə görə də enerji təhlükəsizliyi məsələləri get-gedə daha böyük əhəmiyyət kəsb edir. Azərbaycan isə öz neft və qaz ehtiyatları, mövcud olan enerji infrastrukturu və boru kəmərləri ilə, təbii ki, dünyanın və regionun enerji təhlükəsizliyində mühüm rol oynaya bilər.

**F ə r i d İ s g ə n d ə r o v** (*Azərbaycanın «Space» telekanalı*): Azərbaycanın Avropa İttifaqı üçün vacibliyi nədən ibarətdir və enerji sahəsindən başqa, digər sahələrdəki əməkdaşlığın gələcək perspektivlərini necə görürsünüz?

**X a v y e r S o l a n a**: Prezidentin dediyi kimi, Azərbaycan ilə Avropa İttifaqı arasındakı münasibətlər yeni mərhələyə qədəm qoyur. Yeni qonşuluq siyasətinə dair tədbirlər planının həyata keçirilməsi gələn həftənin ikinci günündən etibarən başlanacaqdır və bu, təkcə enerji sahəsinə aid deyildir. Burada bir çox digər müddəalar da vardır. Prezident həmçinin vurğuladı ki, siyasi, iqtisadi və digər sahələrdə dəyişikliklərin olması üçün çox işlər görülür və bu faydalıdır. Biz Azərbaycanla ikitərəfli münasibətlərimizi dərinləşdirmək əzmindəyik və bu, təkcə enerji sahəsini əhatə etmir. Baxmayaraq ki, o, vacib sahədir. Azərbaycan yalnız enerji məhsulları ölkəsi deyil, regionun mühüm ölkəsidir. Biz Cənubi Qafqaz regionunun üç ölkəsi – Azərbaycan, Ermənistan və Gürcüstan ilə münasibətlərin dərinləşməsində maraqlıyıq. Biz nəinki siyasi münasibətlər, o cümlədən regional əlaqələr də qurmalıyıq.

Bu barədə prezidentlə söhbət etdik və o bununla razılaşdı. Ölkənizdə hazırda gedən sürətli inkişaf regional inteqrasiyada öz rolunu oynayacaqdır.

**«N e z a v i s i m a y a q a z e t a»** (*Rusiya*): Sualım prezident Əliyevədir. Sizin Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı konsepsiyanız nədən ibarətdir?

**İ l h a m Ə l i y e v:** Mövqeyimiz tam aydındır və hər zaman beynəlxalq hüquq normaları və prinsiplərinə arxalanır. Dünyanın istənilən yerində münaqişənin həllinə ehtiyac duyularsa, beynəlxalq hüquq normaları və prinsipləri həmin münaqişəyə tətbiq olunmalıdır. Azərbaycanın ərazi bütövlüyü, yalnız Ermənistan istisna olmaqla, beynəlxalq ictimaiyyət, Birləşmiş Millətlər Təşkilatı və bütün ölkələr tərəfindən tanınır. Münaqişə yalnız bu əsaslarla həll oluna bilər. Azərbaycanın işğal olunmuş torpaqları qaytarılmalı, işğala son

qoyulmalı, etnik təmizləmə siyasətindən əziyyət çəkmiş bir milyon azərbaycanlı qaçqın və məcburi köçkün öz doğma torpaqlarına qayıtmalıdır. Bu halda Dağlıq Qarabağ ermənilərinə dünyada mövcud olan ən yüksək muxtariyyət statusu verilə bilər. Bu, beynəlxalq təcrübədir. Milli azlıqlar və muxtariyyətlər Avropada bir çox ölkədə var. Azlıq olmaq o demək deyil ki, siz torpağın müəyyən hissəsini qoparıb özünüzü müstəqil elan edə bilərsiniz. Bir sözlə, tərəfdar çıxdığımız bu əsas prinsiplər bunlardır və münaqişənin həlli üçün yaxşı zəmin ola bilər.

Sağ olun.

## AVROPA KOMİSSİYASININ SƏDRİ JOZE MANUEL BARROZU İLƏ GÖRÜŞ

*Brüssel*

*7 noyabr 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Brüsseldə Avropa Komissiyasının sədri Joze Manuel Barrozu ilə görüşmüşdür.*

*Cənab Barrozu Azərbaycan ilə əməkdaşlığın səviyyəsinin yaxşı olduğunu bildirərək dedi ki, əlaqələrin daha da genişləndirilməsi üçün potensial böyükdür. O, Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında imzalanacaq enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumunun əhəmiyyətini vurğuladı, Azərbaycanın Avropaya inteqrasiyasının Avropa İttifaqı üçün də vacibliyini bildirdi. Cənab Barrozu dedi ki, biz Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrini yüksək qiymətləndiririk, qonşuluq siyasəti çərçivəsində işbirliyindən məmnunuq, əlaqələrimizdə iqtisadi, o cümlədən enerji sahəsində əməkdaşlıq mühüm yer tutur. Bununla yanaşı, demokratik dəyərlər baxımından da əməkdaşlığımız faydalıdır. Elə etməliyik ki, həm Azərbaycan əhalisi, həm də Avropa İttifaqı ölkələrinin əhalisi bunun əməli nəticələrini görsün.*

*Avropa İttifaqı ilə əməkdaşlığı yüksək qiymətləndirən Azərbaycan prezidenti İlham Əliyev ölkəmizdə gedən iqtisadi inkişaf proseslərindən, yoxsulluğun azaldılması, yeni iş yerlərinin açılması və demokratik islahatlar barədə ətraflı söhbət açdı və bildirdi ki, bütün sahələrdə Avropa dəyərlərinə qovuşmağın bizim üçün böyük əhəmiyyəti var. Dövlətimizin başçısı*

*Azərbaycanın Avropa İttifaqı töhfəsindən də danışaraq, ölkəmizin əlverişli coğrafi mövqeyi, zəngin təbii sərvətləri və geniş nəqliyyat infrastrukturu olduğunu vurğuladı və dedi ki, bu baxımdan Azərbaycan da Avropa üçün böyük əhəmiyyət daşıyır.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsinə də toxunuldu. Prezident İlham Əliyev danışıqlar prosesinin hazırkı mərhələsi, eləcə də Azərbaycanın bu məsələdə mövqeyi barədə məlumat verdi.*

*Avropa Komissiyasının sədri dedi ki, biz yalnız enerji sahəsində deyil, digər sahələrdə də Azərbaycanla əməkdaşlığın genişləndirilməsində maraqlıyıq.*

*Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər də müzakirə olundu.*

## AZƏRBAYCAN İLƏ AVROPA İTTİFAQI ARASINDA ANLAŞMA MEMORANDUMU İMZALANMIŞDIR

*Noyabrın 7-də Azərbaycan prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Joze Manuel Barrozu Azərbaycan Respublikası və Avropa İttifaqı arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumu imzaladılar.*

*İmzalanma mərasimindən sonra mətbuat nümayəndələri üçün brifinq keçirildi. Avropa Komissiyasının sədri Joze Manuel Barrozu Azərbaycanın ən çətin dövrlərində, iqtisadiyyatın böhranlı vəziyyətində ölkəmizə 400 milyon avro dəyərində yardım göstərildiyini vurğuladı, Azərbaycanla siyasi, iqtisadi və demokratik sahədə əməkdaşlığın bundan sonra daha da genişləndiriləcəyini söylədi. O vurğuladı ki, hazırda Azərbaycanda olduqca sürətli iqtisadi inkişaf gedir.*

*Prezident İlham Əliyev Azərbaycan–Avropa İttifaqı əlaqələrinin indiki mərhələsinin əməkdaşlığın genişləndirilməsinə yeni imkanlar açdığını bildirdi və dedi ki, bu əməkdaşlıq Azərbaycan üçün prioritet əhəmiyyət daşıyır. Azərbaycan enerji daşıyıcılarının nəqli ilə yanaşı, emalında, eləcə də, alternativ boru kəmərlərinin yaradılmasında da maraqlıdır. Joze Manuel Barrozu bildirdi ki, Avropa İttifaqı Azərbaycanla əməkdaşlığı təkcə enerji sahəsinə aid etmir, siyasi, iqtisadi, hüquqi və digər sahələrdə də əlaqələr uğurla inkişaf edir. Avropa İttifaqı həm Azərbaycan, həm də Ermənistanla yeni qonşuluq siyasətinə dair fəaliyyət planında ərazi bütövlüyü prinsipi öz əksini tapır və Avropa İttifaqı Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini dəstəkləyir. Biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ATƏT çərçivəsində sülh yolu ilə həllinin tərəfdarıyıq. Sülh əldə olunduqdan sonra Avropa İttifaqı bərpa işlərində yaxından iştirak edəcəkdir.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ AVROPA KOMİSSİYASININ SƏDRİ JOZE MANUEL BARROZUNUN BİRGƏ BRİFİNQİ

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Joze Manuel Barrozu noyabrın 7-də Brüsseldə Azərbaycan Respublikası və Avropa İttifaqı arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumu imzalamışlar. Sənədin imzalanmasından sonra mətbuat nümayəndələri üçün keçirilən brifinqdə Avropa Komissiyasının sədri Joze Manuel Barrozu və Azərbaycan prezidenti İlham Əliyev bəyanatlarla çıxış etdilər.*

### Avropa Komissiyasının sədri Joze Manuel Barrozunun bəyanatı

Xanımlar və cənablar, xoş gördük!

Prezident İlham Əliyevi ilk dəfə Brüsseldə salamlamaqdan böyük məmnunluq hissi duyuram. Biz indicə prezident İlham Əliyevlə birlikdə Azərbaycan və Avropa İttifaqı arasında enerji tərəfdaşlığına dair anlaşma memorandumunu imzaladıq. Bu memorandum komissiyanın davamlı enerji təhlükəsizliyinin təminatı strategiyasının bir nəticəsidir. Bu strategiyada enerji sektorunda əsas neft ixrac edən və tranzit ölkələr arasında əlaqələrin genişləndirilməsinə xüsusi diqqət verilir. Bu anlaşma memorandumunun icrası Azərbaycanın Avropa İttifaqının enerji bazarlarına daha tez inteqrasiyasına kömək edəcəkdir. Xəzər hövzəsindən enerji daşıyıcılarının nəqli nəticəsində Avropa İttifaqının enerji təhlükəsizliyi daha da güclənəcəkdir. Eləcə də bu, Azərbaycanda enerjiyə

olan tələbatın daha səmərəli şəkildə idarə edilməsi sisteminin yaradılmasına və təcrübə mübadiləsinə imkan verəcəkdir.

Mən bir fikri xüsusi vurğulamaq istəyirəm ki, Avropa İttifaqının enerji təhlükəsizliyinin təmin edilməsində Xəzər hövzəsindən nəql olunacaq enerji daşıyıcıları böyük rol oynayacaqdır. Biz buna görə Azərbaycana minnətdarıq. Yəni Azərbaycan enerji sahəsində Avropa İttifaqı ilə daha yaxından əməkdaşlıq edəcəkdir.

Eləcə də məmnunluq hissi ilə qeyd edirik ki, Azərbaycan Avropa İttifaqının qonşuluq siyasətinə daxil olub və bu, ölkədə sabitliyə və rifaha öz töhfəsini verəcəkdir.

Təbii ki, enerji və iqtisadi sahədə əməkdaşlıq çox vacib məsələlərdir.

Lakin Azərbaycan ilə Avropa İttifaqı arasındakı əməkdaşlıq təkcə bununla məhdudlaşmır. Avropanın yeni qonşuluq siyasəti daha genişdir. Biz demokratiya, idarəçilik, azadlıq və insan hüquqlarının qorunması kimi ümumi dəyərlərə əsaslanaraq irəli getmək niyyətindəyik. Mən bu məsələlərlə, o cümlədən Azərbaycan mətbuatında söz azadlığı ilə bağlı bəzi məlumatları Azərbaycan Prezidenti ilə hərtərəfli müzakirə etdim. Əminəm ki, cənab prezident bu barədə sizə əlavə məlumat verəcəkdir.

Biz Azərbaycanla güclü və hərtərəfli münasibətlərin yaradılmasında maraqlıyıq. Təbii ki, islahatlar sahəsində Azərbaycana yardım etməyə hazırıq və bu barədə də fikir mübadiləsi apardıq. Mən çox məmnunluq hissi ilə vurğulamaq istəyirəm ki, Azərbaycan Prezidentinin fikrincə, islahatlar yalnız iqtisadi yox, siyasi sahədə də aparılmalıdır.

Biz Azərbaycana neft və qaz hasilatından gələn gəlirlərin şəffaf şəkildə idarə olunması və iqtisadiyyatın davamlı şəkildə inkişaf etdirilməsi sahəsində də yardım göstərməyə hazırıq. Azərbaycan çətin dövrlərini yaşayarkən Avropa İttifaqı ona 400 milyon avrodan artıq məbləğdə yardım göstərmişdir. Amma indi Azərbaycan dünyanın ən sürətlə inkişaf edən ölkələrindən biridir. Mən böyük məmnunluq hissi ilə demək

istəyirəm ki, bu gün Azərbaycan və Azərbaycan Prezidenti Avropa İttifaqı ilə qarşılıqlı maraqlara və ümumi dəyərlərə əsaslanan münasibətlərin inkişaf etməsini istəyir.

Cənab Prezident, Brüsselə gəldiyinizə görə təşəkkür edirəm.

**Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı**

Çox sağ olun, cənab sədr!

Xanımlar və cənablar!

Mən bu gün Brüsseldə olmağımdan və cənab sədr Barrozu ilə ikitərəfli münasibətlərimizlə və regional inkişafla bağlı məsələləri müzakirə etməkdən çox şadam.

Əlaqələrimizin uzun tarixi var. Azərbaycan öz müstəqilliyini əldə etdiyi vaxtdan etibarən biz hər zaman Avropa İttifaqının dəstəyini hiss etmişik. Xüsusilə də Azərbaycanın tarixində ən çətin anlarda biz Avropa İttifaqından həm güclü maliyyə dəstəyi, həm də siyasi dəstək almışıq. Azərbaycanın 15 illik müstəqilliyi dövründə ölkəmizin Avropa İttifaqı ilə münasibətləri uğurla inkişaf edir. Bu gün biz münasibətlərimizin yeni bir mərhələsinə qədəm qoyuruq. Avropa İttifaqının Cənubi Qafqazda yeni qonşuluq siyasəti və enerji məsələləri üzrə strateji tərəfdaşlığı çərçivəsində uzunmüddətli tərəfdaşlığa başlayırıq. Hər iki məsələ, əlbəttə ki, Azərbaycan üçün böyük əhəmiyyət kəsb edir və əminəm ki, qarşıdan gələn illər ərzində bu əməkdaşlıqda daha böyük inkişafa nail olacağıq.

Azərbaycanda siyasi və iqtisadi islahatlar paralel şəkildə aparılır və biz demokratik cəmiyyət qururuq. Qanunun aliliyi və insan hüquqlarının qorunması prinsipləri əsas tutulur. Yəni bu iki məsələni bir-birindən ayırmaq olmaz. Bir sözlə, bu məsələlərin Azərbaycan və ümumiyyətlə, regional əməkdaşlıq üçün böyük əhəmiyyəti var. Xüsusən də ölkədəki böyük neft və qaz ehtiyatlarını və parlaq gələcəyimizi nəzərə alaraq bu məsələlərin ölkə üçün nə qədər vacib olduğunu anlaya bilərik. İndi biz bu məsələyə müxtəlif formada baxı-

rıq. Ona görə Avropa İttifaqı ilə əməkdaşlıq bizim üçün nəinki iqtisadi göstəricilərimizi təkmilləşdirmək, eyni zamanda, gələcək illər ərzində ölkəmizdəki meyarları Avropa İttifaqının meyarlarına daha da yaxınlaşdırmaq imkanı yaradır.

Biz ümumi dəyərləri bölüşürük. Azərbaycanda getdiyimiz yol, qarşımızda duran vəzifələr aydın şəkildə anlaşılır və bu cür məsələlər bizim üçün prioritet xarakter daşıyır. Görüşlərimiz zamanı həmin vacib məsələləri müzakirə etdik və əminəm ki, gələcək illər ərzində Avropa İttifaqı ilə Azərbaycan arasındakı əməkdaşlıq davam etdiriləcək və genişlənəcəkdir. Biz bu əməkdaşlığa qarşılıqlı maraq doğuran və fayda verən yeni elementlər gətirəcəyik. Azərbaycan olduqca mühüm neft və qaz hasilatçısına çevrilir. Azərbaycanda neft və qaz gəlirlərinin idarə edilməsinin olduqca müasir sistemi var. Azərbaycan hasilat sənayesində gəlirlərin şəffaf şəkildə idarə edilməsi təşəbbüsünə qoşulmuşdur və bu, digər ölkələr üçün nümunə ola bilər. Bu, beynəlxalq maliyyə təsisatları tərəfindən də bildirilmişdir. Bir sözlə, ölkəmizin iqtisadi göstəriciləri və siyasi inkişafı bu imkanları yaradacaq və Avropa İttifaqı ilə əməkdaşlıq bu çərçivədə aparılır. Siyasi əməkdaşlıq, siyasi və iqtisadi islahatlar, enerji təhlükəsizliyi məsələləri – bunlar hamısı bu baxımdan bizim tərəfimizdən nəzərdən keçirilir. Avropa İttifaqı ilə bütün bu məsələlərdə və ümumiyyətlə, əməkdaşlığımız bu istiqamətdə gedir.

Mən xoş qəbula görə minnətdaram və apardığımız müzakirələrdən çox məmnunam və demək istəyirəm ki, gələcək əməkdaşlığımıza böyük maraqla baxırıq. Çox sağ olun.

**Dmitri Şkurko** (*Ukrinform*): Mənim sualım prezident İlham Əliyevədir. Avropa İttifaqı ilə enerji dialoqu çərçivəsində Azərbaycan Odessa–Brodı–Qdansk kəmərinin istifadəsində nə dərəcədə maraqlıdır və Azərbaycan neftinin bu boru kəməri ilə nəqli nə vaxt gözlənilir?

**İ l h a m  Ə l i y e v:** Bu məsələ Ukrayna prezidenti ilə görüşlərimiz zamanı bir neçə dəfə müzakirə olunub və biz bununla bağlı Azərbaycan–Ukrayna birgə işçi qrupu yaratmışıq. Hazırda həmin boru kəmərinin kommersiya tərəfinin, digər iqtisadi amillərin və istismarın müəyyən edilməsi mexanizmləri qiymətləndirilir. Biz görüşlərimiz zamanı Azərbaycanın yalnız boru kəmərinin neftlə doldurulmasında yox, eyni zamanda, neftin nəql olunduğu ölkələrdə neft məhsullarının emalı və paylanmasında da iştirakını müzakirə etdik. Mən bilirəm ki, Avropa İttifaqı bu layihəyə maraq göstərir və bunu da müzakirə etdik. Bu, məsələnin həlli üçün yaxşı bir çərçivədir. Gələcəkdə regionumuzda neft hasilatının həcmi çox böyük olacaq və bu, digər boru kəmərlərinin istifadəsi üçün də kifayət edəcəkdir. Alternativ marşrutların olması bizim üçün də böyük əhəmiyyət kəsb edir. Bu gün Azərbaycandan Avropa və dünya bazarlarına neftin nəqli üçün 3 boru kəməri var və əlavə bir boru kəmərinin olması faydalı ola bilərdi.

**«T h e  o b s e r v e r»  q ə z e t i** (*Böyük Britaniya*): İnsan hüquqlarına dair hesabatlarda Azərbaycanın adı Belarusla yanaşı çəkilir. Siz dekabr ayında burada Qazaxıstan prezidentini qəbul edəcəksiniz. Siz Avropa İttifaqının ölkələrlə yaxşı əlaqələri enerji ehtiyatlarına əsasən yaratdığını deyən tənqidçilərə nə deyə bilərsiniz?

**J o z e  M a n u e l  B a r r o z u:** Hər şeydən əvvəl gəlin onu qeyd edək ki, Azərbaycanda müşahidə olunan təkamül müsbət istiqamətdədir. Gəlin yaddan çıxarmayaq ki, Azərbaycan bu yaxınlarda öz müstəqilliyini qazanıb və demokratik ölkə qurmağa başlayıbdır. Azərbaycanda hazırda siyasi və iqtisadi islahatların aparılması üçün səylər göstərilir. Bu gün bizim apardığımız iş həm də Azərbaycanda demokratiyanın inkişaf etdirilməsi və qanunun aliliyi ilə bağlıdır. Bu gün mən bu məsələni cənab prezidentlə görüşüm zamanı qaldırdım və o, vəziyyətlə bağlı öz fikir və təhlillərini söylədi. Biz Azərbaycanla müsbət əlaqələr qururuq və onun

çətin regionda yerləşdiyini anlayırıq. Avropa İttifaqının Azərbaycanla əməkdaşlığının ən əhəmiyyətli bir hissəsini siyasi və demokratik islahatlar təşkil edir. Bu, Avropa İttifaqının qonşuluq siyasətinin çox mühüm bir hissəsidir. Azərbaycanla əlaqələrimiz, sadəcə, enerji sahəsi ilə məhdudlaşmır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələr ümumi dəyərlərə əsaslanmalıdır və biz bu dəyərləri dəstəkləmək üçün, azərbaycanlı dostlarımızla birgə işləmək üçün bu gün buradayıq.

**A l e k s a n d r  M i n i y e v** (*Rusiya*): Mənim sualım prezident İlham Əliyevədir. Gürcüstanla Rusiya əlaqələri barədə Sizin fikirlərinizi bilmək istərdik. Qafqaz sizin regionunuzdur. MDB-nin gələcəyi haqqında da nə deyə bilərsiniz?

**İ l h a m  Ə l i y e v:** Adətən, Azərbaycanda biz hər zaman çalışırıq ki, qonşularımızın daxili işlərinə və hökumətlərarası münasibətlərə müdaxilə etməyək. Bizim Gürcüstan və Rusiya ilə yaxşı əlaqələrimiz var. Hər ikisi qonşumuz və tərəfdaşımızdır. Hər ikisi ilə strateji tərəfdaşlıq münasibətlərimiz var. Bu sahədə əldə etdiyimiz müsbət təcrübəmiz haqqında çox danışa bilərdim, lakin vaxtınızı almaq istəmirəm. Hesab edirəm ki, qonşularımız arasındakı normal münasibətlər regional əməkdaşlığa xidmət edəcəkdir. Azərbaycan özünün daxili məsələlərinin həllindən əlavə, regional əməkdaşlığa, enerji sahəsindəki əlaqələrimizə də xüsusi önəm verir. Ona görə potensial risklərin minimum həddə endirilməsi bizim üçün prioritet əhəmiyyət daşıyır. Bu baxımdan da biz öz dostlarımız və qonşularımız arasındakı münasibətləri əsl dostlar arasındakı münasibətlər kimi görmək istəyirik.

**«E u r o  p o l i t i k s» qəzeti** (*Belçika*): Mənim sualım prezident İlham Əliyevədir. 2005-ci ilin mart ayında qətlə yetirilmiş jurnalist Elmar Hüseynovla bağlı sual vermək istərdim. Məlum olduğu kimi, o, Sizin haqqınızda və hökumətiniz haqqında tənqidi yazılar yazırdı. Həmin qətl hadisəsinin lazımi qaydada araşdırılması ölkənizdə mətbuat azad-

lığına dəstək verməyiniz kimi qəbul edilə bilərdi. Xahiş edirik bu məsələ ilə bağlı məlumat verəsiniz.

İkinci sualım cənab Barrozuyadır. Bildiyimiz kimi, bu yaxınlarda Azərbaycan və Ermənistan ilə fərdi tədbirlər planı razılaşdırılıb. Bu planda ölkələrin ərazi bütövlüyü, suverenliyi, təhlükəsizliyi və xüsusilə də enerji təhlükəsizliyi məsələləri əks olunubdur. Bilmək istərdim ki, Ermənistanın bu plandakı prinsiplərə zidd getməsinə, yəni Azərbaycanın ərazi bütövlüyünün pozulması məsələsinə Avropa İttifaqı necə baxır?

**İ l h a m Ə l i y e v:** Bu qətl hadisəsi Azərbaycana ağır zərbə oldu və həmin hadisənin nəticələri hələ bu gün də bizim gözümüz qarşısındadır. Çünki Azərbaycanda birinci dəfə idi ki, jurnalist bu cür qəddarlıqla qətlə yetirilmişdi. Bilirsiniz, onun yazdığı məqalələri bir yana qoysaq – çünki o, müxtəlif siyasi dairələrlə bağlı tənqidi yazılar yazırdı – bu hadisə onu göstərdi ki, Azərbaycandakı daxili sabitliyin pozulmasında maraqlı olan qüvvələr var. Bu hadisə baş verdikdən dərhal sonra biz geniş təhqiqat apardıq, ABŞ-ın, Britaniyanın və Avropadakı təhlükəsizlik orqanlarına da müraciət etdik ki, cinayətkarların tapılmasında bizə yardım etsinlər. Birgə səylər nəticəsində, öz təhqiqatımız əsasında qətlin kimin tərəfindən törədildiyi barədə məlumatı əldə edə bildik. İndi isə biz həmin şəxsləri tapmalıyıq. Biz İnterpolla müvafiq iş aparırıq, çünki hazırda həmin insanlar Azərbaycanda deyil, onun hüdudlarından kənardadır. Ölkədə olmayan cinayətkarı tapmaq bəzən çətin olur. Ona görə bütün dünyada axtarışda olan cinayətkarların tapılması və ədalət mühakiməsinə gətirilməsi bəzən çox çətin olur. Hazırda biz nə edə bilərik? Sadəcə, cinayətdə təqsirli bilinən bu şəxslərin İnterpol tərəfindən tapılmasını və ədliyyə orqanlarına təhvil verilməsini gözləyə bilərik.

**J o z e M a n u e l B a r r o z u:** Əvvəlcə onu demək istəyirəm ki, biz Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini tam tanıyır və dəstəkləyirik. Biz bunu tədbirlər planında

qeyd etmişik. Həmin sənəddə deyilir ki, Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü Avropada sülhün və sabitliyin qorunmasına öz töhfəsini verəcəkdir. Bu bizim fəaliyyət planımızda aydın şəkildə ifadə olunubdur.

Ermənistanla münaqişənin olması ilə yanaşı, biz Azərbaycanı Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində səyləri davam etdirməyə çağırırıq. Minsk qrupunun vasitəçilik fəaliyyətini və eləcə də Cənubi Qafqaz üzrə xüsusi nümayəndənin göstərdiyi səyləri dəstəkləyirik. Eyni zamanda, tərəflər arasında razılaşma əldə edildikdən dərhal sonra regionda bərpa və yenidənqurma prosesinə qoşulmağa hazırıq. Mən prezident İlham Əliyevlə görüşümdə bu fikri bildirdim. Çox sağ olun.

# QEYDLƏR

**1. Latviya,** L a t v i y a R e s p u b l i k a s ı – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 64,5 min $km^2$, əhalisi 2,2 milyon nəfərdir. İnzibati ərazisi 26 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Seymdir. Paytaxtı Riqa şəhəridir. – 5–63,318.

**2. Riqa** – Latviya Respublikasının paytaxtı. Dauqava çayının hər iki sahilində, çayın Baltik dənizinin Riqa körfəzinə töküldüyü yerdə dəniz limanı. Yazılı mənbələrdə Riqa şəhər kimi 1201-ci ildən xatırlanır. Şəhərdə çoxlu memarlıq abidələri qorunub saxlanılır. Latviyanın ən böyük elmi-mədəni və turizm mərkəzidir. Əhalisi 815 min nəfərdir. – 5–63.

**3. Artis Pabriks** (d.1966) – Latviya siyasi xadimi. 2004–2007-ci illərdə Latviya Xarici İşlər naziri, 2010–2014-cü illərdə Müdafiə naziri olmuşdur. – 5,63.

**4. Vayra Vike-Freyberqa** (d.1937) – Latviya dövlət xadimi, 1999–2007-ci illərdə Latviya Respublikasının Prezidenti. Psixologiya elmləri doktoru, professor. Kanadada emiqrant olmuş, 1997-ci ildə Latviyaya köçmüş və siyasi fəaliyyətə başlamışdır. – 5–63,318.

**5. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1990) son-

ra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 8,12,20,32,33,41,45,58, 81,89,94,95,98,230.

**6. Avropa İttifaqı** – 1992-ci ildə 12 ölkəni (Belçika, Böyük Britaniya, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Niderland, Portuqaliya, Fransa) birləşdirən Avropa Birliyi bazasında 1993-cü ildə Maastrixt müqaviləsinə əsasən yaradılmışdır.

Sonralar Avropa İttifaqına bir çox Avropa dövlətləri də daxil olmuşdur. Müqavilə vahid siyasi, iqtisadi mühitin və valyutanın yaradılmasını, malın, kapitalın və adamların azad hərəkətinə bütün maneələrin aradan qaldırılmasını irəli sürmüşdür. Vahid Avropa vətəndaşlığı qəbul edilmişdir. Avropa Mərkəzi Bankında Avropa valyuta interneti fəaliyyət göstərir, 1999-cu ildən vahid valyuta–avro işlənir, vahid pul-kredit siyasəti aparılır. – 8,12,13,15,20,26,28,32, 33,41, 42,43,45,47,49,58,60,94,95,96,98,224,234,235,236,322–339.

**7. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988–92-ci illərdə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. –13,23,24,25,34,92, 93, 94, 105, 113, 116, 155, 157, 161,176,220,221, 225, 232, 236, 237, 268–272,322,323,324,327,328,330,331,339.

**8. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 2011-ci ilin oktyabr ayında BMT-nin Təhlükəsizlik Surasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 13,24,25,32,33, 45,58,92,93,153,236,327.

**9. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1975-ci il iyulun 3–9-da Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 12,24,26,33,34,79.

**10. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ),

10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 18,24,34,221.

**11. Latviya Universiteti** – Piqada ali təhsil müəssisəsi. 1919-cu ildə Politexnik institutunun əsasında yaradılmışdır. Biologiya, kimya, iqtisadiyyat və menecer, pedaqogika və psixologiya, coğrafiya və yer haqqında elm, sosial elmlər, fəlsəfə və s. fakültələr var. – 18–29.

**12. Moskva Beynəlxalq Əlaqələr İnstitutu (Universitet) –** Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin ali təhsil müəssisəsi. Əsası 1944-cü ildə qoyulmuşdur. Yüksək səviyyəli peşəkar diplomatlar, tədqiqatçılar, jurnalistlər, siyasi və ictimai xadimlər hazırlayır. – 18.

**13. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti** (ARDNŞ) – respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 18.

**14. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 18,24,33,236.

**15. «Yeni qonşuluq siyasəti»** (YQS) – Avropa İttifaqının qonşu ölkələrlə əməkdaşlığının möhkəmləndirilməsinə, Avropa İttifaqı və qonşu ölkələr arasında təhlükəsiz və firavan zonalar, Avropa İttifaqı sərhədlərində «dost ölkələr dairəsi» yaratmaga, həmçinin Aİ ilə qonşu ölkələr arasında siyasi, təhlükəsiz, iqtisadi və mədəni sahələrdə daha sıx əməkdaşlıq etməyə şərait yaradır. YQS-nin əsas məqsədi Avropa İttifaqının qonşu ölkələrində stabilliyin, təhlükəsizliyin qorunması, maraqlı ölkələrdə rifah halının yaxşılaşdırılmasıdır. – 20,26,32,33,45,60,322,324.

**16. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–93-cü illərdə Krassnov adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorul-

maz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliginə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. – 20,28–29,35,36,51,54,66,74,75, 108–109,244,253,255,257,259,268,273,,279,288,299,305.

**17. İslam Konfransı Təşkilatı (İKT)** – 1969-cu ildə yaradılmışdır. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Konfransı Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəldilmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İKT-nin üzvüdür. – 24, 154,155,156,166.

**18. GUAM –** Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı. Sonralar bu quruma Özbəkistan da qatıldı (10 oktyabr 1997). 2005-ci ildə isə Özbəkistan bu qurumu tərk etdi. – 24,34,45,58, 94.

**19. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc

vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. –26,94, 233, 236,339.

**20. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1945-ci ildə ABŞ-da Bretton–Vuds çərçivəsi sistemində yaradılmışdır. İdarə heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 130-dan artıq dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 26,183,299.

**21. Avropa Parlamenti** – Avropa Şurasının orqanlarından biri. İştirakçı ölkələrin əhalisinə görə ümumi səsvermə yolu ilə 5 il müddətinə seçilir. AP aylıq sessiyaları Strasburqda, fövqəladə iclasları AP-nin komitələri işləyən Brüsseldə, Katibliyi isə Lüksemburqdadır. Azərbaycan 2001-ci ildən Avropa Parlamentinin üzvüdür. – 27.

**22. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO-nun və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni numayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 28–29,74,108–109,250,255,259,268,288,298, 305.

**23. YUNESKO** – BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı iki ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. – 28, 30,108,255,259,279.

**24. İçərişəhər** – Bakının qala divarları ilə əhatə olunan qədim hissəsi. Sahəsi 22 hektardır. Arxeoloji qazıntılar nəticəsində İçərişəhər ərazisində iki mədəni təbəqə müəyyənləşdirilmişdir. XIV–XVII əsrləri əhatə edən üst təbəqədən düzbucaqlı və dördkünc yaşayış evlərinin qalıqları, VIII–XIII əsrlərə aid alt təbəqədən düzbucaqlı formalı kiçik otaqların qalıqları, quyular və s. maddi mədəniyyət nümunələri aşkar edilmişdir.

İçərişəhər orta əsrlərdə Bakının əsas mərkəzinə çevrilmiş, XII əsrdə burada ilk qala divarları çəkilmişdir. Bu divarlar 25–30 m dənizin içərisinə uzanaraq İçərişəhərin qarşısında qapalı liman əmələ gətirmişdi. İçərişəhərin üç əsas – Şamaxı, Salyan və dəniz sahilinə açılan darvazası olmuşdur. İçərişəhərdəki Sınıqqala (1078), Qız qalası və s. abidələr İçərişəhərin əvvəllər dənizə yaxın sahədə inkişaf etdiyini göstərir. XV əsrdə Şirvanşahlar sarayı tikilmişdir. XVII əsrdə İçərişəhərdə çoxlu karvansara və ticarət binası inşa edilmiş, XVIII əsrdə isə Xan sarayı tikilmiş, yeni su kəmərləri çəkilmişdi. XIX əsrdə və XX əsrin əvvəllərində İçərişəhərin plan quruluşu dəyişdirilmədən köhnə binaların yerində əsaslı daş binalar tikilmişdir. Bu zaman qala divarlarının ikinci sırası sökülmüş və yalnız Şamaxı darvazasının yanında 2-ci darvaza tikilmişdir (1888). Beləliklə, qoşa darvaza əmələ gəlmişdir. 1977-ci ildə İçərişəhər Azərbaycan memarlığı tarixi qoruğuna çevrilmişdir. – 30,162,167.

**25. İkinci dünya müharibəsi** (1939–45) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Alma-

niyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibəyə başladı. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini aldı. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 72 ölkə iştirak etmişdir. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağılmışdı. – 30.

**26. NATO-nun «Fərdi tərəfdaşlığın fəaliyyət planı»** – 2008-ci ildən Azərbaycan Respublikası bu planın həyata keçirilməsində iştirak edir. – 33,81,230.

**27. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsini» imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 34,111,113,121,157,160, 193,194,195,204,205,229,265,276,294.

**28. Bakı– Tbilisi –Ərzurum** – Cənubi Qafqaz qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan keçir, 280 km isə Gürcüstan–Türkiyə sərhədindən Ərzuruma qədərdir). Kə-

mərə qaz «Şahdəniz»dən ötürülür. – 34,113,172,204,229,265, 296.

**29. Bakı– Tbilisi–Qars**– Azərbaycan, Gürcüstan və Türki–yəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. Yolun tikintisinə 2007-ci ildə başlanmışdır. Yolun uzunluğu 105 km-dir. Gürcüstanın Axalkalaki stansiyasından Qars şəhərinə qədər olacaqdır. Yolun çəkilişi təxminən 2015-ci ilin ortalarında başa çatmalıdır. – 34,113,296.

**30. Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi** – BMT-nin əsas orqanlarından biri. BMT üzvü olan bütün dövlətlərdən ibarətdir. BMT üzvlərinə və ya BMT Təhlükəsizlik Şurasına hər cür məsələlərə və işlərə tövsiyələr vermək səlahiyyəti var.

Baş Məslisin qərarları tövsiyə xarakteri daşıyır, yəni hüquqi cəhətdən üzv dövlətlər üçün məcburi deyil. Məclisin hər il növbəti sessiyası olur. Baş Məclisin nəzdində onun funksiyalarını həyata keçirmək üçün 7 əsas komitə var. – 34, 94.

**31. Latviya Seymi** – Latviyada ali qanunverici orqan (1922–34 və 1993-cü ildən). 5 il müddətinə seçilir. Respublika hökumətini təşkil edir. – 36–37.

**32. İpək Yolu**, B ö y ü k İ p ə k Y o l u – beynəlxalq tarixi tranzit-ticarət yolu; eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Böyük İpək Yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də Böyük İpək Yolu üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa İttifaqının iştirakı ilə beynəlxalq konfrans keçirildi; TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – Böyük İpək Yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 43.

**33. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanmasını, səmərəli ibarəetməsini, gələcək nəsillər üçün saxlanmasını təmin edən xüsusi məqsədli dövlət qurumudur. – 48,171,180,224,294.

**34. Tofiq Zülfüqarov,** T o f i q N a d i r o ğ l u (d.1959) – diplomat, Fövqəladə və Səlahiyyətli səfir. 1998–99-cu illərdə Azərbaycan Respublikasının Xarici İşlər naziri vəzifəsində işləmişdir. 2006-cı ildən Latviya Respublikasında Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli səfiridir. – 56.

**35. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,14 milyon km$^2$, əhalisi 280 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştata bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 56,111,128,219, 224,225,227,228,229,230,236,237–238,260,299,338.

**36. Fransa,** F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 551 min km$^2$, əhalisi 58,4 milyon

nəfərdir. İnzibati cəhətdən 95 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlament həyata keçirir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 56,114,226,27,236,254.

**37. Litva,** L i t v a R e s p u b l i k a s ı – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 65,2 min $km^2$, əhalisi 3,8 milyon nəfərdir. İnzibati ərazisi 44 rayona bölünür və respublika tabeçiliyinə 11 şəhər daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Seymdir. Paytaxtı Vilnüsdür. – 58.

**38. Estoniya,** E s t o n i y a R e s p u b l i k a s ı – Şərqi Avropada dövlət. Sahəsi 45,2 min $km^2$, əhalisi 1,5 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı – Seymdir. Paytaxtı Tallindir. – 58.

**39. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), iki dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil

dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş

oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanları Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 61,84,100,101,103,109,114,115,118,119,121, 137,157,159,160,161,164,191,193,197,203,204,205,247,248,250, 253,254,257–258,260,265,273,274,275,279,291,294,296,298–299,311.

**40. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərq kənarında dövlət. Sahəsi 780,6 min km$^2$, əhalisi 76,5 milyon nəfərdir. İnzibati cəhətdən 67 ilə (vilayətə) bölünür.

Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. – 62,97,112–115,132,133,161,222,296,227,296,304,306,315,316,317.

**41. Quba** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 2575 km$^2$, əhalisi 161,4 min nəfərdir. – 64–75.

**42. Ziya Məmmədov,** Z i y a  A r z u m a n  o ğ l u (d.1952) – dəmiryolçu mühəndis. 1996–2005-ci illərdə Azərbaycan Dövlət Dəmir Yolunun rəisi, 2005-ci ildən isə Azərbaycan Respublikasının Nəqliyyat naziridir. – 64,199–202.

**43. Xınalıq** – Azərbaycan Respublikası Quba rayonunda kənd. Baş Qafqaz və Yan silsilələri arasında, çökəklikdədir. Əhalisi 2070 nəfərdir. Xınalıq kəndinin erkən orta əsrlərdə salındığı ehtimal edilir.

Xınalıq əsasən dağ kəndləri üçün səciyyəvi üslubda planlaşdırılmışdır; bir evin damı o birisi üçün həyət kimi istifadə olunur. Kəndin əhalisi xınalıq dilində danışır. Qafqazın ən yüksək dağ kəndlərindəndir. – 65,66–72,201,257,270.

**44. Çingiz Aytmatov,** Ç i n g i z  T o r e g ü l  o ğ l u (d.1928-2008) – görkəmli qızğız yazıçısı. Qırğızıstan Respublikasının Xalq yazıçısı. Qırğızıstan və SSRİ Dövlət mükafatları laureatı. SSRİ Yazıçılar İttifaqının (1976–1990) katibi, SSRİ Ali Sovetinin deputatı olmuşdur. İncə lirizm, dərin ictimai psixologizm, obrazların daxili aləminə nüfuz etmək Aytmatovun yaradıcılığının xarakterik xüsusiyyətləridir. İnsan və cəmiyyət problemi yaradıcılığının əsas mövzusu olmuşdur. – 67.

**45. Aşıq Ələsgər,** Ə l ə s g ə r  A l m ə m m ə d  o ğ l u (1821–1926) – Azərbaycan aşığı, aşıq poeziyasının görkəmli nümayəndələrindən biri. Aşıq Ələsgərin şeirləri yüksək bədii sənətkarlıq nümunəsidir. Orijinal və təbii təşbeh, bənzətmə,

istiarə və bədii təsvir vasitələri işlətmiş, aşıq poeziyasının bütün növlərində şeir qoşmuş, yeni forma və aşıq havaları işlətmişdir. Aşıq Ələsgər aşıq şeirinin inkişafına güclü təsir göstərmiş, bütün Qafqazda, türkdilli xalqlar arasında şöhrət qazanmışdır. – 68.

**46. «Azərsu» Səhmdar Cəmiyyəti** – 2004-cü ildə Abşeron Regional Su Cəmiyyəti «Azərsu» Səhmdar Cəmiyyətinə çevrildi. Bakı Şəhər İcra Hakimiyyətinin «Bakıkanalizasiya» İstehsalat Birliyinin və Dövlət Tikinti və Arxitektura Komitəsinin ləğv edilmiş «Azərsukanaltəmir» və «Azərkəndsutəchizat» istehsalat birliklərinin respublikanın şəhər və rayonlarındakı müəssisə və təşkilatları onun tabeliyinə verilmişdir. Cəmiyyətin bütün səhmləri dövlətə məxsusdur. – 70.

**47. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17075,4 min km$^2$, əhalisi 146,3 milyon nəfərdir. Rusiya Federasiyasına 21 respublika, 6 diyar, 49 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 10 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 71,84,95,121,172,220–238,326,327,337.

**48. Elçin Quliyev,** E l ç i n İ s a ğ a o ğ l u (d.1967) – hüquqşünas, general-leytenant. Bakı Dövlət Universitetini və Bakı Ali Hərbi Birləşmiş Komandirlər Məktəbini bitirmişdir. 2001-ci ildən Azərbaycan Respublikası Sərhəd Qoşunları Komandanıdır. «Azərbaycan bayrağı» ordeni ilə təltif olunmuşdur. – 73.

**49. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12

müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 76–77,82,139,172,182.

**50. Moskva** – Rusiya Federasiyasının paytaxtı. Ölkənin siyasi, inzibati və mədəni mərkəzi, mühüm nəqliyyat qovşağıdır. Əhalisi 12 108 min nəfərdir. Əsası 1147-ci ildə Suzdal knyazı Yuri Dolqoruki tərəfindən qoyulmuşdur. – 76,114, 162,232,244.

**51. Moldova,** M o l d o v a  R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 33,7 min $km^2$, əhalisi 4,18 milyon nəfərdir. İnzibati ərazisi 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Kişinyov şəhəridir. – 76,95.

**52. Özbəkistan,** Ö z b ə k i s t a n  R e s p u b l i k a s ı – Orta Asiyanın mərkəzində dövlət. Sahəsi 447,4 min $km^2$, əhalisi 30,4 milyon nəfərdir. Özbəkistanın tərkibinə Qarakalpak Muxtar Respublikası və 12 vilayət daxildir. Dövlətin başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Daşkənd səhəridir. – 76.

**53. Rumıniya** – Cənubi Avropada, Dunayın aşağı hövzəsində dövlət. Sahəsi 237,5 min km$^2$, əhalisi 22,3 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Buxarest şəhəridir. – 76,85–110,222.

**54. Ukrayna,** Ukrayna Respublikası – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,7 min km$^2$, əhalisi 46,5 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı – Ali Radadır. Paytaxtı Kiyev şəhəridir. – 76,95,222, 336.

**55. Rossiya, Ümumrusiya Dövlət Televiziya və Radio Verilişləri Kompaniyası** (ÜDTRVK) – Rusiya media holdinqi. 1990-cı ildə yaradılmışdır, Rusiya Federasiyası ərazisində televiziya və radio verilişləri təşkil edir. 1998-ci ildə ÜDTRVK bazası əsasında yaradılmış dövlət informasiya holdinqı yaradıldı. «Rossiya» və «Kultura» telekanallarını, «Radio Rossii», «Mayak», «Orfey», «Yunost», «Qolos Rossii» radiostansiyalarını və 92 regional dövlət teleradiokompaniyalarını, Ostankino televiziya və Rusiya informasiya texniki mərkəzini, «Vesti» agentliyini əhatə edir. – 78.

**56. Robert Simmons** – NATO Baş katibinin Cənubi Qafqaz və Orta Asiya üzrə xüsusi nümayəndəsi. – 81.

**57. Yaap de Hoop Sxeffer (**d.1948) – Niderlandiya siyasi xadimi, 2004-cü ildən NATO-nun Baş katibidir. – 81.

**58. Rusiya Elmlər Akademiyası –** Rusiyada ali elmi idarə, 1991-ci ildə Moskvada SSRİ Elmlər Akademiyasının bazası əsasında yaradılmışdır. Bu elm ocağı bütün elmi idarələrə başçılıq edir, elmi kadrlar hazırlayır; elmi işləri nəşr edir, elmi işlərə və kəşflərə görə mükafat və medalları təqdim edir. Əsası 1724-cü ildə Peterburq Elmlər Akademiyası kimi qoyulmuşdur. – 82.

**59. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. B.Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min $km^2$, əhalisi 58,8 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük London xüsusi inzibati vahiddir. B.Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 83,336,338.

**60. Böyük Britaniya parlamenti** – Böyük Britaniyada qanunvericilik hakimiyyəti. Parlament 3 hissədən ibarətdir; dövlət başçısı (monarx), Lordlar Palatası və İcmalar Palatası. Burada qanun layihəsi hər iki palata tərəfindən qəbul və monarx tərəfindən təsdiq edildikdən sonra qüvvəyə minir.

Dövlət başçısı (monarx) qanunvericilik təşəbbüsü hüququna malikdir, lakin qanun layihələrinin böyük əksəriyəti hökumətin təşəbbüsü ilə qəbul edilir.

İcmalar Palatası 651 üzvdən ibarətdir. Lordlar Palatasının tərkibi və üzvlərinin sayı dəyişkəndir. Bu palata əsasən irsi əlamət üzrə təşkil olunur. – 83.

**61. Cahan Polliyeva** (d.1960) – 2012-ci ildən Rusiya Federasiyası Dövlət Duması aparatının rəhbəri. 2004–2012-ci illərdə Rusiya Federasiyası prezidentininköməkçisi, 1998-ci ildən Rusiya Federasiyası 1-ci raund həqiqi Dövlət müşaviri; şair, bir çox məşhur estrada mahnı mətnlərinin («Yenə də çovğun») müəllifidir. – 84.

**62. Trayan Besesku** (d.1951) – Rumıniya siyasi və dövlət xadimi. 2004–2007 və 2004–2014-cü illərdə Rumıniya Respublikasının prezidenti olmuşdur. – 85–110.

**63. Artur Rasizadə,** Artur Tahir oğlu (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin bi-

rinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 85.

**64. Elmar Məmmədyarov,** Elmar Məhərrəm oğlu (d.1960) – tarix elmləri namizədi, diplomat. 1995–98-ci illərdə Azərbaycan Xarici İşlər Nazirliyində beynəlxalq təşkilatlar idarəsinin başçısı, 1998–2003-cü illərdə ABŞ-da Azərbaycan səfirliyində müşavir, 2003–2004-cü illərdə İtaliyada Azərbaycan Respublikasının səfiri, 2004-cü ildən isə Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 85.

**65. Buxarest** – Rumıniya Respublikasının paytaxtı (1861-ci ildən). Ölkənin cənubunda, aşağı Dunay ovalığında, Dimbovitsa çayı sahilindədir. Tarixi-memarlıq abidələri, müxtəlif üslubları əks etdirən eklektik tikililəri ilə zəngindir. Şəhər XIV əsrdən məlumdur. Əhalisi 2 milyon nəfərdir. – 90,92.

**66. Albaniya,** Albaniya Respublikası – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 28,7 min km$^2$, əhalisi 3,5 milyon nəfərdir. İnzibati cəhətdən 26 retiyə (rayona) bölünür. Dövlətin başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Tirana şəhəridir. – 95.

**67. Nabukko** – Türkmənistan və Azərbaycan qazının Avropa Birliyi ölkələrinə, əsasən Avstriya və Almaniyaya ötürülməsi üçün 3300 km uzunluğunda magistral qaz kəmərinin reallaşmayan layihəsi. Layihənin qiyməti *bp* şirkətinin hesablamasına görə 14 milyard avro olmalıdır.

Konsorsiumda – kəmərin inşasında Avstriya, Türkiyə, Bolqarıstan və Rumıniya ölkələrinin şirkətləri iştirak edirdi. Layihənin hazırlanmasına 2002-ci ildə başlanılmış, 2011–2014-cü illərdə tikilməyi nəzərdə tutulurdu. Tədarükçülərin problemlərinə görə layihənin tikintisi bir neçə dəfə təxirə salındı və tikintiyə 2018-ci ildə başlanacağı elan edildi.

Nəhayət, 2013-cü ildə Nabukkonun bağlanması qərara alındı. Hazırda diqqətdə Transadriatik qaz kəməridir. – 97.

**68. Bolqarıstan,** Bolqarıstan Respublikası – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 7,4 milyon nəfərdir. İnzibati cəhətdən 9 vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Sofiya şəhəridir. – 98,222, 233,234,235,242.

**69. Corce Enesku** (1881–1955) – rumın bəstəkarı, skripkaçı, pianoçu, dirijor, pedaqoq, musiqi xadimi. Müasir rumın bəstəkarlıq banisi Eneskunun əsərləri rumın müsiqisinin klassik nümünələridir. – 99–101,106.

**70. Natiq Əliyev,** Natiq Kamal oğlu (d.1958) – heykəltəraş, Azərbaycan Respublikası Xalq rəssamı, Rusiya Rəssamlıq Akademiyasının fəxri üzvü. Bakıda 20-dən artıq memorial lövhənin, Kiyev və Belqradda Heydər Əliyevin abidəsinin müəllifidir.

2001-ci ildən Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının Heykəltəraşlıq kafedrasının müdiri vəzifəsində çalışır. – 101,273,299.

**71. Şəhidlər xiyabanı –** Azərbaycanın azadlığı, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş mərd oğul və qızların uyuduğu müqəddəs ziyarətgah. 1990-cı il yanvarın 20-də sovet ordusunun hücumu zamanı həlak olmuş onlarla adam «Dağüstü park»ın qərb hissəsində dəfn edilmişdir. Bura o vaxtdan «Şəhidlər xiyabanı» adlanır. Xiyabanda eyni zamanda Ermənistan işğalçılarına qarşı Azərbaycan torpaqlarının müdafiəsi uğrunda qəhrəmancasına həlak olanlar da dəfn edilmişdir. 1998-ci ildə burada hündürlüyü 22 metr olan əbədi məşəl – abidə qoyulmuşdur. – 102,103.

**72. Xələf Xələfov,** X ə l ə f A l ı o ğ l u (d.1959) – diplomat, Fövqəladə və Səlahiyyətli səfir. Moskvada ikiillik Ali Diplomatiya Akademiyasını bitirmişdir. 1997-ci ildən Azərbaycan Respublikası Xarici İşlər nazirinin müavinidir. – 102.

**73. Hacıbala Abutalıbov,** H a c ı b a l a İ b r a h i m o ğ-l u (d.1944) – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. Fizika-riyaziyyat elmləri doktorudur. – 102,103.

**74. Zərifə xanım,** Z ə r i f ə Ə z i z q ı z ı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayepeşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksək ixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalı redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 103,303.

**75. Uzun Həsən** (1423-24–1478) – Ağqoyunlu hökmdarı (1468–78), görkəmli sərkərdə və diplomat. 1467-ci ildə Cahan şahı məğlub edən Uzun Həsən Qaraqoyunlu dövlətinə son

qoyaraq mərkəzi Təbriz şəhəri olmaqla «Xorasandan Qaramana qədər uzanan» Ağqoyunlu  dövlətinin əsasını qoymuşdur. – 104.

**76. Dmitri Kantemir** (1673–1723) – Moldova hökmdarı (1710–11) alim, yazıçı. 1711-ci ildən Rusiyada I Pyotrun müşaviri və knyaz, I Pyotrun İran səfərinin (1722–23) iştirakçısı olmuşdur. Əsas əsərləri Moldova və Osmanlı imperiyasının tarixinə və coğrafiyasına aiddir. – 104,106.

**77. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 nəfər gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 104.

**78. Səmədbəy Mehmandarov,** Səmədbəy Sadiqbəy oğlu (1857–1931) – hərbi xadim. 1908-ci ildən artilleriya general-leytenantı. 1918–20-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri olmuşdur. 1921–28-ci illərdə Azərbaycan komandirlər məktəbində dərs demişdir. – 104.

**79. Bakı Dövlət Universiteti** (BDU) – Azərbaycanda elmi-pedaqoji kadrlar hazırlayan ən böyük ali təhsil ocağı, elmi-tədqiqat müəssisəsi. 1919-cu ildə yaradılmışdır. İlk vaxtlar tibb və tarix-filologiya fakültələri fəaliyyət göstərmişdir. Hazırda BDU-nun 17 fakültəsi, onlarla kafedrası, elmi-tədqiqat laboratoriyası və s. var. Universitetdə 55 ixtisas üzrə 18 minə yaxın tələbə təhsil alır. – 110.

**80. Ceyms Cefri** (d.1946) – səfir. 2004–2005-ci illərdə ABŞ Dövlət katibinin Yaxın Şərq məsələləri üzrə müşaviri. Hazırda İraqda ABŞ-ın Fovqəladə və Səlahiyyətli səfiridir. – 111.

**81. «Mərmərə» qrupu Strateji və Sosial Araşdırmalar Vəqfi** – 1985-ci ildə İstanbulda yaradılmışdır. Hazırda 200-dən çox üzvü olan bu qrupa tanınmış sənət və iş adamları, nazirlər və millət vəkilləri daxildirlər. Qrup xarici ölkələrin prezidentləri, görkəmli dövlət xadimləri, nüfuzlu siyasətçiləri ilə mütəmadi olaraq görüşlər keçirir. – 112-15.

**82. Akkan Süvər** (d.1942) – Türkiyə jurnalisti. Fəlsəfə elmləri doktoru. «Mərmərə» qrupunun sədridir. – 112–115.

**83. Böyük Millət Məclisi** (BMM) – Türkiyənin Ali qanunverici orqanı. Parlament 1920-ci il aprelin 23-də yaradılmışdır. BMM-nin ilk sədri M.K.Atatürk olmuşdur. BMM iki palatadan ibarətdir: Senat (yuxarı palata) və Milli palata.– 114.

**84. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyə siyasi və dövlət xadimi. 2014-cü ildən Türkiyə Cümhuriyyətinin prezidenti.

R.T.Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə qoşulmuşdur. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri, Ədalət və İnkişaf Partiyasının lideri.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Ərdoğan TBMM-də Türkiyənin Baş naziri seçildi. – 114,133,316.

**85. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. Sahəsi 0,013 min $km^2$, əhalisi 89,5 min nəfərdən çoxdur. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal edirlər. Naxçıvan Azərbaycan Atabəylər dövlətinin (1136–1225) paytaxtlarından biri olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olub. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdirildi və qəza mərkəzinə çevrildi. Naxçıvan şəhəri 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtı oldu. – 114,115,173,174,244.

**86. Hüseyn Cavid,** Hüseyn Abdulla oğlu Rasizadə (1882–1941) – böyük Azərbaycan şairi, dramaturq. Hüseyn Cavid Azərbaycan romantizminin banilərindən biri olmuşdur. O, lirik şeirlərin, lirik-epik, epik poemaların müəllifidir.

Hüseyn Cavid daha çox dramaturq kimi tanınmışdır. Onun fəlsəfi və tarixi faciələri forma yeniliyi baxımından Azərbaycan dramaturgiyasında yeni bir mərhələ yaratmış, milli teatr mədəniyyətinin inkişafına qüvvətli təsir göstərmişdir. Azərbaycanın ən dəyərli milli ziyalı nümayəndələrini məhv edən sovet totalitar rejiminin repressiya qurbanlarındandır. – 144.

**87. Mustafa Kamal Atatürk,** Q a z i M u s t a f a K a m a l (1881–1938) –Türkiyənin dövlət, siyasi və hərbi xadimi, Türkiyə Respublikasının banisi və ilk prezidenti (1923–1938). Birinci dünya müharibəsi zamanı Dardanel boğazının müdafiəsində (1915) şücaət göstərmişdir.

Atatürk 1919-cu ildə «Kamalçılar hərəkatı»na – milli azadlıq hərəkatına başçılıq etmişdir. 1920-ci ildə Atatürk Ankarada yeni parlament – Türkiyə Böyük Millət Məclisini (TBMM) yaratdı, məclisin və təşkil edilən hökumətin sədri seçildi. Sakarya çayı yaxınlığında qələbəyə görə TBMM Atatürkə marşal rütbəsi və «Qazi» fəxri adını vermişdir. 1922-ci ildə Atatürkün komandanlığı ilə türk ordusu Türkiyəni xarici müdaxiləçilərdən tamamilə azad etdi.

Atatürk soyadı ona 1934-cü ildə TBMM tərəfindən verilmişdir. – 114.

**88. Tofiq Fikrət** (1867–1915) – türk şairi, pedaqoq, jurnalist. Türk ədəbiyyatında «Sərvəti funun» və ya «Ədəbiyyati-cədidə» adlanan cərəyanın banisidir. Tofiq Fikrət türk şeirinə məzmun və formaca yeniliklər gətirmişdir. O, «sənət həyat üçündür» prinsipini həm əməldə, həm də nəzəriyyədə tətbiq edən ilk türk şairidir. Əsərlərinin qadağan edilməsinə baxmayaraq şeirləri gənclər və hərbçilər arasında əldən-ələ keçərək əzbərlənmiş və yayılmışdır. – 114.

**89. Sibir** – Rusiya Federasiyasının Asiyadakı ərazisinin çox hissəsi. Sahəsi təqribən 10 milyon km$^2$, əhalisi 23,8 milyon nəfərdir. Sibir Qərbi Sibir və Şərqi Sibir hissələrinə bölünür.

Ərazisinin çox hissəsində iqlim sərt, kəskin kontinentaldır. Orta temperatur yanvarda Qərbi Sibir düzənliyinin cənubunda – 16$^0$ C-dən 20°C-yə, Yakutiyada – 40$^0$ C-dən 48°C-yə (bəzən 71°C-dək) enir. – 114.

**90. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1,22 milyard

nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansiz), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszın) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının sədridir. Paytaxtı Pekindir. – 116–117.

**91. Ümumçin Xalq Nümayəndələri Məclisi** (ÜXNM) – qanunvericilik hakimiyyəti. Səlahiyyət müddəti 5 ildir. ÜXNM 5 il müddətinə ÇXR sədrini və onun müavinini seçir. İcra hakimiyyəti Dövlət Şurasına məxsusdur. Dövlət Şurası ÜXNM qarşısında məsuldur. – 116–117.

**92. Xu Szintao** (d.1942) – Çin siyasətçisi və dövlət xadimi. 1992-ci ildən ÇKP MK-da yüksək vəzifələrdə çalışmışdır. 2002-ci ildə ÇKP MK-nın Baş katibi, 2003-cü ildə ÇXR-nın sədri, 2004-cü ildə isə ÇXR Hərbi Şurasının sədri olmuşdur. 2007-ci ildən Ümumçin Xalq Nümayəndələri Məclisinin sədridir. – 116,117.

**93. Şəki –** (1968-ci ilədək Nuxa rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi Oğuz rayonuna verilmiş, 1965-ci ildə yenidən mustəqil rayon olmuşdur. Sahəsi 2.43 min $km^2$, əhalisi 179,1 min nəfərdir. – 118–127,174.

**94. «Azərenerji»** – Dövlət şirkəti. Elektrik sistemləri avadanlıqlarının texniki istismarı, elektrik enerjisi ötürülməsi, bölüşdürülməsi, generasiya güclərinin və şəbəkələrinin planlaşdırılması və inkişaf məsələlərini həll edir. – 119.

**95. Etibar Pirverdiyev** (d.1964) – 2001-ci ildən «Azərenerji» ASC-nin prezidenti vəzifəsində çalışır. – 119.

**96. «Şahdəniz» –**Xəzər dənizinin Azərbaycan sektorunda ən böyük və ən zəngin qaz yataqlarından biri. – 121, 122,172,307.

**97. Sumqayıt** – Azərbaycanda şəhər. Bakıdan 35 km şimal–qərbdə, Xəzər dənizinin qərb sahilində yerləşir. Sahəsi 83 $km^2$, əhalisi 329,3 min nəfərdir. Əvvəllər kiçik yaşayış məntəqəsi olan Sumqayıt 1938-ci ildə Bakı neft sənayesini elektrik enerjisi ilə təmin edəcək İstilik Elektrik Stansiyasının tikintisi ilə şəhər tipli qəsəbəyə çevrildi və get-gedə Bakıdan sonra ölkəmizin ikinci sənaye şəhərinə çevrildi. Sənayesində kimya və metallurgiya sahələri əsas yet tutur. – 121, 174,261.

**98. Mingəçevir** – Azərbaycanda şəhər. «Mingəçevir» sözünün etimologiyası barədə müxtəlif mülahizələr var. Akademik Z.Bünyadov Mingəçevirin adını 839-cu ildə Azərbaycanda Xilafətə qarşı çıxmış Minkiçəvr əl-Fərqaninin adı ilə əlaqələndirir. XVII əsr türk səyyahı Evliya Çələbi «Səyahətnamə» əsərində Kür çayının sağ sahilində ipək parça emalatxanaları, məscidi və hamamı olan Mingəçevir adlı yaşayış məntəqəsi barədə məlumat verir. Mingəçevir II Dünya müharibəsindən sonrakı illərdə yaradılmış iri sənaye mərkəzlərindəndir. İndiki Mingəçevir hidrotexniki kompleksin tikintisi ilə əlaqədar salınmışdır. – 121,127,174,198.

**99. «Aqrolizinq»** – 2004-cü ildə təsis edilmişdir. Şirkət ölkənin Kənd Təsərrüfatı Nazirliyinin strukturuna daxildir. Təşkilatın ölkənin 55 rayonunda xidmət məntəqələri vardır. – 123,196,276,294.

**100. Cavanşir Feyziyev**, Cavanşir Əyyub oğlu (d.1963) – dilçi, Fəlsəfə elmləri doktoru. Dördüncü çağırış Milli Məclisin deputatı, Milli Məclisdə Beynəlxalq Münasibətlər və Parlamentlərarası Əlaqələr Komitəsinin üzvüdür. – 126.

**101. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 372 min $km^2$, əhalisi 126 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Ya-

poniya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 127.

**102. «Mitsibusi»** – Yaponiyanın qabaqcıl şirkətlərindən biri. 1947-ci ildə təşkil olunmuşdur. Dünyanın 79 ölkəsində nümayəndəliyi var. Əsasən neftayırma sənayesi ilə məşğul olur. –127.

**103. Ümumdünya Ticarət Təşkilatı** – 1947-ci ildə qəbul edilmiş müqavilə 23 ölkənin beynəlxalq ticarətdə gömrük rüsumlarının aşağı salınmasında və başqa çətinliklərin aradan götürülməsində qəbul etdiyi hökumətlərarası çoxtərəfli müqavilədir. 1995-ci ildə beynəlxalq ticarətdə rüsumlar haqqında qəbul edilmiş müqavilə bu müqavilənin hüquqi varisidir.

Təşkilatın əsas prinsipi bütün iştirakçılar üçün münasib mühit yaratmaqdır. Təşkilata 130 ölkə daxildir. – 128.

**104. Macarıstan,** M a c a r ı s t a n R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 93 min km$^2$, əhalisi 10,2 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Dövlət Şurasıdır. Paytaxtı Budapeştdir. – 129

**105. Laslo Şoyom** (d.1942) – macar hüquqşünası, Macarıstan Elmlər Akademiyasının müxbir üzvü. 2005–2010-cu illərdə Macarıstanın prezidenti olmuşdur. Hazırda hüquq müdafiəsi və ekologiya təşkilatlarının işi ilə məşğul olur. – 129.

**106. Avstriya,** A v s t r i y a R e s p u b l i k a s ı – Mərkəzi Avropada, Dunay hövzəsində dövlət. Sahəsi 83,8 min km$^2$, əhalisi 8,34 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Vyanadır. –130.

**107. Haynts Fişer** (d.1938) – Avstriya dövlət və siyasi xadimi. Hüquqşünas, professor. 2004-cü ildən Avstriya Federal prezidenti. – 130.

**108. Çexiya,** Ç e x i y a  R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 78,9 min $km^2$, əhalisi 10,3 milyon nəfərdir. İnzibati cəhətdən 7 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Senat və Deputatlar Palatası) parlamentdir. Paytaxtı Praqadır. 1993-cü ildən Çexoslovakiya Federasiyasının fəaliyyəti dayandırıldıqdan sonra Çexiya müstəqil dövlətdir. – 131.

**109. Vatslav Klaus** (d.1941) – 2003-2013-cü illərdə Çexiyanın prezidenti olmuşdur. – 131.

**110. Əhməd Necdət Sezər** (d.1941) – 2000–2007-ci illərdə Türkiyə prezidenti. 1962–83-cü illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır, 1998–2000-ci illərdə Türkiyə Konstitusiya Məhkəməsinin sədri olmuşdur. – 132,315.

**111. Türkmənistan,** T ü r k m ə n i s t a n  R e s p u b l i k a s ı – Orta Asiyanın cənub-qərbində dövlət. Sahəsi 488,1 min $km^2$, əhalisi 5,8 milyon nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabaddır. – 134.

**112. Saparmurad Niyazov,** S a p a r m u r a d  A t a o ğ l u (1940–2007) – Türkmənistanın siyasi və dövlət xadimi. 1985-ci ilin dekabrından 1991-cı ilə qədər Türkmənistan KP MK-nın Birinci katibi, 1991–2007-ci illərdə Türkmənistan Respublikasının prezidenti olmuşdur. – 134.

**113. Belarus,** B e l a r u s  R e s p u b l i k a s ı – Avropada dövlət. Sahəsi 207,6 min $km^2$, əhalisi 9,4 milyon nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 117 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Minskdir. –135–151,336.

**114. Minsk** – Belarus Respublikasının paytaxtı ( 1919). Minsk tarixi, mədəniyyət, sənaye və turizm mərkəzidir. Əha-

lisi 1,9 milyon nəfərdir. Tarixi sənədlərdə adı 1067-cı ildən xatırlanır. – 135–151.

**115. Aleksandr Lukaşenko** (d.1954) – Belarus dövlət xadimi. 1994-cü ildən Belarus Respublikasının prezidentidir. – 135–151.

**116. Nikolay Azamatov** (d.1938) – Beynəlxalq İnformasiya Akademiyasının və Belarus Mühəndis-Texniki Akademiyasının müxbir üzvü. 2003–2009-cu illərdə Belarus Dövlət Hərbi Sənaye Komitəsinin sədri olmuşdur. – 144.

**117. Pan Gi Mun** (d.1944) – peşəkar diplomat 2006-cı ildən Birləşmiş Millətlər Təşkilatının Baş katibidir. Baş katib olmamışdan əvvəl Koreya Respublikasında Xarici İşlər və Xarici Ticarət Nazirliklərində işləmişdir. – 153.

**118. Ramazan bayramı –** müsəlman aləmində oruclıq bitəndən sonra keçirilən bayram. Qurani-Kərim oruc tutmağı islamın vacib əməllərindən biri hesab etmiş və insanlarda yol verilmiş xataların oruc tutmaqla bağışlanmasını təsbit edir. Bu bayram bir də ona görə əzizdir ki, məhz Qurani-Kərim müqəddəs ramazan ayında nazil olmuşdur. – 154–157,189,190, 203.

**119. İqtisadi Əməkdaşlıq Təşkilatı,** İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) – 1961-ci ildə yaradılmış dövlətlərarası iqtisadi təşkilat. İƏİT-in məqsədi inkişaf etmiş ölkələrdə iqtisadi siyasətin koordinasiyası və qəbul edilmiş proqramların inkişafına kömək etməkdir. 1974-cü ildən İƏİT tərkibində Beynəlxalq Enerji Agentliyi fəaliyyət göstərir. Mənzilqərargahı Parisdədir. – 156.

**120. İtaliya,** İ t a l i y a  R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Radan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301 min km$^2$, əhalisi 58,4 milyon

nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 158.

**121. Şeyxülislam Hacı Allahşükür Paşazadə,** Allahşükür Hümmət oğlu (d.1949) – 1980-ci ildən Qafqaz Müsəlmanları Ruhani İdarəsinin, 1990-cı ildən Qafqaz Xalqları Ali Dini Şurasının sədridir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 159–168.

**122. Ramazan ayı** – Qurani-Kərimin nazil olduğu ay. – 159.

**123. Qurani-Kərim,** əl-Quran – müsəlmanların müqəddəs kitabı. Quranı Allah Cəbrayıl vasitəsilə Məhəmməd əleyhüssəlama göndərib. Quran qafiyəli nəsrlə yazılmış 114 surə və 6200-dən çox ayədən ibarətdir. «Məkkə surələrinə» (610–622, Məkkə, 90 surə) və «Mədinə surələrinə» (622–632, Mədinə, 24 surə) bölünür. – 159,189.

**124. Məkkə –** Səudiyyə Ərəbistanının qərbində şəhər. Salınma tarixi məlum deyildir. İslamın banisi həzrəti Məhəmməd peyğəmbər Məkkədə doğulmuşdur. VII əsrdən müsəlmanların müqəddəs şəhəri və ziyarətgahıdır. – 160.

**125. Məhəmməd peyğəmbər** (əleyhissəlam) (570/571–632) – İslamın banisi, siyasi və dövlət xadimi. İslama görə Məhəmməd əleyhissəlam böyük peyğəmbər və «Allahın elçisi» sayılmış, bütün müsəlmanların müqəddəs kitabı Quranı xalqa çatdırmışdır. –161.

**126. Təzəpir məscidi** – Azərbaycan memarlıq abidəsi. 1905–14-cü illərdə tikilmişdir (memarı Zivərbəy Əhmədbəyov). Kvadratplanlı Təzəpir məscidinin baş fasadındakı üçtağlı eyvanı, cinahlarındakı minarələr və günbəz aydın və dəbdəbəli memarlıq kompozisiyası əmələ gətirir. Məscidin böyük ibadət zalı gunbəzlə örtülmüşdür. İbadət zalının quru-

luşu yerli memarluq konstruksiyaları ilə işlənmiş, günbəzi saxlayan çatmatağ formalarından istifadə olunmuşdur. Təzəpir Bakı–Abşeron dini tikililəri arasında xüsusi yer tutur. – 162.

**127. Bibiheybət məscidi –** Bakının Şıx kəndində türbə.. Rəvayətə görə, türbədə şiələrin yeddinci imamı Museyi Kazımın qızı Hökumə və onun Heybət adlı nökəri dəfn olunmuşdur. «Bibiheybət» adının da buradan yarandığı güman edilir. Başqa rəvayətə görə, səkkizinci imam Rzanın qızı və bacısı Bakı yaxınlığında məskən salmış, burada da vəfat etmişlər. Onların dəfn olunduğu yerdə türbə, onun yanında isə 20 metrlik minarəsi olan məscid tikilmişdi. Məscidin XIII əsrin sonunda tikildiyi ehtimal edilir. Məscid sovetlər vaxtında yerlə yeksan edilmişdi. Respublikamız müstəqillik qazandıqdan sonra prezident Heydər Əliyevin təşəbbüsü ilə yenidən tikilmişdir. – 162,166.

**128. Vatikan** – Avropada Papa dövləti. Monte-Vatikano təpəliyində, İtaliyanın paytaxtı Roma şəhərinin qərb hissəsindədir. Roma-katolik kilsəsinin siyasi, inzibati və ideoloji mərkəzidir. Vatikan teokratik monarxiyadır. Dövlət başçısı Roma papasıdır. – 162,163.

**129. Rüstəm Əliyev** (1929–1994) – görkəmli Azərbaycan şərqşünası, filologiya elmləri doktoru, professor. Əməkdar elm xadimi. Harvard Universitetinin fəxri doktoru. 1955–71-ci illərdə SSRİ EA Şərqşünaslıq İnstitutunda Şərq mətnşünaslığı bölməsinin müdiri, 1972–80-ci illərdə Azərbaycan EA-nın Əlyazmalar İnstitutunda Ərəbdilli yazılı abidələrin tədqiqi və nəşri şöbəsinin müdiri, 1980–83-cü illərdə Nizami adına Ədəbiyyat İnstitutunda Nizamişünaslıq şöbəsinin müdiri, 1983-cü ildən ömrünün sonunadək Şərqşünaslıq İnstitutunda İran filologiyası şöbəsinin müdiri vəzifəsində çalışmışdır. – 162.

**130. Klaudio Qucerotti** (d.1955) – katolik kilsəsinin arxiyepiskopu, diplomat. 2001–2011-ci illərdə Vatikanın Azərbaycanda Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. – 163.

**131. XVI Benedikt** (d.1927) – 2005–2013-cü illərdə Roma papası olmuşdur. – 163.

**132. Milli Bank** (Mərkəzi Bank) – Azərbaycan Respublikasının mərkəzi bankıdır. Onun əsas vəzifəsi qiymətlərin sabitliyinin təmin edilməsi, xarici dönərli valyutalara nisbətən milli valyutanın kursunun möhkəmləndirilməsi, həmçinin ölkə bank sisteminin sabitliyinin qorunmasıdır. AMB valyuta tənzimlənməsi və nəzarətini həyata keçirir, xarici dövlətlərlə hesablaşma qaydalarını müəyyən edir, xarici valyuta ehtiyatlarını idarə edir. AMB həmçinin Azərbaycan Respublikasının tədiyə-hesablama balansının tərtibinə rəhbərlik edir. – 171.

**133. Lerik** (1938-ci ilədək Zuvand rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Cənub və cənub-qərbdə İranla həmsərhəddir. Sahəsi 1084 $km^2$, əhalisi 79,7 min nəfərdir. – 173,190–198,201,257,270.

**134. Yardımlı** (1938-ci ilədək Vərgədüz rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Şimaldan, qərbdən və cənub-qərbdən İranla həmsərhəddir. Sahəsi 667 $km^2$, əhalisi 62,4 min nəfərdir. – 173,191, 199–202,203–210,257,270.

**135. Xaçmaz** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi Quba və Qusar rayonlarına verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Sahəsi 1045 $km^2$, əhalisi 169,0 min nəfərdir. – 174.

**136. Astara** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilib Lənkəran

rayonuna verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Cənubda və qərbdə İranla həmsərhəddir. Sahəsi 616 km$^2$, əhalisi 102,6 min nəfərdir. – 174,192,200.

**137. Avropa Yenidənqurma və İnkişaf Bankı –** Qərbi və Şərqi Avropa, MDB ölkələrini uzunmüddətli kreditlə təchiz edən regional dövlətlərarası bank. 1990-cı ildə yaradılmışdır. Londonda yerləşir. Bankın 57 üzvü var. – 174,217–218.

**138. Lənkəran** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 661 km$^2$, əhalisi 218,2 min nəfərdir. – 175,192,193,247.

**139. İmişli** (1938-ci ilədək Qaradonlu rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Cənub–qərbdə İranla həmsərhəddir. Sahəsi 1821 km$^2$, əhalisi 121,9 min nəfərdir. – 183.

**140. Azərbaycan Unvestisiya Şirkəti** (AİŞ) – Açıq Səhmdar Cəmiyyəti. 2006-cı ildə yaradılmışdır. AİŞ-nin məqsədi mövcud və yeni kommersiya müəssisələrinə yerli və xarici investorlar cəlb etmək və öz vəsaiti hesabına müddətli investisiya qoymaq vasitəsilə Azərbaycan ərazisində iqtisadiyyatın qeyr-neft sektorunun inkişaf etdirilməsidir. – 184,230, 294.

**141. Azərbaycan Milli Elmlər Akademiyası** (AMEA)– Azərbaycan Respublikasında elmin inkişafını təşkil və təmin edən, dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən ali dövlət elmi təşkilatı. 1945-ci ildə Bakıda təsis edilmişdir. 2001-ci ilin may ayından Azərbaycan Milli Elmlər Akademiyası adlanır. Azərbaycan Milli EA-nın aşağıdakı bölmələri var: fizika; texnika və riyaziyyat elmləri; kimya elmləri; yer elmləri; biologiya elmləri; aqrar elmləri; humanitar və ictimai elmlər. Burada elmin müxtəlif sahələrinə dair aktual

problemlər üzərində tədqiqat işləri aparılır. Hər il onlarla elmi işin nəticəsi istehsalatda tətbiq olunur. – 188.

**142. «Azəriqaz»**– Qapalı Səhmdar Cəmiyyəti ARDNŞ-in hasil etdiyi təbii qazın Rusiya, İran və Gürcüstana ixrac edilən nəqli ilə məşğuldur. «Azəriqaz» Qapalı Səhmdar Cəmiyyətinin əsas vəzifəsi respublikanın istehlakçılarını fasiləsiz, keyfiyyətli və təhlükəsiz təbii qazla təmin etmək, abonentlərə yüksək səviyyəli xidmət göstərmək, qaz şəbəkəsini beynəlxalq standartlara uyğun yenidən qurmaqdan ibarətdir. – 191.

**143. Masallı** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 292 $km^2$, əhalisi 211,9 min nəfərdir. – 199–202,211.

**144. Cavid Qurbanov,** C a v i d  Q ə n b ə r  o ğ l u (d.1958) – mühəndis. «Azəryolserviz» Açıq Səhmdar Cəmiyyətinin sədri, Texnika elmləri üzrə fəlsəfə doktoru.. Üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. Yeni Azərbaycan Partiyasının üzvüdür.

Milli Məclisin Təbii Ehtiyatlar, Energetika və Ekologiya məsələləri daimi Komitəsinin üzvüdür. –199–202,256,299–303.

**145. Sabir Rüstəmxanlı,** S a b i r  X u d u  o ğ l u (d.1946) – Azərbaycan şairi, publisist, ictimai xadim. Azərbaycan Respublikasının Xalq şairi. Milli Məclisin üzvüdür. 1991–95-ci illərdə Azərbaycan Respublikasının Mətbuat və İnformasiya naziri olub. Vətəndaş Həmrəyliyi Partiyasının sədridir. – 199–202.

**146. Əhəd Abiyev,** Ə h ə d  M i k a y ı l  o ğ l u (d.1958) – iqtisadçı. Daşkəsən rayon İcra Hakimiyyətinin başçısı Yeni Azərbaycan Partiyasının üzvü. Birinci və ikinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. – 199–202.

**147. Daşkəsən** (1956-cı ilədək Dəstəfur rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. Sahəsi 1019 km$^2$, əhalisi 33,7 min nəfərdir. – 201, 256–272.

**148. «*bp*–Azərbaycan»** – neft şirkəti. 1994-cü ildə yaradılmışdır. Hazırda ABƏŞ-in əsas operatorudur. – 212.

**149. Devid Vudvord** (d.1946) – neftçi-mühəndis, 1999–2007-ci illər «*bp*–Azərbaycan» şirkətinin prezidenti. Bir çox ölkələrdə – Birləşmiş Ərəb Əmirliklərində, Norveç, Rusiya və ABŞ-da *bp* şirkətinin nümayəndəsi vəzifələrində işləmişdir. İngiltərənin «Müqəddəs Mixail» və «Müqəddəs Çeorgi», Gürcüstanın «Şərəf», Azərbaycan Respublikasının «Şöhrət» ordenləri ilə təltif olunmuşdur. – 212.

**150. Dünya Səhiyyə Təşkilatı** (ÜST)–BMT-yə məxsus beynəlxalq dövlətlərarası təşkilat. 1946-cı ildə yaradılmışdır. Cenevrədə fəaliyyət göstərir. Nizamnaməsinə görə vəzifəsi ən təhlükəli xəstəliklərlə mübarizə, beynəlxalq sanitariya qaydalarının hazırlanması və s.-dir. – 213.

**151. Fərhad Xəlilov,** Fərhad Qurban oğlu (d.1946) – Xalq rəssamı. 1987-ci ildən Azərbaycan Rəssamlar İttifaqının sədridir. Yaradıcılığında Abşeron motivləri əhəmiyyətli yer tutur. Çimərliklər və Abşeron görüntüləri, həmçinin Abşeron yarımadasının yaşayış məntəqələri buna misal ola bilər. Fərhad Xəlilov «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 214–215.

**152. Əlcəzair,** Əlcəzair Xalq Demokratik Respublikası – Şimali Afrikada dövlət. Sahəsi 2382 min km$^2$, əhalisi 28,8 milyon nəfərdir. İnzibati ərazisi 48 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Xalq Məclisidir. Paytaxtı Əlcəzair şəhəridir. – 216.

**153. Əbdüləziz Buteflikay** (d.1937) – Əlcəzair dövlət xadimi, 1999-cu ildən Əlcəzair prezidenti. – 216.

**154. Səngəçal terminalı** – Azərbaycanın neft və qaz sənayesində həyati əhəmiyyətə malik obyektlərdən biri. Terminal dənizdəki yataqlardan hasil olunan nefti və qazı qəbul edir, texnoloji emaldan keçirir, saxlayır və ixrac edir. Səngəçal terminalı 542 hektar ərazini əhatə edir və dünyanın ən böyük neft və qaz terminallarından biridir. Terminalın texniki emal sistemlərinin ümumi gücü gündə 1,2 milyon barrel neft və «Şahdəniz» qazı üçün gündəlik 25,5 milyon kubmetr qaz təşkil edir. – 218.

**155. ABŞ-ın Alman Marşall Fondu** – ABŞ-da Amerika siyasəti ilə heç bir əlaqəsi olmayan və ictimai qrantlarla yaradılan fond. Fond Şimali Amerika ilə Avropa arasında sıx əməkdaşlıq və qarşılıqlı anlaşmaya əsasən fəaliyyət göstərir. 1972-ci ildə yaradılmışdır. Mənzil-qərargahı Vaşinqtonda və bir çox Avropa ölkələrinin paytaxtlarında var. Alman Marşall Fondu siyasətçilərin təşəbbüsü ilə Atlantika məkanının hər iki tərəfinin insan və resurslarının ümumi problemlərini və ümumi maraqlarını bir yerdə həll edirlər. – 219.

**156. Gürcüstan,** Gürcüstan Respublikası – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir. Dövlətin başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 222,228,241,292,236,324,327,337.

**157. İran,** İran İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 77,83 milyon nəfərdir. Paytaxtı Tehran şəhəridir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici hakimiyyət orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. – 225,226,229.

**158. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s p u b -l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 81,9 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundersatdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 223,226,304.

**159. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndində yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar; 1000 nəfərdən artıq azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 227.

**160. Əfqanıstan,** Ə f q a n ı s t a n İ s l a m D ö v l ə t i – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,2 min km$^2$, əhalisi 25,5 milyon nəfərdir. İnzibati ərazisi 29 vilayətə və mərkəzə tabeli 2 mahala bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 227.

**161. Kosovo problemi** – 80-ci illərdən başlayaraq Yuqoslaviya (Yuqoslaviya Federativ Sosialist Respublikası) ciddi iqtisadi və siyasi çətinliklərlə qarşılaşdı. 1991-ci ildə millətlərarası qarşıdurma nəticəsində YFSR parçalandı. Federasiyanın tərkibindən Sloveniya, Xorvatiya, Bosniya və Hersoqovina, Makedoniya çıxdı və müstəqil dövlət oldular. 1992-ci ildə Serbiya və Çernoqoriya Yuqoslaviya Respublikası yaradıldı. 1999-cu ildə serb hökuməti tərəfindən Kosovoda (Serbiyanın tərkibində) yaşayan albanlara qarşı zorakılıq başlandı və nəticədə etnik qarşıdurma yarandı. Buna görə də NATO aviasiyası tərəfindən bombardman edildi. Məhz bundan sonra Yuqoslaviya öz ordusunu Kosovodan çıxartdı və NATO-nun sülhməramlı ordusu albanları serblərdən qorumaq üçün Kosovoya girdi. 1999-cu ildən sonra Serbiya hökuməti Kosovo ərazisinə de-fakto nəzarətini itirdi. 2008-ci ildə Kosovo

özünü birtərəfli şəkildə müstəqil dövlət elan etdi. Hazırda BMT üzv-ölkələrinin 99-u, o cümlədən NATO ölkələri Kosovonun müstəqilliyini tanıyır. – 227.

**162. İraq,** İ r a q  R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada – Dəclə və Fərat çayları hövzəsində neft ixrac edən ölkə. Sahəsi 438,3 min $km^2$, əhalisi 36 milyon nəfərdir. İnzibati ərazisi 18 mühafazaya bölünür. Dövlət başçısı prezident, hökumət başçısı isə Baş nazirdir. Ölkə ABŞ və NATO ölkələri ilə müharibə vəziyyətində olduğu üçün ali qanunverici orqanı yoxdur. Paytaxtı Bağdaddır. – 227.

**163. «Röyter»** – İngiltərənin xarici informasiya agentliyi. 1851-ci ildə Londonda yaradılmışdır. «Pöyter» B.Britaniyanın rəsmi teleqraf agentliyidir. – 228.

**164. İspaniya** – Cənub-Qərbi Avropada dövlət. Sahəsi 504,8 min $km^2$, əhalisi 45,11 milyon nəfərdir. İnzibati ərazisi 17 muxtar vilayətə daxil olan 50 əyalətə bölünür. İspaniya konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı korteslərdir (ikipalatalı parlament). Afrikanın şimal sahilindəki Seuta və Melilya şəhər rayonları da İspaniyanın mülküdür. Paytaxtı Madriddir. – 230,240.

**165. Azərbaycan Xalq Cəbhəsi** (AXC) – ictimai-siyasi təşkilat. 1989-cu ildə təsis konfransı keçirilmiş, Proqram və Nizamnaməsi qəbul olunmuşdur. 1999-cu il iyulun 25-də keçirilmiş qurultayının qərarı ilə Azərbaycan Xalq Cəbhəsi Partiyası adlandırılmışdır. – 232.

**166. Çeçenistan** (İçkeriya) – Rusiya Federasiyasında respublika. Orta əsrlərin əvvəllərində Çeçenistanın xeyli hissəsi Alan dövlətinin tərkibində idi. XIX əsrdə Rusiya Şimali Qafqazı işğal etməyə başladı. Çeçenlər öz torpaqlarından çıxarılır, onların yerinə burada kazaklar yerləşdirilirdi. Bu da Çeçenistanda milli-azadlıq hərəkatının başlanmasına səbəb

oldu. Dağlıların bu hərəkatı (1817–1864) 1859-cu ildə Şeyx Şamil təslim olduqdan sonra yatırıldı və Çeçenistan tamamilə Rusiyaya birləşdirildi. 1991–92-ci illərdə Rusiya Federasiyası tərkibində müstəqil Çeçenistan Respublikası yaradıldı. Paytaxtı Qroznı şəhəridir. – 232.

**167. Bloomberq kompaniyası** (*agentliyi*) – əsası 1981-ci ildə Maykl Bloomberq tərəfindən qoyulmuşdur. Özəl kompaniyadır. Bloomberq ikinci aparıcı kompaniyadır ki, bazarının peşəkar iştirakçılarını pulla təchiz edir. Bloomberq terminalına – Bloomberq agentlərinin və başqa kütləvi informasiya vasitələrinin xəbərləri ilə bütün dünya birja və birjadan kənar bazarlarına hazırkı və keçmiş qiymətlər ilə girmək olar. 1988-ci ildə Bloomberqin 5000 terminalı fəaliyyət göstərirdi. – 235.

**168. AŞPA Monitorinq Komitəsi** – 1993-cü ildə yaradılmışdır. AŞPA-nın hüquq siyasəti və İnsan hüquqları komissiyaları AŞ-a qəbul edilmiş yeni dövlətlərin öz üzərlərinə götürdükləri öhdəlikləri necə yerinə yetirmələrini yoxlayır və hesabat verirlər. Təqdim olunan məruzələr parlament üzvləri tərəfindən müzakirə edilir. – 239.

**169. Georgi Pırvanov** (d.1957) – Bolqarıstan siyasi və dövlət xadimi. Tarix elmləri doktoru. 2000–2011-ci illərdə Bolqarıstanın prezidenti olmuşdur. – 242.

**170. Nigeriya,** N i g e r i y a F e d e r a t i v R e s p u b l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 924 min $km^2$, əhalisi 140,4 milyon nəfərdir. Millətlər Birliyinə daxildir. İnzibati ərazisi 30 ştata və bir mahala bölünür. Dövlət və hökumət başçısı prezidentdir. Paytaxtı Abusadır. – 243.

**171. Olusequn Obasanco** (d.1937) – Nigeriya siyasi və dövlət xadimi, 1999-cu ildən Nigeriyanın prezidenti. – 243.

**172. Gəncə –** Azərbaycan Respublikasında şəhər. Sahəsi 107 $km^2$, əhalisi 324,7 min nəfərdir. Gəncə Azərbaycanın qədim şəhərlərindəndir, salındığı tarix dəqiq məlum deyil. Bəzi müəlliflər Gəncənin Makedoniyalı İsgəndərin dövründə (e.ə.336–323) salındığını qeyd etmişlər. – 244–255,260,261, 267,275.

**173. Təbriz** – İranda şəhər. Cənubi Azərbaycanın ən böyük şəhəri, iqtisadi və mədəniyyət mərkəzi, Şərqi Azərbaycan ostanının inzibati mərkəzi. Əhalisi 1,5 milyon nəfərdir.

Təbriz Azərbaycanın ən qədim şəhərlərindəndir. «Təbriz» sözünün etimologiyası və şəhərin salınma tarixi haqqında müxtəlif fikirlər mövcuddur. Təbriz Rəvvadilər dövlətinin (852), Eldəgəzlər dövlətinin (1174), Ağqoyunlular dövlətinin (1468), Səfəvilər dövlətinin (1501) paytaxtı olmuşdur. XV-XVII əsrlərdə Təbriz Yaxın Şərqin mühüm sənətkarlıq və ticarət mərkəzlərindən idi. Təbrizi «Şərqin paytaxtı» da adlandırırdılar.

1826–28-ci illər Rusiya–İran müharibəsi nəticəsində Türkmənçay müqaviləsinə (1828) görə Təbriz İranın hakimiyyəti altında qaldı. – 244.

**174. Zaqatala –** Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Şimal-şərqdə Dağıstanla, cənub-qərbdə Gürcüstanla həmsərhəddir. Sahəsi 1348 $km^2$, əhalisi 123,4 min nəfərdir. – 247.

**175. Fuad Əliyev,** F u a d Y u s i f o ğ l u (d.1950) – kimya elmləri doktoru, professor, AMEA-nın Gəncə bölməsinin sədri, AMEA-nın həqiqi üzvü , Əməkdar elm xadimi, 1983-cü ildən Gəncə Regional Elmi Mərkəzinin sədridir. – 250–251.

**176. Cavad xan** (?- 1804) – Gəncə xanı (1785–1804), Ziyadoğluları nəslindən idi. Cavad xan dövründə Qazax, Borçalı, Şəmsəddil, Şamxor və s. yerlər Gəncə xanlığına daxil idi. Gürcüstan Rusiyaya birləşdikdə (1801) Cavad xan Şəmsəd-

dilin qoşun 29 kəndini Gəncə xanlığına qatdı. 1803-cü ilin noyabrında çar generalı P.D.Sisianovun komandanlığı ilə Gəncəyə qoşun göndərildi. P.D.Sisianovun tabe olmaq tələbini rədd edən Cavad xan döyüşdə qəhrəmancasına həlak oldu. – 250.

**177. Cahangir Əsgərov,** Cahangir Cəlal oğlu (d.1950) – təyyarəçi. 1991–93-cü illərdə Aviasiya İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri, 1996-cı ildən «Azərbaycan Hava Yolları» Dövlət Konserninin Baş direktorudur. – 251.

**178. Gəncə xanlığı** – XVIII əsrin ortalarında yaranmış Azərbaycan feodal dövləti. Şəki, Qarabağ, Erivan xanlıqları, Qazax-Şəmsəddil və Gürcüstanla həmsərhəd idi. Gəncə xanlığının ilk xanı Ziyadoğulları nəslindən olan II Şahverdi xan (1747–60) olmuşdur. II Şahverdi xanın vəfatından sonra hakimiyyətə oğlu Məhəmmədhəsən xan (1760–80) keçdi. Ardı-arası kəsilmədən işğalçılar Gəncəyə başqın edirdilər. 1784-cü ildə II İrakli Gəncəyə yenidən hücuma keçdi. Bu hərbi səfərdə polkovnik S.Burnaşevin başçılığı ilə rus qoşunları da iştirak edirdi. Dağıstan feodallarının işə qarışması nəticəsində Gəncə xanlığı bu basqından xilas edildi. 1803-cü ildə P.D.Sisianovun başçılığı ilə çar qoşunu Gəncəyə hücum etdi. P.D. Sisianovun təslim olmaq tələblərini dəfələrlə rədd edən Cavad xan uzun müddət çar qoşunlarına şiddətli müqavimət göstərdi. 1804-cü il yanvarın 3-də Cavad xan döyüşdə qəhrəmancasına həlak oldu. Çar qoşunları Gəncə qalasını tutdu. Gəncə xanlığı ləğv edilərək Rusiyaya birləşdirildi. – 254.

**179. Həzrəti Zeynəb məscidi** – 2006-cı ildə Gəncənin Böyük Bağmanlar məhəlləsində Heydər Əliyev Fondunun dəstəyi ilə inşa edilmişdir. Məscid ikimərtəbəlidir. İkinci mərtəbə günbəzin sol tərəfində birtərəfli balkonla tamamlanır. İki qoşa minarəsi vardır. – 255.

**180. Şəmkir** (1930–91-ci illərdə Şamxor rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. Sahəsi 1656,8 $km^2$, əhalisi 203,9 min nəfərdir. – 270,278,289–305.

**181. Gədəbəy** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. Sahəsi 1290 $km^2$, əhalisi 96,8 min nəfərdir. – 273–288.

**182. Qazax** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 2202 $km^2$, əhalisi 92,7 min nəfərdir. – 275,278,292,300.

**183. Hacıqabul** – Azərbaycan Respublikasında inzibati rayon. 1990-cı ildə təşkil olunmuşdur. Sahəsi 1641 $km^2$, əhalisi 65,8 min nəfərdir. – 300,301.

**184. Kürdəmir** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. Sahəsi 1632 $km^2$ , əhalisi 110,1 min nəfərdir. – 300.

**185. «Ata Holdinq»** – şirkət. İqtisadiyyatın müxtəlif sahələrinə kapital qoyur, pul və intellektual resurslarla təmin edir, həmçinin korporativ idarəetməyə kömək edir. 2003-cü ildə yaradılmışdır. Nizamnaməyə görə ASC «Ata Holdinq»-in kapitalı 83,9 milyon manatdır. Əsasən, öz mühitində pul vəsaitini artırmaqla, informasiya texnologiyalarının, sənayenin xidmət və turizm sahələrini maliyyələşdirir.

2007-ci ildən «Ata Holdinq» və onun filialları beynəlxalq auditor kompaniyaları ilə maliyyə-təsərrüfat fəaliyyətinə başlamışdır. – 303.

**186. Hüseyn Çelik** (d.1959) – akademik, filoloq. TBMM-nin Doğru Yol Partiyasından millət vəkili və Türkiyə Təhsil naziri olmuşdur (2003–2009). – 306.

**187.** ***bp*****,** «B r i t i ş  P e t r o l e u m» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 307.

**188. «Azəri», «Çıraq», «Günəşli»** – Xəzərin Azərbaycan sektorunda ən iri neft yataqları Bakıdan təxminən 120 km şərqdə yerləşən bu yataqlar Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) adından *bp* şirkəti tərəfindən işlənir. «Azəri», «Çıraq» neft yataqları iki əsas lay dəstindən ibarətdir: Fasilə və Balaxanı. Konsorsium əvvəlcə hasilata Fasilə layından başlayıb. «Azəri», «Çıraq»da hasilat 1997-ci ilin noyabr ayında başlamışdır. – 307.

**189. Anqola,** A n q o l a  R e s p u b l i k a s ı – Cənub-Qərbi Afrikada dövlət. Sahəsi 1246,7 min km$^2$, əhalisi 18 milyon nəfərdir. Paytaxtı Luanda şəhəridir. Dövlətin və hökumətin başçısı prezidentdir. Qanunverici orqanı Milli Məclisdir. – 309.

**190. Duş Santuş,** J o z e  E d u a r d o (d.1942) – Anqolanın prezidenti və MPLA-nın sədri. 1975-ci ildən nazir vəzifələrində olmuşdur. Ordu generalıdır. Azərbaycan Neft və Kimya İnstitutunda (Azərbaycan Neft Akademiyası) təhsil almışdır. – 309.

**191. İordaniya,** İ o r d a n i y a  H a ş i m i l ə r  K r a l l ı ğ ı – Qərbi Asiyada dövlət. Sahəsi 89,4 min km$^2$, əhalisi 6,5 milyon nəfərdir. İnzibati ərazisi 8 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Ammandır. –313–314.

**192. Məruf əl-Bəxit** (d.1947) – 2005–2007 və 2011-ci ildə İordaniya Haşimilər Krallığında Baş nazir olmuşdur. – 313–314.

**193. II Abdullah,** A b d u l l a h  b i n  H ü s e y n (d.1962) – 1999-cu ildən İordaniyanın kralıdır. II Abdulla kvalifikasiyalı dalğıc, paraşütist və pilotdur. – 313,314.

**194. Oman,** O m a n  S u l t a n l ı ğ ı – Şərqi Ərəbistan yarımadasında dövlət. Sahəsi 212,4 min km$^2$, əhalisi 3,1 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayətə bölünür. Dövlət başçısı sultandır. Paytaxtı Məskət şəhəridir. – 319.

**195. Qabus bin Səid** (d.1940) – 1970-ci ildən Oman sultanı. Sultan həm də ölkənin Baş naziri, Müdafiə naziri və Xarici İşlər naziri vəzifələrini icra edir. Sultan bin Səid ərəb aləmində yenilikçi və reformator kimi tanınır. Qabus öz administrasiyasını müdhiş korrupsionerlərdən təmizləmiş, əhalinin həyat səviyyəsini xeyli qaldırmışdır. – 319.

**196. Livan,** L i v a n  R e s p u b l i k a s ı – Qərbi Asiyada, Aralıq dənizinin şərq sahilində dövlət. Sahəsi 10,4 min km$^2$, əhalisi 4,3 milyon nəfərdir. Paytaxtı Beyrut şəhəridir. İnzibati cəhətdən 5 mühafazaya bölünür. Dövlət başçısı prezidentdir. Qanunvericilik orqanı birpalatalı parlamentdir. – 320.

**197. Emil Ləhhud** (d.1936) – 1998–2007-ci illərdə Livanın prezidenti olmuşdur. – 320.

**198. Belçika,** B e l ç i k a  K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. Sahəsi 30,5 min km$^2$, əhalisi 10,8 milyon nəfərdir. Belçika konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Brüsseldir. – 321–339.

**199. Brüssel** – Belçikanın paytaxtı (1830). Sena çayı sahilindədir. Çox böyük liman, beynəlxalq əhəmiyyətli nəqliyyat və kanallar qovşağıdır. NATO-nun mənzil-qərargahı Brüsseldədir. Əhalisi 11 min nəfərdir.

Brüssel haqqında ilk məlumata XI əsr mənbələrində rast gəlinir. – 321–339.

**200. Havyer Solana** (d.1942) – siyasi xadim, 1995–99-cu illərdə NATO-nun Baş katibi, 1999-cu ilin iyulundan Avropa İttifaqı Şurasının Xarici Siyasət və Təhlükəsizlik üzrə Baş katibidir. – 322–323,326,327.

**201. «Azad Avropa», «Azadlıq» radiostansiyası** – Şərqi Avropanın və başqa regionların bəzi ölkələrində verilişlər aparan ABŞ-ın dövlət radiostansiyası. İlkin mənzil-qərargahı Münhendədir. «Azad Avropa» verilişlərə 1950-ci ildən, «Azadlıq» isə 1953-cü ildən başlamışdır. – 326.

**202. «Space»** – Azərbaycanda müstəqil teleşirkət. 1997-ci ildə yaradılmışdır. Dünyanın bir sıra – MSM, Fashion TV, CNN, NTV telekanalları, İhlas agentliyi ilə əməkdaşlıq edir. – 326.

**203. Avropa Komissiyası,** A v r o p a Ş u r a s ı ö l k ə l ə r i n i n K o m i s s i y a s ı – AŞ ölkələri hökumətlərinin ali icraedici orqanı, AŞ-nın bütün maraqlarına cavab verən siyasi cəhətdən müstəqil institut. Onun tərkibinə üzv olkələrin hökumətlərinin vahid razılığı ilə seçilən 20 komissar daxildir. Komissiyanın tərkibini minimum üzv ölkələrin nümayəndələri təmsil edir. Komissiyanın üzvləri öz ölkələrini yox, bütün AŞ-nı təmsil edirlər. AŞ-nın bütün qərarları Komissiyadan keçməlidir. Qərarların yerinə yetirilməsinə AŞ nəzarət edir. – 329–330.

**204. Joze Manuel Barrozu** (d.1959) – Portuqaliya və Ümumavropa siyasi və dövlət xadimi. 2002–2004-cü illərdə Portuqaliyanın Baş naziri olmuşdur. 2004-cü ilin noyabrından J.M.Barrozu Avropa Parlamenti tərəfindən Avropa Komissiyasının sədri seçilmişdir. – 329–330,332–339.

**205. Odessa–Brodi–Qdansk** – Odessa, Brodi və Qdansk şəhərləri arasında çəkilən və «Drujba» kəməri ilə birləşdirilən neft kəməri. Kəmərin uzunluğu 667 km-dir. 2001-ci ildə axıdılan neftin miqdarı 14,5 milyon ton olmuşdur. Bu kəmərlə Xəzər və Qazaxıstan neftinin Türkiyə boğazlarından ötürülməklə Şərqi, Mərkəzi və Şimali Avropaya çatdırılması da nəzərdə tutulurdu. – 335.

**206. «The Observer»** – Bazar günləri çıxan Britaniya qəzeti. Dünyada birinci və ən qocaman bazar günü qəzetidir. İlk nömrəsi 1791-ci il 4 dekabrda çıxmışdır. Qəzet hər zaman – hətta müharibələr zamanı və Böyük depressiya illərində də nəşr edilmişdir. – 336.

**207. Europolitics** – Avropada yeni xəbərlərin yayılmasının aparıcı mənbəyi.

Evropolitics Avropada gündəlik nəşr, veb-servis, rüblük jurnaldır. – 337.

**208. Elmar Hüseynov,** E l m a r S a b i r o ğ l u (1967–2005) –jurnalist. «Monitor» jurnalının Baş redaktoru. 2005-ci ildə muzdlu qatil tərəfindən qətlə yetirilib. – 337.

## Şəxsi adlar göstəricisi


| | |
|---|---|
| **II Abdullah** | – 313,314 |
| **Abıyev Əhəd** | – 199–202 |
| **Abutalıbov Hacıbala** | –102 |
| **Akşit Güldal** | – 112–115 |
| **Aleksandr ata** (*yepiskop*) | – 163 |
| **Allgeieri Peter** | – 128 |
| **Anzov Boris** | – 233 |
| **Atatürk Mustafa Kamal** | – 114 |
| **Aksenoks Ayvars** | – 51–56 |
| **Azamatov Nikolay** | – 114 |
| **Aytmatov Çingiz** | – 67 |
| **Baaq Robert** | – 226 |
| **Babakişiyev Rasim** | – 101 |
| **Barrozu Joze** | – 329–330,332–339 |
| **XVI Benedikt** | – 163 |
| **Besesku Trayan** | – 85–110 |
| **Bin Səid Qabus** | – 319 |
| **Böyük Stefan** | – 104,106 |
| **Brilyov Sergey** | – 78 |
| **Buteflikay Əbdüləziz** | – 216 |
| **Cavad xan** | – 250 |
| **Cefri Ceyms** | – 111 |
| **Çelik Hüseyn** | – 306 |
| **Ecevit Bülənd** | – 315,316,317 |
| **Ecevit Rəhşan** | – 317 |
| **Elman Riçard** | – 80 |
| **Enesku Corce** | – 99–101,106 |
| **Erentok Əhməd** | – 303 |
| **Eyzenştat Ştüart** | – 308 |
| **Əl-Bəxit Məruf** | – 313-314 |

**Ələsgər** (*aşıq*) – 68
**Əliyev Fuad** – 250–251
**Əliyev Heydər** – 61,84,100,101,103,109,114, 115,118,119,121,137,157,159, 160,161,164,191,193,197,203, 204,205,247,248,250,253,254, 257–258,260,265,273,274,275, 279,291,294,296,298–299,311
**Əliyev Natiq** – 101,273,299
**Əliyeva Mehriban** – 20,28–29,35,36,51,54,66,74, 75,108–109,244,253,255,257, 259,268,273,,279,288,299,305
**Əliyeva Qalina** – 281–288
**Əliyeva Zərifə** – 103,303
**Əpdoğan Rəcəb Təyyib** – 114,133,315
**Əsgərov Cahangir** – 173
Feyziyev Cavanşir – 126
**Fişer Haynts** – 130
**Frenk Xulio** – 152
**Freyberqs İmants** – 5,34,35
**Frink Manfred** – 223
**Hacı Tahir** – 255
**Haraşt Mikloş** – 79
**Hüseyn Cavid** – 114
**Hüseynov Elmar** – 337
**Hüseynov Tamerlan** – 280
**Xələfov Xələf** – 102
**Xələfov Rafiq** – 302
**Xəlilov Fərhad** – 214–215
**Xəlilov Soltanağa** – 67–68
**Xu Szintao** – 116,117
**İbrahimov Valeh** – 197
**İxiilov Semyon** – 163
**İnqlis Endryu** – 307
**İsgəndərov Fərid** – 326
**İsmayılov Bəxtiyar** – 268–272

**İsmayılova Nadejda** – 281–288
**Kalvitis Ayqars** – 35–36
**Kalvite Kristin** – 36
**Kantemir Dmitri** – 104,106
**Kərimov Əhməd** – 303
**Kərimov Tahir** – 261
**Kərimova Afaq** – 299
**Kilner Ceyms** – 228
**Klaus Vatslav** – 131
**Klaq Skott** – 219
**Köçəryan Robert** – 220
**Kruçianelli Famiano** – 158
**Qabaşvili Georgi** – 241
**Qəzai Əhəd** – 163
**Qucerotti Klaudio** – 163
**Quliyev Elçin** – 73
**Quliyev Rüfət** – 280
**Qurbanov Cavid** – 199–202,256,299–303
**Ləhhud Emil** – 320
**Latsis İvars** – 18
**Lukaşenko Aleksandr** – 135–151
**Luis Qorden** – 279
**Maltseva Olqa** – 281–288
**Martınov Seyrgey** – 135
**Mehmandarov Səməd bəy** – 104
**Məhəmməd** (*Əleyhissəlam*) – 161
**Məmmədov Ziya** – 64,199–202
**Məhərrəmova Səmayə** – 74
**Məmmədyarov Elmar** – 85
**Moreno Rafael** – 222
**Motueski Roman** – 151
**Mustafayev Mikayıl** – 268
**Mustafayev Murtuzəli** – 268–272
**Mürsəlov Anar** – 259
**Nauer Devid** – 228
**Niyazov Saparmurad** – 134

**Nolendorf Valter** – 54
**Nurullayev Sadıq** – 62–63
**Obasanco Olusequn** – 243
**Ozols Andris** – 39
**Özkurt Əli** – 259–262
**Pabriks Artis** – 5,63
**Paşazadə Allahşükür** – 159–168
**Pan Çi Mun** – 153
**Piins Tot** – 235
**Pırvanov Georgi** – 242
**Popov İvan** – 281–288
**Polliyeva Cahan** – 84
**Pirverdiyev Etibar** – 119
**Puxovoy Dmitri** – 281–288
**Rasizadə Artur** – 85
**Rautava Karina** – 199–202
**Rusetski Anatoli** – 145
**Rzayev Fuad** – 253
**Rüstəmxanlı Sabir** – 199–202
**Rüstəmov Frunze** – 259
**Rzazadə Kamran** – 281–288
**Salqado Elena** – 240
**Santuş Joze** – 309
**Semaşko Vladimir** – 150
**Senkins Brayan** – 83
**Sezər Əhməd Necdət** – 132,315
**Səfərov Faiq** – 61
**Sxeffer Yaap** – 81
**Skurko Dmitri** – 335
**Sidorski Sergey** – 135,151
**Simmons Robert** – 81
**Smis Adel** – 230
**Solana Xavyer** – 322–323,326,327
**Süvər Akkan** – 112–115
**Syu Szyalı** – 116–117
**Şahıyev Xanış** – 190

**Şərifov Şərif** – 254
**Şoyom Laslo** – 129
**Şukrutov Andar** – 151–157
**Tofiq Fikrət** – 114
**Türmən Tomris** – 213
**Udre İnqrida** – 36,37
**Uzun Həsən** – 104
**Varter Niv** – 232
**Vasilenkova Mariya** – 281–288
**Vike-Freyberqa Vayra** – 5–63,318
**Vudvord Devid** – 212
**Vir Fred** – 220,227
**Yusubov Fəxri** – 298
**Zeynəb** (*həzrəti*) – 255
**Zülfüqarov Tofiq** – 56

## Coğrafi adlar göstəricisi


| | |
|---|---|
| **Abşeron** (*yarımada*) | – 174 |
| **Albaniya** | – 95 |
| **Almaniya** | – 223,226,304 |
| **Amerika Birləşmiş Ştatları** | – 56,111,128,219,224,225,227, 228,229,230,236,237,238, 260,299,338 |
| **Anqola** | – 309 |
| **Aralıq dənizi** | – 22,76,97,222 |
| **Asiya** | – 21,43,235,245 |
| **Astara** | – 174,192,200 |
| **Avropa** | – 16,19,20,21,37,43,45,46,47, 49,54,56,58,59,60,76,89,94, 95,96,97,98,129,130,172, 187,222,223,224,235,238, 245,325,326,328,330,338, 339 |
| **Avstriya** | – 130 |
| **Bakı** | – 18,28,31,37,40,59,60,62,63, 77,89,109,114,121,131,132, 133,134,153,154,163,166, 173,174,175,176,181,189, 192,193,195,215,216,226, 242,243,244,275,278,292, 301,302,309,311,315,316, 317,318,319,320 |
| **Baltik** (*yarımada*) | – 15,26,27,52,53,58,60,61,62, 139,270 |
| **Baltik dənizi** | – 37,44,46 |
| **Belarus** | – 135–151,336 |
| **Belçika** | – 321–339 |

**Bolqarıstan** – 98,222,233,234,235,242
**Böyük Britaniya** – 83,336,338
**Buxarest** – 90,92
**Brüssel** –321–339
**Cənubi Qafqaz** –32,46,81,97,225,324,325, 327,334,339
**Çeçenistan** – 232
**Çexiya** – 131
**Çin** – 116–117
**Dağlıq Qarabağ** – 13,23,24,25,34,92,93,94,105, 113, 116,155,157,161,176,220, 221,225,232,236,237,268–272, 322,323,324,327,328,330,331, 339
**Daşkəsən** – 201,256–272
**Estoniya** – 58
**Əfqanıstan** – 227
**Əlcəzair** – 216
**Finlandiya** – 119
**Fransa** – 56,114,226,227,236,254
**Füzuli** (*Şəmkirdə qəsəbə*) – 304–305
**Gədəbəy** – 273–288
**Gəncə** – 244–255,260,261,267,275
**Gürcüstan** – 222,228,241,292,296,324, 327, 337
**Hacıqabul** – 300,301
**Hollandiya** – 304
**Xaçmaz** – 174
**Xəzər dənizi** – 26,27,28,46,49,89,92,95,97, 98,105,139,163,222,247, 308,333
**Xınalıq** – 65,66–72,201,257,270
**Xızı** – 201
**Xocalı** – 227
**İmişli** – 183
**İordaniya** – 313–314

| | |
|---|---|
| **İraq** | – 227 |
| **İran** | – 225,226,229 |
| **İspaniya** | – 230,240 |
| **İtaliya** | – 158 |
| **İsveçrə** | – 230 |
| **Kiyev** | – 244 |
| **Kosovo** | – 227 |
| **Kürdəmir** | – 300 |
| **Qafqaz** | – 163,168,337 |
| **Qara dəniz** | – 46,92,95,97,98,222 |
| **Qars** | – 244 |
| **Qazax** | – 275,278,292,300 |
| **Qazaxıstan** | – 156,260,336 |
| **Qəçrəş** | – 74 |
| **Qırızdəhnə** | – 74 |
| **Quba** | – 64–75 |
| **Latviya** | – 5–63,318 |
| **Lerik** | – 173,190–198,201,257,270 |
| **Lənkəran** | – 175,192,193,247 |
| **Litva** | – 58 |
| **Livan** | – 320 |
| **London** | – 271 |
| **Macarıstan** | – 129 |
| **Masallı** | – 199–202,211 |
| **Meksika** | – 152 |
| **Məkkə** | – 160 |
| **Mineralnıye – Vodı** | – 244 |
| **Mingəçevir** | – 121,127,174,198 |
| **Minsk** | – 135–151 |
| **Moldova** | – 76,95 |
| **Moskva** | – 76,14,162,232,244 |
| **Naxçıvan** | – 114,115,173,174,244 |
| **Nigeriya** | – 243 |
| **Oman** | – 319 |
| **Orta Asiya** | – 81,97 |
| **Orta Şərq** | – 43 |

**Özbəkistan** – 76
**Polşa** – 139
**Riqa** – 5–63
**Roma** – 76
**Rostov** – 244
**Rumıniya** – 76,85–110,222
**Rusiya** – 71,84,95,121,172,220–238, 326,327,337
**Sankt-Peterturq** – 244
**Sibir** – 114
**Slavyanka** (*Gədəbəydə kənd*) – 281–288
**Sumqayıt** – 121,174,261
**Şəki** – 118–127,174
**Şəmkir** – 270,278,289–305
**Şimali Avropa** – 43
**Şimali Qafqaz** – 162
**Təbriz** – 244
**Trakay** – 62
**Türkiyə** – 62,97,112–115,132,133,161, 222,226,227,296,304,306, 315,316,317
**Türkmənistan** – 134
**Ucar** – 301
**Ukrayna** – 76,95,222,336
**Vatikan** – 162,163
**Volqoqrad** – 244
**Yaxın Şərq** – 111
**Yaponiya** – 127
**Yardımlı** – 173,191,199–202,203–210, 257, 270
**Yevlax** – 300,301
**Zaqatala** – 247

# MÜNDƏRİCAT

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN LATVİYAYA DÖVLƏT SƏFƏRİ

*3 oktyabr 2006-cı il* ........................................................................ 5

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ LATVİYA PREZİDENTİ VAYRA VİKE-FREYBERQANIN TƏKBƏTƏK GÖRÜŞÜ

*4 oktyabr 2006-cı il* ........................................................................ 7

SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ BAŞA ÇATDIQDAN SONRA AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ LATVİYA RESPUBLİKASININ PREZİDENTİ VAYRA VİKE-FREYBERQANIN BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARI, ÇIXIŞLARI VƏ JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*4 oktyabr 2006-cı il* ........................................................................ 10

LATVİYA UNİVERSİTETİNDƏ GÖRÜŞ

*4 oktyabr 2006-cı il* ........................................................................ 18

LATVİYA RESPUBLİKASININ PREZİDENTİ XANIM VAYRA VİKE-FREYBERQANIN VƏ HƏYAT YOLDAŞI İMANTS FREYBERQSİN ADINDAN AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ XANIMI MEHRİBAN ƏLİYEVANIN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ NİTQ

*4 oktyabr 2006-cı il* ........................................................................ 30

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN LATVİYAYA DÖVLƏT SƏFƏRİ

*4 oktyabr 2006-cı il* ........................................................................ 35

AZƏRBAYCAN–LATVİYA BİZNES FORUMU

*5 oktyabr 2006-cı il* ........................................................................ *39*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN LATVİYAYA DÖVLƏT SƏFƏRİ

5 oktyabr 2006-cı il........................................................................ *51*

BALTİKYANI ÖLKƏLƏRDƏKİ AZƏRBAYCAN İCMASININ
NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*5 oktyabr 2006-cı il* ........................................................................ *57*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN QUBA RAYONUNA SƏFƏRİ

*7 oktyabr 2006-cı il* ........................................................................ *64*

QƏDİM XINALIQ KƏNDİNİN SAKİNLƏRİ İLƏ GÖRÜŞ

*7 oktyabr 2006-cı il* ........................................................................ *66*

MDB- nin ÜZVÜ OLAN ÖLKƏLƏRİN BİTKİ KARANTİNİ ÜZRƏ
KOORDİNASİYA ŞURASININ 13-cü KONFRANSININ,
AVROPA VƏ ARALIQ DƏNİZİ ÖLKƏLƏRİ BİTKİ KARANTİNİ
VƏ MÜHAFİZƏSİ TƏŞKİLATININ BAKI SEMİNARININ
IŞTİRAKÇILARINA

*9 oktyabr 2006-cı il* ........................................................................ *76*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEV «ROSSİYA» TELEKANALININ «VESTİ»
PROQRAMINA MÜSAHİBƏ VERMİŞDİR

*9 oktyabr 2006-cı il* ........................................................................ *78*

ATƏT-in KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ AZADLIĞI
ÜZRƏ NÜMAYƏNDƏSİ MİKLOŞ HARAŞT İLƏ GÖRÜŞ

*9 oktyabr 2006-cı il* ........................................................................

«NOBL» ŞİRKƏTİNİN PREZİDENTİ
RİÇARD ELMAN İLƏ GÖRÜŞ

*9 oktyabr 2006-cı il* ........................................................................ *80*

NATO BAŞ KATİBİNİN CƏNUBİ QAFQAZ VƏ ORTA ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ ROBERT SİMMONSUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*9 oktyabr 2006-cı il* ........................................................................ *81*

MDB ÖLKƏLƏRİ MƏDƏNİ ƏMƏKDAŞLIQ ŞURASININ 21-ci İSLASI İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*9 oktyabr 2006-cı il* ........................................................................ *82*

BÖYÜK BRİTANİYA PARLAMENTLƏRARASI İTTİFAQDAKI NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 oktyabr 2006-cı il* ...................................................................... *83*

RUSİYA FEDERASİYASI PREZİDENTİNİN KÖMƏKÇİSİ CAHAN POLLIYEVA İLƏ GÖRÜŞ

*10 oktyabr 2006-cı il* ...................................................................... *84*

RUMINİYA PREZİDENTİ TRAYAN BESESKUNUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*11 oktyabr 2006-cı il* ...................................................................... *85*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUMINİYA PREZİDENTİ TRAYAN BESESKUNUN TƏKBƏTƏK GÖRÜŞÜ

*11 oktyabr 2006-cı il* ...................................................................... *87*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA AZƏRBAYCAN VƏ RUMINİYA PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLARI VƏ JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*11 oktyabr 2006-ci il* ...................................................................... *91*

MƏŞHUR RUMIN BƏSTƏKARI VƏ MUSİQİÇİSİ CORCE ENESKUNUN ABİDƏSİNİN AÇILIŞ MƏRASİMİ

*11 oktyabr 2006-cı il* ...................................................................... *99*

RUMINİYA PREZİDENTİ TRAYAN BESESKUNUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*11 oktyabr 2006-cı il* ............................................................................ *102*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ADINDAN RUMINİYA PREZİDENTİ TRAYAN BESESKUNUN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMIŞ RƏSMİ QƏBULDA NİTQ

*11 oktyabr 2006-cı il* ............................................................................ *104*

RUMINİYA PREZİDENTİ TRAYAN BESESKU HEYDƏR ƏLİYEV FONDUNDA

*12 oktyabr 2006-cı il* ............................................................................ *108*

ABŞ DÖVLƏT KATİBİ MÜAVİNİNİN YAXIN ŞƏRQ MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ SƏFİR CEYMS CEFRİ İLƏ GÖRÜŞ

*12 oktyabr 2006-cı il* ............................................................................ *111*

TÜRKİYƏNİN MƏRMƏRƏ QRUPUNUN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 oktyabr 2006-cı il* ............................................................................ *112*

ÜMUMÇİN XALQ NÜMAYƏNDƏLƏRİ MƏCLİSİ DAİMİ KOMİTƏSİ SƏDRİNİN MÜAVİNİ SYU SZYALUNUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 oktyabr 2006-cı il* ............................................................................ *116*

ŞƏKİ MODUL TİPLİ ELEKTRİK STANSİYASININ TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*14 oktyabr 2006-cı il* ............................................................................ *118*

«ŞƏKİ SARAYI» HOTELİNİN İSTİFADƏYƏ VERİLMƏSİNƏ HƏSR OLUNMUŞ MƏRASİM

*14 oktyabr 2006-cı il* ............................................................................ *126*

ABŞ-ın ÜMUMDÜNYA TİCARƏT TƏŞKİLATI YANINDA
SƏFİRİ PETER ALLGEİERİ İLƏ GÖRÜŞ

*16 oktyabr 2006-cı il* ........................................................................ *128*

MACARISTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB LASLO ŞOYOMA

*16 oktyabr 2006-cı il* ........................................................................ *129*

AVSTRİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB HAYNZ FİŞERƏ

*16 oktyabr 2006-cı il* ........................................................................ *130*

ÇEXİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB VATSLAV KLAUSA

*16 oktyabr 2006-cı il* ........................................................................ *131*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ

*16 oktyabr 2006-cı il* ........................................................................ *132*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*16 oktyabr 2006-cı il* ........................................................................ *133*

TÜRKMƏNİSTAN PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB SAPARMURAD NİYAZOVA

*16 oktyabr 2006-cı il* ........................................................................ *134*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN BELARUS RESPUBLİKASINA
RƏSMİ SƏFƏRİ

*17 oktyabr 2006-cı il* ........................................................................ *135*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN VƏ BELARUS RESPUBLİKASININ

PREZİDENTİ ALEKSANDR LUKAŞENKONUN
TƏKBƏTƏK GÖRÜŞÜ

*17 oktyabr 2006-cı il* .......................................................................... *137*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN BELARUS RESPUBLİKASINA
RƏSMİ SƏFƏRİ

*17 oktyabr 2006-cı il* .......................................................................... *144*

BELARUS RESPUBLİKASININ PREZİDENTİ
ALEKSANDR LUKAŞENKONUN ADINDAN
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ
RƏSMİ QƏBULDA NİTQ

*17 oktyabr 2006-cı il* .......................................................................... *146*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN BELARUSA RƏSMİ SƏFƏRİ

*18 oktyabr 2006-cı il* .......................................................................... *150*

MEKSİKANIN SƏHİYYƏ NAZİRİ XULİO FRENK İLƏ GÖRÜŞ

*19 oktyabr 2006-cı il* .......................................................................... *152*

BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ BAŞ KATİBİ
ZATİ-ALİLƏRİ CƏNAB PAN Gİ MUNA

*19 oktyabr 2006-cı il* .......................................................................... *153*

MÜQƏDDƏS RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ
MÜSƏLMAN ÖLKƏLƏRİNİN RESPUBLİKAMIZDAKI
SƏFİRLƏRİ İLƏ GÖRÜŞ

*19 oktyabr 2006-cı il* .......................................................................... *154*

İTALİYA XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ,
AZƏRBAYCAN–İTALİYA İQTİSADİ ƏMƏKDAŞLIĞINA
DAİR MƏŞVƏRƏT FORUMUNUN HƏMSƏDRİ
FAMİANO KRUÇİANELLİNİN RƏHBƏRLİK ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*20 oktyabr 2006-cı il* .......................................................................... *158*

ŞEYXÜLİSLAM PAŞAZADƏNİN MÜQƏDDƏS RAMAZAN AYI MÜNASİBƏTİLƏ AÇDIĞI İFTAR SÜFRƏSİNDƏ NİTQ

*20 oktyabr 2006-cı il ........................................................................ 159*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ RESPUBLİKA NAZİRLƏR KABİNETİNİN 2006-cı İLİN DOQQUZ AYININ SOSİAL-İQTİSADİ YEKUNLARINA HƏSR OLUNMUŞ İCLASINDA NİTQ

*21 oktyabr 2006-cı il ........................................................................ 169*

YEKUN NİTQİ

*21 oktyabr 2006-cı il ........................................................................ 177*

RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*21 oktyabr 2006-cı il ........................................................................ 189*

LERİK RAYONUNA TƏBİİ QAZIN VERİLMƏSİ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ

*23 oktyabr 2006-cı il ........................................................................ 190*

MASALLI–YARDIMLI AVTOMOBİL YOLUNUN AÇILIŞ MƏRASİMİ

*23 oktyabr 2006-cı il ........................................................................ 199*

YARDIMLI RAYONUNA MAVİ YANACAĞIN VERİLMƏSİ MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ

*23 oktyabr 2006-cı il ........................................................................ 203*

MASALLI OLİMPİYA İDMAN KOMPLEKSİNİN TİKİNTİSİ İLƏ TANIŞLIQ

*23 oktyabr 2006-cı il ........................................................................ 211*

«*bp*–AZƏRBAYCAN» ŞİRKƏTİNİN RƏHBƏRİ DEVİD VUDVORD İLƏ GÖRÜŞ

*25 oktyabr 2006-cı il ........................................................................ 212*

DÜNYA SƏHİYYƏ TƏŞKİLATININ BAŞ DİREKTORU VƏZİFƏSİNƏ NAMİZƏD PROFESSOR TOMRİS TÜRMƏN İLƏ GÖRÜŞ

*25 oktyabr 2006-cı il* .......................................................................... *213*

XALQ RƏSSAMI FƏRHAD XƏLİLOVA

*25 oktyabr 2006-cı il* .......................................................................... *214*

ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKAYA

*25 oktyabr 2006-cı il* .......................................................................... *216*

AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*26 oktyabr 2006-cı il* .......................................................................... *217*

ABŞ-ın ALMAN MARŞALL FONDUNUN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*27 oktyabr 2006-cı il* .......................................................................... *219*

XARİCİ ÖLKƏLƏRİN KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN RUSİYADA AKKREDİTƏ OLUNMUŞ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*27 oktyabr 2006-cı il* .......................................................................... *220*

AŞ PA-nın MONİTORİNQ KOMİTƏSİNİN AZƏRBAYCAN ÜZRƏ HƏMMƏRUZƏÇİLƏRİ TONİ LLOYD VƏ ANDRES HERKEL İLƏ GÖRÜŞ

*30 oktyabr 2006-cı il* .......................................................................... *239*

İSPANİYANIN SƏHİYYƏ VƏ İSTEHLAK NAZİRİ ELENA SALQADONUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*30 oktyabr 2006-cı il* .......................................................................... *240*

GÜRCÜSTANIN MƏDƏNİYYƏT, ABİDƏLƏRİN QORUNMASI VƏ İDMAN NAZİRİ GEORGİ QABAŞVİLİ İLƏ GÖRÜŞ

*30 oktyabr 2006-cı il* ........................................................................ *241*

BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GEORGİ PIRVANOVA

*30 oktyabr 2006-cı il* ........................................................................ *242*

NİGERİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB OLUSEQUN OBASANCOYA

*30 oktyabr 2006-cı i* ........................................................................ *243*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN GƏNCƏ ŞƏHƏRİNƏ SƏFƏRİ

*31 oktyabr 2006-cı il* ........................................................................ *244*

AZƏRBAYCAN PESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV GƏNCƏ ŞƏHƏRİNDƏ

*31 oktyabr 2006-cı il* ........................................................................ *253*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN DAŞKƏSƏN RAYONUNA SƏFƏRİ

*31 oktyabr 2006-cı il* ........................................................................ *256*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN GƏDƏBƏY RAYONUNA SƏFƏRİ

*1 noyabr 2006-cı il*........................................................................ *273*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞƏMKİR RAYONUNA SƏFƏRİ

*1 noyabr 2006-cı il*........................................................................ *289*

TÜRKİYƏNİN TƏHSİL NAZİRİ HÜSEYN ÇELİK İLƏ GÖRÜŞ

*2 noyabr 2006-cı il*........................................................................ *306*

*bp* ŞİRKƏTİNİN VİTSE-PREZİDENTİ ENDRYU İNQLİS İLƏ GÖRÜŞ

*2 noyabr 2006-cı il* ........................................................................ *307*

XƏZƏRİN KARBOHİDROGEN EHTİYATLARININ İŞLƏNİLMƏSİ ÜZRƏ MƏSLƏHƏT ŞURASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*2 noyabr 2006-cı il*........................................................................ *308*

ANQOLA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB JOZE EDUARDU DUŞ SANTUŞA

*2 noyabr 2006-cı il*........................................................................ *309*

AZƏRBAYCAN RESPUBLİKASININ TELEVİZİYA VƏ RADİO İŞÇİLƏRİNƏ

*4 noyabr 2006-cı il*........................................................................ *310*

İORDANİYANIN BAŞ NAZİRİ MƏRUF ƏL-BƏXİTİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*6 noyabr 2006-cı il* ........................................................................ *313*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ

*6 noyabr 2006-cı il*........................................................................ *315*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*6 noyabr 2006-cı il*........................................................................ *316*

XANIM RƏHŞAN ECEVİTƏ

*6 noyabr 2006-cı il*........................................................................ *317*

LATVİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM VAYRA VİKE FREYBERQAYA

*6 noyabr 2006-cı il*........................................................................ *318*

OMANIN SULTANI ƏLAHƏZRƏT QABUS BİN SƏİDƏ

*6 noyabr 2006-cı il........................................................................... 319*

LİVAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB EMİL LAHHUDA

*6 noyabr 2006-cı il........................................................................... 320*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
BELÇİKAYA İŞGÜZAR SƏFƏRİ

*6 noyabr 2006-cı il........................................................................... 321*

AVROPA BİRLİYİ ŞURASININ BAŞ KATİBİ, XARİCİ İŞLƏR VƏ
TƏHLÜKƏSİZLİK SİYASƏTİ ÜZRƏ ALİ NÜMAYƏNDƏSİ
XAVYER SOLANA İLƏ GÖRÜŞ

*7 noyabr 2006-cı il........................................................................... 322*

MƏTBUAT NÜMAYƏNDƏLƏRİ ÜÇÜN KEÇİRİLMİŞ
BRİFİNQDƏ AVROPA İTTİFAQI ŞURASININ BAŞ KATİBİ
XAVYER SOLANANIN VƏ AZƏRBAYCAN
RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN
BƏYANATLARLA ÇIXIŞLARI VƏ JURNALİSTLƏRİN
SUALLARINA CAVAB

*7 noyabr 2006-cı il........................................................................... 324*

AVROPA KOMİSSİYASININ SƏDRİ JOZE MANUEL
BARROZU İLƏ GÖRÜŞ

*7 noyabr 2006-cı il........................................................................... 329*

AZƏRBAYCAN İLƏ AVROPA İTTİFAQI ARASINDA
ANLAŞMA MEMORANDUMU İMZALANMIŞDIR

*7 noyabr 2006-cı il...........................................................................331*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN VƏ AVROPA KOMİSSİYASININ
SƏDRİ JOZE MANUEL BARROZUNUN BİRGƏ
BRİFİNQİ

*7 noyabr 2006-cı il...........................................................................332*

*Q E Y D L Ə R* ........................................................................................ *340*

*Şəxsi adlar göstəricisi* ........................................................................ *388*

*Coğrafi adlar göstəricisi* ...................................................................... *393*

**Kitabı çapa hazırlayan** ***Tofiq Babayev***

**Texniki redaktor** ***Zoya Nəcəfova***
**Yığım üzrə operator** ***İlhamə Kərimova***
**Kompüter tərtibatı** ***Məhəbbət Orucov***

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84x108 1/32. Ofset kağızı 1. Şərti çap vərəqi 25,5. Uçot vərəqi 26,0 Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.
«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.